SAHİB ƏSƏDOV

# ATEİSTLƏRİN MƏŞHUR ŞÜBHƏLƏRİNƏ CAVABLAR ENSİKLOPEDİYASI

## III CİLD

İSLAMIN MÜDAFİƏSİ

# Zina edənə dörd şahid gətirilməsi nə üçün lazımdır?

**Şübhə:** Kişi zina edən həyat yoldaşını gözü ilə görsə belə yenə dörd şahid gətirməlidir ki, onun zina etdiyini isbat etsin? Əgər özü görübsə, dörd şahid yoxdursa, həyat yoldaşının zina etdiyini isbat edə bilməz? Yaxud necə isbat etməlidir? Dörd şahid tapması vacibdirmi? Ateistlər bu durumu İslama nisbət edirlər. İslamın bu haqda həqiqi mövqeyi necədir? Onların bu ittihamı doğrudurmu؟

**Cavab:** Bu məsələdə də öyrəşdiyimiz kimi ateistin dini bilməməsi, bütün mövzulara qərəzli yanaşmağı özünə peşə seçməsi aydın görünür.

Fikir versəniz qadının zina etdiyinin dörd şahidi (2) olmalıdır ki, bu isbat olunsun. Dörd şahid hər biri öz gözüylə zinaya şahid olmazsa, məsələn; üç nəfər şahid olarsa, bu mötəbər şahidlik sayılmır. Zinanın isbatıın yalnız dörd şahid yolu yoxdur. (Bu məsələ qarşıda izah olunacaq) Ateistlər bu şübhəni heç özləri də başa düşməyiblər .

Bu İslami qanunda qulların eyiblərini örtmək və iddia edən kəsə çətinləşdirmək var. Çünki, isbat olunan zinanın sonu zinakarın qətli, zinakarın yaxınları üçün isə əbədi utanc halı var. Üstəlik də bu hikmətlərdən biri də təmiz qadınlara zina iftirası atılmasını çətinləşdirməkdir. Çünki,

mömin qadına iftira atmaq istəyən şahid tapa bilmədiyi üçün pis duruma düşəcəkdir. Amma, həqiqətən baş vermiş zina halının isbatının başqa yolları da var .

Qadın özü zina etdiyini etiraf edərsə (2) və ya ərindən qeyrisindən hamilə qaldığı sübut olunarsa, (halbuki, müasir dövrdə bunu bilmək rahat bir şeydir) bu zaman dörd şahidə ehtiyac qalmır. Başqa bir yol isə zinakar kişinin zinasını etiraf etməsidir ki, bu da müəyyən şərtlərlə edildikdə yenə dörd şahidə ehtiyac qalmır. Qadının zina etdiyini deyən kimsə isə bunu sübut etmək üçün dörd şahid gətirməlidir .

Qadına təcavüz olunduğu zaman isə bunun əsli zina olsa da, həmin qadına qarşı quldurluq halı baş verdiyi üçün bu zaman təcavüzün isbatı üçün iki şahid də bəs edir və həmin cinayəti törədənə İslamda quldurluq edən şəxslərə verilən ağır cəza verilir. (Əl-Maidə 33). Əgər təcavüzü törədən şəxs qadının öz istəyi ilə zina etdiyini iddia edərsə, bu zaman təcavüzkarın dörd şahid gətirməsi tələb olunmalıdır.

Qadın özünə təcavüz edildiyini isbat etmək üçün məhkəməyə baş vurduğu zaman isə o bunu isbat edə bilməzsə, o məcbur edildiyini iddia etdiyi üçün qadının özünə də bir cəza düşmür. Bu ateistlərin uydurmasıdır və ya bu məsələni yanlış anlamalarıdır .

Lakin, qadın məhkəməyə müraciət etdikdə məsələnin ətraflı şəkildə araşdırılmasını tələb edə bilər. Qadına təcavüz edən əgər doğurdan bunu edibsə, təcavüzkarın etiraf etməsi də kifayət edir, mütləq iki şahidə ehtiyac qalmır. İki şahid məhz təcavüz halında (qeyri təcavüz halında, iki tərəfin razılığı halında isə dörd şahid gərəkir), təcavüzkarın günahını etiraf etmədiyi zaman tələb olunur .

Qaldı ki, zinanın isbatı üçün dörd şahid tələb olunmasına, bunun başqa faydalarından biri də odur ki, bəzən əksinə olur, bir qadın hansısa kişini şərləyib onunla zina etdiyini iddia edir. Əgər zina ittihamı asan bir şey olsa və asan yolla insanları şərləmək mümkün olsa, onda həbsxanalar iftira ilə həbs olunmuş məhkumlar ilə dolardı. İslam dini isə bütün bu ehtimalların qarşısını alaraq zina iftirasının asanlaşmasının qarşısını alır. Dediyimiz kimi zinaya məcbur edilən qadının haqqını tələb etmək üçün zinaya məcbur edənin etirafı da bəs edir. Ölkəmizdə kimisə cinayətini "etiraf etdirmək" çox asan bir şeydir. Əsas qadının doğru danışdığı məlum olsa, hansısa müsəlman ölkəsində çox vaxt zinaya məcbur edən insanı "etiraf etməyə" təşviq edirlər və o şəxs zina etdiyini danmır. Bunun yollarını cinayətlər üzrə ekspertlər, mütəxəssislər çox yaxşı bilirlər. Yəni, zinanın isbatı bu günkü gündə çox asan bir şeydir. Bunun yollarından biri də zina edən şəxsin spermasının nümunəsini və izini tibbi yolla tapmağın da çox asan olmasıdır.

Lakin, hər tapılan sperma nümunəsi dərhal dəlil hesab edilmir, müəyyən şərtlərlə bu da məqbul olur. Çünki, bu cür də şərləmə halı ola bilər. Qadın hamilə olduqda, şükür Allaha ki, qeyd olunan yolla da çox asan şəkildə xəyanəti müəyyən etmək olur .

Qədim zamanlarda zinanın isbatı üçün «qafiyə elmindən» (3) də istifadə olunurdu. Bu zaman mütəxəssis şəxs uşağın əl və ayaq uclarından və ya başqa bəzi orqanlarından müqayisəli şəkildə onun əsil atasını müəyyən edirdi. Bu üsulu da qeyd etdik ki, bu üsulun məhz müsəlmanlarda olan məşhur metodlardan olması bəzi insanlar üçün faydalı bir məlumat olsun .

• ***Zina iddiası halları müxtəlif cür ola bilər;*** Şəriətin zinanın isbatını çətinləşdirməsi bu müxtəlif halları da öz daxilində ehtiva edir. Bəzən insan hətta şəhvətinin qurbanı ola bilər. Yəni, məsələn; qadın və kişi bəzən zina etmək fikrinə düşər, bu səviyyəyə çatarlar, tək qalmaq vəziyyəti və zina etməyə münasib hər bir şərait olduğu halda birdən zina etmək fikrindən daşınıb tövbə etmək istəyə bilərlər. Ola bilsin ki, hər ikisi tövbə etsin və elə bu zamanda kimsə onları bir arada görsə, artıq şahidlik etməli olsa, bilmədən onlara böhtan atmış olacaq və onları etmədikləri bir əmələ görə şahidlik edərək onların ölümünə səbəb ola bilər. Halbuki, onlar həmin anda İslama görə tövbə etmiş

sayılırlar.

Zatən Uca Allah məsələni dörd şahidə əsasən ona görə qaytarıb ki, insanlar tövbə edə bilsinlər. Yəni, bu işin isbatı çətinləşdikdə insanlar tövbəyə yönəlsinlər.

Onsuz da İslam tarixində kiminsə zina şahidliyi üstündə tutulmasını təkidlə demək çox çətin bir məsələdir. Ancaq rəcm (daşqalaq) edilənlər bundan istisnadır. İslam tarixində özləri qaziyə gəlib günahlarını etiraf edənlər olmuşdur. Allah da ona görə dörd şahid məsələsini əmr edib ki, kimsə kimsəyə böhtan atmasın, həm də günah edənlərə tövbə fürsəti verilsin .

Özləri zina etməyi etiraf edənlərin cəzasına gəldikdə isə bu onlar üçün bu dünyada bir təmizlik hesab olunur .

Bəzi rəvayətlərdə isə peyğəmbər (Allahın Ona salavatı və salamı olsun) ona zina etirafı etməyə gələnlərin şiddətli zina cəza almaması üçün onları etirafdan yayındırmaq, *"bəlkə belə olub? Bəlkə belə olub? Bəlkə sadəcə toxunmusan, bəlkə sadəcə öpmüsən?"* buna bənzər sözlər deyərək üzürlər axtarması halı olsa da, insanlar özləri peyğəmbərin yardımını və cəzadan xilas olmağı seçmirdilər. Bu ona dəlildir ki, tövbə ediləsi yerdə, tövbə qapısı açıq, olduğu halda Allah insanları cəzalandırmaq istəmir. Peyğəmbər insanların cəzalanmaması üçün də

köməklik edirdi. Bu isə o deməkdir ki, İslamdakı cəzalardan məqsəd insanların islahıdır, insanların təmizlənməsidir. Elə olmasaydı, peyğəmbər cəza istəyən kimsəyə üzürlər axtarmazdı. Elə olmasaydı *"cəzaların şübhə vasitəsilə dəf edilməsi"* qaydası İslamda olmazdı. İslama görə bəzən kiçik bir şübhənin yaranması cəzanın tətbiq edilməməsinə, cəzanın tətbiqinin aradan götürülməsinə səbəb olur. Şübhəni gətirmək başqa, onun tətbiqi və cinayətlərin aradan qaldırılmasındakı fayda və nəticələr isə Qərb dövlətləri ilə müqayisə olunmaz dərəcədə yüksəkdir .

Öz həyat yoldaşının zina etdiyini iddia edən şəxsin bu hadisəni isbat etməsi üçün qoyulan şahidlik məsələsinin hikmətlərindən biri də odur ki, insan psixoloji olaraq bəzi savadsız şəxslərin emosiyalarına qapılıb həyat yoldaşını öldürməsi əvəzinə bunu qaziyə həvalə edir. Cəzanı isbat edə bilərsə və ya edə bilməzsə də qadını boşayır. Çünki, cəza isbat olunsa, qadını şəriət məhkəməsi ölümə məhkum edəcək, isbat olunmasa o özü qadını boşayacaq və bu utancdan qurtulmuş olacaqdır, yoxsa iki seçim qarşısında qalacaq: ya o qadını yerindəcə öldürməklə şəriətin məhkəməyə həvalə etdiyi cəzanı özü verib problemlə üzləşəcək, ya da şahid gətirib bunu isbat etməyə çalışacaq, bu zaman da şiddətli utanc yaşayacaq. Ya da o qadının qətlinə səbəb olmadan onu boşayacaq, onu tərk edəcəkdir. Xüsusən də İslam şəriətinə əməl edilməyən ölkələrdə öz

həyat yoldaşının bu hərəkətinə qarşı yerindəcə qətl ilə cavab verən şəxslər illərlə həbsxanada yatırlar.

Digər bir halda isə zinaya şahid olan şəxsin də bəzən üzləşdiyi müqavimət və ya özünün cinayətə məruz qalması halının da aradan qaldırılması bu İslami hökmə əməl etməklə hasil olur. Bəzi real hadisələrdə görülüb ki, bir kişi öz həyat yoldaşını onun "gizli sevgilisi" ilə bir yerdə tutsa da xəyanət edən qadın və onun tərəf müqabili əməllərini gizlətmək üçün qadının ərinə qarşı cinayət törədirlər. İslamın hökmünə tabe ilan şəxs istənilən halda bu çətin durumdan üzü ağ, zərərsiz çıxa bilir. Göründüyü kimi İslamın bu adil hökmü bu çətin sınaqla üz-üzə gələn şəxsi psixoloji olaraq cəzanı özü tətbiq edib qətl hadisəsi törətməsindən uzaqlaşdırır, onu psixoloji olaraq zinanın isbatı haqqında daha yaxşı düşünməyə, emosional qərar verməməyə vadar edir. Məhz bu zaman o keçirdiyi sarsıntının səbəbilə qətlə əl atmır, onu İslam ölkəsindədirsə şəriətin məhkəməsinə həvalə edir, İslam ölkəsində deyilsə də başqa hüquqi yollarla hadisəyə münasibətini ortaya qoyur. Bu hadisənin necə çətin bir sınaq olmasını İslam şəriəti hərtərəfli nəzərə alaraq bəşər övladının müxtəlif halları üçün ən uyğun hökmü vermişdir. Uca Allah Qurani-Kərimdə buyurur: *"Məgər o Öz yaratdığının halını bilmirmi?" (Mülk. 14).*

Əxlaqa nisbi baxan bəzi ateist, deist və başqa dindən kənar təbəqələr dörd şahid axtarmaqla mükəlləf olan şəxsə

istehza edir və qeyrətə dırnaqarası baxan bəzi insanların bu məqamda nədənsə "qeyrət damarı tutur".

***Birincisi:*** "Qeyrət anlayışı dindən gəlir və şəriət bu məqamda şəxsi cəzavermәni önə çəkmir. (Əgər belə olsaydı, dinsizlər bundan da yararlanmaq istəyəcəkdilər).

***İkincisi:*** Artıq kişinin qeyrətinə xələl gətirmiş bir qadınla yaşamayacağını bilən, dərk edən bir kişinin şahid gətirməsi və ya sübut üçün cəhd göstərməsi qeyri-adi bir hal deyil (3). Çünki, bu şəxsin üzləşdiyi heç kəsin xoşlamadığı xəyanət halıdır. Ona görə də öz hüququnun tapdalandığını, xəyanətə uğradığını isbat etmək istəyən kişinin, şahid və ya isbat vasitəsi axtarması gülüş obyektinə çevrilə bilməz. Çünki, müsəlman kişi o qadınla artıq bir yerdə yaşamayacaq. İslama görə zinakar qadınlar zinakar kişilər üçündür) (4.)

## Qeydlər və istinadlar:

(1) *Dörd şahid gətirmək haqda peyğəmbərin səhih hədisi var. Hədisin orjinalı belədir: "Əbu Hüreyrədən rəvayət olunur ki, Səd ibn Ubadə (Allah ondan razı olsun) dedi: "Ey Allahın Elçisi, əgər həyat yoldaşımı (başqa) bir kişi ilə tutsam, dörd şahid tapana kimi möhlət verimmi? Dedi: bəli. (Səhihi Müslim. 1498).*

*(2) Zina edənə verilən cəzaya gəldikdə isə İslama görə evli olanların cəzası ölüm, subay olanların cəzası isə şallaqdır. Çünki, evli olanların cinsi ehtiyacları ödəndiyi halda, onlar qeyri-qanuni yollarla cinsi tələbatlarını ödəməkdə həddi aşmış hesab olunurlar ki, bu daha şiddətli bir hal hesab edilir .*

*(3) Nəsəbin isbatında "qafiyə elmi": Buxarinin rəvayət etdiyi hədisdə qafiyə elmi vasitəsilə uşağın kimə oxşaması təyin olunmuşdur: Aişənin rəvayət etdiyi hədisdə peyğəmbər sevincək halda onun yanına gəlir və üzü parıldayıraraq buyurmuşdur: "Məgər eşitmədinmi əl-Mudləci Zeyd və Usamənin ayaqlarını gördüyü zaman onlar haqqında nə dedi? (Dedi ki) Bu ayaqlar bir-birindəndir (yəni qardaşdırlar və ya qohumdurlar)". (Səhih əl-Buxari. 6770) .*

*(4) Müasir dövrdə bu sübutu o telefonla çəkməklə və ya gizli kamera ilə də isbat edə bilər .*

*(5) zinakar kişilər zinakar qadınlar üçündür. Uca Allah buyurur: "Zinakar kişi ancaq zinakar və ya müşrik bir qadınla evlənə bilər. Zinakar qadın da yalnız zinakar və ya müşrik bir kişiyə ərə gedə bilər. Möminlərə isə bu, haram edilmişdir". (Nur. 3).*

# Təbiətdə "dini yazılar" haqqında şübhələrə cavab.

**Sual:** *Tez-tez bəzi dindarların hansısa meyvə, tərəvəz və yaxud hansısa bir təbiət canlısı, yaxud bulud üzərində "Allah" və ya "Muhəmməd", yaxud ərəbcə hansısa bir sözün yazılmasını möcüzə kimi qələmə vermələri, bunun Allahın varlığına dəlil kimi təqdim edilməsinin şahidi oluruq. Ateistlər isə buna müqabil bəzi təhqiramiz görüntülərin şəkillərini paylaşıb dindarlara cavab verirlər, yaxud kimsə bədənində ərəbcə yazılar əmələ gələn bir şəxsin videosunu paylaşır və s. Bütün bunlara münasibətimiz necə olmalıdır!? Ümumiyyətlə İslamın doğruluğunu göstərmək və yaxud isbat etmək üçün belə görüntülərdən istifadə etmək doğrudurmu? Bəziləri də Quran ayələrindən qəribə mənalar çıxarıb təfsir kitablarında olmayan "yeni və qəribə mənaları möcüzə kimi təqdim edirlər". Bütün bu hallara qarşı münasibətimiz necə olmalıdır?*

**Cavab:** bu şübhəyə cavabımız bir neçə aspektdən olacaqdır:

**Birincisi:** İlk öncə sualdan qəsd olunan möcüzə anlayışı ilə peyğəmbərlərə verilmiş möcüzə anlayışını fərqləndirək. *Möcüzənin tərifi belədir: "Möcüzə xariqul-*

*adət (adətdən kənar, qeyri-adi) hadisədir. Allah bunu peyğəmbərliyə seçdiyi şəxsin əliylə gerçəkləşdirir ki, bu hadisə onun peyğəmbərliyinin doğruluğuna və etibarlığına sübut olsun".* (1)(2). Deməli, peyğəmbərlərə verilmiş möcüzələr (ayətlər, nişanələr) ilə kainatda olan, hər kəsin gördüyü möcüzə mahiyyətində olan ayətlərin fərqi var. Birinci növ tərifi verilmiş *möcüzələr* Allahın iznilə yalnız peyğəmbərlərə verilir və müəyyən zaman kəsimində baş verir, buna yalnız müəyyən qism insanlar şahid ola bilirdi. Uca Allah buyurur: *"Heç bir elçi Allahın izni olmadan möcüzə gətirə bilməzdi".* (Rad. 38) İkinci növ möcüzələr isə dünya yaranandan Qiyamətə kimi mövcuddur. Bu möcüzələr Quranda "ayətlər" (dəlillər) adlanmışdır (3). Ən böyük ayətlərdən biri də elə insanın yaranmasıdır. Uca Allah buyurur: *"Qoy insan nədən yaradıldığına bir baxsın!"* (Tariq. 5). Həmçinin, yerin və göylərin yaradılışı, gecə və gündüzün ard-arda gəlişi, suda üzən gəmilərdə, göydən enən suda, küləklərdə, buludlarda və s. ayətlər var. Necə ki, ayədə uca Allah buyurur: *"Həqiqətən də, göylərin və yerin yaradılmasında, gecə ilə gündüzün bir-birilə əvəz olunmasında, insanlara fayda verən şeylərlə yüklənmiş halda dənizdə üzən gəmilərdə, Allahın göydən endirdiyi, onunla da ölmüş torpağı diriltdiyi suda, Onun növbənöv heyvanları yer üzünə yaymasında, küləklərin dəyişdirilməsində və göylə yer arasında ram edilmiş buludlarda, başa düşən insanlar üçün dəlillər vardır".* (əl-Bəqərə. 164). Həmçinin, günəş, ay, ulduzlar, digər

planetlər də bu ayətlərdəndir. Bu ayətlərə baxmaq, nəzər yetirmək isə iki cürdür: İbn Qeyyim (Allah ona rəhmət etsin) demişdir: *"Bu ayətlərə və bənzərlərinə baxmaq iki cürdür:*

***1 -** Bu ayətlərə zahiri baxışla baxmaq; Bu ayətlərin zahirinə baxıb səmanın mavi rəngdə olmasına, oradakı ulduzlara və səmanın yüksəkliyinə və genişliyinə baxmaq ki, bu baxışda insan başqa canlılarla müştərəkdir ki, burada qəsd olunan bu məna deyil.*

***2 -** Bu baxış daxili bəsirət baxışı olmağa keçsin ki, beləcə ona səmaların qapısı açılsın, onun qəlbi səmaları seyr etsin* (4). Fikir versək, əslində hər iki baxış ayətlərə, Allahın qüdrət dəlillərinə baxışdır, sadəcə mənəvi baxış zahiri baxışı üstələyir. Ona görə ki, mənəvi, bəsirət gözü, ilə olan baxış ilahi qüdrəti bizə göstərir, lakin, düşünmədən, anlamadan heyvanlar da dünyanın zahirinə baxırlar, lakin, bir şey anlamırlar. Deməli, kainatdakı bu növdən olan ilahi ayətləri, möcüzə və ya nişanələri bəsirət gözü ilə görmək üçün düşünmək lazımdır. Uca Allah buyurur: *"Allah Öz ayələrini sizə belə bəyan edir ki, bəlkə anlayasınız".* (əl-Bəqərə. 242). Deməli, ayətlərin və ya möcüzələrin iki növündən danışdıq:

***a)** Yalnız peyğəmbərlərə müəyyən zaman kəsimində verilən möcüzələr.*

***b)** Bəsirət gözü ilə görə biləcəyimiz yaradılışla bağlı olan möcüzələr.*

Qeyri-adi hadisələrə aid olan bir də kəramət (5) var ki, bu da Allahın peyğəmbər olmayan saleh, mömin qullarına verilən bir xüsusiyyətdir. Möcüzələrlə, ayət və nişanələrlə bağlı bu girişdən, izahdan sonra sualın cavabı daha yaxşı aydın olacaqdır. Bütün bu möcüzələrə, ayət və nişanələrə inanmaq hökm olaraq vacibir.

**İkincisi:** Sualda qeyd olunan təbiətdə meydana çıxan yazıların əksəriyyəti dəqiqləşdirilməyib və etibarlı deyil, əksəriyyətinin qaynağı  ya məclislərdə olan söhbətlərə, yaxud forumlarda, sosial şəbəkələrdə atılan şəkillərə, ya da mənbəsi, kökü bilinməyən xəbərlərə əsaslanır. Məgər müsəlman öz dininin və əqidəsinin doğruluğuna bu xəbərlərləmi dəlil gətirməlidir? Məgər fitrətdən və yəqinlikdən olan dəlillər azdırmı ki, müsəlmanın bu şaiyələrə ehtiyacı qalsın? Bu cür xəbərlərə olan doğru mövqe "təvəqquf" etməkdir, (yəni dayanmaqdır) nə təsdiqləmək, nə də inkar etmək gərəkir... Yalan olması ehtimalına görə təsdiqləməmək, doğru olması ehtimalına görə isə inkar etməmək... Bu mövqe iddianın yalan və ya doğru olmasına konkret açıq-aydın dəlil olmayana kimi müsəlmanın tutması gərəkən mövqedir (6).

Dinin haqq olmasını isbat etmək üçün ağıl sahiblərinə əqli-məntiqi dəlillər, dinin daxilindən qaynaqlanan hüccət, dəlil və arqumentlər də kifayətdir. Hansısa daşlar, meyvə,

tərəvəz, buludlar və ya heyvanlar üzərində yazılmış müxtəlif yerlərə yozula biləcək yazılar vasitəsilə dinin haqq olmasını isbat etməyə ehtiyac yoxdur. Şəkk yoxdur ki, Allah istədiyi təqdirdə bu cür vasitəsitələrlə kimlərəsə öz ayət və nişanələrini göstərə bilər və bu cür vasitələr müəyyən şəxslərin yəqinliyini artıra bilər. Lakin, bu cür vasitələrin İslami dəvət metoduna çevirməyin doğru olmamasını mütəxəssislər təkidlə qeyd edirlər. Şəxsən bu haqda sualı Mədinə alimlərindən şeyx Saleh Sindiyə (7) (hafizahullah) vermişdim, sualda bir şəxsin Allahdan yəqinliyinin artması üçün bir əlamət istəməsi, bunun üçün dua etməsi və duasının qəbul olması, həmin şəxsin rayonlardan birində bir ağac görməsi, bu ağaca üzü qiblə istiqamətinə baxıldığı zaman Allah sözünün dəqiqliklə yazılması qeyd olunmuşdu. Şeyx bunun həmin hadisəni yaşayan şəxs üçün Allahdan bir işarə, duasının qəbul olunması, yəqinliyinin artmasına vəsilə ola biləcəyini təsdiqləsə də, lakin, bu cür vasitələrin İslamın haqq olmasını geniş kütlələrə göstərmək üçün dəvət vasitəsi kimi istifadə olunmasının əleyhinə olduğunu bildirmişdi. Şeyxə bu haqda sualı 2017-ci ilin Ramazan ayında peyğəmbər məscidində vermişdim.

**Üçüncüsü:** Bu cür vasitələri İslami dəvət metodikasına çevirməyin fəsadları da ola bilər. Məsələn; bu fəsadlardan bəzilərini qeyd edək:

**1** – İslam alimləri İslamın haqq olmasını bu cür vasitələrlə deyil, elm, hikmət, bəsirət və vəhyə tabe olan əqli və şəri dəlillərlə etmişlər. Bunun əksini özü də dəqiq olmayan vasitələrlə etmək dinin əleyhinə arqument kimi istifadə oluna bilər.

**2** – Bu cür vasitələri birmənalı olaraq qəbul etməyən şəxslər təbiətdə əmələ gəlmiş eybəcər və ya qeyri-adi görüntüləri də din əleyhinə arqument kimi istifadə edə bilərlər. Məsələn, xristianlar təbiətdə əmələ gəlmiş xaç yazılı görüntüsü olan bir canlını və ya meyvə-tərəvəzi, yaxud buludu bizə arqument kimi təqdim edə bilər. Dinsizlər də eybəcər və ya təhqiramiz görüntüləri olan şəkilləri gətirib bu möcüzə kimi təqdolunan şəkillərə əks arqument kimi təqdim edə bilərlər və edirlər də.

**3** – Kimlərsə qəsdli şəkildə İslama dəvət məqsədilə bu cür yazıları bəzi nəsnələrin üzərinə yazmağa rəğbətlənə bilər, hadisənin üstü açıldıqda isə həm özünün, həm də İslamın əleyhinə fikirlərin yaranmasına səbəb ola bilər, necə ki, olur da.

**Dördüncüsü:** Bu cür video və ya şəkillər bir aralar Harun Yəhya və bənzəri şəxslər tərəfindən geniş təbliğ olunurdu. Sonradan bəzi "möcüzə" kimi təqdim olunan hallar əslində İslam əleyhinə hallar kimi də dinsizlər tərəfindən istifadə olundu. Ayda əzan verilməsi iddiası, yaxud hörümçəyin üstündəki həşərat məsələsinin Quran

ayəsindəki" فوق yuxarı" (əl-Bəqərə. 26) sözünün izahı olması və s. bir çox iddiaları edənlərin iddialarını sonradan özlərinə və müsəlmanlara qarşı istifadə etdilər. Hətta Harun Yəhya dilimizə tərcümə olunan kitablarından birində (Sarı üzlü "Təbiət möcüzələri" kitabı) sanki, yüz il əvvəl çəkilmiş solğun bir şəkildə meşədəki axar çayın bir tərəfində ağaclarda ərəbcə "lə iləhə illəllah" yazısı, çayın digər tərəfindəki ağaclarda isə "Muhəmmədən Rəsulullah" yazısının olduğu görüntünü təsvir edən bir şəkil yerləşdirmişdi. Guya həmin şəkilin Avropa meşələrindən birində çəkildiyi də orada qeyd olunmuşdu. Lakin, nədənsə, o şəkilin köhnəliyi, əllə çəkilmiş şəkilə bənzəməsi və bir çox şübhə doğuran məqamlar, üstəlik də Harun Yəhyadan başqasının o şəkili ortaya qoymaması da çoxlu suallar, müəmmalar yaradırdı. Həmin kitabda meyvə və tərəvəzlər üzərində də bəzi yazılar oxuculara "möcüzə" kimi təqdim olunurdu. Elə tərəvəzlərin üzərində "Allah" yazısının olduğunu iddia edib dinsizlərə möcüzə kimi təqdim edən kəslər bu cür kitabların nəşrindən sonra çoxalmışdı.

Yeni "möcüzələr" axtarışında olan bəziləri Quran ayələrindən Allahın muradı, qəsdi olmayan, mötəbər Quran təfsirçilərinin, İslam alimlərinin izah və şərhlərinə müxalif fikirləri ortaya atmaqdan çəkinmirdilər, sonra isə bu "yeni möcüzə" iddiaları bəzi din düşmənləri tərəfindən asanlıqla inkar edilir və İslam əleyhinə çıxarılmış yersiz arqumentlərin guya din alimləri tərəfindən ortaya atıldığı

iddia olunurdu.

Belə halların qarşısının alınması üçün müsəlmanlar daha da diqqətli olmalı, kimlərinsə "şöhrət, məşhurluq" arzularına çatması müqabilində dinin etibarının qurban edilməsinə göz yumulmalı deyil.

## Qeydlər və istinadlar:

(1) Movsuatul-Aqidəti val-Ədyəni val-Firaqi val-Məzəhib əl-Muasira. Müəllif: Dünyanın müxtəlif universitetlərindən olan qrup İslam alimləri və araşdırmaçılar. (5/2741).
(2) əl-İrşad ilə Sahihil-İtiqad. Şeyx Saleh əl-Fövzan. (2/157).

(3) Şeyxulislam İbn Teymiyyə Quran və hədislərdə möcüzələrin "ayət", "beyyinət" və "burhan" ləfzlərilə ifadə olunması haqda ətraflı şəkildə "əl-Cavab əs-Sahih" kitabında bəhs etmişdir. Möcüzələrin isə bütün bu adlar üçün ümumi sifət (vəsf) olduğu qeyd olunmuşdur. (Bax: əl-Cavab əs-Sahih. 5/419; Həmçinin bax: "Məcmuul-Fətəva". 11/313; əl-Furqan beynə Əvliyəir-Rahmən və Əvliyəiş-Şeytan. 11/275; əl-Bidəyə vən-Nihəyə. İbn Kəsir. 6/169, 266, 289).
(4) Miftəhu Dəris-Səadəti. İbn Qeyyim. səh. (276-277). Dəru İbn Həzm. 2003. Birinci nəşr .

(5) Kəramət: "Kəramətlərə gəldikdə isə, bu "kəramət"

sözünün cəmidir. Kəramət fövqəladə (qeyri-adi) hadisədir. Allah bunu vəlinin (özünə yaxın bir bəndəsinin) əliylə edir; bu, ya ona (mənəvi) dəstək, və ya yardım, və ya sabitləşdirmə və ya dinə yardım olaraq baş verir. (Şərhul-Aqidə əl-Vasitiyyə. İbn Useymin. Səh. 490. "İbnul-Cövzi" nəşriyyatı. 1434 hicri).

(6) Ərəbcə məqalə "ما ينتشر اليوم عن " معجزات الطبيعة" :adlı elektron məqalə الاسلام سؤال وجواب .islamqa.info saytı .

(7) Mədinə Beynəlxalq İslam universitetində əqidə müəllimi, əqidə elmi üzrə mütəxəssis, peyğəmbər məscidində müəllim, İslam alimi.

## Peyğəmbərin ﷺ çoxevliliyi haqda şübhəyə ümumi cavab

Əvvəlcə bilmək lazımdır ki, bu mövzuda bilinməsi lazım olan iki məsələ vardır:

**Birinci məsələ:** Peyğəmbər ﷺ yalnız yaşlı vaxtında, yəni, əlli yaşını keçdikdən sonra növbətli dəfə evlənmişdir.

**İkinci məsələ:** Aişədən (Allah ondan razı olsun) başqa Onun bütün zövcələri dul qadınlar olmuşdular. Əgər bu evliliyin başqa məqsədi olsaydı, o daha çox bakirə qızlarla evlənə bilərdi.

Bu iki məsələni anlamaqla bu şübhənin nə qədər yersiz və əhəmiyyətsiz olduğunu, o cümlədən də bu iddianın nə qədər batil olduğunu anlamaq mümkündür.

Əgər Peyğəmbərin ﷺ çoxarvadlılığından məqsəd mücərrəd olaraq şəhvət və ya öz nəfsinin hava və istəklərinə tabe olmaq və ya qadınlarla əylənmək məqsədi olmuşdursa, o bunu ömrünün qoca vaxtına saxlamaz, elə gənc vaxtından bakirə qızlarla evlənər və dul, yaşlı qadınlarla evlənməzdi.

O ﷺ, bakirə qadınlarla evlənməyin dul qadınla evlənməkdən üstün olduğunu yaxşı bilirdi. Elə bu qeyd edəcəyimiz hədisdə də buna işarə etmişdir. Lakin, onun

yalnız bir bakirə zövcəsi olmuşdur.
Hədis belədir; Cabir İbn Abdullah Peyğəmbərin ﷺ yanına gəldiyi zaman onun üzündə sevinc və xoş əlamət görüb dedi: Evlənmisənmi? Dedi: Bəli. Dedi: Bakirə, yoxsa, dul qadınla? Dedi: Dul qadınla… "Dedi: Bakirə qadınla evlənə bilməzdimi ki, o səninlə oynasın, sən də onunla oynayasan? O səni güldürsün, sən də onu güldürəsən!?" (1).

Deməli, peyğəmbər ﷺ bakirə qadınlarla evlənmək barədə səhabəyə tövsiyə edirdisə, onda o özü də bunu edə bilərdi. Lakin, onun bunu çoxevlilikdə tətbiq etməməsi ona dəlalət edir ki, o şəhvani hislər üçün çoxarvadlılığa üz tutmamışdı. Şəkk yoxdur ki, səhabələr peyğəmbərin yolunda canlarını fəda etməyə hazır idilər. Belə olduğu halda Məhəmməd peyğəmbər ﷺ ən gənc, gözəl və bakirə qızlarla evlənmək istəsəydi, səhabələr onu evləndirməkdən geri qalmazdılar.

*Çoxarvadlılığın bir çox hikmətləri vardır; bu hikmətlərdən:*

**Birincisi:** *Təlim hikməti:* Qadınlara aid dini məsələlərin xırdalıqlarını digər qadınlara deməyə utanan peyğəmbərin ﷺ öz həyat yoldaşlarına bu məsələləri ətraflı, təfsilatlı şəkildə izah etməsiylə ümmətin qadınlarına dinin bu məsələlərinin ətraflı şəkildə öyrədilməsi ki, bu qadınların dini təlimi məqsədidir.

**İkincisi:** *İctimai hikmət:* Dul qalmış qadınlara qayğı və himayə, şəfqət və rəhmət göstərilməsi. Onların cəmiyyətdə zəif, köməksiz və ehtiyaclı qalmasının qarşısının alınması.

**Üçüncüsü:** *İlahi qanunqoyma hikməti:* Bəzi cahiliyyə adətlərinin aradan qaldırılması; Məsələn; Peyğəmbərin ﷺ Zeynəblə evliliyi və əslən öz oğlu olmayan Zeydin oğulluqdan çıxarılması hadisəsi ki, bu zaman insanın öz atasından başqasına nisbət edilməsinin qadağan edilməsi hökmü ilahi qanun olaraq möminlərə əmr edildi.

**Dördüncüsü:** *İdarəçilik hikməti:* Qəbilə bağlarının möhkəmlənməsi, qəlblərin birləşdirilməsi və qəbilə düşmənçiliyin aradan götürülməsi.

**Beşincisi:** *Sünnənin (hədislərin) qorunması hikməti:* Məlum olduğu kimi peyğəmbərin ﷺ həyatı və məişəti ilə əlaqəli bir çox hədislər məhz onun gündəlik həyatını müşahidə edən həyat yoldaşları tərəfindən İslam aləminə nəql edilmişdir. Əgər bu mübarək evliliklər olmasaydı, bu gün bir çox şəri əhkamlar bizə nəql olunmaz, bir çox fiqhi məsələlərdən və şəriətin təfsilatlarından qafil qalardıq. Lakin, ilahi bir hikmətlə sonuncu din ən mükəmməl şəkildə qorunmuş və bizlərə ötürülmüşdür. Dinin ustadının həyat yoldaşları minlərlə hədisləri ümmətə nəql etmişlər ki, bu da, ümmətə böyük bir xidmət olmuşdur.

Peyğəmbərin ﷺ zövcələri ilə evliliyi haqqında batil əhli müxtəlif şübhələr gətirməyə çalışmışlar, bu şübhələri çoxaltmağa cəhd edənlərin əsas hədəfi müsəlmanların zehnində onun ali şəxsiyyətinə xələl gətirərək onları asan yolla şəkkə salmaq olmuşdur. Allaha həmd olsun ki, imanın ləzzətini dadmış, peyğəmbərliyin, risalətin hədəflərini dərk edən heç bir müsəlman belə cılız şübhələrə aldanmamışdır və aldanmayacaqdır da!... (2).

## Qeydlər və istinadlar:

*(1) Səhih əl-Buxari, 1991; Səhihi Müslim, 715.*
*(2) Peyğəmbərin evləndiyi həyat yoldaşlarının hər biri haqqında şübhələrə (12 şübhəyə) bu məqaləmizdə ətraflı cavab tapa bilərsiniz: https://sunna.az/content?cid=645*

# Günəşin palçıqlı suda batması şübhəsi

**Sual:** *Ateistlər, deistlər və digərləri Qurani-Kərimdə "elmi xəta" olduğunu iddia edir, guya "əgər Allahın kəlamı olsaydı Quranda belə xəta olmazdı" deyir və buna dair bəzi şübhələr atmağa çalışırlar. Onlardan biri də bu ayə haqqındadır: "Nəhayət, (Zülqərneyn) günəşin qürub etdiyi yerə gəlib çatdıqda onu palçıqlı bir su hövzəsində batan gördü". Şübhənin əsası belədir: Günəş necə palçıqlı bulaq olan yerdə bata bilər axı? Biz müasir elm vasitəsilə günəşin yerdən böyük olduğunu və günəşin yerdən çox uzaq olduğunu bilirik. Bu necə baş verə bilər axı؟*

**Cavab:** Bu şübhəyə üç aspektdən cavab verəcəyik:

**Birincisi:** Uca Allah bu ayədə günəşin "palçıqlı bir su hövzəsində" həqiqi mənada batdığını xəbər vermir, o yalnız Zülqərneynin günəşin batmasını necə görməsini vəsf edərək "batan gördü" ifadəsini işlətmişdir. Yəni, onun görüşü və baxışı nahiyəsindən. Necə ki, biz də belə deyirik: "Ay dağın arxasından çıxdı", əslində olan isə ayın yer üzündən xaricdə və yerdən uzaq olmasıdır. Bu zaman ay bizim nəzərimizə, baxışımıza görə dağın arxasından çıxır və ya batır. Əgər ərəblər öz dillərində bu cür misalları həqiqi mənada başa düşsəydilər bu onda bu cür ifadələrin işlənməsini inkar edərdilər. Lakin, bu günə kimi ərəb dilində belə ifadələr işlənir və bunu kimsə hansı mənada

işləndiyini inkar etmir .

İkincisi: Hələ süni peyklərin və müasir yaxınlaşdırıcı cihazların kəşfindən öncə Qurani-Kərimin qədim təfsir alimlərinin bu ayə haqqında sözləri də ayədə həqiqi mənadan deyil baxan şəxsin (Zülqərneynin) gözünə görünən mənzərənin vəsf edildiyi ifadə edilmişdir. Bu alimlərdən hicri tarixin 774-cü ilində vəfat etmiş İbn Kəsirin bu ayəni təfsir etməsini qeyd etmək olar. O deyir: "onu palçıqlı bir su hövzəsində batan gördü", yəni, günəşi əhatələnmiş bir dənizdə batan görünüşdə gördü. Bu, (dənizin) sahilinə gəldikdə hər kəsin gördüyü bir mənzərədir, sanki günəşin dənizdə batdığını görür. Baxmayaraq ki, günəş öz olduğu yerdə (dördüncü səmada) sabitdir və orada ən ayrılmır .(1)

Qurtubi də öz təfsirində bəzi alimlərdən bunu rəvayət etmişdir: "Qaffəl demişdir: bəzi alimlər demişlər: Bu o demək deyildir ki, o (Zülqərneyn) günbatan və günçıxan tərəfdə günəşin cisminə çatmış və ya toxunmuşdur. Çünki, o yerə toxunmadan yer ətrafında səma ilə bərabər dövr edir. Əksinə günəş yerdən dəfələrcə böyükdür. Əksinə, burada qəsd olunan məna odur ki, o (Zülqərneyn) günbatan və günçıxan istiqamətində ən son yaşayış yerinə gəlib çatır və orada günəşin palçıqlı su hövzəsində batdığını görür, necə ki, biz düz yerdə günəşi (batarkən seyr etdikdə) sanki onun

yerə girdiyini müşahidə edirik (2).

Beydavi də bu ayənin təfsirində demişdir: "Ola bilsin ki, o bir dənizin sahilinə gəlmişdir və günəşi o cür görmüşdür, gözünün hədəfində sudan başqa bir şey olmamışdır. Ona görə də ayədə: "batan gördü" deyilir, "batırdı" deyilmir .(3)

Cəlaleyn təfsirində də deyilir: "(Ayədə) günəşin su hövzəsində batması (Zülqərneynin) gözlə gördüyünə görədir, yoxsa, günəş yerdən daha böyükdür .(4) "

Beləcə bu iddianın batil bir iddia olması İslam alimlərinin izahı ilə də aydın olur .

**Üçüncüsü:** Ayədə keçən حَتَّىٰ إِذَا بَلَغَ مَغْرِبَ الشَّمْسِ "Günəşin batdığı yerə gəlib çatdıqda" hissəsi burada zaman zərfi kimi işlənib? Yoxsa məkan zərfi kimi işlənib? Bu da lüğəvi cəhətdən bu şübhəni gətirənlərə artıqlaması ilə verilən ətraflı izah və cavabdır. Burada şəkk yoxdur ki, zaman zərfi kimi mənada işlənməsi qəsd olunur, məkan olaraq desək ki, günəş "filan yerdə" çıxır, "filan yerdə" batır, bu elmi cəhətdən də doğru deyil. Çünki, həqiqətdə dünyanın hər yerində günəş çıxır və batır. Deməli, bu ayədə günəşin batdığı zaman Zülqərneynin gözünə görünən mənzərə vəsf edilmişdir. Eləcə də hekayənin digər hissələri bizə mövzunu daha yaxşı başa düşməyə kömək edir, həmin

ayədə "günəşin batması" zamanı vəsf edilirsə, beş ayə sonrakı ayədə isə "günəşin çıxması" zamanı belə vəsf edilir: "Nəhayət, günəşin doğduğu yerə çatdıqda onu elə bir qövm üzərində doğan gördü ki, onlar üçün günəşə qarşı heç bir örtük yaratmamışdıq". (əl-Kəhf. 90). Burada da eyni üslubla günəşin çıxması zamanı Zülqərneynin baxışı açısından vəsf edilir. Ona görə də burada مَغْرِبَ الشَّمْسِ sözündən məqsədin: günəşin batdığı vaxt və an - olmasını demək icazəlidir. Necə ki, hədisdə : "Sizin əcəliniz sizdən öncə gəlib getmiş ümmətlərin əcəlinə nisbətdə ikindi namazından günbatan namazına kimidir..." (5). Bu hədisin ardı var və hədisdə müsəlmanların az zamanda daha çox savab əməl işləməsi xristian və yəhudilərlə müqayisə olunur. O zaman məna belə olur: "Zülqərneyn palçıqlı su hövzəsinə günəşin batdığı zamanda gəldi. Ona elə göründü ki, günəş həmin palçıqlı su hövzəsində batır".

## Qeydlər və istinadlar:


*(1) Təfsirul-Quranil-Azim. İbn Kəsir. 5/511 .*

*(2) əl-Cəmiu li-Əhkəmil-Quran. əl-Qurtubi. 13/370.*

*(3) Ənvarut-Tənzil və Əsrarut-Təvil. Beydavi. 3/291.*

*(4) Təfsirul-Cəlaleyn. 1/303.*

*(5) Səhihul-Cami. Albani. 2315.*

# Bəni Qureyza hadisəsinə münasibət

**Sual:** *Düzdürmü ki, peyğəmbər Bəni Qureyza qəbiləsindən olan bir qism yəhudiləri öldürmüş, hətta uşaqları belə öldürmüşdür? Bu hadisə naş veribmi? Əslində necə olub? Əgər olubsa burada şiddət və vəhşiliyi ifadə edən hal varmı؟*

**Cavab:** Digər şübhələr kimi bu şübhəni də bir neçə aspektdən təhlil edib həqiqəti ortaya qoyacağıq.

**Birincisi:** İlk öncə Bəni Qureyza qəbiləsində öldürülənlərin nə üçün öldürülməsi səbəbini ortaya çıxarmalıyıq. Bu da onların ən çətin şərtlər və vəziyyətlərdən birində müsəlmanlara çirkin bir xəyanət etmələri idi. Bu minlərlə nəfərlik müşrik ordunun Mədinəni mühasirəyə aldıqları vaxt baş vermişdi. Onlarla peyğəmbər

arasında əhd (müqavilə, sözləşmə) var idi. Onlar bu şiddətli çətin bir durumda müsəlmanlarla olan əhdə xəyanət etdilər, bu sözləşməni pozdular, necə ki, Quran ayəsi bu hadisəni daha dəqiqliklə ifadə edir: "O zaman onlar sizin həm yuxarı, həm də aşağı tərəfinizdən üstünüzə gəlmişdilər. O vaxt qorxudan gözlər bərəlmiş, ürəklər xirtdəyə çatmış və siz də Allah barəsində zənnə qapılmışdınız. Orada möminlər imtahana çəkilmiş və güclü sarsıntıya məruz qalmışdılar". (Əhzab. 10-11). Onlar Mədinədə müsəlman qadınlara və uşaqlara əziyyət verməyə başlamışdılar. Üstəlik də bu onların birinci xəyanəti deyildi, bu onların döyüşlə bağlı ikinci xəyanəti idi. Birinci xəyanəti Bəni Nadir ilə döyüşdə etmişdilər. İkinci xəyanət isə daha həssas vaxtda, daha böyük qüvvələrin (Əhzab döyüşü zamanı) müsəlmanların üzərinə gəldiyi vaxtda baş vermişdir. Bəni Qureyza yəhudilərinin müsəlmanlara xəyanət etmələri bir çox əhli sünnə kitablarında qeyd edilib (1).

**İkincisi:** Peyğəmbər Bəni Qureyzadan olan uşaqları öldürmədi. Çünki o uşaq və qadınları öldürməyi qadağan etmişdi. Orada yalnız vuruşan kişilər öldürülmüşdü. Necə ki, Buxari və Müslimdə də: "Onlardan vuruşan kişilərin öldürülməsi, qadın və uşaqların əsir götürülməsi, mallarının ələ keçirilməsi". (2) hökmü verilmişdi. Bu da Səid ibn Muazın (radiyallahu anhu) onlara verdiyi hökm idi. Allah elçisi Bəni Qureyza haqqında hökm verməyi ona həvalə etmişdi, onun hökmünün isə Allahın hökmünə

uyğun olduğunu bildirmişdi (3). Həmin şəxslərdən üçü İslamı qəbul edərək kişilər haqda olan hökmdən xilas olurlar (4). Qadınlardan isə heç kim öldürülməmişdi, yalnız bir qadından başqa, o da səhabələrdən birini qəsdən öldürən cinayətkar qadın idi ki, etdiyi cinayətin əvəzi olaraq öldürülmüşdü. O qadının öldürdüyü səhabənin adı Xalləd ibn Suveyd idi (5). Yetkinlik yaşına çatmayan oğlanların hamısı sərbəst buraxıldı (6).

**Üçüncüsü:** Onların əhdi (sözləşməni) pozmaları kütləvi şəkildə baş vermişdi. Bəziləri birbaşa, bəziləri də buna razılıq vermişdilər. Ona görə də cəza kütləvi idi(7).
Sonda bu mövzu ilə əlaqədar dr. Əkrəm Diya əl-Umarinin Peyğəmbərin həyat tarixini hədis elminə söykənərək yazdığı məşhur kitabında dediyi tədqiqatın nəticəsində bildirdiyi fikirlərlə bitirmək istəyirəm. O deyir: "Bəzi müasir tarixçilər Bəni Qureyza qəbiləsinin üzləşdiyi cəzalarla bağlı rəvayətləri inkar etməyə və zəifləşdirməyə meyl etmişlər. O baxımdan ki, guya bu hadisəni təsdiqləmək insani hislərə toxunur və sionistlərin maraqlarına xidmət edir. Halbuki, məsələ belə deyil. Çünki, İslamın ən mötəbər mənbələri bu hadisənin baş verməsini təsdiqləyir. Şiddətli cəza yalnız böyük xəyanətə cəza olaraq verilmişdir. Halbuki, onlar müsəlmanlarla ikitərəfli ittifaq bağlamışdılar ki, müsəlmanlarla birgə Mədinəni müdafiə edəcəklər, lakin, onlar müsəlmanları dar məqamda yardımsız qoyub arxa çevirmiş və bu ittifaqdan üz

döndərmişdilər. İndiki dövrdə belə müasir dövlətlər düşmənlərlə əlbir olub müttəfiqinə qarşı xəyanət edənlərə qarşı qətl hökmünü verirlər. Bəni Qureyza qəbiləsinin cəzası da öz əməlinin növünə görə bir qarşılıq idi.

Çünki, bu xəyanətlə onlar da müsəlmanları qətl edilmək, mallarının düşmən tərəfindən yağmalanması, əsir götürülmək, müsəlmanların qadın və uşaqlarının düşmənin əlinə keçməsi ilə üz-üzə qoymuşdular. Bu əməlin cəzası da eyni növ cəza olmalı idi. Ona görə də tarixi həqiqətləri yalanlamağa və mötəbər rəvayətləri inkar etməyə bir gərək yoxdur (8)".

## Qeydlər və istinadlar:

*(1) Bunlardan Səhih əl-Buxari "Məğazi" kitabında (3804), Səhih Müslimdə (1766), İbn İshaq öz "Tarix"ində, Sünən Əbu Davudun "əl-Xərac vəl-İmərа vəl-Fey" kitabında (3004) və s. varid olmuşdur.*

*(2) Səhih əl-Buxari. (638) (3804) ; Səhihi Müslim. (3/1388), 1768.*

*(3) Səhih əl-Buxari. (2/120) və (3/24-25); Səhihi Müslim . (161-160/5)*

*(4) Siratun-Nəbəviyyə əs-Sahiha. Əkrəm Diya əl-Umari. (1/316). Rəvayətin əsli Buxari və Müslimdədir .*

*(5) Siratu ibn Hişam. 3/722; Müsnəd, imam Əhməd. (6/277); Sünən, Əbu Davud. 2/250. İsnadı: Həsən li-zətihi .*

*(6) Siratu ibn Hişam. (3/724); Tabaqatul-Kubra. İbn Səd .*

*.(77-76/2)*

*(7) Səbiğat. Əhməd Seyyid. səh.(163-161) .*

*(8) Siratun-Nəbəviyyə əs-Sahiha. Dr. Əkrəm Diya əl-Umari. (1/317).*

## İsra və merac möcüzəsi başqa dinlərdən götürülüb?.

**Sual:** *Bəzi xristianlar və həmçinin ateistlər iddia edirlər ki, "isra və merac" möcüzəsi digər qədim dinlərdən götürülmüş hekayələrdəndir. Xüsusən də onlar bu hekayənin farslardan və ya Zərdüşt dinindən götürüldüyünü iddia edirlər. Guya Peyğəmbər, Salman əl-Farisidən Zərdüşt dinində olan bu hekayəni öyrənmişdir. Zərdüşt dininə görə guya Zərdüşt adlı peyğəmbər də Muhəmməd peyğəmbərin səfər etdiyi kimi qanadlı bir atın üstündə göy üzünə səfər edib. Sual verən deyir ki, biz niyə*

*Muhəmməd peyğəmbərin göy üzünə səfər etdiyinə inanmalıyıq, amma, bu biri peyğəmbərin göy üzünə səfər etdiyinə inanmalı deyilik?! Bu şübhəyə necə cavab vermək olar?*

**Cavab:** Bu şübhə qədim şübhələrdəndir. Təkcə bu məsələ yox, İslamda olan bir çox mövzuların qədimlərin əfsanələri olduğunu iddia edən müşriklər və onların yolunu gedən dinsizlər, İslam əleyhinə çalışan xristianlar belə bu şübhəni gətirirlər. İlk öncə bilmək lazımdır ki, Peyğəmbər oxumaq və yazmağı bilməyib ki, bunu kimdənsə köçürtsün. Necə ki, uca Allah buyurur: *"Sən bundan əvvəl nə bir kitab oxuya bilir, nə də onu sağ əlinlə yaza bilirdin. Belə olsaydı, batilə uyanlar şübhəyə düşərdilər".* (Ənkəbut. 48). Əgər Peyğəmbər oxumağı və yazmağı bilsəydi, bunu ilk öncə kitab əhli anlayardılar, hansı ki, onların kitabında bu peyğəmbərin vəsfi vardır(1). Qureyş müşrikləri də bəzən haqqı inkar etmək üçün vəhyin əvvəlkilərin nağılları olmasını deməklə kifayətlənir, bəzən də vəhyin əcəmilərdən götürüldüyünü deyirdilər. Bütün bu iddialara cavab olaraq uca Allah Qurani-Kərimdə buyurmuşdur: *"Onlar: "Bu, keçmişdəkilərin nağıllarıdır. O bunları başqasına yazdırmışdır. Bunlar səhər-axşam onun özünə oxunur"– dedilər. De: "Onu göylərdə və yerdə olan sirləri bilən Allah nazil etmişdir. Həqiqətən, O, Bağışlayandır, Rəhmlidir!".* (Furqan. 5-6). Həmçinin uca Allah buyurur: *"De: "Müqəddəs Ruh Cəbrail onu sənin Rəbbindən iman*

*gətirənləri sabitqədəm etmək üçün, həm də müsəlmanlara doğru yol göstəricisi və müjdə olsun deyə gerçək olaraq nazil etmişdir”".* (Nəhl. 102). Dahhək və başqalarının qeyd etdikləri kimi bu Quran ayətləri Quranın Salman əl-Farisinin (2) yazdırması olması iddiasına cavabdır .

***Bəzi oxşarlıqlar iddiasına isə bir neçə aspektdən cavab vermək olar:***

**Birincisi:** Başqa dinlərə nisbət etdikləri "İsra və merac" hadisəsi Quran və sünnənin söykəndiyi məsdər deyil. Əksinə, Peyğəmbər başqa dinlərdən bəzilərinin ayinlərindən danışmış və onlara müxalif olmağı əmr etmişdir. Hədisdə: **"Məcusilərə müxalif olun"** (3), həmçinin: **"Müşriklərə müxalif olun"** (4) deyilmişdir. Onların ibadət vaxtlarından günbatan (kərahət) vaxtı ibadət etmək də qadağan edilmişdir (5). Ümumiyyətlə, İslama görə onların qadınları ilə evlənmək, kəsdikləri ətləri yemək və bir çox əhkamlarda onlara müxalif olmaq əmr olunmuşdur. Belə olduğu halda İslamın müxalif olunmasını əmr etdiyi bir dindən öz daxilinə bir şeyi götürməsi doğru deyildir .

**İkincisi:** "Bənzərlik iddiası" edilən bu şeylər nə götürmə, nə də oğurluq deyil, dinlər arasında ittifaq olmuş məsələlərdəndir. Bu dinlər peyğəmbərlərin gətirdiyi səmavi dinlərdir, lakin, o dinlərin sahibləri öz dinlərini təhrif

edərək dəyişikliyə yol vermişlər, müsəlmanlar iddia etməyiblər ki, isra hadisəsi (6) yalnız Muhəmməd peyğəmbərə aiddir və İslamdan əvvəl baş verməmişdir. Nə də biz müsəlmanlar iddia etməmişik ki, Qurandakı ilahi qanunların kitab əhlinin dinində heç bir bənzər qanunları olmamışdır. Əksinə, dəlil tapıblar ki, bu İslam dini Allah tərəfindəndir və bu din başqa səmavi dinlərin təhrif edib dəyişdirdiklərini düzəltmək üçün düzəltmək üçün gəlmişdir. Uca Allah buyurur: *"Biz sənə, özündən əvvəlki kitabı təsdiqləyən və onu qoruyan Kitabı haqq olaraq nazil etdik. Sən onların arasında, Allahın nazil etdiyi ilə hökm ver. Sənə gələn haqqı buraxıb onların istəklərinə uyma. Ey ümmətlər, hər biriniz üçün bir şəriət və bir yol təyin etdik. Allah istəsəydi, sizi tək bir ümmət edərdi. Fəqət bu fərqli şəriətlər və yollar, sizə verdikləri ilə sizi imtahan etməsi üçündür. Elə isə yaxşı işlər görməkdə bir-birinizlə yarışın. Hamınızın dönüşü Allahadır. O, ixtilaf etdiyiniz şeylər barəsində sizə xəbər verəcəkdir".* (əl-Maidə. 48).

**Üçüncüsü:** Salman əl-Farisidən bu məlumatların alındığı, onun guya farslardan bu Zərdüşt (7) hekayələrini öyrənib Peyğəmbərə nəql etdiyi iddia olunursa, onda Salman əl-Farisi peyğəmbərin İsra və Merac hekayəsindəki bütün təfsilatları da bilməli idi, üstəlik onun bu hekayədən təsirlənməsini nə peyğəmbərin həyatında, nə də həyatından sonra görmək mümkün deyil. Həmçinin, bunu iddia edənlər isbat etməlidirlər ki, doğurdan da Salman əl-Farisi

bu təfsilatlarla bərabər bu hekayəni peyğəmbərə rəvayət edərək ötürmüşdür. Bu isə mümkün deyil. Lakin, tarixi hekayə bütünlüklə onu göstərir ki, Salman haqqı axtaran bir şəxs idi. Başqa dinlərdə də olmuşdu, sonra Allah onu hidayət edərək İslama yönəltmişdi. İslamla xüsusi maraqlanıb bu dinin haqq olduğunu öyrənmiş və qəbul etmişdi; Bunun səbəbi isə yəhudi və xristian din xadimlərinin Muhəmməd peyğəmbərin peyğəmbərliyi və onun xəbərləri haqqında Salman Farisiyə məlumat vermələri olmuşdu. Bu amil Salman Farisinin Məkkəyə, Mədinəyə gəlməsinə və bu dinlə tanış olmaq səylərinə səbəb olmuşdu. Qurani-Kərimdə məcusilərin məzəmmət olunması açıq-aydın idi və bu dinə söykənən bir əhkam yox idi. Beləcə Salman Farisi Muhəmməd peyğəmbərin Allahın Elçisi olması xəbərini yəhudilərdən öyrənir. İsra hadisəsi Məkkədə baş vermişdi. Həmin hadisə baş verdiyi gün Salman Məkkədə yox, Mədinədə idi və hələ peyğəmbərlə də görüşməmişdi, Peyğəmbərin fəaliyyəti haqqında xəbərlərdən də qafil idi. Lakin, Peyğəmbərlə görüşdüyü zaman iki əlamətdən (8) onun həqiqi peyğəmbər olduğunu dəqiqləşdirir. Bu haqda uzun rəvayətlər tarix kitablarında gəlmişdir.(9)

**Dördüncüsü:** Əgər Salman əl-Farisi Peyğəmbərə isra haqqında hansısa bilgi versə, sonra onun bu bilgilərdən istifadə etdiyini görsəydi, o bu dinə şəkk edər və bu dindən uzaqlaşardı, lakin, bunun baş verməməsi də bir daha onu

göstərir ki, bu isra və meracdakı təfsilatları peyğəmbərə Salman əl-Farisi xəbər verməmişdir. Əksinə, bu bir ilahi möcüzədir.

**Beşincisi:** Əgər dinlərin əslinin eyni olduğu dini mətnlərlə də isbat olursa, o zaman son din əvvəlki dinləri düzəldən, təhriflərdən arındıran din olmalıdır. Dinlərini təhrif edənlər haqqında uca Allah buyurur: *"Vay o şəxslərin halına ki, onlar öz əlləri ilə kitab yazır, sonra da: “Bu, Allah tərəfindəndir!”– deyirlər ki, bunun sayəsində bir az pul əldə etsinlər. Öz əlləri ilə yazdıqlarına görə vay onların halına! Qazandıqları şeyə görə də vay onların halına!"* (Əl-Bəqərə. 79).

• **Sualda:** "Nə üçün o dinlərdəki hekayəyə deyil, bu dindəki hekayəyə inanmalıyıq" -deyilsə, **cavabında deyirik ki**, bu din sonuncu, başqa dinlərin səhvlərini bəyan edən, Qiyamətə kimi Allahın tabe olmağımızı bizdən tələb etdiyi bir dindir. Uca Allah buyurur:

"*Həqiqətən, Allah yanında haqq din, İslamdır! Kitab verilənlər ancaq özlərinə elm gəldikdən sonra aralarındakı ədavət üzündən ixtilafa düşdülər. Kim Allahın ayələrinə küfr edərsə, bilsin ki, Allah tez haqq-hesab çəkəndir".* (Ali İmran. 19).

Ona görə də biz bu sonuncu dinə və onun gətirdiyi xəbərlərə tabe olmalıyıq.

## Qeydlər və istinadlar:

(1) İbn Atiyyənin təfsiri. 3/410.
(2) Məvərdinin təfsiri. 3/215.
(3) Səhihi Muslim 53/260.
(4) Səhihi Muslim. 53/259.
(5) Səhihi Muslim. 294.
(6) Gecə vaxtı göy üzünə səfər etmək .
(7) Bəzi araşdırmaçılar Zərdüştün özünün belə Quranda adı keçməyən peyğəmbərlərdən ola biləcəyi, o öldükdən sonra dininin təhrif edilərək küfr dininə çevrildiyini iddia edirlər. Bu iddiaya əsasən iki ehtimalla fikir yürütmək olar:

*1 – Əgər bu iddia doğru olarsa, onun bir peyğəmbər olaraq Muhəmməd peyğəmbərin səfər etdiyi kimi göy üzünə səfər etməsində İslami aspektdən heç bir maneə qalmır .*

*2 – Əgər Zərdüştdən öncə gəlmiş peyğəmbərlərin göy üzünə səfər etməsi bu Zərdüştlük dini təhrif olunmadan öncə Zərdüştə nisbət olunubsa, bu da uzaq bir ehtimal deyil.*

(8) Onun sədəqə malı yeməməsi və kürəyindəki

peyğəmbərlik möhürü. Hətta ona yəhudi və xristian din adamlarının vəsf etdiyi peyğəmbərlik vəsfində olan bu iki xislətin Muhəmməd peyğəmbərdə olduğunu görən Salman Farisi onun kürəyindəki Peyğəmbərlik möhürünü gördükdə onun kürəyindən öpüb ağlamağa başlayır və sonra da İslamı qəbul edir.

(9) Bax: Tabaqat əl-Kubra. 4/59; Tarixi Bağdad. 1/514 ؛ Tarixi Dəşəşq. 21/375.

# "Cahiliyyə dövrü şeirlərinin Qurana daxil edilməsi" şübhəsi

**Şübhə belədir:** *İddia olunur ki, guya cahiliyyə dönəminin şairlərinin şeirləri Qurani-Kərimə salınmışdır. Bu şairlərdən xüsusən də İmrul-Qeysin (1) peyğəmbərlə görüşməsini, Peyğəmbərin onun şeirlərini bəyənməsi, Qurani-Kərimin "Qəmər" surəsi, "Duha" surəsi kimi surələrində bir-iki ayənin guya onun şeirlərindən əxz edilməsi fikrini irəli sürürlər. Bu şübhəyə necə cavab vermək olar ؟!*

**Cavab belədir:** Allah tərəfindən göndərilməsində şəkk olmayan Qurani-Kərim Allahdan nazil olan vəhydir. Uca Allah buyurur: "Biz Kitabı sənə, insanlar üçün haqq olaraq nazil etdik. Kim doğru yolla getsə, xeyri onun özünə olar, kim azğınlığa düşsə, ziyanı onun öz əleyhinə olar. Sən onlara vəkil deyilsən". (əz-Zümər. 41).

Əvvəlcə qeyd edək ki, bu şübhəni ateistlər ixtira etməyiblər, onlar digər İslam əleyhdarlarının fikirlərindən bəhrələriblər. Bu şübhəni xristianlardan ilk gətirən şəxs Thusdale olmuşdur .

Gəlin mövzunu daha yaxşı başa düşmək və şübhəni saf-çürük etmək üçün bəzi suallar verək:

*1 – Muhəmməd peyğəmbər doğurdan da ərəb şairi İmrul-Qeys ilə görüşübmü ؟*

*2 – Görüşübsə, o İslamı qəbul edibmi ؟*

*3 – Ümumiyyətlə Qurani-Kərimdə ərəb şairlərinin şeirlərindən hissələr varmı؟*

İlk öncə bu haqda bir uydurma rəvayətə cavab verək. İddialardan biri də guya bir rəvayətdə Muhəmmədin qızı Fatimə Qəmər surəsindən bir ayə oxuyur: "Qiyamət vaxtı yaxınlaşdı və ay parçalandı" (Qamər. 1). guya elə bu vaxtda ərəb şairi İmrul-Qeysin qızı bunu eşidir və deyir: "Bu mənim atamın qəsidələrindən bir hissədir. Sənin atan bunu götürüb və iddia edir ki, bunu ona Allah nazil edib". Bu isnadı bəlli olmayan rəvayəti yayanlar onun necə ağ yalan olmasını gizlədə bilməzlər. Təkcə İmrul-Qeysin Miladi tarixlə 540-cı ildə vəfat etməsi, Muhəmməd peyğəmbərin isə ondan 30 il sonra, 570-ci ildə dünyaya gəlməsini xatırlamaq bu iki şəxsin qızlarının eyni yaşıdlar kimi bir araya gəlib danışmasının mümkünsüz olduğunu göstərir. Ən yaxşı halda iki şəxsin qızlarının 80-90 il yaş fərqi ilə görüşməsini təsəvvür etmək istəsəydik, bu zaman ayaq üstə yeriməyi bilməyən, qoca qarının (İmrul-Qeysin qızının) azyaşlı uşaqdan (Fatimədən) bir ayət eşidib qurmaca sözlər danışmasını təsəvvür etmək mümkün deyil. Hələ mənbələrdə onun övladlarının olması haqda da bir məlumat əldə edə bilmədim .

İmrul-Qeysin özünün dini haqqında da bir neçə görüşlər var. Bəziləri onun bütpərəst, bəziləri xristian, bəziləri məzdəki dininə mənsub olduğunu iddia ediblər. Müsəlman olmadığı isə İslamdan əvvəl vəfat etdiyi üçün aydındır .

Deməli aydın olur ki, Muhəmməd peyğəmbər onunla görüşməyib və bu mümkün də olmayıb. Görüşməyibsə, deməli müsəlman da olmayıb. Son sual isə ərəb şairlərinin şeirləri Qurani-Kərimə varmı? - şəklində idi .

**Birincisi:** Duha surəsinin ilk iki ayəsi və Qəmər surəsinin ilk ayəsinin guya İmrul-Qeysin şeirlərində varid olması səhih deyil. Quranın Qəmər və Duha surəsinin cəmi üç ayəsinin İmrul-Qeysin şeirlərində olması iddiasını verən ilk İslami mənbə əl-Mənavinin "Feydul-Qadir" (2) əsəri olmuşdur. Mənavi hicrətin 1031-ci ilində vəfat etmişdir. Deməli, İmrul-Qeys ilə ona nisbət olunan şeirin 1100 illik bir zaman fərqi var. Mənavi ilə İmrul-Qeys arasında olan uzun zaman fərqi, həmçinin, ondan öncə yaşamış minlərlə İslam alimindən heç kimin belə bir rəvayət gətirməməsi də diqqətlərdən yayınmır. Çünki, hətta belə bir uydurma rəvayət belə olsaydı, onun haqqında Mənavidən əvvəlki İslam alimləri danışardılar.

Sual yaranır ki, 1100 il gizli qalan bir rəvayət birdən birə necə ortaya çıxdı ؟

Hədis və isnad elmindən başı çıxan hər kəs çox gözəl bilir ki, təkcə bu aspekdən ortadakı iddianın rədd edilməsi kifayət edir. Hədis elmindən məlum olana görə: "Əgər isnad olmasaydı, kim nəyi necə istəyirsə o cür danışardı" (3). Yəni, isnad olmasaydı, insanlar kimin hansı sözü deyib demədiyini və ya deyibsə də necə dediyi ilə maraqlanmazdı, kim nəyi istəyir elə danışar, insanların nəyi deyib demədiyinin bir əhəmiyyəti qalmazdı, bu kimi şeylər dəqiqləşdirilməzdi. Bu durumda Mənavinin bu nəqli ağızlarda dolaşan bəzi iddiaların nəqli olmaqdan o yana keçmir. Lakin, gəlin Allahın iznilə bu şübhəni saf-çürük etməyə davam edək .

**İkincisi:** Onu da Qeyd edək ki, "Feydul-Qadir" kitabı sonrakı əsrlərin hədis şərhi üzrə yazılmış kitabıdır. bu şeir İmrul Qeysin mötəbər və bilinən şeir divanlarında mövcud deyil. Mənavi isə özü ədəbiyyatçı olmamışdır. Əgər ədəbiyyatçı olsaydı, İmrul-Qeysin orjinal divanın mətnində bu şeirlərin olmadığını öyrənər və bilmədiyi bir şeiri 1100 il sonra ona nisbət etməzdi. Hətta bu gün belə İmrul-Qeysin "Divanı" təhqiq edildikdən sonra belə orada bu cür şeirlərə rast gəlmək mümkün deyil. Hər kim qeyd olunan mənbədən İmrul-Qeysin şeirlərinə baxmaq istəyirsə, dr. Mustafa Abduş-Şafinin tədqiqatı və təshihi olan kitaba bu keçiddən baxsın.(4)

**Üçüncüsü:** Məkkə müşrikləri cahiliyyə şeirlərini çox yaxşı bilirdilər və Muhəmməd peyğəmbərdən hansısa bir xətanın baş verməsini istəyirdilər. Buna baxmayaraq onlar Qurani-Kərimin ərəblərin şeirlərinə oxşamadığını aşkar şəkildə bildirdilər. Əksinə, sabit olan xəbər budur ki, ilk müsəlmanlardan bir qrup mömin camaat Quran səbəbilə İslamı qəbul etmişdilər. İbn Abbasdan rəvayət olunur ki: "Valid ibn Muğira Peyğəmbərin yanına gəldi və Peyğəmbər ona Quran oxudu. Sanki, Vəlid kövrəldi... (Uzun rəvayətin sonunda) Vəlid əmisi Əbu Cəhlə deyir: "Allaha and olsun ki, sizin içinizdə (Qureyşdə) şeirləri məndən yaxşı bilən biri yoxdur. İçinizdə nə rəcəzi (5), nə qəsidəni, nə də cinlərin şeirlərini bilən yoxdur. Allaha and olsun ki, onun (Muhəmmədin) dedikləri bu şeylərdən (şeir növlərindən) heç birinə bənzəmir. Allaha and olsun ki, onun dediyi sözlərdə bir şirinlik var, bu sözlərdə bir parlaqlıq var, yuxarısı səmərəli, aşağısı bərəkətlidir. Bu sözlər ucalır və onun üzərinə çıxmaq olmur. O, (təsiri ilə) özündən aşağıda olan sözləri əzib keçir". (6) Göründüyü kimi müsəlmanlığı qəbul etməmiş ən güclü şairlər belə Qurani-Kərimin qüvvəsini etiraf edib onun ıiahiliyini, şeirdən fərqli bir şey olmasını etiraf edirdilər .

**Dördüncüsü:** Bəzi tədqiqatçılar da bu şeirin İmrul-Qeysin olmasını rədd etmişlər. Onlardan Abbas Aqqad "əl-Luğətuş-Şəira" kitabının 72-ci səhifəsində ilk öncə yuxarıda qeyd etdiyimiz iddiaya cavab verərək

Peyğəmbərin qızı Fatimənin (radiyallahu anhə) İmrul-Qeysin qızı ilə görüşməsinin mümkünsüzlüyünü vurğulayır. Sonra isə Quranda cahiliyyə dövrü ərəb şeirlərinin olmasını inkar edir .(7) Həmçinin, Muhəmməd Rəşid Rıda (1865-1935) "Məcəllətul-Mənar"da (8) bu şübhəyə ətraflı cavab vermişdir. Həmçinin, dr. Muhəmməd Əbul-Fadl İbrahim haqqında danışılan cahiliyyə şairi İmrul-Qeysin şeirlərini 500 səhifədən artıq bir araşdırma ilə yazmış, orada onun şeirlərindən həqiqətən özünə nisbət olanlarıb və olmayanları qeyd etmiş, onun adına yalandan nisbət edilən şeirləri, yaxud onun yazdığı halda başqalarına nisbət edilən şeirləri qeyd etmişdir. Lakin, bütün bunlara baxmayaraq, Qurana qoyulduğu iddia edilən beytlərdən heç biri bu kitabda yer almamışdır.

**Beşincisi:** Əgər fərz etsək ki, bu şeirlərin bir qismi qədimdir, o zaman Həmməd ər-Raviyəh dövrünü keçə bilməz. Tarixdə Həmməd ər-Raviyəh adlı bir şəxs olub, bir çox şəxslərin, şairlərin şeirlərini nəql edib, nəqldə özündən artırmalar, əlavələr etməkdə ittiham olunub, ələxsus da cahiliyyə şairlərinin şeirlərini götürüb artıraraq öz əlavələrini də həmin şəxslərə nisbət edib. Süyitinin "əl-Muzhiru fi ulumil-Luğat" əsərinin ikinci cildində deyilir: "Əbut-Tiyb demişdir: Bununla bərabər Bəsrəlilərə görə Həmməd nə etibarlı, nə də güvəniləcək biri deyil. Cəfər ibn Muhəmməd bizə xəbər vermişdir ki: İbrahim ibn Humeyd bizə danışdı ki, Əbu Hatim demişdir: "Kufədə Həmməd ər-

Raviyəh və başqaları kimi şeir rəvayətçiləri olan bir camaat var idi, onlar şeir düzəldirdilər, düzəldilmiş şeirləri əldə edib onu sahibi olmayan şəxslərə nisbət edirdilər .

İbn Salamın "Tabaqat Fuhuluş-Şuəra" (9) əsərinin birinci cildində deyilir: "Ərəblərin ilk şeirlərini cəm edən və söhbətlərini gətirən Həmməd ər-Raviyəh olmuşdur. O, etibarlı birisi deyildi. O bir kişinin şeirini götürüb (haqsızcasına) başqasına nisbət edir, onun özünə də başqasının şeirini nisbət edirdi və şeirlərdə artırmalara yol verirdi ."

Bu haqda çoxlu rəvayətlər olsa da, Həmməd ər-Raviyəhin kimlərin adına şeir uydurduğu rəvayətlər də mövcud olsa da, hamısını rəvayət edib uzunçuluğa yol verilməsin deyə əsas məsələyə keçirəm. Deməli, hətta aşkar olur ki, Həmməd ər-Raviyəh haqqında danışdığımız cahiliyyə şairi İmrul-Qeysin adından da şeirlər artırır və düzəldirdi. Süyutinin "əl-Muzhiru fi Ulumil-Luğat" əsərinin ikinci cildində deyilir: Bizə Cəfər ibn Muhəmməd xəbər verdi, ona Muhəmməd ibnil-Həsən əl-Əzdi xəbər verdi, ona da Əbu Hatim dedi: əl-Əsmai dedi: "İmrul-Qeysin əlimizdə olan bütün şeirləri Həmməd ər-Raviyədən gəlib, (bundan) yalnız Əbu Amr ibnil-Alə'dən eşitdiyimiz bəzi şeirlər istisnadır". Təkidlə deyirik ki, bu şeir beytlərinin əsası olsa da bunlar Əbu Amr ibnil-Alədən nəql olunmayıb, bu şeirlər Həmməd ər-Raviyənin

uydurmasındandır .

## Qeydlər və istinadlar:

(1) Araşdırmaçı şəxslərin "İmrul-Qeys" adlı cahiliyyə adlarından və İslamdakı adları qarışdırmamaları üçün mühüm bir qeyd etmək istərdim. Çünki, cahiliyyə dönəmində yaşamış İmrul-Qeys adlı azı dörd şair var idi ki, bu şübhəni gətirənlərin heç bundan xəbərləri də yoxdur.

**1-cisi:** İmrul-Qeys ibn Həcər ibnil-Haris əl-Kindi. Cahiliyyə şairidir və o ən məşhur cahiliyyə şairidir, haqqında danışılan şair də elə bu şairdir.

**2-cisi:** İmrul-Qeys əs-Sukuni. Bu da cahiliyyə dönəminin şairlərindəndir. Tam adı: İmrul-Qeys ibn Cəbələ əs-Sukunidir. Onun bir çox şeirləri dövrümüzə gəlib çatmamışdır.

**3-cüsü:** İmrul-Qeys əl-Kəlbi. Tam adı belədir: İmrul-Qeys ibn Həmməm ibn Məlik ibn Ubeydə ibn Adullah. Cahiliyyə dövrünün şairlərindəndir. Muhəlləl ibn Rabia ilə eyni dövrdə yaşamışdır.

**4-cüsü:** İmrul-Qeys əz-Zuheyri. Tam adı belədir: İmrul-Qeys ibn Bəhr əz-Zuheyri. Cahiliyyə şairlərindəndir və çox az sayda şeirləri dövrümüzə gəlib çatmışdır.

**5-cisi:** İslamı qəbul edən İmrul-Qeys, hansı ki, ondan qətiyyətlə söhbət getmir və onun belə bir şeiri də

olmamışdır. Tam adı belədir: İmrul-Qeys ibn Abbas ibnil-Munzir ibn İmril-Qeys ibnus-Samt ibn Amr ibn Muaviyə ibnil-Haris əl-Əkbər ibn Muaviyə ibn Sovr ibn Murtəh ibn Muaviyə ibnil-Haris ibn Kindətul-Kindi. Peyğəmbəri görmüş, səhabə olmuşdur və İslam üzərində vəfat etmişdir. (Ətraflı bax: midad.com - Ərəbcə məqalə: الرد على أكذوبة النصارى بأن الرسول قد اقتبس من شعر امرئ القيس الجاهلي).

(2) Feydul-Qadir. Əl-Mənavi. 2/187.

(3) Müslimin müqəddiməsi. İbnul-Mubarəkin sözü الإسناد من الدين، لو لا الإسناد لقال من شاء على ما شاء .

(4) Kitaba bu keçiddən baxa bilərsiniz:
https://archive.org/details/waq78664

(5) Ərəb şeirinin məşhur bəhrlərindən biridir .

(6) İbn Kəsir. əl-Bidayə vən-Nihayə; Həmçinin, Hakimin "əl-Müstədrək" əsəri. İkinci hissənin "Təfsir" kitabı. 3872. İmam Zəhəbi səhih görmüş və rəvayətin Buxarinin şərtinə uyğun olmasını müvafiq hesab etmişdir .

(7)Daha ətraflı baxmaq üçün keçid:
http://mohamedrabeea.net/library/pdf...5af30f5311.pdf

(8) " əl-Mənar" jurnalında. 7/161.

(9) İbn Salam. "Tabaqat Fuhuluş-Şuəra". 1/51.

## Kommunist şübhəsi: Nə üçün dində qorxu sevgidən mühümdür!?

**Şübhə:** *Dinsizlər deyirlər ki, dində qorxudan çox bəhs edilir. Dində qorxu mövzusu sevgidən üstün bir söhbət mövzusudur. Bəs dindəki sevgi haradadır?*

**Cavab**: Bu məsələ ateistlərin yanlış yozum verdikləri növbəti məsələlərdən biridir. Əslində dində sevginin öz yeri, qorxunun isə öz yeri var.

**Birincisi:** İslamda ilk öyrədilən məsələlərdən biri də sevgi məsələsidir. Bu mövzu dində elementar bilgilərdən hesab edilir. "Lə iləhə illəllah" kəlməsinin şərtləri arasında "sevgi" də var. Bu şərtlər: elm, yəqinlik, ixlas, sadiqlik, məhəbbət (sevgi), tabeçilik və qəbuldur. Sevgi mövzusu dində çox böyük əhəmiyyət kəsb edir. İslam etiqadına görə möminlər Allahı hər şeydən çox sevməlidirlər. Allahdan qeyrisini Allahdan çox sevmək ən böyük günah olan şirk hesab olunur. Möminlərin Allaha olan şiddətli sevgisi Qurani-Kərimdə belə vəsf olunur: "İnsanlardan eləəri də var ki, Allahdan qeyrilərini Ona tay tutur, onları da, Allahı sevdikləri kimi sevirlər. İman gətirənlərin isə Allaha olan sevgisi daha güclüdür". (əl-Bəqərə. 165). Bir hədisdə isə möminin

sevgisinin həqiqəti peyğəmbərin dilindən belə izah olunur:

"Hər kimdə üç şey olarsa, o kimsə imanın şirinliyini dadar: Allah və onun Elçisini digərlərindən daha çox sevmək, kişinin öz sevdiyini yalnız Allah üçün sevməsi və Allahın onu küfrdən xilas etməsindən sonra küfrə qayıtmağa sanki atəşə atılacaqmış kimi nifrət etmək"(1).

**İkincisi:** Allah öz itaətkar qullarını sevir və ucaldır, ona asilik edənləri isə sevmir; bu haqda olan Quran ayələrindən bəzilərini gəlin qeyd edək:

"Allah yaxşı iş görənləri sevir". (Ali imran. 134).

"Allah yaxşı iş görənləri sevir". (Ali İmran. 148).

"Allah səbir edənləri sevir". (Ali İmran. 146).

"Allah yaxşı iş görənləri sevir". (əl-Maidə. 93).

"Allah təmizlənənləri sevir". (ət-Tövbə. 108).

"Allah iman gətirənlərin dostudur, onları zülmətlərdən nura çıxarar". (əl-Bəqərə. 257).

"Allah möminlərin dostudur". (Ali İmran. 68).

Bu haqda ayətlər çoxdur, bu qədərilə kifayətlənirik.

**Üçüncüsü:** Allah sevgisi dində peyğəmbərə tabeçiliklə bağlıdır. Uca Allah Qurani-Kərimdə buyurur:

"De: “Əgər siz Allahı sevirsinizsə, mənim ardımca gəlin ki, Allah da, sizi sevsin və günahlarınızı bağışlasın. Allah çox bağışlayandır, rəhmlidir". (Ali İmran. 31). Yəni, İslamda Allahı sevmək iddiası kifayət etmir, Allahı sevən Onun Elçisinə itaət etməlidir və bu sevgini öz əməlində göstərməlidir.

**Dördüncüsü**: Sevgi, qorxu və ümid mövzusu ibadətlərdə xüsusi bir əhəmiyyət kəsb edir. Ona görə də qəlbdə həm sevgi, həm qorxu, həm də ümid olmalıdır. Biri artıq digəri az olarsa və ya heç olmazsa, qarşıda izah edəcəyimiz problem yaranar. Alimlərdən bəziləri demişlər: "Kim Allaha yalnız sevgi ilə ibadət edərsə, o kimsə zındıq olar, hər kim yalnız ümid ilə ibadət edərsə, o kimsə murciə (islamda firqə adı) olar, hər kim də yalnız qorxu ilə ibadət edərsə o həruri (xəvaric radikal firqəsinin adlarından) olar. Hər kim də Allaha sevgi, qorxu və ümidlə ibadət edərsə, o kimsə muvahhid mömin olarn(2).

İndi qeyd edəcəyimiz ayədə həm sevgi, həm qorxu, həm də ümid var, bu ayət Allaha sevərək, ümid bəsləyərək dua etməyi, ona boyun əyməyi öyrədir: "Onların yalvardıqları məbudların özləri də Rəbbinə – hansı daha yaxın olacaq deyə vəsilə axtarırlar, Onun rəhmətinə ümid edir, əzabından qorxurlar. Həqiqətən, Rəbbinin əzabından qorunmaq gərəkdir". (əl-İsra. 57).

İslam alimlərindən İbn Qeyyim demişdir:

"Qəlb Allaha tərəf gedişində quşun halına bənzəyir. Məhəbbət o quşun başıdır. Qorxu və ümid isə o quşun qanadlarıdır. Nə vaxt ki, baş və qanadlar salamat olarsa, o zaman quş yaxşı şəkildə uçar, nə zaman ki, başı kəsilərsə, quş ölər. Nə vaxt ki, qanadları kəsilərsə, o bütün ovçuların və vəhşi heyvanların hədəfinə tuş gələ bilər" (3).

**Beşincisi:** Allahın qullarına olan sevgisi onun öz qullarına olan rəhmətində təcəlli edir. Allahın rəhməti haqqında olan ayət və hədislərin hamısı, həmçinin, Muhəmməd (Sallallahu aleyhi və səlləm) peyğəmbərin də ümmətinə olan rəhmət və şəfqəti haqqında olan bütün hədislər İslamda sevgi mövzusuna aid edilir. Çünki, sevgi rəhmətdən meydana gəlir.

Peyğəmbərimiz (Allahın salamı və salavatı onun üzərinə olsun) buyurmuşdur: “Həqiqətən Allah qullarından mərhəmətli olanlara rəhm edər”(4).

Məgər yaxşılığın əvəzi ancaq yaxşılıq deyilmi? Kim məxluqata rəhm edərsə, Yaradan da ona rəhm edər. Peyğəmbərimiz (Allahın salamı və salavatı onun üzərinə olsun) buyurmuşdur: “Rəhm edənlərə Mərhəmətli olan Allah rəhm edər, yerdə olanlara rəhm edin ki, səmada olan da sizə rəhm etsin (5).

Uca Allah Quranda buyurur: "Mərhəmətim isə hər şeyi əhatə edir. Mən onu Allahdan qorxan, zəkat verən və ayələrimizə iman gətirənlər üçün yazacağam". (Əraf. 156).

Peyğəmbərin ümmətinə qarşı şəfqətli olması haqda isə bu ayəni qeyd edək:

"Sizə özünüzdən elə bir Elçi gəldi ki, sizin əziyyətə düşməyiniz ona ağır gəlir. O sizə qarşı qayğıkeş, möminlərə şəfqətli, rəhmlidir". (ət-Tövbə. 128).

Bu haqda ayət və hədislər çoxdur, bu qədərilə kifayətlənirik. Allah bu dünyada kafirə də, möminə də rəhm edir, axirətdə isə yalnız möminlərə rəhm edəcəkdir.

**Nəticə:** Deməli, aydın olur ki, dində qorxu, sevgi və ümidin hər birinə ehtiyac var. Bunlardan biri olmasa digəri tamamlanmaz. Hər birinin dində öz yeri var. İnsan Allahı sevməsə onun əmirlərini yerinə yetirərkən və qadağanlarından çəkinərkən çəkdiyi əziyyətlərə səbir edə bilməz, bunun üçün sevgi lazımdır. İnsanın qadağanlardan çəkinməsi üçün də qorxu çox lazımlı məsələdir. İnsanın əməllərdə daha qüvvətli olması və çalışması üçün də ümid lazımdır. Deməli, sevgi, qorxu, ümid hisləri dində bir-birilə çox bağlı hislərdir.

## Qeydlər və istinadlar:

1 - Səhih əl-Cami. Albani. 3044.

2 - (Bax: Məcmu'ul-Fətə'va. İbn Teymiyyə. 10/81 və 207; Bədəiul-Fəvaid. İbn Qeyyim. 3/851. ət-Təxvif minən-Nər. İbn Rəcəb. səh. 29).
3 - Mədəricus-Səlikin. İbn Qeyyim. 1/514.
4 –Səhih əl-Buxari. 5655. Usamə ibn Zeydin hədisi.
5 - . Tirmizi. Hədis səhihdir, bax: "əs-Silsilətus Sahihə", 966.

# Zinakarın rəcm (daşqalaq) cəzası haqda şübhələrə cavab

İslam dinindəki bəzi cəzalar haqqında müəyyən şayiələr dolaşır. Bu cəza növlərindən ən məşhurlarından biri də demək olar ki, rəcm (daşqalaq) cəzasıdır. Kimisi bu haqda olan səhih, mötəbər hədisləri şübhə altına almağa çalışır, kimisi də bu hədislərin ümumiyyətlə nəsx olunduğu və hökmünün aradan qalxdığını iddia edir. Bəzi dinsizlər isə rəcm (cəzasının) ümumiyyətlə insan haqlarına zidd olduğunu deyirlər. Bütün bu iddialara bir neçə aspektdən cavab vermək istərdim.

**Birincisi:** Rəcm (daşqalaq) cəzası İslamda sabit bir hökmdür, bunu Peyğəmbər (sallallahu aleyhi və səlləm) həyata keçirmişdir, ondan sonra da raşidi xəlifələr və müsəlmanların digər rəhbərləri bu cəzanı tətbiq etmişlər. Bu cəzanı qədimdən inkar edənlərdən xəvariclər və mötəzilələr olmuşlar, müasir dövrdə bu cəzanı inkar edən ağılı şəriətdən önə çəkənlərin sözünə də əhəmiyyət verilmir. Allah və Elçisinin (sallallahu aleyhi və səlləm) hansısa bir əmri, sözü nəfsə, ağıla görə inkar edilə bilməz, uca Allah Qurani-Kərimdə buyurmuşdur: "Xeyr, sənin Rəbbinə and olsun ki, onlar öz aralarında baş verən ixtilaflarda səni hakim təyin etməyincə, sonra da verdiyin hökmlərə görə özlərində bir sıxıntı duymadan sənə tam

şəkildə təslim olmayınca iman gətirmiş olmazlar". (Nisa. 65).

**İkincisi:** Bu haqda olan hədislər mötəbər, səhih hədislərdir, əhli sünnənin ən mötəbər hədis kitablarında varid olmuşdur. İbn Qudamə (Allah ona rəhmət etsin) evli (ailəli) olduğu halda zinakarlıq edən kişi və ya qadının daşqalaq edilməsinin vacibliyi haqqında demişdir: "Bu görüş səhabələrdən, tabeinlərdən olan elm əhlinin və onlardan sonra da bütün əsrlərdə, bütün ölkələrdə olan elm əhlinin ümumi rəyidir. Bu rəyə xəvariclərdən başqalarının müxalif olduğunu bilmirik". Həmçinin o demişdir: "Rəcm (daşqalaq) cəzası Allahın elçisindən (sallallahu aleyhi və səlləm) həm söz, həm də fel (əməl) olaraq çoxsaylı mötəbər rəvayətlər (mütəvatir) yoluyla sabit olmuşdur, Peyğəmbərin səhabələri də bunun üzərində icma etmişlər" (1).

Bu haqda şübhə gətirənlər bu mövzuda Quran ayəsi olmadığını iddia edirlər, həqiqətdə isə evli olmayan zinakar şəxsin cəzası haqda ayət də var, evli olan zinakar şəxsin cəzası haqda ayət də Quranda olub tilavəti nəsx olunsa da, hökmü qalıb və həmin ayətin hökmünün qiyamətə kimi qalması haqda müsəlmanlar icma ediblər. Quranda olmuş, hökmü qalsa da tilavəti (yəni, oxunması) nəsx olunmuş (Qurandan silinmiş) bu ayət belədir:

"Kişi və qadın zina etdiyi zaman onları mütləq Allahın cəzası olaraq daşqalaq edin, Allah qüdrətlidir, hikmət sahibidir". (2).

Bu ayətin Quranda keçdiyi ləfzlərin formaları haqda əhli sünnə mənbələrində 13 hədis rəvayət olunub. Hətta şiə mənbələrində belə eynilə bu ləfzə və bu saya yaxın rəvayətlər varid olub.

Allahın Elçisi (salləllahu aleyhi və səlləm) evli zinakarları daşqalaq etmişdir. Onun daşqalaq etdiklərindən Məiz əl-Əsləmini, Ğamidiyyəni və Cuhəniyyəni misal çəkmək olar.

Ömər ibn Xəttab (radiyallahu anhu) isə Mədinədə Səxiləni daşqalaq edib, Şamda da daşqalaq etmişdir. Həmçinin Ömər, zinadan hamilə qalmış bir qadını daşqalaq etmək istəyərkən Muaz ibn Cəbəl ona dedi: "onun bətnində olana (körpəyə) görə bunu etmək olmaz". Osman ibn Əffan və Əli ibn Əbi Talib (Allah hər ikisindən razı olsun) arasında da bunun kimi bir məsələ dəli hamilə qadın haqqında olmuşdu. Həmçinin, imam Əli ibn Əbi Talib (Allah ondan razı olsun) Həmədanlı Şurahəni daşqalaq etmişdir. Həmçinin, o, Sıffeyn yolunda ikən yanına gəlib zina etdiyini etiraf edən bir kişini daşqalaq etmişdir. Bütün bunların hamısı alimlərin nəzdində məşhurdur.

Ubadə ibn Samitdən rəvayət olunur ki, Allahın Elçisi (sallallahu aleyhi və səlləm) buyurmuşdur: "Məndən

götürün (öyrənin), məndən götürün (öyrənin), Allah o qadınlara bir çıxış yolu vermişdir. Subay subayla (zina edərsə) yüz qamçı və bir il sürgün edilməli, evli olan evli biriylə (zina edərsə) yüz qamçı vurulmalı və daşqalaq edilməlidir". (3).

Evli kimsənin daşqalaq edilməsində Muhəmməd peyğəmbərin (sallallahu aleyhi və səlləm) özü şəxsən iştirak etmişdir. Buna dəlil olan hədis belədir. Əbu Hureyrədən (Allah ondan razı olsun) rəvayət olunur ki, o dedi: "Bir kişi Allah elçisinin (sallallahu aleyhi və səlləm) məsciddə olduğu halda yanına gəlir və onu çağıraraq deyir: ey Allahın elçisi! O da ondan üz çevirir, o, dörd dəfə (zina etməsini) təkrarlayır, hər dəfə peyğəmbər ondan üz çevirir, o zaman ki, zina etməsi haqda özü öz əleyhinə dördüncü dəfə şahidlik edir, peyğəmbər onu çağırır və deyir: "Səndə dəlilik varmı?" dedi: "Xeyr". Dedi: "Evlisənmi?" - dedi: "bəli". Bu zaman peyğəmbər buyurdu: "Onu götürün və daşqalaq edin"(4).

Hətta, imam Əli ibn Əbi Talib (Allah ondan razı olsun) belə peyğəmbərdən sonra daşqalaq cəzasını tətbiq etdikdən sonra bu cəzanın sünnədə sabit olmasına işarət etmişdi. "Səhih əl-Buxari"də gələn rəvayətdə deyilir: "Əli cümə günü bir qadını daşqalaq etdi və dedi: onu peyğəmbərin sünnəsinə əsasən daşqalaq etdim". (5)

"Yəni, (tilavət olaraq) Quranda daşqalağa dəlalət edən ayə olmasa da, daşqalaq hökmü peyğəmbərin sünnəsilə sabitdir"(6).

Ömər ibn Xəttabdan (Allah ondan razı olsun) rəvayət edilir ki, o dedi: "Həqiqətən də Allah Muhəmmədi (sallallahu aleyhi və səlləm) haqq ilə göndərmiş və ona Kitab nazil etmişdir. Ona nazil olanlardan rəcm (daşqalaq) ayəsi də vardı. Biz o ayəni oxumuş, başa düşmüş, anlamışdıq. Allahın Elçisi (sallallahu aleyhi və səlləm) daşqalaq etmişdi, biz də ondan sonra daşqalaq etmişik. Qorxuram ki, uzun bir müddət keçdikdən sonra insanlardan belə deyən olsun: Allaha and olsun ki, biz rəcm cəzasını Allahın kitabında tapmırıq və beləcə Allahın fərz olaraq nazil etdiyi əməli tərk etməklə yollarını azsınlar. Evli kişi və evli qadın zina etdiyi zaman dəlil-sübutlar ortaya qoyulduqdan sonra, yaxud (qadının) hamiləliyi ortaya çıxar, yaxud (zinakarlardan biri) etiraf edərlərsə, bu zaman daşqalaq onlara tətbiq edilməsi gərəkən haqdır" (7).

Artıq qeyd olundu ki, daşqalaq hökmü Quranda qalsa da yalnız tilavəti nəsx olunub, yəni, oxunuşu silinib, hökmü isə qalıb.

Həmçinin, Qurani-Kərimdə əllərin, ayaqların kəsilməsi, çarmıxa çəkilmə cəzası da var. Rəcm (daşqalaq) cəzası ilə bu cəzaların nə fərqi var? Hər biri eyni növdən olan cəzalar hesab olunur. Ola bilsin ki,

kimsə bu cəzaların hamısını rəhmsiz, vəhşi bir cəza hesab etsin. Bu yüngül şübhə bu cəzaların hamısına aid edilə bilər.

Rəcm (daşqalaq) cəzasını inkar edən kimsənin heç vaxt sünnədən heç nəyi götürməməsi lazım gəlir. Çünki, kim ki, rəcm (daşqalaq) hədislərini inkar edirsə, ona görə heç bir sünnə sabit hesab olunmayacaqdır. Daşqalaq hədislərini on üç səhabə Buxari, Müslimdə və başqa mənbələrdə rəvayət ediblər. Belə birisi həmçinin gərək ümmətin icma etdiyi məsələlərdən də heç birini qəbul etməsin. O kəs ki, bu mövzuda ümmətin icma etdiyi rəyi qəbul etmir, bundan sonra ona görə ümmətin hansı icması sabit olacaqdır? Bu durumda isə dini bütünlüklə dağıtmaq var.

**Üçüncüsü:** *Rəcm (daşqalaq) cəzası yalnız İslam (şəriət) dövlətində tətbiq olunur və zinakarlığın qarşısını almaq üçün hesablanmışdır.* Dünyəvi dövlətlərdə kiminsə bu cəzanı özbaşına tətbiq etmək hüququ yoxdur. Bu qanun, müasir dövlətlərdə yalnız ölkənin rəsmi qanununda təsdiqləndikdən sonra həyata keçirilə bilər, o baxımdan ki, insanlar özbaşına bu işləri görüb problemlərə düşməsinlər. Bu qanunun icrası ölkə başçısı və ya onun səlahiyyət verdiyi şəxs tərəfindən həyata keçirilə bilər. Bu mövzuda özbaşınalığa yol vermək olmaz. Müasir ölkələrdə bu İslami qanun tətbiq olunmur

deyə həm zinakarlıq baş alıb gedir, həm də bəzi insanlar yaxınlarından kimlərinsə zina etməsinə görə onları cəzalandırır və ya qətl edirlər ki, bu zaman daha böyük fəsadlar baş verir, zina isə aradan qalxmır. Zina edəni qətl edən şəxs həbs olursa, iki tərəfdən birinin (həbs olunan və qətl edilən) övladlarına valideyn nəzarəti itir ki, onların da pis tərbiyəsi cəmiyyətə yenidən zərər vurmağa davam edir.

**Dördüncüsü: görəsən rəcm (daşqalaq) cəzası doğurdan da vəhşilik və həddi aşmaqdanmı sayılmalıdır?**

İlk öncə məsələnin emosional izahını daha qısa verək, sonra digər məsələlərə toxunaq:

Bəziləri İslamda evli zinakara daşqalaq, subay zinakara şallaq cəzasına etiraz edib bunu "vəhşilik" sayırlar. Elələrindən bəzilərinin qızına kimsə təcavüz edəndə isə görün nə istəyirlər? Subay zinakar üçün də, evli zinakar üçün də daşqalaq istəyirlər, bundan da betər cəza ilə razılaşırlar! Bu vaxt o hisləri yaşamayan adam o qadına və ya kişiyə "sən nə qəddar adamsan?" deyəcək sadəcə. Amma, əvvəl "şəriət zinakara qəddar hökm verir?" deyən adamın qızına yolda gedən yerdə təcavüz olandan sonra o İslamdakı cəzadan daha ağır cəza ilə

razılaşır, subay təcavüzkarın öldürülməsinə belə razılaşır. Nəticədə Allahın şəriətinin onun özündən daha rəhimli, daha adil qərar verdiyi aşkar olur. Əslində isə Allahın şəriəti insanın fitrətinə və hislərinə uyğundur! Bu şəriəti yalnız anlamayan bir qövm inkar edə bilər! Allah bu hökmləri anlamayan hər kəsə bəsirət versin!

Şəkk yoxdur ki, zina ən çirkin cinayətlərdən və ən çirkin aqibətlərə salan ən fahiş əməllərdən, ən çirkin münkər əməllərdən biridir. Zinakarlıq alçaq, rəzil bir əməldir. Zina bütün əsrlər boyu, bütün qanunlara, adətlərə, əxlaqlara görə ən iyrənc əməllərdən hesab edilmişdir.

İnsanların nəfsləri də zinakarlıqdan və zinakarlardan uzaq durmağa, zinaya və zinakarlara nifrət etməyə uyğun olaraq yaradılmışdır. Normal insanlardan eləsi yoxdur ki, o öz həyat yoldaşının, qızının, oğlunun, anasının, atasının, bacısının, qardaşının və s. zina etməsini iyrənc əməl olaraq qəbul edib bundan nifrət etməsin, yalnız kişiliyi, mənliyi, qeyrəti olmayan, nəfsi və şəxsiyyəti xəbis olan biri belə bir çirkin əməli normal qarşılaya bilər. Məgər elə bir iffətli bir qadın varmı ki, o öz ərinin, oğlunun, atasının və ya qardaşının zina etməsini çirkin əməl görməsin, buna nifrət etməsin, bundan iyrənməsin?!

Əgər bir məhlədə, bir kənddə zinakarlıq halı baş verərsə və yerli əhali bundan xəbər tutarlarsa, görərsən ki, onlar bu əməldən sarsılmış, buna qəzəblənmişlər və onlar zina edən kişi və qadından intiqam almağa tələsirlər, hər tərəfdən axışıb onların məsuliyyətə cəlb olunmalarına kimi bu zinakarlara söyməyə, hətta döyməyə belə hazır olanları görərsən.

**Zina cinayətinin fəsadları:**

*Zinanın dünya və axirətdə çoxlu zərərləri var. Bunlardan;* namusların (irzlərin) korlanması, əsil-nəcabətin qarışması, ədəb-əxlaqın itməsi, insanlar arasında düşmənçiliyin, kin-küdurətin yaranması, cəmiyyətin fəsada düçar olması, cəmiyyətin aradan qalxmaq və yoxa çıxmaq təhlükəsi ilə üz-üzə qalması və s. misal çəkmək olar. Hansı ki, bütün bunlar əxlaqsızlıq və günahların, açıq-saçıqlığın yayılmasına, üstəlik də cinsi xəstəliklərin çoxalmasına, ər-arvadın arasında güvənin, etibarın itməsinə, evlilik əlaqəsinin kəsilməsinə, ailə bağlarının kəsilməsinə, nəslin azmasına, azğınlaşmasına, itməsinə, sərgərdan olmasına və təhlükəylə üzləşməsinə səbəb olur.

Gənclərin haram yollarla öz cinsi istəklərini ödəmələri gənclərin evlilikdən uzaqlaşmalarına gətirib çıxarır. Beləcə, cəmiyyətin kərpicləri, dayaqları olan sağlam

ailələrin sayı azalır və cəmiyyət yavaş-yavaş məhvə doğru sürüklənir.

O qadın ki, zinadan hamilə qalıb, ola bilsin ki, öz övladını öldürsün. Beləcə, zina və qətl bir arada cəm olur, əgər o qadın evlidirsə, yenə öz övladını öldürə bilər və beləcə zina, qətl və ailə xəyanətini bir arada cəm etmiş olur.

Zina nəticəsində ola bilsin ki, hamiləlik baş versin və qadının əri uşağın özündən olduğunu düşünsün, sonra da uşağı özünə nisbət etsin, o uşağı tərbiyə edib böyütsün, o zinadan olan uşaq da sonra həqiqətdə atası olmayan birindən miras sahibi olsun. Zinakar qadın öz ərinə, ailəsinə və övladlarına rəzalət və ar gətirir, ola bilsin ki, zinakar qadın öz qanuni ərini qeyri-qanuni "sevgilisi"nə görə öldürsün (necə ki, belə xəbərləri az eşitmirik). Kişi də həmçinin öz həyat yoldaşının zina etdiyini görərsə, ola bilsin ki, öz həyat yoldaşını və onun" sevgilisi"ni öldürsün, ola bilsin övladlarının özündən olmasına şəkk etsin, beləcə, ya onları öldürsün, ya da onlarla ən pis şəkildə rəftar etsin!

**Evli zinakar cəzanı haqq edir:**

Bilinməsi vacib olan məsələlərdən biri də verilməsi nəzərdə tutulan cəzanın məhkumların törətdiyi cinayətin

böyüklüyü ilə uyğun gəlməsidir. Hər dəfə cinayətin böyüklüyü çoxaldıqca onun cəzası da böyüyür. Məsələn; kimisə öldürən kimsənin cəzası, kiməsə zərbə endirənin cəzasından daha şiddətlidir. Həmçinin, öz dövlətinə xəyanət edən bir kimsənin cəzası, hansısa bir vətəndaşa xəyanət edən kimsənin cəzasından daha şiddətlidir. Həmçinin, homoseksuallığın cəzası yüngül homoseksual hərəkətlərin cəzasından daha şiddətlidir. Hansısa bir yad qadınla birbaşa zina etməyin cəzası, hansısa yad bir qadını sadəcə öpməyin cəzasından daha şiddətlidir. Bütün cəmiyyətə yönəlik təhlükəli əməlin cəzası, bir vətəndaşa qarşı edilən təhlükəli əməldən daha şiddətli və daha ağırdır!

Zinada insanların namusuna toxunmaq və cəmiyyətə qarşı həddi aşmaq var. Namus insanın dinindən sonra malik olduğu ən dəyərli şeydir. Namus insanın nəfsindən və malından daha izzətlidir, insan zina etdiyi zaman digər insanın namusunu tapdalamış olur. Onun yaxınının namusunun təmizliyinə ləkə gətirmiş və onu edama sürükləmiş olur. İnsanlar ola bilsin ki, yaxınlarından birini bilmədən və ya başqa səbəblə öldürən birini bağışlasınlar, amma namusa toxunan birini bağışlamazlar. Bu da normal insanlar üçün namusun necə böyük əhəmiyyət daşıdığını göstərir.

Zinakar qadın - əgər evlidirsə - öz ailəsinə və ərinə aid edilir ki, bu da onları insanlar arasında hörmətdən düşmüş, rəzil bir duruma salır və başqalarının onları aşağılamasına, təhqir etməsinə şərait yaradır. Zina ailənin varlığını dağıdan ən güclü səbəblərdən və ailə bağlarını pozan əməllərdəndir ki, ailəni təməlindən dağıdır, uşaqları təhlükəyə, zay olmağa, azğınlığa və avaralığa məruz qoyur.

Zina cəmiyyətin gücünü zəifllədir; zina səbəbilə ailələr dağıldığı zaman, ailə əlaqələrinin pozulduğu zaman, ailələrin güc-qüvvətinin aradan qalxdığı zaman cəmiyyətin hansı gücü-qüvvəti qalar ki? Məgər cəmiyyət ailələrin toplusundan ibarət deyildirmi?

Evli zinakar öz halal həyat yoldaşı olduğu halda o mundar harama tərəf gedir, kiminsə namusunu tapdalayır, əxlaqsızlığı yayır, öz həyat yoldaşına xəyanət edir və s. bir çox fəsadlara düşür.

Evli zinakara həyat yoldaşı ilə nemətin verilməsi tamamlanmışdır. Belə olduğu halda onun zinakarlığa yol verməsi şərrin onun nəfsinə bitişik olmasına dəlildir, amma evli olmayan kimsəyə gəldikdə ola bilsin ki, ona şəhvətə çağıran səbəb qalib gəlmişdir. Buna görə də evli olmayan (subay) kimsəyə verilən cəza onun halını və

üzrünü nəzərdə saxlayaraq şallaq cəzası ilə yüngülləşdirilmişdir (1).

Beləcə, evli zinakar daha şiddətli cəzaya layiq olur ki, bu da bu əməlin çirkinliyinə, cinayətin iyrəncliyinə, mundarlığına görə, cəmiyyətə, ailəyə və fərdlərə qarşı törətdiyi pis, dağıdıcı təsirlərə Allahdan bir ibrət olaraq daşqalaq cəzasıdır. Çünki, cəza cinayətə, o cinayətdən törənən nəticələrə və meydana çıxan nəticələrə görə təyin edilir. Cəza da əməlin cinsinə görədir.

Evli zinakarın daşqalaq edilməsində zinaya baş vurmaq istəyən kimsənin bu niyyətinə əngəl olunması var:

Zinaya baş vurmaq istəyən kimsə evli zinakarın daşqalaq olunaraq ölməsi cəzasını xatırlayır və onun hissləri işin təhlükəsini dərk edərək qəflətdən oyanır, vicdan əzabı çəkir və zina niyyətindən daşınır. Bununla da evli zinakarın daşqalaq edilməsi insanların zinadan əl çəkmələrinə bir vəsilə olur, hətta ən şiddətli şəkildə bu pis əməldən uzaqlaşmalarına gətirib çıxarır. Deməli, hər dəfə cəza şiddətləndikcə insanların nəzərdə tutulan cinayətdən uzaqlaşmaları daha da çoxalır. Bu, təcrübədən keçmiş və özünü təsdiqlətmiş bir məsələdir.

Bundan daha yüngül cəzanın verilməsi bu problemə yardım etmir və insanları arxayın edir, beləcə bəzi insanlar zina edirlər, zina o cəmiyyətdə yayılır. Ona görə də hər kim ki, şiddətli cəza verilməsindən arxayın olur, o kimsənin əxlaqı korlanır, bu və digər cinayətlərə meyillənir. Məlumdur ki, yer üzündə fəsad törədənlərin və cinayətkarların cəzası yalnız onları günahdan uzaqlaşdıran acıverici bir cəza ilə tamamlanır. Hansı ki, bu cinayətkarı başqa onun kimi əməl etmək istəyənlərə bir ibrət və öyüd-nəsihətə çevirir. Bu zaman onun cinayətinin böyüklüyü, kiçikliyi, azlığı və çoxluğu nisbətində onun özündə gərək nə isə (cəza olaraq) zərər görürsün.

Uca Allah evli zinakarın cəzasını subay zinakarın yüz şallaq cəzasından daha şiddətli bir cəza etmişdir. Çünki, evli kimsə qadından ləzzət almış kəsdir, belə halda olan kimsənin qadınlara qarşı səbir etməsi subaydan daha çətindir. O zaman ki, zinaya çağıran səbəb daha böyük olur, onu zinadan uzaqlaşdıracaq cəza da şiddətli olmalıdır ki, bu da daşqalaqdır.

Evli zinakarın daşqalaq edilməsində fərdlərin və cəmiyyətin məsləhəti üçün olan şiddətin misalı var.

Evli zinakarın daşqalaq edilməsində - zinakar qadın əgər evlidirsə - onun ərinin və ailəsinin nəfsinin şəfa tapması var.

Evli zinakar kişinin və evli zinakar qadının daşqalaq edilməsində onların hər ikisi üçün də rəhmət olan bir şiddət var.

Həqiqətən də daşqalaqda rəhmət var.

Evli zinakarların daşqalaq edilməsində cəmiyyətin fəsadçı fərdlərdən təmizlənməsi var ki, bu, rəhmətdir.

Evli zinakarların daşqalaq edilməsində cəmiyyətin başqa fərdlərinin zina çirkabından çəkinərək uzaqlaşması vardır ki, beləcə insanlar öz namuslarından, irzlərindən amanda olurlar, bu da rəhmətdir.

Evli zinakarların daşqalaq edilməsi ilə cəmiyyətdə əxlaqsızlıq yayılmır, bu da rəhmətdir.

Evli zinakarların daşqalaq edilməsində irzlərə toxunulmasından qorunmaq var, nəsillərin qarışmasından da qorunmaq vardır ki, bu da rəhmətdir.

Evli kimsənin daşqalaq edilməsində zina səbəbilə cinsi xəstəliklərin (eydz, siflis və s.) yayılmasının qarşısının alınması vardır ki, bu, cəmiyyətin zinadan və onun təhlükələrindən qorunmasıdır.

Evli kimsənin daşqalaq edilməsində ailə münasibətlərinin mühafizə edilməsi və xəyanətin qadağan edilməsi, ailə əlaqələrinin dağılmaqdan

qorunması və ailənin varlığının qorunması var ki, bu da rəhmətdir.

## Qeydlər və istinadlar:

1 - əl-Muğni. 9/39.
2 – Səhih əl-Buxari.
3 - Səhihi Müslim. 1690.
4 - Buxari. 6430; Muslim. 1691.
5 - Səhih əl-Buxari, kitab əl-Hudud. Bəbur-racm bil-musallə. 6812.
6 - Fəthul-Bari. Buxarinin şərhi, ibn Həcər əl-Əsqalani.
7 – Səhih əl-Buxari. 5442; Səhihi Müslim. 1691.
8 - Tövdihul Əhkam min Buluğil Məram. Bəssəm. 6/218.

# Aypara İslamın, yoxsa bütpərəstliyin rəmzidir?

**Şübhə**: *Məscidlərin üzərindəki ayparalar o vaxtkı ay tanrısının simvoludur. Bu simvol bütpərəstlik somvollarından hesab olunsa da Muhəmməd peyğəmbər bu simvolu məscidlərin üzərində saxlamışdır.*

**Cavab:** Bu iddia absurd bir iddiadır, özündə həqiqəti əks etdirmir. Buna bir neçə aspektdən cavab vermək olar:

**Birincisi:** Məlum olduğu kimi Muhəmməd peyğəmbər (sallallahu aleyhi və səlləm) insanlara təkallahlıq dinini təbliğ edib. Təkilahlı din olan İslam dini monoteizm dinləri kateqoriyasına daxildir. Bu dinin mənsubları tək Allaha ibadət edirlər. Bu zaman necə ola bilər ki, monoteist dinlərdən olan İslam dininin mahiyyəti bütpərəst dinlərə yozulsun?! Bu mümkün deyil. Həmçinin, bu dinin peyğəmbəri bütpərəstliyə qarşı mübarizə aparmışdır. Qurani-Kərimin ayələrindən birində deyilir ki: "Elə isə murdar bütlərdən uzaq olun". (əl-Həcc. 30). Həmçinin, Muhəmməd peyğəmbər Məkkəni fəth etdiyi zaman bütləri dağıdır, onları aşırdır, onları ayaqları altına alır. Bəs necə ola bilər ki, o ayaqlar altına atdığı bütlərin rəmzlərini sonradan məscidlərin üzərinə qoymağı əmr etsin!? Bunda nə məntiq var, nə də

sağlam mühakimə, bu sadəcə absurd bir iddiadır. Ümumiyyətlə, peyğəmbərin dövründə belə bir hadisənin baş verməsini təsdiqləyən heç bir hədis, nə də tarixi rəvayət, sübut yoxdur.

**İkincisi:** Bu günkü günümüzdə məscidlərin üzərində olan ayparalar peyğəmbərin təyin etmədiyi bir şeydir. Bu ayparaların tarixi 16-cı əsrə gedib çıxır, bu zaman Osmanlı xilafətinin fəthlərinin genişləndiyi, müsəlmanların ərazilərinin artdığı bir zamanda bəzi xristian əraziləri də müsəlmanların ərazilərinə daxil olur. Bu nə zaman baş verib? Araşdırmalarda bu zamanın 1510-cu il olduğu qeyd olunur (1). Peyğəmbər (sallallahu aleyhi və səlləm) isə altı-yeddinci əsrlərdə yaşayıb, deməli, bu hadisə isə 16-cı əsrdə baş verib. İddiaya görə müsəlmanlar yeni fəth olunan ərazilərdə kilsələr üzərində xaç, sinaqoqlar üzərində davud olduzu kimi simvolların olmasının şahidi olur və öz məscidləri üzərində də belə bir simvolların olmasını, bununla başqa dinlərdən seçilməyin doğru olduğu qənaətinə gəlirlər. Təbii ki, bu sadəcə bir iddiadır, əlimizdə olan məlumatlardan biridir. Bu iddia doğru olarsa, Muhəmməd peyğəmbərin (sallallahu aleyhi və səlləm) zamanı və bu hadisənin baş verdiyi tarix arasında təxminən doqquz əsrlik bir zaman məsafəsi qalır.

**Üçüncüsü:** Muhəmməd peyğəmbər (sallallahu aleyhi və səlləm) məscidlərdə ayparadan istifadə etməyib, lakin, məscidlərin üzərinə xurma lifləri, xurma yarpaqları və s. ilə örtülüb ki, məscidlərin üzərini örtsünlər. O vaxtkı durumda, o şəraitdə məscidlərin üzərinə dəmir və ya misdən hazırlanmış ayparaların qoyulması iqtisadi cəhətdən də heç əlverişli deyildi. Müsəlmanlar israfçılıqdan maksimum yayınıblar. Ona görə də məscidlərin üzərinə ayparaların qoyulmasının hökmü haqda danışarkən bəzi müasir İslam alimləri də bunu israfdan hesab ediblər. Əgər İslamın belə bir rəmzi olsaydı, ayparaya nə üçün israf desinlər ki? Bu haqda ilk məlumat 16-cı əsrə gedib çıxır, arada olan doqquz əsrdə məscidlərə aypara qoyulması haqda bir fakta rast gəlmirik. Məgər İslamın belə bir rəmzi olsaydı, İslamın ilk üç ən xeyirli nəslinin yaşadığı ilk üç əsrdə nə üçün biz bu ayparalara rast gəlmirik? Uca Allah buyurur: "De: “Əgər doğru deyirsinizsə, dəlilinizi gətirin!" (əl-Bəqərə. 111).

*Gəlin bu iddiaları sıralayaraq qeyd edək:*

**a)** Bəzi iddialara görə də məscidlərin üzərinə qoyulan bu ayparaları Osmanlı dönəmindəki memarlar digər dinlərdən seçilmək üçün münasib hesab etdilər (2), ilk ayparalar ilk dəfə Osmanlı sultanı I Sultan Səlimin zamanında 1510-cu ildə məscidlərə yerləşdirildi. Biz də araşdırmada həqiqətə uyğun olan bir fikir kimi bu tarixi iddia üzərində dayanırıq.

**b)** Aypara haqqında edilən digər iddiaya əsasən qəməri (ay təqvimilə olan) ayların müsəlmanlar üçün əhəmiyyətinə görə ayparanı rəmz olaraq seçdilər, xüsusən də Ramazan ayının daxil olmasını bildirən hilal (yeni doğmuş ay, yaxud aypara forması) da bura daxildir. Onlar bunu bəzi şəriət dəlillərilə də əsaslandırmağa çalışmışdılar (3). Həmçinin onlar bayrağın, qılıncın və ya xurmanın bir ölkə üçün rəmz olaraq seçilməsini əsas gətirmişdilər. Bu aspekdən ayparanın məscidlərin üzərinə qoyularaq digər dinlərin ibadət yerlərindən fərqləndirən rəmz olması fikrini irəli sürmüşdülər. Bunda da bir problem görməmiş, bunun şəriətdən əsasının olmasını bildirmiş, ayparanın bir çox İslami fərzlər və əhkamlarda yerinin olduğunu önə çəkmişlər. Yuxarıda qeyd etdiyimiz ayədən ziyadə, hədislərdən də buna dəlil gətirməyə çalışmış və peyğəmbərin Səd ibn Malik əl-Əzdinin bayrağının rəmzinin aypara olması fikrini irəli sürmüşdülər. İbn Həcər "əl-İsabə" əsərində bu rəvayəti gətirir: "Peyğəmbər salləllahu aleyhi və səlləm Səd ibn Malikin qövmü üçün üzərində ağ aypara olan qara bayraq təyin etdi"(4). Hafiz ibn Həcərin Əbül-Künudun tərcümeyi-halında gətirdiyi bu rəvayət isə səhih deyil, bu rəvayətdə Amr ibn Zuheyr adlı şəxs var ki, o hədis elminə görə məchuldur, tanınmır. Həmçinin, onun öz babası Əbül-Künuda yetişməsi də mümkün hesab olunmur. Bu isə iki səbəbdəndir. Birincisi: ibn Yunus Əbül-Künuddan nəql edən şəxs olaraq yalnız onun oğlu

əl-Qasimin adını qeyd edib. İkincisi: bu xəbəri rəvayət edən Səid ibn Ufeyr xəbəri heç bir tabeindən rəvayət etməyib, yalnız Amr ibn Zuheyrdən rəvayət edib. Baxmayaraq ki, onun böyük şeyxləri ətbəu tabeinlərdən olublar (5).

**c)** Bir iddia da budur ki, məscid minaraləri üzərinə qoyulan ayparaların məscid yaxınlığında yaşayan insanlar üçün qiblənin istiqamətini göstərmək kimi bir xüsusiyyəti də var. Xülasə, ayparanın İslamın rəmzi kimi təqdim olunmasının peyğəmbər tərəfindən edilməsinin, sonra isə bütpərəstliklə əlaqələndirilməsinin heç bir elmi əsası yoxdur.

İddialar bir neçə olsa da bəzi tədqiqatçılar vurğulayırlar ki, Osmanlı dövlətində aypara ilk dəfə məscidlərin digər dinlərin ibadət yerlərindən seçilməsi üçün istifadə olunub, bir müddət sonradan isə qiblə istiqamətinin təyin olunması üçün istifadə edilib, bu da ayparanın açıq hissəsinin qibləni göstərməsi ilə təyin edilmişdir.

**Dördüncüsü:** Bir çox insanlar müsəlmanların əsrlər boyu öyrəşdikləri, sonradan üzərində olduqları adətləri, İslam dininin özüylə qarışdırırlar. Müsəlmanlar dünyanın bir çox yerlərində yaşayırlar və onların adət-ənənələri müxtəlifdir. Bəzi insanlar da adətlər ilə İslamı qarışdırırlar. Müasir dünyada ən təəssüf doğuran

hallardan biri də bəzi camaatların, firqələrin və ya müsəlmanların adətlərinin İslamla qarışdırılması var. Ona görə də İslam dinini yaxşı öyrənməli, yaxşı araşdırmalıyıq, İslamın ilkin dövrlərində olan əməllər, sonradan çıxan əməllər nələrdir, nə məqsədlə ortaya çıxardılıb, müsəlmanların arasında necə yayılıb və s. bütün bunları bilməklə həm dinimizi yaxşı bilmiş, həm də bəzi batil iddiaçıların şübhələrini dəf etmiş olarıq.

**Beşincisi:** Tarix boyu insanların götdükləri ay, günəş, ulduz və s. kimi təbiətdə aydın görünən nişanələr müxtəlif xalqlar tərəfindən bu gün də istifadə olunur. Bir çox ölkələrin bayraqlarında ulduz, ay, hətta günəş kimi simvolların olması bunu onların mütləq mənada bir-birindən götürmələri mənasına yozula bilməz. Məsələn, türk xalqlarının da aypara rəmzindən geniş istifadə etməsi bir faktdır, peyğəmbərdən doqquz əsr sonra Osmanlılar vasitəsilə digər müsəlmanların da ayparadan istifadə etməyə başlaması, yaxud dünyanın bir çox ölkəsində fərqli sayda guşələri olan ulduzlar və fərqli sayda ulduz şəkilləri olan bayraqlar da bizə bu mövzunu darlaşdırmaq istəyən ateistlərə və başqalarına mövzunun düşündüklərindən daha geniş olduğunu göstərir.

**Nəticə**: Bu araşdırmada isbat olundu ki, məscidlər üzərindəki ayparalar Muhəmməd peyğəmbərin tərəfindən qoyulmamışdır və sonradan məscidlər üzərində istifadə

edilən ayparaların da bütpərəstliklə heç bir əlaqəsi yoxdur.

**Qeydlər və istinadlar:**

1 – Qarşıda mənbələrdən bəziləri veriləcək.

2 - Bax: "Vəfəyətül-Əsləf" əsəri. Həmçinin bax: "ət-Təratib əl-İdəriyyə. Əbdül-Heyy Kəttani. 1/320.

3 - Bu dəlillərdən: "Səndən yeni doğan aylar barəsində soruşurlar. De: “Bunlar insanlar və həcc üçün vaxt ölçüləridir" (əl-Bəqərə. 189) ayəsidir.

4 – əl-İsabə fi Mərifətis-Səhabə. İbn Həcər.  3/72.

5 - Ətraflı bax: Təqribut-Təhzib. 362/1; Təhzibut-Təhzib. 66/4.

# İslamda cizyə vergisi barədə bir şübhəyə cavab

**Şübhə belədir:** *Əgər İslam dini rəhmət dinidirsə, nə üçün onu qəbul etməyənlərdən cizyə (can vergisi) alırdılar?*

**Cavab:** Cizyə İslami bir qanundur. Buna can vergisi də deyilir. Cizyəni yalnız qeyri-müsəlmanlardan olan kişilər ödəyir və bu vergi İslam dövlətinə ödənir. Qocalar, qadınlar və uşaqlar cizyə ödəmirlər, onlar bu vergidən azaddırlar. Xəstələr, kasıblar, dilənçilər, əsirlər də bu vergidən azaddırlar. Yoxsul rahiblər də bu vergidən azaddırlar. Baxmayaraq ki, onlar xristianlıq dininin təbliğatçıları hesab olunurlar.

Sərvəti, var-dövləti olmayan korlar və şikəst olanlar cizyə ödəmirlər. Beləcə aydın olur ki, İslam hüququnda cizyə alınarkən insanların iqtisadi-sosial statusu və maddi imkanı nəzərə alınır.

Cizyə vergisi müsəlmanların fəth etdikləri torpaqlarda qeyri-müsəlmanlardan onlara verilən aman, əminamanlıq qarşılığında tutulan vergidir. Qeyri-müsəlmanlar cizyə ödəməklə iki haqq əldə etmiş olurlar. Bu haqda əl-Mərvərdi (Allah ona rəhmət etsin) "əl-Əhkam əs-Sultaniyyə" əsərində demişdir: "Onların

(qeyri-müsəlmanların) cizyə vergisi ödəməklə iki haqqı əldə etmələri lazımlı olur. Birincisi: toxunulmazlıq. İkincisi: himayə edilmə, beləcə əldə edilmiş toxunulmazlıq ilə əminamanlıqda olmaları, himayə edilmələri ilə də qorunmuş olmaları gerçəkləşir (1).

İmam əl-Qurtubi (Allah ona rəhmət etsin) isə öz təfsirində demişdir: "Cizyə əhli cizyə vergisini ödədikləri zaman onların nə meyvələrindən, nə ticarətlərindən, nə əkinlərindən heç nə götürülməz. Ölkə başçısına (imama) gərəkən budur ki, onların düşmənlərinə qarşı vuruşsun və bu döyüşdə onların özündən (cizyə verənlərin) də dəstək istəsin...Sonra isə deyir: "Sanki onlar bu cizyəni özlərinə verilmiş əminamanlıq qarşılığında ödəmiş olurlar"(2).

Dr. Rağib əs-Sircani "əl-Cizyətu fil-İslam" (İslamda cizyə) kitabında deyir: "Diqqət çəkən məqamdır ki, cizyə mövzusunda tənə edən hər kəs, onu xalqların aşağılanması, onlara edilən zülm və məcburetmə formalarından biri kimi vəsf edir. Onlar gərək bilsinlər ki, onlar cizyə vergisi ödəyirlərsə, bunun müqabilində müsəlmanlar da zəkat vergisi ödəyirlər. Belə bir kəs həmçinin bilməlidir ki, cizyə vergisində ödənilən məbləğ müsəlmanların ödədikləri zəkatdan olduqca azdır. Müsəlmanlar Əndəlüsə daxil olduqları zaman cizyə ödəməsi gərəkən şəxslər müsəlmanlara adambaşına ildə

yalnız bir dinar məbləğində cizyə vergisi ödəyirdilər. Müsəlman isə öz malı əgər zəkat çıxartmaq üçün tələb olunan həddə çatıbsa və üzərindən də bir il keçibsə, əlində olan malının hamısının miqdarından 2.5 % ödəməli olur. Özünə aman verilmiş bu zimmi (qeyri-müsəlman) İslamı qəbul etdiyi təqdirdə onlardan bu cizyə vergisi alınmır.

Əgər o müsəlmanlar tərəfindən düşmənə qarşı vuruşarsa, müsəlmanlar ona bunun qarşılığını ücrət şəklində ödəyərlər. Beləcə, Müsəlmanların zəkat şəklində ödədikləri məbləğ kitab əhlindən (yəhudi, xristian) və başqalarından aldıqları cizyə məbləğindən dəfələrlə çoxdur. Cizyə vergisinin özü də dünyadakı bir çox vergilərdən çox aşağıdır. İllik gəlirinin 10 və ya 20 %-ni vergi ödəyən nə qədər insanlar var. Hətta 50% bəzən 70 % vergi ödəyən şəxslər var. Halbuki, İslamdakı zəkat miqdarı 2.5 % zəkat miqdarını keçmir. Cizyə vergisi isə müsəlmanların ödəməsi vacib olan vergidən (zəkatdan) daha az bir məbləği ehtiva edir. Bu aspekdən cizyə vergisi dünyada ən aşağı vergi hesab edilə bilər. Hətta, bu vergi, dünyada hakimiyyətdə olan hökmdarların öz xalqlarına, vətəndaşlarına təyin etdikləri vergilərdən olduqca çox azdır. Buna əlavə olaraq, Allahın Elçisi (sallallahu aleyhi və səlləm) kitab əhlinə qarşı onların gücləri çatmayan işləri yükləməməyi əmr etmişdir. Əksinə, onlara zülm edib, əziyyət verən

kimsələrə qarşı sərt ifadələrlə danışmışdır. O (sallallahu aleyhi və səlləm) demişdir: "özüylə (aramızda) əhd peyman olanlara (müahidlərə) qarşı zülm edən, aşağılayan, gücləri çatmayan işləri yükləyənlər və yaxud da könlü istəmədən ondan bir şey götürən kimsəyə qarşı Qiyamət günü mən şikayətçi olacağam" (3).

Başqa bir hədisdə peyğəmbər (sallallahu aleyhi və səlləm) buyurmuşdur ki: "Kim bir müahidi qətlə yetirərsə, cənnətin qoxusundan məhrum olar"(4). Deməli, kim müsəlmanlarla əhd bağlamış kimsəyə qarşı hansısa bir pis rəftar edərsə, İslam dini belə əməldən çəkindirir. Bu haqda hədislər çoxdur.

Həmçinin, də cizyə vergisi dində məcburiyyət olmadığına dəlillərdən biridir. Necə ki, Qurani- Kərimdə uca Allah buyurur: "Dində məcburiyyət yoxdur". (əl-Bəqərə. 256) Yəni, əvəlcədən başqa dində olanlara İslam təqdim edildiyi zaman ya müsəlman olacaqsan, ya da öləcəksən deyə seçim yoxdur. Əksinə, onlar cizyə ödəməklə dinlərində qalır və başqa hüquqlar da əldə edirlər. Təbii ki, əgər istəsələr, müsəlmanlığı da seçə bilərlər.

Gəlin, bu məqamda dünyada torpaqlarına güc sahibləri olan bir ordunun daxil olduğu bir xalqın halını

təsəvvür edək ki, onlar yaşadıqları doğma torpaqdan çıxmırlar, orada qalırlar, qaçqınlıq-köçkünlüklə üzləşmirlər, öz torpaqlarında əkib-becərirlər, onlardan heç kim qətl edilmir, bəzən onların hüquqlarını o himayəsinə keçdikləri yeni dövlət qoruyur. Həqiqətən də bu, rəhmətdən başqa bir şey deyil.

Hətta, xəlifə Ömər ibnil-Xəttabın (Allah ondan razı olsun) zamanında o qeyri müsəlman olan kitab əhlinin kasıblarına dövlətin xəzinəsindən xüsusi yardım üç pul ayırmışdı. Bu bilirsinizmi nə deməkdir? Görün İslamın haqq-ədalət, insaf ölçüsü hansı həddə kimi olmuşdur? Müsəlmanların kafir hesab etdikləri bir toplumun kasıblarına yardım etməkdə nə qazancı ola bilərdi ki? Deməli, məqsəd asmaq-kəsmək, ancaq cizyə toplayıb xəzinə doldurmaq deyil. Necə ki, İslamda döyüşdən məqsəd də öldürmək, asmaq-kəsmək deyil. Bu haqda da digər yazılarımızda ətraflı bəhs etmişik.

Cizyə o qədər yüngül bir vergidir ki, kimsə onu ödəməkdən boyun qaçırıb ölümlə üz-üzə qalmaq istəmir. Çünki, cizyə vermək onların dinlərində qalmaq hüququnu da qoruyub saxlayır. Onlar cizyə ödəməklə öz inandıqları dinlərində qalırlar və kimsə onları müsəlman olmağa məcbur edə bilməz. Eynilə də cizyə ödəməklə İslam dövlətində müəyyən hüquqlar əldə etmiş kəslər

üçün də İslam dövlətinin beytül-malından (xəzinəsindən) pullar xərclənir. Beləcə öz can və din hüquqlarını, azadlıqlarını qorumuş qeyri-müsəlmanlar İslam dövlətinin onlara təqdim etdiyi xidmətlərdən də yararlanırlar və bu xidmətlər heç də məsrəfsiz başa gəlmir və bir növ ortada pul tədavülü olur. Ən azından çəkilən xərclərə görə İslam dövləti zərər görmür. Beləcə, bir yanlış fikir də ortadan qalxmış olur və aydın olur ki, cizyənin ödənməsinin özündə bir rəhmət var. Bu rəhmət imperial güclərlə müqayisə olunmayacaq dərəcə böyükdür. Çünki, tarix boyu fransızların, ingilis və rusların işğal etdikləri ərazilərdə törətdikləri qətliamlar danılmazdır. İslam dini isə cizyə vergisi ilə qətliamların da qarşısını almış olur.

İmperial güclər belə işğal etdikləri ərazilərdə qadın, uşaq, yaşlı demədən insanları öldürdükləri halda, İslam dini təməlindən zəiflərin öldürülməsinə qarşı qanunlar qoymuşdur, İslam Peyğəmbərinin (sallallahu aleyhi və səlləm) bu haqda hədisləri də çoxlarınıza bəllidir. Üstəlik də cizyə vergisi işin bu rəhmət yönünü daha da artırmış, hətta onların öz din və can azadlıqlarını qorumaq kimi hüquqlarını da qorumuş olur. Belə olduğu halda işin "ölüm" tərəfini qabartmaq absurddur. Çünki, ölümdən qurtulmaq cizyə verən kimsə üçün çox asan bir şeydir, bunun üçün yüksək bir məbləğ də tələb olunmur, rəmzi bir məbləğlə bir çox hüquqlar bərpa olunur.

Uca Allah buyurur: "Allah din uğrunda sizinlə vuruşmayan və sizi öz diyarınızdan qovub çıxartmayan kimsələrə yaxşılıq etmənizi və onlarla insafla davranmanızı sizə qadağan etmir. Şübhəsiz ki, Allah insaflı olanları sevir".(Mumtəhinə. 8). Bu ayət də İslamın başqa dinlərdə olanlara qarşı rəhmət dini olduğunu göstərir, həmçinin İslamın təcavüzkar din olmadığına işarət edir. Sonda bilməyimiz gərəkir ki, İslami qanunlarda hansı mövzuya baxırıqsa baxaq, insanların fitrətinə yaxınlıq, bəşər təbiətinə uyğunluq, bütün bəşəri qanunlar içində ən mötədil, ən insaflı seçim olduğunu görürük. Bunu o kəslər başa düşə bilər ki, qanunların sərt və yumşaq tərəflərindəki hikmətləri, insanların islahındakı metodları dərindən başa düşə bilmək qabiliyyətinə malikdirlər. Unutmaq lazım deyil ki, İslam qanunları ümumbəşər idarəetmə sisteminin bir hissəsi olmuşdur.

## Qeydlər və istinadlar:

1 - əl-Əhkam əs-Sultaniyyə. əl-Mərvərdi. Cizyə haqda mövzu.

2 - əl-Cəmiu li Əhkəmil Quran. əl-Qurtubi. Tövbə. 29-cu ayənin təfsiri.

3 - əs-Səxavi. Məqasidul Həsənəh. 459.

4 - Buxari. Əbvabul Cizyə. 2995.

## "Namazı üç şey kəsir - qadın, uzunqulaq və it" hədisinin izahı

**Şübhə belədir:** Əbu Hureyrədən (Allah ondan razı olsun) rəvayət olunur ki, Allahın Elçisi (sallallahu aleyhi və səlləm) buyurdu: "Namazı üç şey kəsir: qadın, uzunqulaq və it..." (1).

Bu hədisdən belə başa düşmək olarmı ki peyğəmbər (sallallahu aleyhi və səlləm) qadınla heyvanı bir tutur? Axı rəvayətin zahirindən bu başa düşülür, elə deyilmi?

**Şübhənin cavabı:**

**1 -** Bu cılız şübhədən təsirlənən müsəlman qadına və ya qeyrisinə deyirik: Ey qadın, məgər insan kimi səni hörmətli edən, sənə iradə verən, atan Adəmə mələkləri səcdə etdirən, ona səcdə etməyi özünə sığışdırmayan İblisi cənnətdən qovan və səni bir çox yaradılmışlardan üstün edən Allah, necə ola bilər ki, bu hədisdə onun

elçisi (sallallahu aleyhi və səlləm) səni heyvana və ya uzunqulağa bənzətsin? (2) Üstəlik o səni hörmətli etmiş, Quranda qadın adında “Məryəm” surəsini, kişilər adlı surə olmadığı halda, “Qadınlar” (Nisa) surəsini də Quran surələri olaraq nazil etmişdir.

**2 -** Kimsə deyə bilər ki: Necə ola bilər axı, Aişə (Allah ondan razı olsun) bu hədisi başqa bir səhabədən eşidərkən: “Bizi itlərə və uzunqulağa taymı tutursunuz?” demişdi. Cavabında deyəcəyik ki: Aişə (Allah ondan razı olsun) bu hədisi peyğəmbərin özündən heç eşitməmişdi deyə elə bilmişdi ki, bu hədis deyil və rəvayətçilərin sözüdür. Ona görə təəccüblə deyir ki: “Siz bizi bu şeylərə tay tutursunuz?” - Fikir versəniz demir ki: "Allahın elçisi (sallallahu aleyhi və səlləm) bizi nəyə tay tutur?!" Aişə (Allah ondan razı olsun) başqa səhabələr kimi bütün hədisləri bilmirdi, həmçinin başqa səhabələr kimi bütün hədislərin mənalarını da tam bilmirdi. "Həmçinin, Aişə (Allah ondan razı olsun) bu məsələdə təkbaşına ictihad etmiş və bu ictihadına əsasən danışmışdı. Başqa səhabələrdən kiminsə Aişənin dediyini deməsi məlum deyil". (3).

**3 -** Aişənin (Allah ondan razı olsun) buradakı bütün etirazı onun peyğəmbərin (sallallahu aleyhi və səlləm) bu mövzudakı bir əməlinə şahidlik etməsinə görə idi. Çünki peyğəmbər (sallallahu aleyhi və səlləm) Aişənin

kiçik otağında namaz qılarkən bəzən Aişə üzü peyğəmbərə tərəf, onun qarşısında olduğu halda böyrü üstə uzanardı, bu isə peyğəmbərin (Sallallahu aleyhi və səlləm) namazını batil etməzdi, nə də peyğəmbər onun qarşısından çəkilməsini də əmr etməzdi.

Bu haqda Aişədən (Allah ondan razı olsun) rəvayət olunur ki, o dedi: "Mən peyğəmbərlə qiblə arasında (onun qarşısında) uzanıqlı olduğum halda o gecə namazının hamısını qılardı. Vitr (tək rükətli) namazı qılmaq istəsəydi, məni oyadardı, mən də qılardım". (4).

Məhz buna görə Aişə (Allah ondan razı olsun) belə bir hədisi başqa bir səhabədən ilk dəfə eşidərkən təəccüblənir, buna "səhabənin sözü" kimi etiraz edir, çünki peyğəmbərin (sallallahu aleyhi və səlləm) felini başqa cür görmüşdü, bu söz isə zahirdə onun feli ilə uyğun gəlmirdi. Lakin həqiqətdə məsələnin izahı çox bəsitdir. Alimlər bu iki hədisi cəmləşdirmiş və namaz qılanın" qabağında dayanan" ilə "ötüb keçəni" fərqləndirmişlər. Çünki namaz qılanın qarşısından keçən oturan kəsdən fərqli olaraq gözü yayındırır, qəlbi məşğul edir.

İbn Həcər (Allah ona rəhmət etsin) bu fərqləndirmə haqda "Fəthul-Bari" əsərində İbn Battalın sözünü nəql edərək deyir: İbn Battal demişdir: "Bu və buna bənzər - qadının namaz qılan kimsə ilə onun qibləsi arasında

dayanması hədisləri (namaz qılanın qarşısında) oturmağa (oturmağın icazəli olmasına) dəlildir, qarşısından keçməyə isə dəlil deyil". (5).

**4 - Əgər sual verilsə ki** yaxşı bəs hədisdə keçən "namazı kəsir" ifadəsinə necə cavab verək? Doğurdan da namaz qılanın qarşısından keçən qadın namazı batil edir?

**Cavab belədir:** İslam alimlərinin cümhurunun (6) rəyinə görə buradakı "kəsmək" sözü namazdakı huşunun naqisliyi mənasında izah edilmişdir və namaz doğrudur, səhihdir, sadəcə namazın savabı azalmış olur, namazı yenidən qılmağa ehtiyac yoxdur. Bir də hədisdə keçən قطع (kəsmək) sözü namazı birdəfəlik kəsmək anlamında deyil. Necə ki, Yusif surəsində (7) də qadınların əllərini kəsməsi eynilə buradakı قطع (kəsmək) sözü ilə ifadə olunub, lakin, hər kəs bilir ki Yusifə heyran olan qadınlar meyvə doğrayarkən əllərini biləkdən kəsib qoparmamışdılar, sadəcə zərər verən şəkildə əllərini qanatmışdılar (8).

Deməli, bu hədisdəki "kəsmək" sözü namazın birdəfəlik kökündən batil olması, kəsilməsi mənasında deyil, sadəcə huşuya xələl gəldiyi üçün namazın savabı azalmış olur, namaz isə doğru, səhih hesab olunur.

**5 -** Yaxşı, kimsə desə ki, bunu da qəbul etdik, başa düşdük, sən de görək **burda heyvanla yanaşı qadının**

**misal çəkilməsini necə başa düşək? Bu, qadını aşağılamaq deyilmi?!**

**Cavab belədir:** Xeyr, bu ifadə qadını aşağılamaq deyil. Belə hökm verməyə tələsmədən məsələni başa düşməyə çalışmaq lazımdır. Məsələn; əgər biz iki şeyi eyni zamanda misal üçün deyiriksə, məgər bu şeylərin qeyd olunması hər iki şeyin mütləq şəkildə eyniləşdirilməsi, hökmdə və vəsflərdə eyni olması anlamına gəlməz.

Əgər bu izahı anlaya bilməsən, başqa bir misalla bunu izah edə bilərik. Məsələn, əgər sənə desəm ki, "insanın da, heyvanın da qidaya ehtiyacı var". Məgər bu o deməkdir ki, insanın qidaya ehtiyacı olduğu üçün o nəzərdə tutulan heyvandır? Yaxud da hansısa muzeylərdən birində yazılsa ki, "uşaqlarla heyvanların girişi qadağandır!" - bu o deməkdir ki, uşaqların yaradılışı, vəsfləri və başqa keyfiyyətləri heyvanlarla eynidir? Əlbəttə yox! O zaman anlaşılmalıdır ki peyğəmbərin (sallallahu aleyhi və səlləm) belə bir misal çəkməsi də zərbi-məsəl, yəni misal çəkmək qəbilindən, yaxud da cüzi bir mənada müştərək vəsfdə olmalarından hesab olunur, hansı ki kişilərin də heyvanlarla birgə qeyd olunduqları hədislər var, buna qarşıda toxunacağıq inşəAllah. mənalardan tamamilə uzaqdır!

**6 -** Yaxşı, kimsə desə ki bunu da başa düşdük, **bəs hədisdə niyə "kişi" qeyd olunmayıb, məhz "qadın" qeyd olunub?**

**Cavab belədir:** "Bu mövzuya aid kişilər haqqında da hədislər var, namaz qılanın qarşısından keçən istər kişi, istər qadın keçsin namaza eyni təsir edir, namazda huşunu azaldırlar. Ona görə də namaz qılanlara qarşılarına sütrə (9) qoymaları əmr edilib ki kimliyindən aslı olmayaraq gəlib qarşılarından keçib namazlarını batil etməsin. Ona görə alimlər sütrənin qarşısından insan keçərsə namazın pozulmadığını qeyd etmişlər. Amma, sütrənin arxasından (namaz qılanla sütrəsi arasından) insan keçərsə namazın pozulacağını vurğulamışlar.

Əgər bu məsələ aydın oldusa, nəticədə anlaşılır ki, istər qadın, istər kişi, istər də heyvan namaz qılan şəxsin qarşısından keçərsə, qarşısında sütrə olan şəxsin namazına heç bir təsiri yoxdur. Təbii ki bu təkbaşına namaz qılan şəxsə, yaxud da çoxlu sayda insana namaz qıldıran, insanların önündə duran imama da aiddir. Camaat namazında imamın qarşısından deyil, onun arxasındakı insanların qarşısından hətta uşaq, kişi, qadın, heyvan keçsə belə insanlar imama tabe olduqları üçün onların namazına bir xələl gəlməz.

*Gəlin, indi isə kişilərin heyvanlarla bərabər qeyd olunduqları hədislərdən bəzilərini qeyd edək:*

Məsələn, peyğəmbər (sallallahu aleyhi və səlləm) namazını (huşu olmadan) sürətlə qılan kəsi, yerdən dən axtaran xoruzun məsəlinə bənzətmişdir. Bu haqda hədisdə buyurur: "Sizə münafiqin namazı haqqında xəbər verimmi?! O, ikindi (əsr) namazını gecikdirir hətta (günəş) şeytanın iki buynuzu arasında - və ya üzərində - olduğu zaman ayağa qalxar, xoruzun yerdən dən götürdüyü kimi (tez-tez ruku və səcdə) edər və Allahı çox az zikr edər". (10).

Həmçinin peyğəmbər (sallallahu aleyhi və səlləm) namazda (səcdəyə gedərkən) dirsəklərini yerə yapışdıranlara lüğəvi cəhətdən kişi cinsinə edilən bir xitabla xitab edərək - bu əməldən çəkindirmək üçün onları özlərini - itə və yırtıcı heyvanlara bənzətməkdən çəkindirmişdir. Burda məqsəd çəkindirməkdir və xitab lüğəvi cəhətdən kişilərə deyilsə də, hədisin ümumi mənası həm kişilərə, həm də qadınlara aiddir. Lakin, bu hədisin zahirinə görə kimsə deməyib ki, peyğəmbər (sallallahu aleyhi və səlləm) bu hədisdə kişiləri təhqir etdi. Sadəcə o, dirsəkləri yerə yapışdırmağı bu cür heyvanlar etdiyi üçün onlara bənzəməkdən çəkindirmək üçün bu heyvanlar kimi dirsəkləri yerə yapışdırmamağı tövsiyə etmişdir. Baxmayaraq ki, bu hədislərdən də

kiminsə qərəzli mənalar çıxarması mümkün ola bilər. Həmin hədis belədir: Ənəs ibn Malik (Allah ondan razı olsun) rəvayət edir ki peyğəmbər (sallallahu aleyhi və səlləm) buyurdu: "Səcdəyə mötədil şəkildə gedin. Sizdən heç biri dirsəklərini itlərin yerə yapışdırığı kimi qoymasın". (11).

Biz bir çox vaxtlarda heyvanlara bənzətmədə kiminsə tərifl ənməsini də qəsd edə bilirik. Bu bənzətmələr həmişə pis mənada olmur. Məsələn, filankəs "aslan kimidir" dedikdə onun şücaətinə, cəsarətinə bənzətmə edilir. Yaxud, filankəs "şahin kimidir" deyildikdə onun özünü izzətli aparmasına, inadkarlığına, filankəs "canavar kimidir" deyildikdə isə onun ürəkli, qorxmaz və zirək olmasına bənzətmə edilir.

Həmçinin, bu izahlardan sonra namaz qılanın qarşısından keçməyin təhlükəli olması barədə digər hədislərlə də tanış olsaq məsələni daha yaxşı anlamış oluruq. Bir hədisdə peyğəmbər (sallallahu aleyhi və səlləm) buyurmuşdur:

"Əgər namaz qılanın qarşısından keçən kimsə hansı günahı qazandığını bilsəydi, onun qarşısından keçməkdənsə qırx dayanardı. Əbun-Nadr dedi: bilmirəm qırx günmü, yoxsa aymı, yoxsa ilmi dedi?" (12).

Başqa hədisdə Əbu Səid əl-Xudri rəvayət edir ki, peyğəmbər (sallallahu aleyhi və səlləm) buyurmuşdur:" Sizdən biri onu insanlardan ayıran bir şey (sütrə) ilə namaz qılarsa və bu zaman kimsə onun qarşısından keçmək istəyərsə, qoy onu itələsin (uzaqlaşdırsın), əgər o üz döndərərsə (israrla qarşısından keçmək istəyərsə) onunla mübarizə aparsın. Çünki, o şeytandır". (13).

Sonda aydın oldu ki, şübhədə qeyd olunan hədisdə heç bir ziddiyyət yoxdur. Ona görə də bu cür hədisləri düzgün başa düşməyə çalışmalı, İslami izahları öyrənməliyik ki, nə hədis inkarçıları, nə də ateistlər bizi bu mövzularda çaşqınlığa sala bilməsinlər. Sonda peyğəmbərimiz Muhəmmədə, onun əhli beytinə və səhabələrinə Allahın salavatı və salamı olsun!

## Qeydlər və istinadlar:

1 - Səhihi Müslim. Müslim ibnil-Həccəc. 511.

2 - Fətətud-Dabəb Əhadisul-Mər'əti... Əynə əl-Xaləl? səh. 123. Mərkəzu Dələil.

3 - Movsuatu Bəyənil-İsləm. الطعن في حديث يقطع الصلاة: المرأة والحمار والكلب mövzusu.

4 - Səhihi Müslim. Nəvəvinin şərhi ilə. Namaz kitabı. Namaz qılanın qarşısında uzanmaq fəsli. 3/1077; no: 1121.

5 - Fəthul-Bari bişərhi Sahih əl-Buxari. İbn Həcər əl-Asqalani. Təhqiq: Muhibbid-Din əl-Xətib və başqaları. 1/706.

6 - Nəvəvi (Allah ona rəhmət etsin) demişdir: "Malik, Şafi, Əbu Hənifə, sələflərdən və xələflərdən olan alimlərin cumhuru demişlər: "Bunlardan və başqalarından kiminsə (namaz qılanın) qarşısından keçməsi namazı batil etmir. Onlar bu hədisi belə izah ediblər ki, buradak "القطع" (kəsmək) sözü - bu şeylərin qəlbi məşğul etməsinə görə - namazı naqis etməsidir. Heç də bu sözlə namazın batil olması nəzərdə tutulmur". (Şərhu Səhih Müslim. Nəvəvi. Təhqiq: Adil Abdulmövcud və Əli Muavvad. 2001. Məkkə. 2-ci nəşr. 3/1077.

7 - Uca Allah buyurur: "Qadın onların hiyləsindən xəbər tutduqda məclis qurub onları qonaqlığa dəvət etdi, onlar üçün mütəkkələr hazırladı, sonra da onların hər birinə bir bıçaq verdi və Yusufa: “Onların qarşısına çıx!”– dedi. Qadınlar Yusufu gördükdə onu o qədər tərifləPdilər ki, unudub meyvə əvəzinə öz əllərini kəsdilər və dedilər: “Allah saxlasın! Bu ki bəşər deyil. Bu ancaq hörmətə layiq bir mələkdir!”" (Yusuf. 31).

8 - Fətətud-Dabəb Əhadisul-Mər'əti... Əynə əl-Xaləl? səh. 125. Mərkəzu Dələil.

9 - Sütrə istilahi cəhətdən: bu, namaz qılan kimsənin qarşısına qoyduğu va ya dikəltdiyi əsas və başqa şeylərdir və yaxud da namaz qılanın qarşısından

keçənlərə mane olub o yeri namazgaha çevirən vasitədir. (əl-Movsua əl-Fiqhiyyə. 24/177). Xülasə insanlar sütrə vasitəsilə bilirlər ki, bu şəxs namaz qılır. Sütrənin hündürlüyü bir dirsək olur, insan qarşıya keçib divar, digər hündür yerləri də özünə sütrə seçə bilər.

10 - əl-Müsnəd. Əhməd. 13589.
11 - Səhih əl-Buxari. 822; Səhihi Müslim. 493.
12 - Səhih əl-Buxari. 510. Səhihi Müslim. 507.
13 - Səhih əl-Buxari. 509. Səhihi Müslim. 505.

## Cəhənnəm əzabı əbədidir, dünya həyatı isə qısadır!

**Şübhə:** *Cəhənnəm əzabı əbədidir, necə ola bilər ki qısa bir dünya həyatında insan dinə inanmadığı üçün əbədi bir əzaba düçar olsun? Məgər bu ədalətdəndirmi?*

**Cavab:** Küfr günahı əzəmətli Allah haqqında olan olan günahdır! O kafirləri bu əzabdan çəkindirmiş və xəbərdar etmişdir. Buna baxmayaraq, inkarçılar yenə bu günaha düşürlər. O zaman kimi və nəyə görə qınamalıyıq? Uca Allah buyumuşdur: "Allah sizi (öz

əzabı ilə qorxudur ki) Ondan həzər edəsiniz". (Ali İmran. 28).

"Onların üstündə də, altında da oddan təbəqələr olacaq. Allah Öz qullarını bununla qorxudur. Ey qullarım! Məndən qorxun!" (əz-Zümər. 16).

İbn Kəsir (Allah ona rəhmət etsin) özünün Qurani-Kərimə yazdığı təfsirində deyir: "Allah sizi öz cəzası ilə qorxudur" (1).

Həmçinin İbn Cərir ət-Təbəri bu ayənin təfsirində demişdir: "Sizə qəzəblənəcəyi əməlləri etmənizlə onun sizə qəzəblənməsi, siz bunun gerçək olduğunu hər kəsin etdiyi yaxşı və pis əməllərini qarşısında hazır görəcəyi və özü ilə pis əməllərinin arasında çox böyük məsafə olmasını arzulayacağı gün görəcəksiniz. O sizə qəzəblənəcək və onun ağrılı-acılı əzabından sizi kimsə qurtara bilməyəcək". (2).

Bu ayələr axirəti inkar edənlərə sanki: "əgər Allaha inanırsansa, sizi çəkindirdiyimiz, xəbərdar etdiyimiz məsələnin həqiqətinə inanırsınızsa, nə üçün Allahı və axirəti inkar etdiniz? Nə üçün son din olan İslam dininə tabe olmadınız?" sualını verir. Əksinə, özünüzü bu böyük təhlükəyə ataraq belə bir sual verir, haqqı inkar edir və etiraz edirsiniz? Yox əgər siz - iddia etdiyiniz kimi - Allaha inanmırsınızsa, o zaman nə üçün özünüzü

əslən var olduğuna inanmadığınız bir cəhənnəm əzabı haqda mübahisələrlə məşğul edirsiniz?! Bunda məqsədiniz nədir?

**İkincisi:** Sayılı günlərdən ibarət olan və qısa bir dünya həyatında o küfr və ateizm (dinsizlik) üzərində ölən kimsənin görəsən Allaha iman gətirmək niyyəti var idimi?! Yoxsa o insan öldüyü zaman belə nə qədər uzun və əbədi yaşasa belə öz inancsızlığı, küfrü, ateistliyi üzərində davamlı olmaq niyyəti var idi? Əgər onun niyyətində həqiqətən də doğru və əzmkarlıqla olan inanmaq istəyi və qəlbində xeyir varıydısa, bilinməlidir ki Allah onun niyyətini zay etməz. (Ola bilsin ki bu səhih hədislərdən birində bizə xəbəri verilən 99 nəfəri öldürən sonra tövbə yolunda ölən kimsənin halına bənzəsin. Allah da onun tövbəsini qəbul etdi, onu bağışladı, hətta onun tövbə etməsini belə asanlaşdırdı). Amma əgər o əbədi yaşasa belə, nə qədər yaşasa belə ye niyyətində iman gətirmək yoxdursa, niyyətində ancaq inkar etmək varsa, görəsən onun əbədi cinayətinə görə Allah ona əbədi bir əzab verərsə, ona zülm etmiş olurmu? Əlbəttə yox!

**Üçüncüsü:** Ağıl sahiblərindən kim deyib ki cəzanın cinayətlə vaxt baxımından uyğun gəlməsi vacibdir? (3) Məgər bu dünyada qatilin, oğrunun, quldurun cəzası qətli törədənin, oğruluq edənin, quldurluq edənin etdiyi

kimi yalnız bir neçə dəqiqə içindəmi tamamlanır? Yoxsa doğru olan cəzanın cinayətə görə verilməsidir?

Ola bilsin ki oğruluq bir neçə saniyə çəksin və lakin insan buna görə illərlə həbsxabada cəza çəksin. İnsan qətli də bir neçə saniyə çəkir, lakin qatil kimsə illərlə bunun cəzasını çəkir. Quldurluq edən bu əməli qısa bir vaxtda edə bilir, lakin cəzası çox şiddətli olur. Biz hələ bu cinayətlərin şəriətdəki cəzasından danışmır, hər kəsin bildiyi misalları veririk. Deməli dünya həyatında belə bir neçə saniyədə və ya bir neçə dəqiqə içində baş verən cinayətlərin cəzası illərlə çəkə bilir. O zaman bu etirazı edənlər cinayətlərin mahiyyətinə, dərəcəsinə və növünə baxmalıdırlar ki bu şübhələri aradan qalxsın.

Sən ola bilər ki bir uşağa pislik edəsən və heç kim buna fikir verməsin. Lakin ola bilər ki bir dostuna və ya müdirinə və ya, mühafizəçiyə və ya hansısa bir yerin böyüyünə pislik edəsən və cəzanı haqq edəsən. Hər dəfə cinayətin cəzası şəxsinə qarşı cinayət törətdiyin kimsənin nüfuzuna, dərəcəsinə görə ağırlaşır. Allahın haqqı isə hər şeydən ucadadır. O yoxdan yaradıb və bizdən yalnız ona ibadət etməyimizi istəyir. Biz isə nankorluq edib onun varlığını inkar edəndı və ya ona qarşı küfr edəndə bu əməl onu çox qəzəbləndirir. Bizdən biri övladını illərlə tərbiyə edib sonra ondan ləyaqətsizlik, təhqir, inkar görəndə (Allah qorusun) necə

qəzəbləniriksə - Allah isə misalların ən yüksəyinə, bənzərsizinə layiqdir - görün indi uca Allah yoxdan yaratdığı qullarını onu tanımadığını gördükdə onlara necə qəzəblənir?! Bunu düşünmək belə mümkün deyil. Lakin həqiqət budur ki Allahı tanımayıb onu inkar edənlərə o qəzəblənir. Uca Allah öz kitabında xəbər verdiyi kimi bəndələri ona zərər verə bilməzlər, lakin bəndələri Allaha və elçisinə əziyyət (4) verə bilirlər. Ona görə də uca Allah buyurmuşdur: "Onların atəşin qarşısında dayandırıldıqları zaman: “Kaş ki, biz dünyaya qaytarılıb Rəbbimizin ayələrini yalan saymayaydıq və möminlərdən olaydıq”– dediklərini görəydin! Xeyr! Daha öncə gizlətdikləri günahlar onlara aşkar oldu. Əgər geri qaytarılsaydılar, yenə də özlərinə qadağan olunmuş şeylərə qayıdardılar. Şübhəsiz ki, onlar yalançıdırlar". (əl-Ənam. 27-28).

Başqa bir ayədə hər şeyi bilən uca Allah belə buyurmuşdur: "Nəhayət, onlardan birinə ölüm gəldiyi zaman deyər: “Ey Rəbbim! Məni geri qaytar. Bəlkə, tərk etdiyim yaxşı əməlləri indi edəm.” Xeyr! Onun bu dedikləri ancaq boş bir sözdür. Onların arxasında diriləcəkləri günə qədər bərzəx həyatı vardır". (əl-Muminun. 99-100).

Bax beləcə, bu şübhəni ağıla, məntiqə və Qurana, hədislərə ərz etdikdə necə ziddiyyətli, batil bir şübhə olması ortaya çıxır.

## Qeydlər və istinadlar:

(1) Bax: Təfsirul-Quranil-Azim. İbn Kəsir. Ali İmran surəsi 28-ci ayənin təfsiri.

(2) Bax: Cəmiul-Bəyən an Təfsiri Əy əl-Qurən. İbn Cərir ət-Təbəri. Ali İmran surəsi 28-ci ayənin təfsiri.

(3) Əhməd Həsənin "Usus Ğaibəh, 25 məs'ələh fi muşkilətiş-şər" kitabı. Bax: səh. 180. Mərkəzu dələil.

(4) Qeyd: Əziyyət verilərkən zərərin hasil olması şərt deyil. Necə ki bir insan yolda pis bir hadisənin şahidi olmaqla və ya yoldakı pis bir qoxunu hiss etməklə əziyyət çəksin. Lakin həqiqətdə nə pis mənzərə, nə də pis qoxu zərərə səbəb deyil. Buradan Qurani-Kərimdəki bu ayənin incə mənasını başa düşmüş oluruq: "Şübhə yoxdur ki, Allaha və Onun rəsuluna əziyyət verənləri Allah həm bu dünyada, həm də Axirətdə lənətləmiş və onlara alçaldıcı bir əzab hazırlamışdır". (Əhzab. 57). Ona görə də hədisi-qüdsidə rəvayət olunub ki uca Allah buyurur: "Adəm övladı zamanı söyməklə mənə əziyyət edir, mən

zamanam. Hökm mənim əlimdədir. Gecəni və gündüzü bir-birinə qatıram". (Buxari. Müslim).

## Nə üçün tək ruha deyil, cismə də əzab veriləcək?

**Sual:** Əgər işi görən, feli görən insanın nəfsi istəyidirsə, (məsələn istənilən günahı etmək qərarını vermək olsun) bütün günahlar, pis əməllər insanın nəfsi istəyi ilə olursa, deməli, cismi bunu öz-özünə istəyə bilməz və nəfsi onu bu pis əməllərə vadar edir. Məsələn, insanın nəfsi istəməzsə, insan hər hansısa bir oğurluğa getməz və yaxud da bədən hər hansısa bir zina etməz. Yəni, bu günahları görən insanın nəfsidirsə, nə üçün cəhənnəmdə insanın cismi də yanmalı, əziyyət çəkməlidir? Əgər insanı idarə edən onun ruhudursa, nəfsidirsə, onun cismi əməllər üçün heç bir qərar vermirsə, insan öldüyü zaman cismi onu tərk edirsə, demək onun cismindən heç bir şey asılı deyil. Bəs belə olduqda nə üçün cəhənnəmdə insanın cismi də yanır? Cismin təqsiri, günahı nədir axı?

**Şübhənin cavabı:**

**Birincisi: Ruh haqqında rəylər:** *Bu məsələni başa düşmək üçün ilk öncə bu haqda olan görüşləri, rəyləri bilməkdə fayda var.*

*Müxtəlif dinlərdə, fəlsəfələrdə ruh, ruhun mahiyyəti və onun bədənlə əlaqəsi haqqında müxtəlif izahlar verilmişdir. Gəlin bu məsələyə qısaca toxunaq;*

Hindilər ruhların reinkarnasiyaya (1) uğrayacağına inanırlar. Yunan fəlsəfəsinə görə isə ruhla bədənin əlaqəsi haqda müxtəlif görüşlər deyilib. Yəhudilər ruh haqda təxminən səmavi dinlərin etiqadında olsalar da, onlardan yəhudilərinin ruhunun digər insanlardan üstün olmasını deməklə (2) fərqlənmişlər. Xristianlanlara görə əməllər ruh və cəsəddən sadir olur (3). Qədim romalıların ruh haqqında inanclarında isə bir qədər bütpərəstlik elementləri var idi (4). Qədim Misirlilər isə ruhun bədəndən ayrıldıqdan sonra yenidən bədənlə bitişdiyinə, üstəlik də diri insanlarla kontakta girdiyinə inanırdılar (5).

Buddistlər də ruhun cismlə əlaqəsi mövzusunda reinkarnasiyaya inanırdılar (6). Hinduslarda da bu inanc olmuşdur (7). Məcusilərdən isə bəzi tayfalar

reinkarnasiyaya inanmış, bəziləri isə ölümdən sonrakı dirilişə inanmışlar. Araşdırmaçılar məcusilərin ruh mövzusunda səmavi dinlərin etiqadından təsirləndiyini vurğulamışlar. Həmçinin digər firqə və tayfalardan bəziləri əzabın yalnız ruha, bəziləri yalnız bədənə, bəziləri isə həm ruha, həm də bədənə olduğunu bildirmişlər.

**İkincisi: Ruha əzab olunması mövzusunda Əhli Sünnənin mövqeyi;** İslam dininin ruh haqda ümumi etiqadı səmavi dinlərin düzgün, təhrif olunmamış etiqadı üzərindədir. İslama görə, insanın həm ruhu, həm də cisminə nemət veriləcək və ya əzab olunacaqdır. Bu nemətverilmə və ya əzabverilmə prossesi bəzən ruha, bəzən isə həm ruha, həm də bədənə veriləcəkdir. Bu fərqliliklər insanın keçdiyi beş mərhələdə öz fərqlərini biruzə verir:

İnsan ruhlar aləmində bədənsiz olur. Ana bətnində qırx günə kimi ruhu olmur, qırxıncı günü ona ruh verilir (9). Dünya həyatı üçüncü mərhələdir ki burada da insan əzabı da, mükafatı da həm cismi, həm də ruhuyla hiss edir (10). Dördüncü mərhələ qəbirdə gözləmə mərhələsidir. Bu mərhələdə ya ruh cismlə birgə əzab olunur, ya da nemət üzərində olur. Bunun dəlilləri də qarşıda gələcəkdir. Beşinci mərhələ isə insanların

məhşər günü üçün yenidən dirilib qəbirdən çıxmalarından sonra başlayır. Burada da insanın həm cisminə, həm ruhuna nemətverilmə və ya əzabverilmə baş verəcəkdir. Buna dəlil Qurani-Kərimin bu ayəsidir: "Şübhəsiz ki, ayələrimizi inkar edənləri oda atacağıq. Hər dəfə onların dəriləri yandıqca, əzabı daim dadsınlar deyə, Biz o dəriləri başqa dərilərlə əvəz edəcəyik. Həqiqətən, Allah qüdrətlidir, hikmət sahibidir". (Nisa. 56).

Bu ayənin təfsirində bəzi alimlər dünyadakı dərinin yanacağından, bəziləri isə yandıqca dünyadakı dəriyə bənzər, Iakin əzaba dözümlü olsun deyə başqa dərinin yanacağını qeyd etmişlər. Amma "əzabı daim dadslnlar deyə" görüşünə görə isə İbn Cərir ət-Təbəri demişdir: "Əzabı daim dadsınlar deyə" o buyurur ki: Bu dünya həyatında Allahın ayələrini inkar etdiklərinə və ayətləri yalanladıqlarına görə onlara bunu edərik, hətta əzabın ağrısını, kədərini və şiddətini dadsınlar". (11).

Şeyxülislam ibn Teymiyyə demişdir: "Əhli Sünnə vəl-Camaatın ittifaqına görə əzab və nemət ruhla bədənin hamısına birgə verilir. (Həmçinin) Bədəndən ayrı olmaqla da ruha nemət və əzab verilir. (Həmçinin) Ruh bədənə, bədən də ruha bağlı olduğu halda da da nemət və əzab hər ikisinə birgə, bir arada verilmiş ola bilir. Necə ki ruha bu şeylər bədəndən ayrı olduqda da

verilə bilir". (12) Bu rəy, İbn Teymiyyənin təsdiqlədiyi rəydir, hansı ki alimlər keçmişdə də, müasir dövrdə də bu rəyi öz kitablarında bir-birindən nəql etmişlər (13).

İbn Kəsir (Allah ona rəhmət etsin) zülm edənlərdən mələklərin canlarını aldığı kimsələr haqqında demişdir: "Onlar öldükləri gündən ruhları ilə cəhənnəmə daxil olarlar, bədənləri isə qəbirlərində onun istisindən və zəhərindən təsirlənər" (14).

**Üçüncüsü: Qəbir əzabı:** Həmçinin, ümmətin ittifaqı ilə qəbir əzabının həm ruha, həm də bədənə verilməsi sabitdir. Qəbir əzabının və nemətinin ruha olması əsas olaraq bilinən məsələdir. Ola bilsin ruh bədənlə bitişsin, əzab və ya nemətdən bir şeyə çatsın. Bu haqda şeyxulislam ibn Teymiyyə demişdir: "Bilinməlidir ki, ümmətin sələflərinin və imamlarının şəxs vəfat etdiyi zaman o ya əzab, ya da nemət üzərində olur. Bu əzab və ya nemət onun ruhuna və bədəninə olur. Həqiqətən də ruh bədəndən ayrıldığı zaman ya nemət, ya da əzab içində olur. Bəzən ruh bədənlə birləşir, bununla da ruh üçün nemət və ya əzab əmələ gəlir, sonra böyük Qiyamət günü olduğu zaman ruhlar öz bədənlərinə qayıdarlar və (insanlar) qəbirlərindən qalxıb aləmlərin Rəbbinə tərəf gedərlər. Bütün bunların hamısı hədis və sünnə alimlərinə görə ittifaq edilmiş məsələlərdir.

Bu məsələyə dəlalət edən hədislər çoxdur. Bu hədislərdən biri belədir; Bəra ibn Azibdən rəvayət olunan hədisdə o deyir: Allahın elçisi (sallallahu aleyhi və səlləm) ilə ənsardan olan bir kişinin cənazəsi üçün çıxdıq. Gedib qəbirə çatdıq, qəbir hələ tam qazılmamışdı... (Sonra uzun hədisin bu hissəsində qulun qəbirdə necə sorğu-sual edilməsini qeyd edilərkən belə qeyd olunur): "Sonra onun ruhu bədəninə qaytarılar və onun yanına iki mələk gələr, onu otuzdurar və Rəbbin kimdir deyə soruşarlar" (15).

Bu uzun hədisdə ruhun bədənə qaytarılması, qabırğalarının bir-birinə girməsi açıq şəkildə qeyd olunmuşdur ki bu da qəbirdə əzabın həm ruha, həm də cismə verilməsinə dəlildir.

Başqa bir hədisdə isə mömінin ruhunu rəhmət mələklərinin alması, kafirin ruhunu isə əzab mələklərinin alması vəsf edilib, hədisdə qeyd olunur ki "mömінin ruhu ən gözəl müşk qoxusu kimi çıxar, kafirin ruhu isə ən pis leş kimi çıxar" (16).

Digər bir hədisdə isə Kəb ibn Malikdən rəvayət olunur ki peyğəmbər (sallallahu aleyhi və səlləm) buyurdu: "Mömінin ruhu cənnətdə uçub cənnət ağacından yeyər, Allah onu dirildib cəsədinə qaytaracağı günə kimi elə qalar" (17).

Bu hədislərdən bəzisi ruhla bədənin birgə nemətverilməyə və əzabverilməyə tabe olmasına, bəzisi isə yalnız ruhun nemətverilməyə və əzabverilməyə tabe olmasına dəlildir.

Bu hədislər dəlalət edir ki qəbirlərdə olan bədənlərdən bəzilərinə nemət verilir, bəziləri əzab olunur.

Elm əhlindən ibn Useymindən (Allah ona rəhmət etsin) soruşulur ki, qəbir əzabı bədənə və ruha olur? Cavabında deyir: "Əsas olan qəbir əzabının ruha olmasıdır. Çünki, öldükdən sonra ruha hökm verilir. Bədən isə cansız bir cüssədir. Buna görə də bədənin qalıcı olması üçün yardımçı qüvvəyə ehtiyacı yoxdur. Bədən yemir, içmir, əksinə, onu həşəratlar yeyir, əsas olan budur ki, əksinə ruhun qalıcı olması üçün yardımçı qüvvəyə ehtiyacı var. Lakin şeyxulislam ibn Teymiyyə demişdir ki: "ola bilsin ki ruh bədənlə bitişsin, onunla birgə əzab və ya nemət verilsin"..... Buna əsasən alimlər demişlər ki: "ola bilsin ki ruh bədənlə bitişsin, beləcə əzab ruha da, cismə də verilsin. Bu məsələyə bəlkə bu hədis də dəlil ola bilər, Allah elçisi (sallallahu aleyhi və səlləm) buyurmuşdur: "Həqiqətən də qəbir kafir üçün sıxılar. Hətta onun qabırğaları bir-birinə keçər". Bu da ona dəlildir ki, əzab cismə də olur. Çünki qabırğalar cismdə olur" (18).

Qəbir əzabı və neməti Əhli Sünnənin ittifaqına görə ruha da, bədənə də olur (19).

**Dördüncüsü: Ruhun bədəndən ayrılması məfhumu:** Ruhun bədəndən ayrılması iki cürdür: mütləq şəkildə və cüzi şəkildə. Vəfat da iki cürdür: böyük və kiçik vəfat. Böyük vəfat ölümdür. Bu, ruhun bədəndən mütləq şəkildə ayrılmasıdır ki bu zaman ruh bədəni tam şəkildı tərk edir. Kiçik vəfat isə yuxuda baş verir. Bu zaman insanın ruhu bədəndən tam ayrılmadan (bədənə bağlı olaraq) cüzi şəkildə ayrılmış olur. Bu iki vəfat növünün hər ikisi də Qurani-Kərimin bu ayəsində qeyd edilmişdir. Uca Allah buyurur: "Allah ölənlərin canını ölüm anında, ölməyənlərin canını isə onlar yuxuda ikən alır. Ölümünə hökm verdiyi kəsin canını saxlayır, digərini isə müəyyən olunmuş vaxtadək buraxır. Həqiqətən, bunda düşünən bir qövm üçün dəlillər vardır". (əz-Zümər. 42).

İnsan mütləq şəkildə öldükdə onun cismi fani olur, çürüyür, yalnız acbəz-zənəb adlı insanın bel fərəqərəsinin ən aşağı qismində olan sümük isə çürümür. Bir hədisdə belə rəvayət edilir: "İnsan bədənin hər yeri fani olacaq (çürüyüb gedəcək), yalnız bir sümükdən başqa, o da "acbuz-zənəb" sümüyüdür. Yaradılmışlar (onların cismləri) o sümükdən yenidən yaranarlar". (20).

**Beşincisi: Qeybi məsələnin əqli izahına çalışmağın doğru olmaması**; məsələyə bu cür yanaşanlar günahkar insanın bədəninə əzab verilməsinin ədalətsiz "əzab olmasını iddia edirlər. Onlara deyirik ki:

**1 -** Əvvəla, onlar Allahın ədalətli olmasının həqiqətini düzgün anlamadan bu məsələni başa düşə bilməzlər. "Uca Allah öz felində ədalətlə vəsf olunmuşdur. Onun bütün felləri ədalət və düzgün istiqamət yolları üzərində baş verir. Bu fellərdə ümumiyyətlə zülm qarışığı yoxdur. Onun bütün felləri fəzilət və rəhmət, ədalət və hikmət arasında dövr edir" (21). Bir çox insanlar Allahın ədalətini, kainatda və varlıqlarda baş verən hadisələrin hikmətini öz qüsurlu ağılları ilə ölçməyə cəhd göstərirlər, əsas problem də elə bu zaman baş verir. Allahın şəriətini, dinini ağıl tərəzisinə qoyduqda bəşər ağlı bəzi məsələləri dərk etmir, dərk etmədiyi məsələləri inkar edən insan ondakı hikmətlərin həqiqətini başa düşmür. İnsanın fitrəti dərk etmədiyi məsələləri bəzən inkar etməyə meyillənir ki bu dərk edilməyən məqamlar inkarla deyil, qeybi məsələlərə xüsusi yanaşma qaydası ilə aradan götürülməlidir. Bu haqda ən faydalı kitablardan biri ibn Qeyyimin məşhur "Şifəul-Alil Fi Məsəilil-Qada vəl-Qadər vəl-Hikmətu vət-Təlil" kitabıdır.

**2 -** Əgər ruh əzab çəkirsə, bədənə də əzab verilirsə, sual verilir ki günah edildiyi zaman günahı yalnız ruhmu törədib? Yoxsa bədən də bu günahın törədilməsində iştirak edib? Əgər desələr ki "qərarı ruh verib, sonra günahı əzalar icra edib", deyəcəyik ki əgər məsələyə məntiqi yanaşırsınızsa, onda deyin görək bu dünyadakı bir insan bədəni olmadan sadəcə ruhu ilə insan sayılırmı? Deyəcəklər "yox, mütləq bədən olmalıdır ki bu dünyada insan olsun". Onda özləri bu iddianın batil olduğunu təsdiqləmiş olacaqlar. Yox, əgər desələr ki "əzaların varlığı ruhu sadəcə dünyada yaşatmaq üçündür", deyəcəyik ki əzaların varlığı ruhla bərabər insanı kamil insan etdiyi kimi onun əzabının da kamil olma səbəblərindən ola bilməzmi? Bu sualın cavabı isə çox maraqlıdır.

**Əgər sual verilsə ki bu əzab köhnə bədənin yenidən yaradılması ilədir, yoxsa ruha yeni bədənmi veriləcəkdir?**

**a)** Deyəcəyik: şəkk yoxdur ki Allah köhnə bədəni yenidən yaratmağa qadirdir. Bir hədisdə peyğəmbər (sallallahu aleyhi və səlləm) buyurur: "İnsan bədəninin hər yeri fani olacaq (çürüyüb gedəcək), yalnız bir sümükdən başqa, o da "acbuz-zənəb" sümüyüdür. Yaradılmışlar (onların cismləri) o sümükdən yenidən yaranarlar". (22).

**b)** Bəzi elm əhli isə ruha yeni bədən veriləcəyini, lakin bu bədənin insanın öz bədəninə oxşamaqla yanaşı əzabı dadması üçün daha dözümlü olacağını demişlər. Çünki cəhənnəmin istisi bu dünyanın istisindən yetmiş dəfə şiddətlidir, ayətlərdən birində onların dərilərinin yandıqca hər dəfə yenisi ilə əvəz olunacağı (23), cəhənnəmdəki bir insanın təkcə dişinin uhud dağı boyda olduğu və s. xəbərlər ona dəlalət edir ki cəhənnəm sakinlərinə yeni bədən veriləcəkdir. Lakin bu məsələnin reinkarnasiya ilə heç bir əlaqəsi yoxdur.

Alimlərdən ibn Qeyyim "ər-Ruh" kitabında yenidən dirildilən insanlara köhnə bədənləri deyil, yeni bədənlər verilməsi görüşünə etiraz edərək bu görüşün haqq və batil tərəfinin olduğunu bildirmişdir (24).

Məsələ qeybi məsələ olduğu üçün biz müsəlmanlar etiqad edirik ki istər əzab insanın öz bədəninə (ruhu ilə birgə) verilsin, istər də yeni və əzaba daha dözümlü olacağı bədəninə (ruhu ilə birgə) verilsin, biz cəhənnəm əzabının ruhla bədənə birgə verilməsinin haqq olduğuna, uca Allahın isə buna qadir olduğuna inanırıq!

## Qeydlər və istinadlar:

(1) Reinkarnasiya: İslam ədəbiyyatında bu inanc "tənəsuxul-ərvah" və ya "tənəsux" adlanır. Qədim hindlilərin bu etiqadı qısaca olaraq bu şəkildə idi: "Reinkarnasiya - ruhun bədəndən çıxdıqdan sonra bu dünyada başqa bir bədənə daxil olmasıdır". "ər-Ruh fid-Diyənət əl-Kitəbiyyəti val-Vad'iyyəti", doktor Əli ibn Səid əl-Ubeydi, 3-cü silsilə, səh. 120. Bu inanca əsasən insan öldükdən sonra onun ruhu o dünyaya getmir, başqa heyvanların, hətta, həşəratların belə bədəninə daxil olaraq və növbəti həyatı yaşayır. Yaxşı insanların ruhu yaxşı, pis insanların ruhu isə pis heyvanların bədəninə daxil olur və s. Bu mövzunun müzakirə ediləcək çoxsaylı təfsilatları var. İslama görə bu əqidə batildir və insanın öldükdən sonra dirilərək əməllərinə görə haqq-hesab verəcəyi, cənnət və ya cəhənnəmə daxil olacağı inancına ziddir.

(2) Movsuatu ər-Ruh: ər-Ruh fid-Diyənət əl-Kitəbiyyə vəl-Vad'iyyə. dr. Əli əl-Ubeydi. səh. 19.

(3) Sadəcə bəzi xristianlar ruh, nəfs və bədəni ayrı-ayrı terminlər olaraq vəsf etmişlər. Bax: eyni mənbə. səh. 50.

(4) Romalıların dini qədim dinlərdən təsirlənmişdi. Ruh mövzusunda isə yunan fəlsəfəsindən, yunan inanclarından çox təsirlənmişdilər. Onlar da ruhların

mükafatlanacağına və əzab görəcəyinə inanırdılar. Onlar əzab müddətinin qısa olacağına da inanırdılar.

(5) əl-İnsən fi Zillil-Ədyən. səh. 137.

(6) Bax: Min Qamusil-Ədyən. səh. 78.

(7) Təhqiq mə lil-Hind min Məquləh. səh. 37.

(8) Daha ətraflı bax: Movsuatu ər-Ruh: ər-Ruh fid-Diyənət əl-Kitəbiyyə vəl-Vad'iyyə. dr. Əli əl-Ubeydi. səh. 81-92.

(9) Hədisdə: "...sonra isə Allah bir mələk göndərir, o da, ona ruh üfürür (verir)". (Səhihi Müslim. Qədər kitabı. İnsanın anasının bətnində yaranmasının necəliyi fəsli. 4/2036. no: 2643).

(10) Qeyd: Bəzi araşdırmaçılar ana bətnindəki mərhələni də dünya həyatı mərhələsi ilə eyniləşdirir və ana bətnində olan mərhələni dünya həyatındakı mərhələdən ayrı xüsusi bir mərhələ hesab etmirlər.

(11) Təfsirul-Bəyan fi Təvili Əyəl-Quran. Nisa 56-cı ayənin təfsiri.

(12) Məcmu'ul-Fətə'va. 4/274.

(13) Misal üçün bax: İbn Qeyyimin "Ruh" kitabı. səh. 152. Ləvamiul-Ənvar əl-Bəhiyyə. 2/24. Rovdatun-Nədiyyə Şərh Aqidətul-Vasitiyyə. səh. 313. Məcmuu Fətəva və Rasəiliş-Şeyx İbn Useymin. 5/59. əl-İrşad ilə Sahihil-İtiqad. səh. 209.

(14) Təfsirul-Quranil-Azim. İbn Kəsir. 2/568.

(15) Sünən Əbu Davud. 4127. Albani "Səhih Əbu Davud" əsərində «səhih» demişdir.

(16) Bax: Səhih İbn Hibban. 7/284. Əbu Hüreyrənin rəvayəti.

(17) Səhih Əbi Davud. 4753. İbn Macəh. 1549 və başqaları.

(18) Məcmu'ul-Fətə'va. İbn Useymin. 1/25; Həmçinin bax: şeyxülislam ibn Teymiyyənin Fətvalar toplusu (ərəbcə). 4/282-299. Qiyamətus-Suğra. Ömər Əşqar. 107.

(19) Bax: Şərhus-Sudur. səh. 247.

(20) Səhih əl-Buxari. "O gün sura üfürüləcək" ayəsinin təfsiri fəsli. 4/1881. no: 4651.

(21) Sıfatullahi Azzə və Cəllə əl-Varidətu fil Kitəbi vəs-Sünnə. Aləvi əs-Səqqaf. səh. 246. əd-Durər əs-Səniyyə.

(22) Səhih əl-Buxari. "O gün sura üfürüləcək" ayəsinin təfsiri fəsli. 4/1881. no: 4651.

(23) Ən-Nisa surəsi. 56-cı ayə.

(24) ər-Ruh fil-Kələmi alə Ərvahil Əmvat vəl-Əhyə bid-Dələil minəl-Kitəbi vəs-Sunnə. İbn Qeyyim əl-Covziyyə. səh. 113. Darul-Kutubil-İlmiyyə. Beyrut.

## Allahın qüdrəti haqda üç çaşdırıcı suala cavab

**Suallar belədir:**

*1 - Allah özünün qaldıra bilməyəcəyi bir daş yarada bilərmi?*

*2 - Allah özünün mislində ilah yarada bilərmi?*

*3 - Allah özündən böyük məxluq yarada bilərmi?*

**Cavab:** Bu üç sualın üçü də batil sualdır. Çünki, sualların növləri var. Bu cür suallar məntiqi-çaşdırıcı suallardan hesab edilir. Ümumiyyətlə, bir sualdan doğru cavab almaq üçün sualın özünü doğru qoymaq lazımdır. Bu suallar özü-özlüyündə doğru suallar deyil və cavab verəcək şəxsi "məcburi, ilzami cavablar" verməyə sövq etməyə hesablanmış suallardır.

**Birinci suala gəldikdə**, əgər desən ki, Allah özünün qaldıra bilməyəcəyi daş yarada bilməz. Ateist deyəcək ki, bu necə rəbdir ki, belə bir daşı yaratmaqda acizdir? Əgər desən ki, yarada bilər. Onda deyəcək ki, o necə rəbdir ki, özünün qaldırmaqdan aciz qaldığı bir daşı yaradır? Sualdan məqsəd mömini Allahın qüdrəti haqqında, sonra isə varlığı haqqında çaşqınlığa salmaqdır. Bu sual həm batil, həm ziddiyyətli sualdır. Çünki, bəsit bir məsələ

olaraq bilinir ki, bir daşı, qayanı yoxdan yaradan onu hərəkətə gətirməyə də qadir olmalıdır. Bununla da bu sualın nə qədər ziddiyyətli, ateist mövqeyinin isə bihudə mövqe olması ortaya çıxır. Biz etiqad edirik ki, Allah hər şeyə qadirdir və Allah istənilən ölçüdə daş, qaya yarada bilər. Buna qadir olan Allah istənilən ölçüdə daşı, qayanı hərəkətə gətirməyə də qadirdir. Lakin, Allahın böyüklüyü ilə məxluqun böyüklüyü müqayisə olunmaz və Allahı məxluqla müqayisə küfr olduğu üçün sualın bu tərəfinə cavab vermək, xırdalığa getmək İslam inancına görə doğru deyil.

**İkinci və üçüncü sualda** da Allahın özünün yaradacağı ilah və ya məxluqla müqayisəsi var ki, hər iki sualın da qoyuluşu batildir və küfr mahiyyətlidir. Əvvəla, yenə Allahın yaratmaq istədiyi hər bir şeyi yaratmağa qadir olduğuna etiqad etdiyimizi bildiririk. Məxluqların mövcudluğu mövzusu üç cürdür, ya həmin məxluq yaradılıb, ya yaradılması mümkündür, ya da yaradılması mümkün deyil. Buna dəlilimiz onun heç bir tayı-bərabəri, misli olmadığı haqda "İxlas" surəsindəki "Onun bənzəri də yoxdur" ayəsidir. Həmçinin, Şura surəsi 11-ci ayədə də Allah buyurur: "Onun heç bir misli (bənzəri) yoxdur".

Əgər Allahın heç bir tayı, bərabəri, misli, bənzəri yoxdursa, nə ikinci sualdakı Allahın mislində olan ilahın

yaradılması mümkün deyil, nə də üçüncü sualda qeyd olunan "ondan böyük məxluqun yaradılması" məsələsi mümkün deyil. Çünki, əgər Allahın özü mislində ilah yaratması iddiası varsa, o yaradılan ilah necə ilah ola bilər ki, onun özü yaradılıb, yəni məxluqdur?! İlah odur ki, o yaradılmış olmasın. Məxluq olanın, yaradılanın ilah olması isə mümkün deyil. Elə isə "yaradılan bir ilah" necə ilah ola bilər ki?! Bu sualla ateistin verdiyi sual tamamilə çökmüş olur. Mümkün olmayan, xəyal olan bir şey haqqında sualın bir əhəmiyyəti yoxdur.

Həmçinin, uca Allah Qurani-Kərimdə buyurmuşdur: "Əgər göydə və yerdə Allahdan başqa məbudlar olsaydı, onların hər ikisi fəsada uğrayardı. Ərşin sahibi olan Allah pakdır və müşriklərin Ona aid etdikləri sifətlərdən uzaqdır!" (əl-Ənbiya. 22). Yəni, bu misalla Allahdan başqa ilahların olması fərz edilsə, bu ilahlar mübarizəyə qalxar, yaxud öz istəklərini fərz edərdilər ki, bu zaman kainatın düzəni pozulardı. Təbii ki, bu da mümkün deyil. Növbəti Quran ayəsi də ateistlərin bu ziddiyyətini ifşa edir: "Allah Özünə heç bir övlad götürməmişdir. Onunla yanaşı ibadətə layiq olan heç bir məbud yoxdur. Əks təqdirdə hər bir məbud öz yaratdıqlarını özü idarə etmək istəyər və onların bir qismi digərinə üstün gəlməyə can atardı. Allah onların Ona aid etdikləri sifətlərdən uzaqdır". (Muminun. 91).

Üçüncü sualın birinci ziddiyyətli tərəfi isə odur ki, Allahın özündən böyük məxluq yaratmasına bir gərək yoxdur. İkincisi, Allahın yoxdan yaratdığı bir məxluqun Allahdan böyük olmasını demək və ya təsəvvür etmək də küfrdür. Üçüncüsü, Allahın qüdrətinin mümkünsüz olan şeylərlə bir əlaqəsi yoxdur. Yaxud da mümkünsüz bir halı misal çəkib Allahın qüdrətini sorğulamaq doğru deyil. Olmayacaq bir şeyi xəyallarda oluşdurmaq və buna uyğun sual vermək də doğru deyil.

## Allah hər şeyi cüt yaradıbsa, bəs nə üçün bakteriyalar cüt deyil?

*"Bəyan" ensiklopediyasında bakteriyaların cütlükdən uzaq olmasım şübhəsinə belə cavab verilir:*

"Sabit olub ki, bakteriyalarda mənfi və müsbət hüceyrələr var. İki hüceyrə arasında qarşılıqlı cütləşmə kanalının çıxması yoluyla cütləşmə baş tutur, iki hüceyrə arasını uzun iki ip birləşdirir və həmin (cütləşmə) kanalının vasitəsilə

müsbət hüceyrə öz daxilindəkini mənfi hüceyrəyə boşaldır"(1).

Əlavə olaraq gəlin başqa bir mənbəyə baxaq: "Bakteriyalar təkcə cinsiyyətsiz yox, həm də cinsiyyətli yolla (erkək-dişi cütlər olaraq) törəyə bilirlər. Bakteriyalar yaşadıqları mühitdə kifayət qədər su və qida maddəsinə sahib olduqları və istiliyin əlverişli olduğu hallarda sürətlə bölünərək çoxalırlar. Bu cür törəmə şəklinə cinsiyyətsiz artım deyilir. Bakteriyaların bölünməsi mitoz bölünməyə bənzəsə də ancaq nüvə membranı (nuclear membrane) və müəyyən bir xromosom sayı olmadığı üçün tam bir mitoz deyildir. Buna amitoz bölünmə deyilir.

Cinsiyyətli yolla artımda isə eyni növə aid iki bakteriya yan-yana gələrək aralarında keçici sitoplazmik körpü formalaşdırır. Bu körpü vasitəsilə DNA molekulu, tamamən və ya qismən bir bakteriyadan digər bakteriyaya ötürülür. Bu gen ötürülməsi (transfer) hadisəsinə "konjuqasyon" deyilir. Konjuqasyon hadisəsi ilə yeni xüsusiyyətlərə sahib və mühit şərtlərinə uyğunlaşmış dayanıqlı bakteriyalar törəyir. Cinsiyyətli törəmədə gen transferi edən bakteriya erkək, geni qəbul edən bakteriya isə dişi fərd hesab edilir. Proses tamamlandığı zaman bakteriyalar arasında qurulmuş olan sitoplazmik körpü əriyir"(2).

Kainatda bir çox varlıqların erkək və dişi, mənfi və müsbət (bir-birinin əksi) və ya sadəcə cütlük xüsusiyyətinin olduğunu ateistlər inkar edə bilməzlər. Qurandakı زوجين "zövceyn" sözünün "zövc" (yoldaş, cütlük) sözündən olub bəzən "iki cüt" hətta eyni növdən belə, bəzən erkək və dişi, bəzən mənfi və müsbət" mənalarına gəldiyini yanlış çıxarmaq asan bir iş deyil, ey ateistlər! Quranda "cütlük" sözü "erkək və dişi" sözü ayrıca istifadə olmaqla da gəlib, yalnız "cütlük" kimi də istifadə olunub. الزوجين الذكر والأنثى ifadəsi Quranda "erkək və dişi cütü" olaraq konkret olaraq da istifadə olunub.

Nəcm surəsinin 45-46-cı ayələrində insanın yaranmasından söhbət gedərkən, başqa bir ayədə "erkək və dişi" ibarəsi olmadan da Quranda "cütlük" sözü ümumi mənada istifadə olunub, məsələn, Zariyat 49-cu ayədə "erkək və dişi" deyil, sadəcə "cütlük" sözü istifadə olunub ki, bu məna ərəb dilinin qramatikasına görə hətta eyni növdən də ola bilir. Məsələn, Zəbidi "Tacul-Arus" kitabında deyir: "ərəblər zövceyn sözünü müxtəlif cinslərə aid edirlər, məsələn; qara və ağ, şirin və turş", sonra deyir: "Zövc sözünün əsli hər bir şeyin sinfi və növü, həmçinin bir-birinə bitişik hər bir şey, istər eyni şəkildə, istər də bir-birinin əksi olan bitişik şeylər (3).

Lisanul-Arabda İbn əl-Mənzur deyir: “Hər bir şeyin növü”. (Lisanul-Arab. زوج maddəsinin izahı). Növ misalında isə yeri gəlmişkən qeyd edək ki, bakteriyalar cinsiyyətli və cinsiyyətsiz növlə çoxalan iki növə malikdir. Yuxarıda bu haqda danışıldı. Müasir Ərəb dili lüğətində isə deyilir: “verilən mənalardan: corabın digər tayı kimi eynisi, yoldaş, bir-birinə zidd olan şeylər: qara və ağ, quru və yaş, qadın və kişi. Həmçinin, növ. Həmçinin, eyni növdən iki şey və ya görünüşdə və funksiyasında bir-birinə bənzəyən” (4).

Yuxarıda bəzi ayələr qeyd etdik, bu ayədə isə uca Allah buyurur: "O Allah ki, bütün cütləri yaratdı. Mindiyiniz gəmiləri və heyvanları yaratdı ki..." (Zuxruf. 12). Deməli, Quranda “cütlük” sözləri müxtəlif mənalarda ayənin ahənginə görə işlənilib. Bu mənalara toxunub izah vermədən Qurani-Kərimi ittiham etmək, dini ittiham etmək savadsız bir yanaşmadır. Çünki, ateistlər bu ayələrdən birini götürüb mahiyyətinə varmadan "qadın və kişi" sözünün olmadığı ayəni belə “cütlük” sözündən sonra əlavə edirlər. Halbuki, ayələrdə “cütlük” sözü müxtəlif mənalarda istifadə olunub.

Qurani-Kərimdə “zövc” sözünün doqquz mənasını Nəzmi Xəlil özünün “Qurani-Kərimdə və bitkilər aləmində zövc sözünün doqquz mənası” adlı araşdırmasında qeyd edir:

1 - Canlı varlıqlardakı erkək və dişi.

2 - İki bənzər: xüf (dəri ayaq geyimləri), ayaqqabılar və corablar.

3 - Bir-birinə bitişik olan bütün bənzər və zidd şeylər.

4 - Cövhər, əlamət, maddə və surətdən ibarət olan şeylər.

5 -Yaradılmış və düzəldilmiş hər bir şey.

6 - Zidd, bənzər, bir-birinə keçmiş (tərkib edilmiş).

7 - Bir-birinə bənzər növlər.

8 - Müxtəlif siniflər (növlər).

9 - Zamanda və məkanda yoldaşlar(5).

Bu mövzuda daha geniş araşdırma etmək və oxumaq istəyənlər, insanlarda, heyvanlarda, bitkilərdə, göbələkkimilərdə, yosunlarda, kişi və qadın hüceyrələrində, turş atomlarda, amonium və protein turşularında, maddələr və onların quruluşlarında və s. cütlüyün izahı, erkək və dişiliyin izahı haqqında daha geniş "Bəyan" ensiklopediyasında (موسوعة بيان الإسلام) verilmiş elmi izahları oxumağı tövsiyə edirik.

Ateistlərin bu kimi mövzularda ərəb dilini bilmədən tərcümələrlə nəticələr çıxarmaları, fərziyyələr irəli sürmələri çox təəssüf doğurur. Elm adına edilən hər iddia da doğru deyil. Hələ mənbə göstərmədən bir iddianı ortaya atmaq və bunun mütləq həqiqət olması təəssüratını formalaşdırmaq

heç də elmilikdən deyil. Uca Allahın: "Biz hər şeydən cütlər yaratdıq ki, bəlkə, düşünüb ibrət alasınız". (Zəriyat. 49) ayəsi öz hökmünü qoruyub saxlayır. Həmd olsun yeri, göyləri yoxdan yaradan Allaha!

## Qeydlər və istinadlar:


1 - Mənbə: Bəyan ensiklopediyası.
2 - Fransua Yakob, həyat nədir? Həyatla bagłı bütün Biliklər Universiteti, Editions Odile Jacob, 2002.
3 - Mufradət fi Ğaribil-Quran. Rağib İsfahani. Səh. 215-216.
4 - Mucəm Luğatul-Arabiyyə əl-Muasirah. زوج maddəsinin zahı.
5 - Nəzmi Xəlil Musanın “Zövc sözünün Qurani-Kərimdə və bitkilər aləmində doqquz mənası” adlı araşdırması. www.quran-m.com saytında təqdim edilmiş “موسوعة الإعجاز العلمي في القرآن والسنة” adlı ensiklopediya.

# Quranda Harunun bacısı olan Məryəm və İsanın anası olan Məryəm səhv salınıb?

**Şübhə belədir:** Qurani-Kərimin "Məryəm" surəsində deyilir: "Ey Harunun bacısı! Atan pis kişi, anan da pozğun deyildi" (1). Burda başqa bir Məryəmdən söhbət gedir. Musanın (Harunun) bacısı Məryəmdən söhbət gedir. Quranda iki Məryəm, yəni İsanın anası olan Məryəm ilə Musanın (bacısı) olan Məryəm səhv salınmışdır.

**Cavab:** Bu iddia batil bir iddiadır. Biz bu şübhənin tarixinə kimi bilirik. Ona görə də bu şübhəyə dörd aspektdən cavab verəcəyik. Birinci aspektdən olan cavabımız bir hədisdir ki, bu şübhənin tarixini də, cavabını da müxtəsər şəkildə ortaya qoyur:

**1 - Hədislə cavab:** Birinci izahımız birbaşa peyğəmbərin ﷺ bu ayəyə verdiyi izahdır. Hədis imam Müslimin "Səhih" əsərində keçir. Muğirə ibn Şubə adlı səhabə deyir: "Nəcrana gəldiyim zaman (xristianlar) məndən soruşub dedilər: "Siz "ey Harunun bacısı (ayəsini)" oxuyursunuz. Musa isə İsadan bu qədər (müddət) əvvəl olmayıbmı?" O zaman ki, Allah Elçisinin ﷺ yanına gəldim, ondan bu haqda soruşdum. O ﷺ buyurdu: "Onlar özlərindən əvvəl yaşamış peyğəmbərlərin və salehlərin adlarıyla çağırılırdılar" (2).

Bu hədis dəlildir ki, həmin şəxs Musanın qardaşı Harun deyil. Məlumdur ki, Musanın qardaşı Harun Məryəmdən uzun müddət öncə yaşamışdır. Bəzi rəvayətlərdə bu müddət altı yüz il, bəzilərində isə min il olaraq qeyd edilmişdir.

**2 - Ərəb dilinin qramatikasından cavab**: Ərəbcə lüğətlərdə أخت uxt sözü bəzən bənzərlik, tay, fərd mənasını verir. Misal üçün: أخو القبيلة yəni, qəbilənin adamlarından biri (3).

Ərəb dilinin qramatikasına görə أخ sözü "əxun" ərəb dilində bir kişiyə: يا أخا تميم (ey Təmimin qardaşı) deyilir. Yəni , ey Təmim övladlarının qardaşı. Bu, bir qövmə nisbət edilmə mənasını daşıyır. Bir qövmə nisbət edilmə isə eyni zamanda da, uzun müddət zaman fərqində də mümkündür. Bu cür xitab növü Qurandakı başqa bir ayədə də istifadə edilib: "Ad tayfasının qardaşını xatırla!" (4). Hud peyğəmbərə Ad qövmünün qardaşı ona görə deyilib ki, çünki o Ad qövmünün nəslindəndir. Beləcə o, Ad övladlarının qardaşı olur. Həmçinin, ərəbcə deyiləndə ki: يا أخت بني فراس Ey Firas övladlarının bacısı! (5) Bu da bir qövmə nisbət edilmə mənasındadır - necə ki, bunu Əbu Bəkr (Allah ondan razı olsun) demişdir - (6) İslamdan əvvəlki cahiliyyət dönəmi şairi olan Xafəf ibn Nədbə əs-Suləmi (7) öz qəsidələrindən birində deyir: يا هِندُ يا أُختَ بِني الصارِدِ

Ey Hind, ey Sarid oğullarının bacısı! (Yəni, Sarid oğullarının nəslindən olan Hind) (8).

Məlum olur ki, bu mənada xitab ərəb dilində, ərəb ədəbiyyatında, Quranın özündə və səhabələrin dilində də işlənmişdir. Yazımızın qeydlərində xristianların "Luka" İncilindən də Harunun qızlarından biri haqda məlumat mənbəsilə qeyd olunmuşdur. Ərəb dili ilə yəhudi dilinin xitablarda nə qədər yaxın olduğunu dinsizlər də elmi araşdırmalardan yaxşı bilirlər. Nədənsə bu amili onlar İslamla xristianlığı bir-birinə bənzətmək üçün olan mövzularda qabardır, bu kimi məsələlərdə isə görməzdən gəlirlər. Üstəlik bu şübhənin özü Qurandakı ərəb dilində olan bir xitaba əsasən gətirilir deyə o nahiyədən də cavab verildi. Ərəb dilində təməli olan bir mənanı inkar etmək üçün onun qarşısına qoyulacaq ərəb dilindən olan əks məna gətirilməlidir.

Bu müdafiə etdiyimiz mənanı isbat etmək üçün biz həm Qurandan, həm də o dövrdə yaşayan insanların dilindən misallar gətirə bilirik və o misallardan bəzilərini bu yazıda qeyd etdik, necə ki, həmin misallar ərəb dilinin qədim lüğətlərində də, təfsir kitablarında da mövcuddur. Qaldı ki, eramızdan əvvəl baş vermiş bütün hadisələrin yazıya alınmasına, bunun mümkünsüz olması bir yana qalsın, yazının inkişafının və tarixin qeydə alınmasının əsasən bizim eramızda olduğunu nəzərə alsaq, tarix kitablarının böyük əksəriyyətinin bizim eramızda yazılması şəkk

olmayan bir həqiqət olduğu halda eramızdan əvvəlki dövrlərdən hər xırda tarixi detala dəlil istəmək özü absurd bir iddiadır. Lakin, biz müsəlmanlar Qurani-Kərimdə ərəbcə verilmiş məlumatı Qurani-Kərimin nazil olduğu zamanda danışan insanların dilindən də, Qurani-Kərimin başqa ayətlərindən də, üstəlik ərəb dilinin lüğət kitablarından da, ərəb ədəbiyyatından da isbat edə bilirik. Bununla da dinsizlərin çürük iddiası dağılmış olur.

**3 - Quranın təfsiri kitablarındakı izahlardan:**

Təfsir kitablarında dəlillərə əsasən bu xitaba iki məna verilmişdir ki, hər iki məna bir-birini dəstəkləyir və ziddiyyət təşkil etmir. Bir məna birbaşa nəsil bağlılığıdır (Harun adlı başqa qardaşı olması ehtimalında), digər məna isə Harunun nəslindən olması ehtimalıdır. Bu mənalardan ayrılmayan məna, hədisə də, ayəyə də uyğun olan məna, nəsildəki və ya qövmdəki salehlərə bənzətmədir. Necə ki, ayənin özündə də pis əməllə saleh əməl müqayisə olunur, nəslindəkilərin çirkin əməl etmədiyi misal çəkilir. Bu da onun təmiz, saleh bir nəsildən olmasının sübutudur.

Qatadə demişdir: "O zamanlarda İsrail oğulları arasında özünü Allaha ibadətə həsr etmiş Harun adlı bir şəxs varıydı. Beləcə Məryəmi - salehlikdəki yoluna bənzərliyinə görə - onun qardaşlığına nisbət etmişdilər (9).

Qatadədən gələn bu rəvayəti dahi təfsir alimi İbn Cərir ət-Təbəri də "Təfsir" ində rəvayət etmişdir (10).

İbn Cərir ət-Təbəri elm əhlinin burada qəsd olunan Harun haqqında ixtilaf etdiyini bəyan etmiş, doğru görüşün bu haqda olan hədisə uyğun olan görüş olduğunu vurğulamışdır. Bu rəyi Əbu Cəfərə nisbət etmiş və sanki özünün üstün gördüyü görüş kimi rəvayət etmişdir ki, bu da həmin Harunun öz qövmündən olan saleh bir insan olması görüşüdür.

İbn Kəsir bunun Musanın qardaşı Harun olmadığını, ayədəki mənanın isə salehlikdə Haruna bənzəmək mənasında olduğunu vurğulamışdır. İzahların sonunda İbn Cərinin izahını da vermiş, Harunun qövmündən - Musanın qardaşı olmayan başqa bir Harun - olan saleh bir ailədən olduğu üçün Məryəmə qövmünün belə bir xitab etdiyini vurğulamışdır (11).

İmam Bəğavi də təfsirində Məryəmə edilən bu xitabda salehlikdə Haruna bənzətmə olduğunu vurğulamışdır (12).

İmam Qurtubi də təfsirində ən doğru görüşün bu haqda hədisin varid olduğu görüş olduğunu bildirərək demişdir:

"bu, açıq aydın dəlildir, kimsə bunu inkar edə bilməz, dana bilməz" (13).

Hətta ibn Aşur təfsirində Məryəmin Harunun nəslindən olmasını - aralarında böyük zaman kəsimi olmasına baxmayaraq - qeyd edir, bu rəyi xristianların kitablarından da təsdiqini tapdığını bildirir (14) (15).

Beləcə peyğəmbərin bu haqda hədisi və qeyd edilən mənalar cəm olmuş olur və yanlış anlaşılma aradan qalxır. Peyğəmbərin hədisdə buyurduğu kimi onlar öz peyğəmbərlərinin və saleh kəslərin adları ilə çağrılırdılar. Ümumiyyətlə, Quranın təfsir kitablarının heç birində ayədə qeyd olunan "ey Harunun bacısı" xitabının İsanın anasına deyil, Musanın bacısına aid olduğu iddia edilməmişdir.

**4 - Şübhənin məntiqi cavabı:**

**a)** Fikir versəniz, Qurandakı "ey Harunun bacısı" ifadəsi başlanğıc olaraq Quranın ifadəsilə Allahın Məryəmə etdiyi xitab deyil, əksinə, bu xitab Məryəmi bu halda görüb ona xitab edən qövmünün xitabıdır ki, bunu bizə Qurani-Kərim rəvayət etmişdir (16). Elm əhli bunun izahında deyiblər ki, bu ya Məryəmin Harun adlı bir qardaşının olması, ya da onun Musanın qardaşı olan Harunun nəslindən olmasına işarədir. Hər iki izahda da Quranda iki Məryəmdən söhbət gedə bilməz. Qurani-Kərimin xalqların hekayələrini

anlatması zamanı xalqların və onların nümayəndələrinin dediyi sözlərin hamısı doğru deyil. Ona qalsa Fironun batil sözlərini də Qurani-Kərim nəql edib. Bu o demək deyil ki, Quranda Firondan nəql olunan sözlər mütləq həqiqətdir. Fironun dediyi sözlər Quranda mənfi olduğu kimi, Məryəmlə pis danışan şəxslərin sözləri də mənfidir. Bu mənfi sözlər arasında "ey Harunun bacısı" sözünü çox şişirtməyə ehtiyac yoxdur. Bu izah bundan öncəki mənaların təsdiqidir.

**b)** Quranda Məryəm sözünün 30-dan çox yerdə təkrarlanır. Şəxsən 31 yerdə Məryəm sözünün keçdiyini saydım (17). Çox yerdə o Məryəm oğlu İsa deyilərək İsa peyğəmbər anasına nisbət edilir, Məryəm sözü bu şəkildə ayətlərdə istifadə edilir. Bu ayətlərdən yalnız birində qeyd edilən - ey Harunun bacısı - xitabı verilmişdir, hansı ki, bu məqalədə bu şübhəyə ətraflı cavab verildi. Hətta hadisənin gedişatı belə açıq-aşkar ortada İsanın anası olan Məryəmdən söhbət getdiyini göstərir. Bu məntiqi izahla biz ateistləri, deistləri, aqnostikləri, hətta xristianları və s. ciddi bir arqument qarşısında qoymuş oluruq və deyirik: Fikir verin, siz ancaq bir iddia üzərində durmusunuz. Biz isə bir neçə arqumentlə sizin iddianızı dağıda bilirik. Quranda keçən bircə ayə yoxdur ki, ayənin mənası - hadisələrin gedişatı aspektindən - İsanın anası Məryəmdən söhbət getmədiyini aşkar şəkildə göstərsin!

**c)** Ən qəribəsi isə odur ki, Quranda səhv olduğunu iddia edənlərin bu iddiasını etmək üçün əsas gətirdikləri ayə məhz İsanın anası Məryəmin adı ilə bağlı olan surənin 28-ci ayəsidir. Artıq 16-cı ayədə Məryəmin adı çəkilir və söhbətin xırda detallarına kimi İsanın anası Məryəmdən getdiyi ortaya qoyulur. Heç bir detal, heç bir məqamda yanlışlıq yoxdur. Yalnız bir yeri başa düşməyən adamlar - halbuki həmin ayət də İsanın anasını ittiham edən şəxslərin xitabını ehtiva edir - həmin ayədən bir anlamadıqları sözlə Quranın 30-dan çox ayəsində Məryəm adlı yalnız bir adamdan bəhs edildiyi halda - İsanın anası Məryəm - inkarçılar iki adamdan (və ya Harunun bacısı Məryəmdən) söhbət getməsi haqda əllərində şübhəni gücləndirən heç bir arqumentin, dəlilin olmadığı halda belə bir gülünc iddianı irəli sürürlər.

## Qeydlər və istinadlar:

(1) Məryəm surəsi. 28-ci ayə.

(2) Səhihi Muslim. 2135.

(3) Vasit Lüğəti (معجم الوسيط) - مجمع اللغة العربية- Qahirə. 1997. أخاmaddəsi.

(4) Əhqaf surəsi. 21-ci ayə.

(5) Səhih əl-Buxari. 602.

(6) İbn Aşurun təfsiri. Eyni ayənin təfsirinə bax.

(7) Xafəf ibn Nədbə əs-Suləmi. Cahiliyyə dönəmi (İslamdan əvvəlki) şairlərdəndir. Mudar qəbiləsindəndir. Künyəsi Əbu Xiraşədir. Qara dərili olmuşdur. Onun İslamdan əvvəlki dönəmlərdə Abbas ibn Mirdas və Dureyd ibn Sammə ilə də hekayələri var. Sonradan İslamı qəbul etmiş, Məkkənin fəthinin şahidi olmuşdur. Ömərin dövrünə kimi yaşamışdır.

(8) Xafəf ibn Nədbənin Divanı. 3-cü şeirin (qəsidənin) ilk misrası.

(9) əl-Cəmiu li-Əhkəmil-Quran. Beyrut. 1405 hicri. 11/100.

(10) Cəmiul-Bəyan. İbn Cərir. Məryəm. 28.

(11) Təfsirul-Quranil-Azim. İbn Kəsir. Məryəm. 28.

(12) Məalimut-Tənzil. əl-Bəğavi. Məryəm.28.

(13) əl-Cəmiu li-Əhkəmil-Quran. Məryəm. 28.

(14) ət-Təhrir vət-Tənvir. İbn Aşurun təfsiri. Məryəm. 28.

(15) Xristianların Luka incilində (1:5) deyilir: "Yəhudi kralı Herodosun zamanında Əbiyyə firqəsindən Zəkəriyyə adlı bir kahin var idi. Onun həyat yoldaşı Harunun qızlarından idi və adı Elizabet idi".

(16) Bəyan ensiklopediyasının موسوعة البيان elektron versiyası. Mövzu: "أخت هارون" توهم خطأ القرآن في تسمية مريم Qeyd olunan araşdırmanın ensiklopediyadakı həqiqi mənbəsi dr. Mahmud Həmdi Zaqzuqun حقائق الإسلام في مواجهة شبهات المشككين adlı

kitabıdır. Qahirə.2004-cü il. İkinci nəşr. Daxil olma tarixi: 15.11.2022.

(17) Quranda Məryəmin adının keçdiyi ayətləri bu yazıdan rahatca oxuya bilərsiniz.

آيات ورد فيها مريم adlı elektron yazı. Mənbə

https://www.almaany.com/quran-b/%D9%85%D8%B1%D9%8A%D9%85/ Daxil olma tarixi: 15.11.2022.

# Miras haqda ateistin şübhəsinə cavab

**Şübhə belədir:** *Bir kişinin 24.000 manat əmlakı var. Bu kişi ölərsə və özündən geridə həyat yoldaşı, üç qızı və iki valideyni qalarsa, bu əmlakın Qurana görə bu şəxslər arasında bölünməsi zamanı yanlışlıq yaranır. Deməli, Qurandakı miras bölgüsü qaydasına əsasən əgər ölmüş şəxsin bacısı ikidən çoxdursa, mirasın 2/3-si bacılara düşür, hər bir valideynə 1/6-i düşür (ikisinə bir yerdə 1/3 qədər düşür), həyat yoldaşına (qadına) 1/8 düşür. Əgər biz bunun hamısını hesablasaq 24.000 manat gəlib olur 27.000 manat. Bunu necə izah edə bilərsiniz?!*

**Şübhənin cavabı:** Gəlin, birbaşa hesablamanı əvvəldə verək, sonra isə nə üçün bu cür hesablama apardığımızı izah edək, bölgüdə heç bir yanlış yoxdur, sadəcə hesablamada 24.000 rəqəmini 27-yə böldükdən sonra alınan cavabı hər miras sahibinin səhminə vurub nəticələri ayrı-ayrı toplamaqla doğru cavabı almış oluruq. 24.000-i əvvəlcə 27-yə bölürük və nə üçün məhz 27-yə böldüyümüzü qarşıda ətraflı izah edəcəyik. 24.000-i 27-yə böldükdə alınan 888.8 (səkkizləri) rəqəmini təxmini 889 olaraq götürüb bu 889 rəqəmini miras sahiblərinin hər birinin səhminə vurub sonra nəticələri aşağıdakı kimi toplayıb doğru cavabın 24.000-ə bərabər olduğunu asanlıqla müşahidə edə bilərik:

*Ananın səhmi dörddür. 4×889=3556*

*Atanın səhmi dörddür. 4×889=3556*

*Həyat yoldaşının səhmi üçdür. 3×889=2667*

*Qızların səhmi on altıdır. 16×889=14224*

*Alınan cavabları topladıqda isə 24.000 cavabını almış oluruq.*

**Cavabın ətraflı izahı:** İndi isə gəlin izahı və ətraflı təfsilatı verərək sualı bir az da çözməyə çalışaq. Deməli, 24.000 manat məbləği vəfat etmiş şəxsin qohumları arasında səhmlərə böldükdə məsələ 24 səhmdən hesablanmalıdır, məsələnin kökü bu 24 rəqəminə qayıtmalıdır. Bu səhmlərin 4-ü anaya (yəni: 1/6), 4-ü ataya (yəni: 1/6), 3-ü zövcəyə (yəni: 1/8), qızlara isə 16 səhm (yəni: 2/3) düşür. Bunları toplayanda nə üçün məsələ 24 səhm yox, 27 səhm edir? deyə soruşurlar.

Məlumdur ki, Miras elmində "avl" məsələsi var. Əgər səhmlərin sayı məsələnin əslindən (bu misalda 24-dən) çox olarsa, bu əlavəyə "avl" deyilir. Bunun əksi də "radd" məsələsidir. Məsələn, deyək ki, əgər bir insan (kişi) vəfat edərsə, özündən sonra bir həyat yoldaşı və bir qızı qalarsa, məsələ 8-dən olar, qızın payı olar 1/2 (ikidə bir), dörd payı (səhmi) qızı götürür, 1/8 (səkkizdə bir) payı da həyat yoldaşı götürür (yəni bir payı götürür) bunun cəmi isə edir (4+1) beş, bu halda 8 səhmdən 5-i düzəlir, 3 səhm (pay) artıq qalır.

Necə ki, burda mirasdan artıq qalan paya "radd" deyilir, yəni, 8 səhmdən ibarət olan hesabın 5 səhmi mirasçılar arasında bölündükdən sonra artıq qalan 3 səhm yenidən mirasçılara "radd" edilir, yəni qaytarılır, bu "radd" misalında artıq məbləğ qaldığı kimi, "avl" məsələsi isə bunun əksi olur, yəni, buradakı bölgüdə səhmlərin sayı məsələnin əslindən çox olur deyə ortada çatışmayan məbləğ yaranır. Bu çatışmayan məbləğin həll olunması üçün bizim misaldakı 24 səhm kimi hər kəsin səhmindən eyni miqdarda azaldılır.

Buna bənzər "avl" hadisəsi ilk dəfə müsəlmanların xəlifəsi Ömər ibnl-Xəttabın (Allah ondan razı olsun) xilafəti zamanında baş verir. Səhabələrin məşvərəti ilə qərar verilir ki: "məsələ 6-dan olsa da 7-yə qaytarılmalıdır" (1).

Bundan sonra ikinci bir məsələ səhabələrdən ibn Abbasın zamanında baş verir. Bu məsələnin kökü 6-dan olsa da məsələ 8-ə "avl" edir. (2).

Əbdül-Məlik ibn Mərvanın zamanında isə növbəti "Ğarra" məsələsi baş verir ki, burda da 9-a avl etmək hadisəsi baş verib. (3) Sonra isə 10-a avl etmək məsələsi ortaya çıxır (4).

Bu məsələlərin hamısına xüsusi adlar verilib. Deməli, qayda kimi yadda saxlamaq lazımdır ki, Qurani-Kərimdə normal bölgü qaydasından kənara çıxan məsələlərin hər birinin öz adı var. Omariyyə (5), Əkdəriyyə (6), Həcəriyyə (7) məsələləri var ki, bu məsələlər xüsusi məsələlərdir və dəyişən adları yoxdur.

Qayıdırıq bizim misaldakı 24.000 manatın 24 səhmə bölünməsinə və neçəyə "avl" etməsi mövzusuna… Miras elmində məsələnin əsli (təməli) 3 qismə bölünür (8). Bu qismlər: 6, 12 və 24-dür.

Əgər məsələnin əsli (təməli) 6-dan olarsa, 7-yə, 8-ə, 9-a, 10-a "avl" edir. Bunu əzbərləmək lazımdır. 11-ə avl etməsi mümkün deyil. Kimsə miras elmində elə bir məsələ gətirə bilməz ki, məsələnin əsli (təməli) 6 olsun, amma məsələ 11-ə avl etsin, bu mümkün deyil. Kimsə də bunu isbat edə bilməz.

İkinci qismə gəldikdə, məsələnin əsli (təməli) 12-dəndir. Bu da ya 13-ə avl edəcək, ya 15-ə, ya, da 17-yə avl edəcəkdir. Amma, 14,16,18,19- a avl edə bilməz. Miras elmində belə bir şey yoxdur.

Üçüncü qismə gəldikdə isə məsələnin əsli (təməli) 24-dəndir. 24 rəqəmi isə yalnız iki rəqəmə avl edir: 25-ə, bir də 27-yə...25-ə avl edən məsələnin öz adı var. Buna "Dinariyyə əl-Kubra" (9) deyilir, bu adlanma imam Əlinin (Allah ondan razı olsun) zamanında baş verib; bir kişi vəfat edir, onun həyat yoldaşı, iki qızı, anası, on iki qardaşı və bir bacısı qalır. O şəxs 600 dinar qızıl pulu miras olaraq qoyub getmişdi. Kufənin imamlarından olan Şureyh Qazi (10) bu məsələni bölür və ona bir dinar pul düşür, vəfat edənin bacısı bölgü ilə razılaşmayaraq imam Əliyə müraciət edir, imam Əli qazinin bölgüsünü təsdiqləyir və ona məsələnin xırdalıqlarını izah edir (11).

Bu müxtəlif misalları çəkdikdən sonra indi qayıdırıq öz məsələmizə; vəfat edənin anası, atası, həyat yoldaşı və qızı qalıb ki, bu məsələnin adı miras elmində "Minbəriyyə" adlanır (12).

Görək, önümüzdəki bu məsələni necə bölüşdürürük?! Ananın payı 4, atanın payı 4, həyat yoldaşının payı 3, qızların payı isə 16 olur, deməli (bunları topladığımız zaman) məsələ 24-dən deyil, 27-dən olur. Ateist deyir ki, yaxşı 24.000 manat pul miras qalıbsa bunu 24.000 manatı böləndə burda 24 yox, 27 rəqəmi alınır ki, bu ziddiyyətdir. Deyirik ki, bu zaman sən 24-ü bölmürsən, 24.000-ni 27-yə bölürsən və nəticə 889 rəqəmi olur. Biz əldə edilən 889 rəqəmini mirasdan payı olan hər kəsin səhminin sayına vururuq. 889-

u 4-ə vurub anaya o qədər mirasdan veririk, 889-u 4-ə vurub ataya veririk, 889-u 3-ə vurub həyat yoldaşına veririk, 889-u 16 ya vurub qızlara veririk. Ananın payı təxminən 3556 edir, atanın payı da eynilə 3556 edir, həyat yoldaşının payı 2667 edir, qızların payı isə təxminən 14224 edir. Bu da nəticə olaraq 24.000 manat pul edir. Hesab doğru çıxır. Burada heç bir ziddiyyət yoxdur. Bu məsələ səhabələrin zamanından bəlli olan bir məsələdir, məsələnin adı "Minbəriyyə"dir (13).

Doğrudan da Qurani-Kərim uca Allahın kəlamıdır. Gördüyünüz kimi miras elmi dəqiq bir elmdir. Miras elminin bu dəqiqliklərini bilən insan mütləq şəkildə bu kitabdakı ıiahi ecazı görəcək və onun Allahın kitabı olduğunu başa düşəcək və biləcəkdir ki, bir bəşər övladı bu qədər dəqiq məsələləri oxuyub yazmağı bilmədən, hətta bilərəkdən belə özbaşına hesablayıb həll edə bilməzdi. Aləmlərin Rəbbi olan Allaha həmd olsun!

## Qeydlər və istinadlar

(1) Deməli, bir qadın vəfat edir, onun əri və iki bacısı qalır. Ömər (Allah ondan razı olsun) bu məsələnin həllini məşvərət yoluyla həll etmək üçün bütün səhabələri ətrafına yığır, çünki məsələnin kökü 6 səhmdən olduğu halda, ərə bunun yarısını verir (3 səhm), bacıların payı isə 2/3 (üçdə

ikidən) olanda dörd səhm olur. Bu durumda məsələnin kökü 6-dan olduğu halda səhmlərin sayı 7-dən olur. Məşvərət nəticəsində səhabələr bu məsələnin bu qaydada həll olması üzərində icma edirlər: "Məsələ 6-dan olsa da 7-yə qaytarılmalıdır". (Ətraflı bax: əl-Mutəməd fil-Fəraid. AbdulQadir Cəfər. səh. 170; Həmçinin bax: əl-Behcətu, şərhut-Tuhfə. ət-Təsəvvuli. 2/664).

(2) Bu məsələ səhabələrin, məzhəblərin cumhurunun görüşüdür. İbn Abbas da Ömərin sağlığında bu görüşdə olub. (şeyx Səd Xaslənin saytı: https://saadalkhathlan.com/3387 الدرس الخامس/فقه وحساب الفرائض)

(3) "Ğarra və ya Mərvaniyyə" məsələsi: Bu məsələdə qadın vəfat edir, özündən sonra əri, anasının iki bacısı, özünün və ya atasının iki doğma bacısı qalır. Məsələnin əsli 6-dan olur, 9-a tüksəliy (avl edir). (Məsəil əl-Məşhura fil-Miras və Əhkəmihə fiş-Şəriah əl-İsləmiyyə. 1/64).

(4) "Ummul-Furuc" məsələsi və ya 10-a avl etmək məsələsi: Bu məsələ "Ummul-Furuc" məsələsi adlanır. Ləqəblə adlandırılmış məsələlərdəndir. Həyat yoldaşı, ana, iki doğma bacı və bir anadan olan iki bacının miras bölgüsüdür. Bu adla adlanmasının səbəbi odur ki, ⅔ hissəsi ilə avl etmişdir. Bu, Miras elmində ən yüksək avlın mümkün olduğu məsələdir. Bu məsələ həmçinin "Şureyhiyyə" olaraq da adlanır. Çünki, qazi Şureyh bu məsələdə hökm vermişdir. (Təhzib fi İlmil-Fəraid. Kəlvəzəni. səh. 39-40).

(5) "Omariyyə" məsələsi: Səhabələrin ixtilaf etdiyi iki məsələdir ki, Ömər ibnil-Xəttab bu iki məsələdə hökm

vermiş və səhabələrin əksəriyyəti bu hökmlə razı olmuşlar. (Daha ətraflı: İləmul-Muvaqqiin. İbn Qeyyim. 3/131).
(6) "Əkdəriyyə" məsələsi: Ər, ana, baba, doğma bacı və ya bir atadan olan bacıya aid məsələdir. Əkdəriyyə aldanmasının səbəbi bu məsələnin təməlinin qarışması Zeyd ibn Sabitin başına gəlmişdir. Bu səbəb haqda bundan başqa rəylər də deyilmişdir.
(ət-Təliqatul-Bəhiyyə aləl-Favaidil-Cəliyyə fil-Məbəhis əl-Fəradiyyə. Yisuf əl-Muhəmmədi. səh. 164).
(7) "Həcəriyyə" (daşlı) və ya "Yəmmiyyə" (dənizli) məsələsi: bu məsələ "muşərrikə" və ya "muştərikə" (yəni: şərik edilmiş, iştirak etmiş) də adlanır. Adlanma səbəbi isə, Ömər ibnl-Xəttabın yanına bir doğma qrup qardaşlar gəlir, bölgünün düzgün aparılması üçün (tək qalmış analarının oldunu izah edərək) atalarını haqqında belə ifadə deyirlər: "Fərz et ki, atamız dənizə atılmış bir daşdır, (bu zaman) anamız təkcə qalmırmı?" O bunu yaxşı hesab edir və aralarında müştərək olan bir hökm verir. (əl-Mutəməd fil-Fəraid. AbdulQadir Cəfər. səh. 124).
(8) Miras elmindəki 3 qism: əl-Mutəməd fil-Fəraid. AbdulQadir Cəfər. səh. 170.
(9) "Dinariyyə əl-Kubra" məsələsinin "Dinariyyə" aldanmasının səbəbi məsələnin dinar bölgüsü ilə əlaqədar olmasındandır. Bu məsələnin digər adlarından: "Rukabiyyə", "Davudiyyə", "Amiriyyə" və "Şəkkiyyə" də var.
(10) Qazi Şureyh: bu Şureyh adlı qazi Kufə şəhərində müsəlmanların ilk rəsmi qazisi olmuşdur və 60 ildən çox

qazilik vəzifəsində olmuşdur. Adı: Şureyh ibnil Haris ibn Qeys ibn ibnil-Cəhm ibn Müaviyə ibn Amir əl-Kindi əl-Kufidir. Əsli-nəcabəti yəməndəndir, cahiliyyət (İslamdan əvvəlki) dönəminə yetişmişdir. Özü səhabə olmuş, peyğəmbərdən hədis də rəvayət etmişdir. Həmçinin, Əlidən, Ömərdən, Əbu Bəkrin oğlu Abdur-Rahmandan (Allah onlardan razı olsun) da hədis rəvayət etmişdir.

(11) "Dinariyyə əl-Kubra" hadisəsi: Bölgü nəticəsində həmin 600 dinardan ölənin bacısına bir dinar pul düşmüşdü, həmin qadın da (ölən kişinin doğma bacısı) bununla razılaşmır və imam Əlinin yanına gəlib ona məsələni şikayət edir, qardaşından 600 dinar miras qaldığı halda ona cəmi bir dinar düşdüyünü bildirir, imam Əli (radiyallahu anhu) qaxi Şureyhin hökmünü təsdiqləyir və deyir: Ola bilsin ki, sənin qardaşın özündən sonra iki zövcəsini, bir qızını, anasını, on iki qardaşını və tək bacısı olan səni qoyub gedib, bacısı "bəli" deyərək bunu təsdiqləyir. Sonra deyir ki: "O zaman məsələ 24-dən olur, 1/8-i zövcəsinin payıdır, 2/3-si qızların payıdır, 1/6-i ananızın payıdır, geridə qalan da qardaşlarınla sənindir. Məsələdəki 600 dinarıböləndə həyat yoldaşına 75 dinar, 400 dinar qızlarına düşür, 100 dinar anasına düşür, yerdə qalan məbləğ cəmi 25 dinar edir. Sizin sayınız isə 12 qardaş və bir bacıdır. Ayətdə mirasdan kişiyə qadının iki qat payının düşdüyü bildirilib. Hər qardaşa iki pay, bacıya bir pay verildiyi zaman 12 qardaşın payı 24 dinar, sənin (ölmüş şəxsin bacısı) payın isə 1 dinar edir, qalan 25 dinar beləcə bölünür. Xülasə, imam Əli bu hökmü təsdiqləyir və bu

hökmün adı "Dinariyyə əl-Kubra" (Böyük dinar məsələsi) olaraq qalır. (Emin Hacıyevin miras şübhəsinə cavab dərsindən alıntı).

(12) "Minbəriyyə" məsələsi: Rəvayət edilir ki, imam Əli Kufədə minbərdə xütbə verərkən bu məsələ haqqında ona sual verilir, o da dərhal minbərdə ikən bu məsələyə cavab verir. beləcə, bu məsələnin adı "Minbəriyyə" olaraq qalır. Məsələnin kökü 3/24-dən olduğu halda, o 3/27 edərək doqquz cavabını xütbənin sözlərinə uyğun qafiyə ilə: والمرأة صار ثمنها تسعا (qadının payı doqquz edir) deyərək hökmünü verir. (İlmul-Fəraid vəl-Məvaris fiş-Şəria əl-İsləmiyyə val-Qanun əs-Suri. Muhəmməd Xeyri əl-Mufti. səh. 237).

(13) Qoyulan məsələləri eyni şübhəyə görüntülü şəkildə cavab verən dr. Emin Hacıyev qardaşımızın gətirdiyi məsələlərlə uyğunlaşdırmağa çalışdıq, miras elmində verilmiş bəzi məsələləri yazıb qeydləri uzatmadıq. Emin Hacıyevin məsələyə görüntülü cavabını bu keçiddən izləyə bilərsiniz: https://youtu.be/4moHtkRi9iw

# Peyğəmbər ﷺ Quranı Umeyyə ibn Əbis-Salt adlı şairdən götürüb?

**Birincisi:** Umeyyə ibn Əbis-Salt kimdir? Bu şairin adını belə düzgün və tam yaza bilməyənlər bu gün çıxıb Muhəmməd ﷺ peyğəmbərin belə bir şairdən şeir və ya Quran götürdüyünü iddia edirlər. Umeyyə ibn Əbis Salt cahiliyyə (İslamdan əvvəlki) dönəmində yaşamış bir şair olub, İslam dövrü gəldikdə (hicrətin 9-cu ilinə kimi) yaşayıb, İslamı qəbul etməyib və Muhəmməd ﷺ peyğəmbərin düşməni olub. O, Taif şəhərində yaşayırdı. Atası Əbis-Salt ibn Əbi Rabia da şair olub.

**İkincisi:** Bu şair haqqında dinsizlər tərəfindən çox qəribə, batil iddialar irəli sürülür. Guya Muhəmməd ﷺ peyğəmbər onunla döyüşüb. Bu, ən gülməli iddiadır. Əksinə, Taif şəhərində yaşayan Əbis-Salt öz əcəli ilə ölmüş və təxminən peyğəmbərin həyatının sonlarına kimi yaşamışdır, lakin, ondan qabaq ölmüşdür. Onun Muhəmməd ﷺ peyğəmbərə düşmənçilik edən Qureyş qəbiləsi ilə də əlaqələri yaxşı olub. Əgər ortada müharibə var idisə, özü də guya peyğəmbərlik iddiasında olan bu şəxslə Muhəmməd peyğəmbər arasında müharibə var idisə, niyə bu haqda heç bir tarixi qeydlər yoxdur? Həm də əgər belə fərziyyə var idisə, ikisi də peyğəmbərlik iddia edib müharibə edirdilərsə, niyə Qureyş qəbiləsi özündən olan həqiqi peyğəmbəri, yəni Muhəmməd

peyğəmbəri dəstəkləmədi? Çünki, iddialarda qalib gələnin dininin yayıldığı cəfəngiyyatı qeyd edilir. Lakin, Qureyş müşriklərindən uzaqda yaşayan bu şairin (Umeyyə ibn Əbis Saltın) öz qəbiləsi var idi. O Taif şəhərindən idi. Deməli, müharibə iddiası ilə bu şübhəni yeritmək də batildir. İki şəxs arasında belə bir müharibə tarixdə olmayıb.

**Üçüncüsü:** Savadsız yazılardan və iddialardan biri də Ümeyyə ibn Əbis-Saltın özünün Quranının olmasıdır. Halbuki, o bir şair olub. Şeirləri isə günümüzə tam gəlib çatmayıb, bəzi rəvayətlərdə onun yəhudi və xristianlarla görüşməsi təsdiqlənib və bu səbəbdən də digər müşriklərdən fərqli olaraq "cənnət və cəhənnəm, yerin-göyün yaranması, bəzi peyğəmbərlər" haqqında şeirlərində yazdığı qeyd olunub. Yoxsa, qeyb aləmindən bir neçə şey yazmasına görə Muhəmməd ﷺ peyğəmbərin ondan nə isə götürəcəyinə, nəyisə kopyalayacağına, özü də ikisinin düşmən olduqları halda bunu etməsinə ehtiyac yox idi. Məlum idi ki, qatı düşməni bundan xəbər tutar və öz intiqamını alar, onun özündən "oğurluq etdiyini" iddia edərdi. Təbii ki, bu nağıl və fərziyyələr mümkünsüzdür. Üstəlik şairlərin şeiri öz üslubu ilə Qurandan tamamilə fərqlənir. Muhəmmədin ﷺ Quranı kimdənsə köçürtməsini iddia etmək absurddur. Bu iddianı edənlərin çoxusunun xəbəri yoxdur ki, tarixdə Muhəmməd ﷺ peyğəmbərin bir neçə şəxsdən nəyisə köçürtməsi iddiaları edilmişdir. Burda da ziddiyyət yaranır ki, doğrudan da o köçürübmü? Köçürübsə, görəsən, bu şəxs

həyatda görmədiyi, ölüm və doğum tarixləri arasında 30 il fərq olan, özündən öncə yaşamış olan İmrul-Qeysdirmi? Yoxsa bu şübhədə adı çəkilən, özünə düşmən olan şəxsdirmi? Yoxsa, yetkinlik çağında (qısa dəqiqələr ərzində) gördüyü xristian keşişdirmi? Bunlar sadəcə iddia və isbat edilməsi mümkünsüz məsələlərdir.

**Dördüncüsü:** Tarixi sənədlər sübut edir ki, Muhəmməd ﷺ peyğəmbər Umeyyə ibn Əbis-Saltın şeirlərindən bəzi beytlər ilə onun vəfatından iki il sonra (vəda həccində, yəni öz vəfatına az qalmış, sonuncu həccini edərkən) ilk dəfə tanış olmuş, səhabələrdən biri vasitəsilə həmin şeirlərin bəzi beytlərini dinləmişdir. Həmin rəvayət "Səhihi-Müslim" əsərindədir. Rəvayət belədir: "Amr İbn Şərid, o da atasından rəvayət edir ki, o dedi: "Bir gün peyğəmbərlə ﷺ yol yoldaşı oldum. O mənə dedi: "Səndə Umeyyə ibn Əbis Saltın şeirlərindən varmı?" Dedim ki: bəli. Dedi: de. Mən də ona yüz beyt oxudum" (1).

Bir rəvayətdə isə deyilir ki: "Peyğəmbər (o şeirləri oxuyub bitirdikdən sonra) dedi: "Az qala müsəlman olacaqmış"". Peyğəmbərin ﷺ bu sözləri deməsi təbiidir. Çünki, xristianlıq və yəhudilikdə, bütün peyğəmbərlərin təsdiqlədiyi bəzi məlumatları həmin şair öncədən öyrəndiyi üçün təsdiqləmiş, sadəcə özü həsədindən dolayı Muhəmməd ﷺ peyğəmbərə iman gətirməmişdi. Necə ki, tədqiqatçılar da bu amili

xüsusilə vurğulamışlar. Lakin, bu şairin doğma bacısı, övladları İslamı qəbul etmiş, Muhəmməd peyğəmbərin ﷺ səhabələrindən olmuşdular. Əgər peyğəmbərimiz ﷺ onun şeirlərini götürmüşdüsə, kopyalamışdısa, öz adına çıxmışdısa, bu şairin doğma qan qohumları peyğəmbərimizi necə təsdiqləyir və ona necə iman gətirə bilirdilər?!

**Beşincisi:** Şeir rəvayətlərinə və şairlərə edilən şeir nisbətlərinə də çoxlu yalan və uydurmaların daxil olması da məlum bir məsələdir. Necə ki, bir çox tarixi xəbər və rəvayətlərdə də bu müşahidə edilir. Ona görə də Umeyyə ibn Əbis-Saltın özünə nisbət edilən şeirlərin böyük əksəriyyətinə mütəxəssislər şəkk edir və bunların onun şeirləri olmadığını, onun üslubuna müxalif olduğunu bildirmiş, qeyd etmişlər ki, Quran üslubuna bənzərlik göstərilməsi cəhd edilən bəzi şeirlər İslamdan sonra bəzi şairlər tərəfindən yazılaraq Umeyyə ibn Əbis-Salta nisbət edilmişdir.

Bu haqda doktor Şövqi Dayf deyir: "1911-ci ildə Schulthess Umeyyə ibn Əbis-Saltın bəzi beytlərini (şeirlərini) toplayaraq alman dilinə tərcümə etmiş və Leyzbikdə yaymışdır". Sonra isə o, bu şeirlərin Quran üslubundan tam fərqli olduğunu, zəif və dil üslubunun sönük olduğunu vurğulamış, yerin göyün yaradılması haqqında məlumatların Qurandan götürülməsi, bu şeirlərin İslamdan sonradan bəzi qissəçilər və moizəçilər tərəfindən yazılmasının

əlamətlərinin açıq olduğunu vurğulamışdır. Həmçinin mənbədə vurğulanır ki, əgər "Heyar" ərəb dili elmini dərindən bilsəydi və cahiliyyə dövrü ərəblərinin metodikalarını bilsəydi, anlayardı ki, bu şeirlər həmin şəxsə aid deyil və İslamdan sonrakı dövrlərdə yazılaraq onun adına nisbət edilmişdir (2).

Quran rəvayətinin sağlamlığı, qəti dəlillərlə onun sənədinin qorunması mövzu üzrə elmi araşdırmalardan bəlli olduğu halda, biz müəllifi və üslubu şəkk-şübhə və məchulluqla qaynayan hansısa şeirlərə görə Qurana şəkk edə bilmərik.

Doktor Cavad Əli demişdir: "Qurani-Kərim sabitdir, (elmi yolla) qorunmuşdur, heç cürə şəkk etməyə yol qoymur. Amma, Ümeyyə ibnus Saltın şeirləri isə bunun kimi deyil. Bu şeirlərin heç yazılma tarixi belə bəlli deyil. Bu müqayisə - təbiri caizsə - şübhəni gətirənlərin xeyrinə deyil, əleyhinə bir hüccətdir. Onlar ilk öncə bu şeirlərin Umeyyə ibn Əbis Salta aid olduğunu inkar edilməz dəlillərlə sübut etməli idilər. Sadəcə "bu orjinal şeirdir" deyib bunu fərziyyə kimi irəli sürüb, sonra kənara çəkilməli deyildilər. Sübut etməli idilər ki, bu şeirlər Quranla eyni vaxtda yazılıb. Əksinə, (müqayisədə) görünür ki, bu sözlərin biri digərindən köhnədir".

**Qeydlər və istinadlar:**

1 - Səhihi Müslim. 2255.

2 - Ətraflı bax: Ərəb ədəbiyyatının tarixi – cahiliyyə əsri "379 – 395 .ص "تاريخ الأدب العربي، العصر الجاهلي

3 – İslamdan öncəki Ərəb tarixinin təfsilatı. Dr. Cavad Əli. 6/694. المفصل في تاريخ العرب قبل الإسلام" (6 / 494).

## Qurana görə yer kürədir, yoxsa düzdür?

Yerin düz və ya kürəvi olması mövzusu tamamilə elmi bir mövzudur. Hətta dünyəvi elmi dairələrdə belə yerin düz və ya kürəvi olması haqda fərqli fikirlər irəli sürülür. Baxmayaraq ki, NASA yerin kürəvi olmasını təsdiqləyir. Quranda yerin düz olması və ya kürəvi olması mövzusu müasir dövrdə İslam alimləri arasında ixtilaflıdır. Yerin düz və ya kürəvi olması haqqında dəqiq fikir irəli sürmək, habelə o fikirlə razılaşmayanın günah qazanacağı kimi bir rəy İslam dinində yoxdur. Bu mövzu dində ictihadi mövzulardandır. Tarix boyu alimlərin bu məsələdə ixtilafı olub. Hətta bir zamanlar yerin kürəvi olması görüşü İslam alimləri arasında məşhur görüşlərdən olmuşdur. Mövzunun bəzi ateistlər

tərəfindən sanki bütün İslam alimləri "düz dünya" deyirmiş kimi qoyulması məsələyə qərəzli bir yanaşmadır. Təəssüflər olsun ki, bəzi ateistlər məsələni məhz bu şəkildə qoyur və müsəlmanları ittiham etməyə çalışırlar.

Biz məsələni lap dərindən araşdırdıqda artıq hicri tarixin 5-ci əsrindən başlayaraq İslam alimlərinin yerin kürəvi olması haqqında hətta "icma" (1) nəql etdiklərinin şahidi oluruq. Bu alimlərdən miladi tarixlə 10-cu əsrdən 14-cü əsrə kimi mühüm nəqllər müşahidə olunur. İbn Həzm (994-1084), Qəzali (1058-1111), Fəxrəddin ər-Razi (1150-1210), İbn Teymiyyə (1263-1328), İbn Qeyyim (1292-1350), İbn Kəsir (1301-1373) və s. bir çox alimlər yerin kürəvi olması görüşünü nəinki müdafiə etmiş, hətta dövrün alimlərinin ya əksərinin ya da hamısının yerin kürəvi olması fikrində olduğunu bildirmişlər. Hələ müasir alimlərdən danışmırıq.

İbn Həzm hələ hicrətin 5-ci əsrində ikən (994-1084) deyirdi: "(Alimlər) demişlər: Yerin kürəvi olması haqqında dəlillər doğrudur. Sıravi insanlar isə bunun əksini demişlər… Buna cavabımız belədir (müvəffəq edən Allahdır!) : Müsəlmanların imamlarından elmdə imamlığa layiq olan heç biri yerin kürəvi olmasını inkar etməmişlər! Onların bunu (yerin kürəvi olmasını) inkar etməkdə heç bir sözü məlum deyil. Əksinə, Qur'an və Sünnədən (hədislərdən) gələn dəlillər yerin kürəvi olmasına dəlalət edir"(1).

O, təxminən on əsr əvvəl böyük İslam alimlərinin yerin kürəvi olmasını müdafiə etdiklərini deyir. Xüsusən də böyük alimlərə (imamlara) müxalif olanları nə kafir adlandırır, nə də haqlarında pis söz demir. Sadəcə onları "ammətun-nəs", yəni "sıravi insanlar" adlandırmışdır. Öz zamanında bunu deyənlərin (öz tanıdıqlarından) elmdə möhkəm olmadığına işarə etmiş, böyük alimlərin isə yerin kürəvi olduğunu dediklərini vurğulamışdır.

Şeyxulislam İbn Teymiyyə (Allah ona rəhmət etsin) demişdir: "Alimlər icma etmişlər ki, yer quru və dəniz olmaqla bütün tərəfləriylə bərabər kürə kimi (dairəvidir). Buna da günəşin, ayın və planetlərin yer üzündə olanların hamısı üçün eyni vaxtda çıxması və batmasının müşahidə olunmaması dəlalət edir. Əksinə, qərbdən öncə bu şərq tərəfdə baş verir" (2).

Bu alimlərdən bəziləri مستديرة dairəvi sözünü işlədiblər, lakin izahlarından kürə demək istədikləri aydındır. Məsələn, İbn Həzm, Qəzali, F. Razi konkret olaraq "kürə" sözünü işlədiblər, baxmayaraq ki, yerin durumuna, formasına verdikləri izah İbn Teymiyyənin izahı ilə eynidir, sadəcə ibn Teymiyyə مستديرة dairəvi sözünü işlədib deyə "düz dünyaçılar" onun düz bir yeri, əfrafının isə dairəvi olmasını qəsd etdiyini irəli sürüblər ki, bu elə də qüvvətli izah deyil.

Çünki, onun yerə verdiyi vəsf İbn Həzmin və Qəzalinin verdiyi izahdan fərqlənmir. Sadəcə "kürə" və "dairəvi" sözlərinin istifadəsində fərqləniblər.

İbn Qeyyim (Allah ona rəhmət etsin) demişdir: "Səmanın yeri (dairəvi) əhatə etmədiyini və səmanın yalnız yerin damı olduğunu demək, bu, *alimlərin icmasına,* ağıl və hissin dəlalət etdiyi şeyə müxalifdir" (3).

İbn Kəsir (Allah ona rəhmət etsin) demişdir: "Yerin döşənməsi və kürəvi olması arasında bir ziddiyyət yoxdur. Çünki, yer özü özlüyündə və bütövlükdə olduqca iri, böyük və əzəmətlidir, kürəvidir. O qədər böyükdür ki, baxan insana səthi düz görsənir. Necə ki, bütün insanlar baxanda elə görürlər"(4).

Qurani-Kərimdə "döşədik", "yaydıq" kimi ifadələrin olması yerin xüsusi şəkildə yayılması, döşənməsinə dəlalət edir ki, bu yayılma və ya döşənmə yerin kürəvi olmasına maneə deyildir. Bunu bir çox İslam alimləri vurğulamışlar. Ələxsus da yerin kürəvi olduğunu bildirən alimlər bu fikri dəstəkləmiş və demişlər ki: yer üzü o qədər böyükdür ki, onun gözlə baxdıqda düz görünməsi ümumən kürəvi olmasına maneə deyildir.

Fəxrəddin ər-Razi (Allah ona rəhmət etsin) demişdir: "Dəlillə sübut olunmuşdur ki, yer kürə formasındadır"(5).

İbn Useymin (Allah ona rəhmət etsin) demişdir: "Qurani-Kərimə, reallığa və elm əhlinin sözlərinə əsasən yer kürəvidir; Qurani-Kərimə gəldikdə Uca Allah buyurmuşdur:

« يُكَوِّرُ اللَّيْلَ عَلَى النَّهَارِ وَيُكَوِّرُ النَّهَارَ عَلَى اللَّيْلِ [الزمر:5]»

"O, gecəni gündüzə bürüyür, gündüzü də gecəyə bürüyür". (əz-Zumər, 5) Ayədə keçən التكوير"bir şeyi kürə kimi etmək mənasını verir". Necə ki, imamə kürə kimi edilir (yəni: necə ki, baş sarığı başa kürə şəklində dolanır). Məlumdur ki, gecə-gündüz yer üzündə bir-birini əvəzləyir. Bu isə yerin kürəvi formada olmasını gərəkdirir. Çünki, sən əgər bir şeyi digərinin üzərinə kürə edərsənsə, (dairəvi dolamağı təsəvvür edirsənsə), bu dolamağın yer üzərində dairəvi şəkildə baş verməsi mümkün olursa, buna əsasən, yer kürəvi olması lazımlı olur.

Amma, yerin kürəvi olmasına reallıqdan dəlilə gəldikdə bu da sabitdir. Çünki, bir nəfər əgər Ciddə şəhərindən qərb istiqamətinə uçmaq istəyərsə - əgər düz xətt üzərindədirsə - o, ciddənin şərq nahiyəsi tərəfindən çıxmış olacaqdır. Bu məsələdə iki nəfər ixtilaf edə bilməz.

Alimlərin sözlərinə gəldikdə isə onlar qeyd etmişlər ki, aralarında (uzun) məsafə olan iki qohumdan biri günçıxan tərəfdə günəş batdığı zaman vəfat edərsə, digəri isə günbatan tərəfdə günəş batdığı zaman vəfat edərsə, bu zaman günbatan tərəfdə olub günəş batdığı zaman vəfat edən şəxs günçıxan tərəfdə günəş batdığı zaman vəfat edən şəxsin mirasına yiyələnir - əgər onun varislərindən sayılırsa. Bu da yerin kürəvi olmasına dəlalət edir. Çünki, əgər yer düz olsaydı, bu zaman günəşin batması onun üçün bütün tərəflərdən eyni vaxtda baş verməli idi. Bu anlaşıldısa, bunu da heç kim inkar edə bilməz. Bu, Qurani-Kərimdəki bu ayələrə zidd deyil:

« أَفَلا يَنْظُرُونَ إِلَى الإِبِلِ كَيْفَ خُلِقَتْ* وَإِلَى السَّمَاءِ كَيْفَ رُفِعَتْ* وَإِلَى الْجِبَالِ كَيْفَ نُصِبَتْ* وَإِلَى الأَرْضِ كَيْفَ سُطِحَتْ [الغاشية:17-20]»

"Məgər onlar dəvənin necə yaradıldığını görmürlər? Göyün necə yüksəldiyini görmürlər? Dağların necə sancıldığını görmürlər? Yerin necə döşədildiyini görmürlər?» (əl-Ğaşiyə, 17-20). Çünki, yerin həcmi böyükdür. Onun kürəvi olmasının bilinməsi yaxın məsafələrdə bilinmir. Bu, yerin üzünə səthi baxış etibarilədir, hətta yerdə yaşamaq üçün heç bir narahatçılıq əmələ gətirən amil olmasın deyə. Bu, yerin kürəvi olmasına zidd deyildir. Çünki, yer özlüyündə olduqca böyükdür" (6).

İbn Bəzz (Allah ona rəhmət etsin) demişdir:

"İslam alimlərinin rəyinə əsasən Yer planeti kürə şəklindədir. İbn Həzm və digər alimlər yerin kürə şəklində olması haqqında icma nəql etmişlər. Yəni, bu o deməkdir ki, onda olan hər şey bir-birinə birləşikdir və yerin forması kürə şəklindədir. Lakin, Uca Allah onu bizim üçün döşəmiş və onun üzərində möhkəm dağlar yaratmışdır. O, rəhmət olaraq orada bizim üçün dənizlər və heyvanlar yerləşdirmişdir. Ona görə də Allah buyurmuşdur: «Yerin necə döşədildiyini görmürlər?». (Ğaşiyə, 20) Ona görə də yerin səthi elə döşənmişdir ki, insanların mövcud olması, rahat yaşamaları üçün əlverişli olsun. Yerin kürəvi olması onun səthinin döşənməsinə maneə deyildir. Çünki, əgər kürə böyükdürsə, onun səthi hamarlaşır, düzləşir, yəni, döşənmiş olur. Bəli» (7).

Şeyx Albani də (Allah ona rəhmət etsin) yerin kürəvi olmasını iqrar etmişdir. Ümumiyyətlə, verilən səsyazıda şeyx ətraflı şəkildə izah edir ki, Qur'an və Sünnənin vəzifəsi dünyəvi elmlərin təfsilatlı izahını vermək deyildir. Eyni zamanda Qur'an və Sünnə elmi həqiqətlərlə nə ziddiyət təşkil etmir, nə də elmi həqiqətləri inkar etmir (8).

Mədinənin böyük alimi Şeyx Abbad da (Allah onu qorusun) yerin kürəvi olmasını iqrar etmişdir. Bunu "Peyğəmbər məscidi"ndə "Səhih-əl-Buxari" kitabını şərh edərkən qeyd etmiş, İbn Kəsirin yerin kürəvi formada olması barədə alimlərdən icma nəql etməsini bildirmişdir.

Nəticədə aydın olur ki, bütün İslam alimlərinin adından yerin düz olması görüşünü qeyd etmək doğru deyildir. Hələ biz adları çəkilən qədim alimlərin zamanından sonrakı əsrlərdə bu görüşü deyənlərin adıarını və fikirlərini qeyd edib məqaləni uzatmadıq. Əsasən 10-cu miladi əsrlə 14-cü əsrdə yerin kürəvi olduğunu bildirən alimlərdən bəzilərinin adlarını qeyd etdik, sonra azsaylı müasir alimlərdən də sitat gətirdik.

## Qeydlər və istinadlar:

1 - əl-Fisalu fil-Miləli vəl-Əhva'i vən-Nihəl, 2/78.

2 - Məcmuul-Fətəva, İbn Teymiyyənin fətvaları. 25/107.

3 - İbn Qeyyim. əs-Səvaiq əl-Mursələ, 4/1308.

4 - Təfsirul-Quranil-Azim, Rad surəsi 3-cü ayənin təfsiri.

5 - Fəxrəddin ər-Razi. Məfətihul-Ğayb, 21/142.

6 - İbn Useymin, Fətəva Nurun Aləd-Dərb, Kaset no: 66.

7 –İbn Bəzin fətvası: (Video Səsyazı: tərcümənin linki: https://youtu.be/-xZ-WJWie1A. Daxil olma tarixi: 2020/06/28.

8 –İmam Albaninin fətvası: fətvaya daxil olmaq üçün link:

(https://youtu.be/PdBDFXtYKhU daxil olma tarixi, 2020/06/28.

❀ ❀ ❀

## Şeytanlara ulduz, yoxsa kiçik kametlər atılır?

Ateistlərin bəzi sosial şəbəkələrdə Quranda guya ulduzların şeytanların arxasınca atılan daşlar kimi vəsf etmələri onların təhriflərindəndir. Quranda sadəcə şeytanların arxasınca atılan yandırıb-yaxan alovdan bəhs edilib. Uca Allah buyurur: "Lakin şeytanlardan hər kim o söhbətlərdən bir söz qapıb qaçarsa, onu yandırıb-yaxan alov təqib edər". (Saffət. 10). Buna bənzər digər ayət Hicr surəsi 18-ci ayədə var. Nə bu ayətdə, nə digər ayətlərdə şeytanların arxasınca atılan ulduzlardan söhbət getmir. Sadəcə yandırıb-yaxan alovdan bəhs edilib. Bu "şeytanlara atılmış ulduz" təhtrifini ateistlərin yazılarında çox müşahidə edilir. Şeytanlara atılan yandırıb-yaxan alovun gördüyümüz böyük ulduzlar olmaması haqqında İbn Həzm, İbn Kəsir, hətta Zəməxşəri belə təfsirlərində danışıblar.

Sual verilsə ki, bəs bu atılan daşlar nədir elə? - bəzi elm əhli cavabında “kametlərdir” deyiblər. Bunlar kiçik səma

cismləridir. Ona görə yuxarıda böyük ulduzlardan söhbət getmədiyini qeyd etmişik. Quranda “ulduz” kimi tərcümə olunan söz مصابيح sözüdür, المصباح "misbah" çıraq sözündəndir, səma cismi olduğu üçün ulduzlar da bura daxil edilib, lakin bu çıraqların konkret vəsfi, həcmi haqqında danışılmayıb. Yaxud bu səma cismləri səmaya bağlıdır, yaxud fəzada uçurlar? Quran bu mövzulara toxunmayıb. Bu cismlər normalda sabitdir, yoxsa hərəkətdədir? Bu cismlər böyükdür, yoxsa hərəkətdədir? Bu mövzular Quranda haqqında susulmuş mövzulardandır. (1)

Əgər deyilsə ki, bəs hədislərdən birində ulduzların şeytanların arxasınca atılan daş olduğu qeyd olunub, bunu necə başa düşək? Cavab belə olar: “İbn Kəsir ayədəki "misbah" sözünü izah edəndə bunun “misbah” cinsindən olduğunu, ulduzun özünün olmasının zəruri olmadığını bildirib, ona görə bəzi təfsir alimləri atılan daşların ulduzun özü deyil, ulduzların maddəsindən olan kiçik kametlər olduğunu deyiblər, beləcə bu izah nə ayəyə (1), nə də hədisə zidd deyil, əlhəmdulilləh düzgün mənanı ifadə edir. Necə ki, ərəbcə bir şeyin özündən ayrılan, qopan və ya eyni maddədən olan şey həmin kökdən hesab olunduğu üçün öz kökünə nisbət olunur. Lüğəvi cəhətdən də məsələ aydın olur. İbnil Cizzi də bunun ulduzların özü yox, onlardan (qopmuş) olan (kiçik) hissələr olduğunu bildirib. (2)(3).

## Qeydlər və istinadlar:

1 - Ətraflı baxmaq üçün mənbə ظاهرة نقد الدين في الفكر : الغربي الحديث. 2/496)

2 - Bax: ət-Təshil li Ulumuit-Tənzil. 2/395).

3 - Misbah sözü yox, nəcm, nucum (ulduz) sözü keçən ayət də var.

# Qalaktikalar iki günə, yer dörd günə yaranıb?

**Şübhə belədir:** *"Necə olur ki, Qurani Kərimdə Qalaktikaların 2 günə, yerin 4 günə yaranması qeyd olunur? Bu boyda böyük ulduzlar, qalaktikalar cəmi iki günə yaranıb, lakin, yer dörd günə yaranıb?*

**Cavaba qısa giriş:**

Əvvəla onu qeyd edək ki, Quranda yerin yaranması iki gündür, səmaların yaranması da iki gündür, sadəcə əlavə olaraq yerin həyata uyğun hala gətirilməsi prossesi də iki gün verilib ki, bunun cəmi altı gün edir. Bu haqda olan təfsilatı başqa məqalədə - "Yer altı, yoxsa səkkiz günə

yaranıb?" - şübhəsinə cavab verərkən toxunacağıq. Hələlik gəlin bu şübhəni saf-çürük edək.

Təcrübi elm əsrindən öncə elm əhli Quranda qəsd edilən altı gündə yaranmadakı "gün" sözünün mənası haqda üç görüş irəli sürüblər:

1 - Bu günlər dünya günləri kimidir.

2 - Bu günlər axirət günləri kimidir. Ya bu günlər (ayətlərdə keçən) min ilə (1), ya da əlli min ilə bərabərdir (2).

3 - Bu günlərin dəqiq müddəti bilinmir (3).

Elm əhlindən üçüncü görüşü dəstəkləyənlər də az olmamışdır. İbn Teymiyyə (4), Beydavi (5) Şükri Alusi (6) və başqaları bu alimlərdəndir.

İkinci və üçüncü görüşə görə qətiyyən Quranın müasir elmə müxalif olmasından söhbət gedə bilməz.

Birinci görüş isə zatən qeybə iman gətirmiş biz müsəlmanlar üçün məqbuldur və Allahın kainatı "ol" deməklə ən qısa müddətdə yaratmağa qadir olduğuna şəkk-şübhəsiz inanırıq.

İkinci görüşü deyənlərdən Mücahidin sözünü imam ət-Təbəri nəql etmişdir: "Altı günün bir günü sizin saydığınız günlərin min gününə bərabərdir". (7).

Dahhak da həmçinin hədislə ayəni cəm edərək demişdir: "Burda axirət günləri nəzərdə tutulur. (Altı günün) hər bir günü min ilə bərabərdir. Əhəd başlayıb, yaradılış cümə günü tamamlanıb və "cümə" adlanıb. Səbt (şənbə) günü gəlib və daha heç nə yaratmayıb" (8). Bu "gün" sözünün min ilə bərabər olması görüşü İbn Abbasdan (9) və imam Əhməddən də nəql olunub (10). Şeyx Albani də bu görüşü dəstəkləyib (11).

Qeyd etdiyimiz kimi dünyanın yaranması haqda müasir dünya elmində çoxlu nəzəriyyələr və fərziyyələr irəli sürülsə də, reallıq odur ki, bunların hamısı zənn və təxmin olmaq mərhələsindədir. Bunların heç biri elmi həqiqət olub əks görüşləri rədd etmək səlahiyyətində deyil.
Ona görə də Con Gribbin kainatın yaranma hekayəsini yazmaq istəyəndə qeyd etmişdi ki, bu haqda olan məqalələrin bir çoxu ehtimal və təxminlər üzərində yazılmışdır (12).
İndi isə gəlin mövzunu digər aspektlərdən bir qədər ətraflı ələ alaq:

**Birincisi:** Biz müsəlmanlara verilən bəzi xəbərlər qeybi xəbərlərdəndir; Qeybi xəbərlər haqda bizim üzərimizə düşən iman gətirməkdir. Allah istəsəydi, kainatı bir günə də yarada bilərdi. Hətta "ol" deməklə belə ən qısa müddətə yarada bilərdi. Necə ki, uca Allah buyurur: "O, bir işə hökm

verdikdə ona ancaq: “Ol!”– deyər, o da olar". (əl-Bəqərə. 117). Bu onun üçün heç də çətin bir şey deyil.

Bu sual əgər yaradılışın müddəti - uzunluq və ya qısalıq baxımından - yaradılmışların həcmi, genişliyi, dəqiqliyi, qəliz quruluşu və s. kimi insanların özlərinin düzəltdiyi, ərsəyə gətirdiyi məsələlərdə verilsəydi, o zaman məntiqi olardı. Hansı ki, insanların belə mövzularda bacarığı müxtəlifdir. Lakin, uca Allahın insanları altı gündə yaratması onun kainatı bir anda yaratmaqdan aciz olmasına, gücünün çatmamasına görə deyil, məsələ elə deyil, dediyimiz kimi Allah istəsəydi, ol deyərdi və kainat mövcud olardı. Lakin, uca Allah Qurtubinin təfsirində dediyi kimi: "Qullarına yumşaqlığı, məsələlərdə sabitliyi (tələsməməyi) öyrətmək istəmişdir. Bir başqa hikmət isə budur: Allah göyləri və yeri altı günə yaradıb, çünki onun qatında hər şeyin müddəti, vaxtı var. Ona görə də o günahkarları cəzalandırmağa tələsmir, onlara da vaxt verir, çünki, Allah hər şeyə vaxt təyin etmişdir. Bu altı gündə ona bir yorğunluq da üz verməmişdir. Necə ki, buyurur: "Biz göyləri, yeri və onların arasında olanları altı gündə yaratdıq və Bizə heç bir yorğunluq üz vermədi. Sən onların dediklərinə səbir et!..." (Qaf. 38-39-cu ayələr) (13).

Əbus-Suud da "İrşadul-Aqlus-Səlim" kitabında demişdir: "Məxluqatı birdəfəlik yaratmağa qadir olduğunu halda onları tədricən yaratmaq seçimin olmasına, dəqiq nəzər yetirmək qüdrətinə və işləri tələsmədən yerinə yerirməyə (hikmətə) dəlildir". (14).

**İkincisi:** Bu haqda qüvvətli görüşlərdən və izahlardan biri də Allah qatındakı gün (zaman) hesabı ilə bizim dünyamızdakı gün (zaman) hesabı fərqli olması izahına bağlıdır; Uca Allah bu haqda buyurur: "Rəbbinin yanında olan bir gün sizin saydığınızın min ili kimidir!" (əl-Həcc. 47). Bu mənada olan ayətin bir başqasından öncə isə uca, Allah məhz göylərin və yerin altı gündə yaranmasından bəhs edir, sonra isə belə buyurur: "O, göydən yerə qədər olan bütün işləri idarə edir. Sonra da bu işlər sizin saydığınız illərdən min ilə bərabər olan bir gündə Ona doğru yüksəlir". (Səcdə. 5). Qurandakı məhz bu ayədən öncəki (Səcdə. 4) ayədə axtardığımız məsələdən, altı gündə olan bir yaradılışdan bəhs edilir, növbəti ayədə isə bizim dünyamızdakı günlə Allah qatındakı zaman fərqinə toxunulur. Dinsizlər bu şübhəni gətirərkən heç şübhəsiz ki, zaman fərqini nəzərə almayıblar. Çünki, onların Qurandan xəbərləri yoxdur. Bu görüşə görə, altı gün deyildikdə Allah qatındakı zaman nəzərdə tutulur.

**Üçüncüsü:** Yaranma müddəti canlılarda da fərqlidir; İnsanlar yaranma əmri ilə yaranma müddətini fərqləndirməlidirlər. Allah bir şeyin yaranmasını əmr etdikdə ona "ol" deyər, o da olar. Əvvəldə bunu qeyd etdik və bunun hikmətindən danışdıq, lakin, məsələn insanın yaranması ana bətnində doqquz ay çəkir, toyuq 21 günə

əmələ gəlir, nəhəng bir fil 20-22 ay döl daşıyır, kərgədan 8 ay, inək 9 ay, at 11 ay, aslan 3-5 ay, it 2 ay və s. müddətə əmələ gəlir. Uşaq kenqurusu ana bətnində cəmi 35 gün keçirir və səkkiz aya qədər kisədə yaşayır. Ən uzun hamiləlik müddəti qara alp salamandrındadır, o 31 ay hamiləlik müddəti yaşayır (15). Göründüyü kimi yaranma, formalaşma müddəti canlılarda da fərqlidir. Bu müddət balıqlarda, həşəratlarda və digər canlılarda da fərqlidir. Çox xırdalıqlara getmirik. Deməli, Allah hər bir canlının yaranma müddətini də fərqli etmişdir. Şəkk yoxdur ki, Allah hər bir canlını "ol" deməklə yaratmağa qadirdir, lakin, uca Allah məxluqların yaranması üçün bəlirli müddətlər təyin etmişdir. Fikir versəniz dinsizlər qara alp salamandrının 31 ay hamiləlik müddəti keçirməsinin hikmətini soruşmurlar, baxmayaraq ki, bu canlı insandan üç və daha artıq dəfə hamiləlik müddəti keçirir. Həmçinin, bu canlı bir çox irihəcmli canlılardan kiçik olsa da daha uzun müddətə formalaşır. Sözümüzün canı odur ki, əgər bu yaradılışın müddət fərqliliyi insanın gözüylə gördüyü canlılarda müxtəlifdirsə, canlıların yaranma müddəti onların kiçikliyi və böyüklüyünə uyğunluq qaydasından kənara çıxırsa, görün indi daha böyük yaradılışlarda bu iş necə olmalıdır? Bu haqda düşünməyə dəyər! Xüsusən də qeyd etdik ki, bu böyük yaradılış insana deyil, hər şeyə gücü yetən Allaha aiddir deyə müqayisə zamanı bəyəri meyarlar da kənara qoyulmalıdır. Baxmayaraq ki, bu aspekdən izah verməklə biz hətta dünyadakı canlıların yaranmasında da müddət

anlayışında mütləq bir məntiqi qanunauyğunluğu tapa bilmirik. Görün indi daha böyük yaradılışlarda necə olmalıdır?

**Dördüncüsü:** Yaradılışda tələsməmək, bunu zaman kəsimində etmək böyük qüdrətə, Allahın əzəmətinə dəlalət edir. Daha tez yaratmağa qadir olduğu halda tələsməmək, bir zaman kəsimində yaratmaq, yaradılışın vaxtını təyin etmək, bir şeyi (yeri) yaratmaqdan sonra (göyləri) yaratmaq, sonra yenidən (yeri) yaşayış üçün uyğun hala gətirmək kimi ardıcıllıqlar və ya sistemli, nizam-intizamlı bir yaradılış, kainatın öz-özünə, kortəbii şəkildə yaranmasının məntiqi inkarı anlamına gəlir. Bu zahiri mənanı başa düşmək mövzunu başa düşməyimizi də asanlaşdırır.

## Qeydlər və istinadlar:

(1) "Rəbbinin yanında olan bir gün sizin saydığınızın min ili kimidir!" (əl-Həcc. 47).
(2) "Mələklər və Ruh Cəbrail Allaha doğru sayı əlli min ilə bərabər bir gün ərzində qalxırlar". (Məaric. 4).

(3) Təfsirul-Quranil-Azim. İbn Kəsir. 426.
(4) Bax: Daru Təarudil-Aqli bin-Naql. 1/123.
(5) Ənvarut-Tənzil və Əsrarur-Təvil. 3/15.
(6) Mə dəllə aleyhi əl-Quran mimmə yəadudul-Hey'ə əl-Cədidə. 66.
(7) Təbərinin təfsiri. 12/482.
(8) Təbərinin təfsiri. 15/245; 20/168; Həmçinin bax: Yəhya İbn Salamın təfsiri. 2/685.
(9) İbn Əbi Hatimin təfsiri. 5/1496. Təbərinin təfsiri. 20/168.
(10) ər-Raddu aləl-Cəhmiyyə. səh. 70; İbn Kəsir də öz təfsirində bu görüşü imam Əhmədə nisbət etmişdir. 3/426.
(11) Mişkətul-Məsabih. 3/1598. Şeyx Albani altı gün hədisinin mənasının Qurandakı axirət günlərinə uyğun olmasına bir maneənin olmadığını bildirib. Qeyd olunan mənbədə sözünün ərəbcəsi belədir: ويؤيده أن القرآن يذكر أن بعض الأيام عند الله تعالى كألف سنة، وبعضها مقداره خمسون ألف سنة، فما المانع أن تكون الأيام الستة من هذا القبيل؟
(12) Kainatın Hekayəsi. 11.
(13) əl-Cəmiu li-Əhkəmil-Quran. əl-Qurtubi. Əraf surəsi 54-cü ayənin təfsiri.
(14) İrşadul-Aqlus-Səlim ilə Məzəyə əl-Kitəb əl-Kərim. Əbus-Suud. Əraf surəsi, 54-cü ayənin təfsiri.
(15) Məqalə: Heyvanlarda hamiləlik necə gedir? az.animalstend.com saytı. 2022. Məqalənin linki:

https://az.animalstend.com/10824917-how-is-pregnancy-in...

۞ ۞ ۞

## Yer və göylər altı günə, yoxsa səkkiz günə yaranıb?

**Şübhə belədir**: *Yer və göylər altı günə, yoxsa səkkiz günə yaranıb? Qurani-Kərimdə bir ayədə yerin iki günə yaranması, dörd günə yaşayışa uyğunlaşması qeyd olunub ki, bu altı gün edir, üzərinə də iki günə göylərin yaranmasını gəldikdə cəmi səkkiz gün edir, axı başqa ayələrdə yaradılışın altı gündə tamamladığı qeyd edilir. buna necə yanaşmalıyıq?*

**Cavaba qısa giriş:** Bundan öncəki və bu şübhə ilə əlaqəsi olan yazımızda qeyd etmişdik ki, İslam alimlərinin nəzdində yaradılış zamanı qeyd olunan "altı gün" idadəsindəki "gün" sözü dünyamızdakı gün deyil, Allah qatındakı günün (fərqli bir zamanın) nəzərdə tutulması, həmçinin "gün" sözünün həqiqi mənasının yalnız Allahın bilməsi haqda görüşlər mövcuddur. Həmçinin, Allahın kainatı "ol" deməklə qısa zamanda yarada biləcəyi halda nə

üçün altı gün vaxt təyin etmişdi və bunun hikmətindən bəhs etmiş, Allahın tələsməməsi, işləri təmkinlə etməsi, hər bir şeyə vaxt təyin etməsi kimi hikmətlər haqqında danışmışdıq. İndi isə eyni şübhənin digər şaxəsi haqqında bəsit bir çaşdırmaya cavab verəcəyik, o da guya Quranda göylərin və yerin altı gündə deyil, "səkkiz" gündə yaranması iddiasıdır. Bu batil iddiaya iki aspektdən cavab verəcəyik:

**Birincisi:** Şübhədə qeyd olunan kimi yer üzü dörd günə deyil, iki günə yaranıb, səmalar da iki günə yaranıb. Sadəcə ayədə qeyd olunan əlavə iki gün yerin döşənməsi, həyata, yaşanmağa uyğun hala gəlməsi müddətidir. Beləcə altı gün tamamlanmış olur, ona görə də yerin iki günə yaranması ayrı qeyd edilib, yaşayışa uyğun hala gətirilməsi isə dördüncü günün tamamında baş verib. İki günə də səmalar yaranıb. Bu haqda olan ayətlərdə də ziddiyyət yoxdur. Sadəcə yer haqda olan iki günə yaranma və iki günə yaşayışa hazırlanma mərhələlərini fərqləndirməyi bacarmalıyıq. Çünki, ayətlər bizə altı günlük yaranma mərhələsini üç ayrı mərhələ kimi izah edir ki, bu üç mərhələnin hər biri iki gündən ibarətdir. Bu üç mərhələni başa düşdükdə, biz altı günə yaranmanı çox asanlıqla başa düşmüş oluruq. Gəlin, məsələnin izahı üçün bu ayətləri qeyd edək:

**1** - Yerin iki günə yaranması haqda ayət: "De: “Doğrudanmı siz yeri iki gündə yaradana küfr edir və bütləri Ona tay tutursunuz?!" (Fussilət. 9).

**2** - Yerin iki günə yarandıqdan sonra (Fussilət. 9) əlavə iki günə də yer üzünün yaşayışa uyğun hala gəlməsinin bir arada (2+2=4) dörd gün etməsini izah edən ayət, yəni Fussilət surəsinin 10-cu ayəsi:

"O, yerin üstündə möhkəm duran dağlar yerləşdirdi, yeri bərəkətli etdi və ruzi istəyənlər üçün orada yer əhlinin ruzisini dörd gündə (dördüncü günün tamamında) yerbəyer etdi". (Fussilət. 10).

Bu ayət öncəki ayətlə bərabər hesablanır, buradan iki üstəgəl iki nəticəsi birbaşa alınır, ayətdəki "dörd gün" zatən bunun (bu hər biri iki gündən ibarət olan ayrı iki mərhələnin) izahıdır.

**3** - Səmaların iki günə yaranması haqda ayət: "O, iki gündə onları yeddi göy olaraq yaratdı və hər göyə onun özünə aid iş tapşırdı". (Fussilət. 12).

Nəticə: 2+2+2=6 olur. Beləcə, ortada heç bir ziddiyyət qalmır.

Göylərin və yerin altı gündə yaranması haqqında ayət isə belədir:

"Doğrudan da, Rəbbiniz göyləri və yeri altı gündə yaradan, sonra da Ərşin üzərində ucalan Allahdır". (Əraf: 54). Bu haqda digər ayələr isə, (Yunus. 3), (Hud. 7), (Furqan, 59), (Səcdə, 4). Son iki ayət də Göylərin və yerin və onların arasında olanların altı gündə yaranmasından bəhs edir, göylərin və yerin yaranmasını ümumiyyətlə bir-birindən

ayırmır, izahı bir prossesin tərkib hissəsi kimi verir, lakin dinsizlər bu prosesləri ayırmağa çalışırlar.

**İkincisi:** Təfsir alimləri də bu şübhəni aradan qaldıracaq izahlar vermişlər; İmam Qurtubi öz təfsirinidə "dörd gündə" sözünün ayrı bir dörd gün yox, yerin yaranmasından sonrakı iki gün olmasını və "dörd günün tamamında" mənasını verməsi haqqında demişdir: "dörd gündə" sözü bir şəxsin bu sözünə bənzəyir: "Bəsrədən Bağdada on günə çıxdım, Kufəyə isə on beş günə çıxdım, yəni on beş günün tamamında (çıxdım)" (1).

Zəccac demişdir: "Dörd günün tamamında, "tamamında" dedikdə iki günün (başqa iki günlə) tamamlanması nəzərdə tutulur" (2).

Alusi demişdir: "Gün sözündən bizim bildiyimiz "gün"ün qəsd edilməsi mümkün deyil. Çünki, "gün", günəşin yerin üzərində olduğu vəziyyəti ifadə edir. Bunun gerçəkləşməsi isə yerin və səmanın hələ mövcud olmadığı bir zamanda mümkün deyildi" (3).

Yerin iki günə yaranmasından sonrakı iki gün haqqında İbn Kəsir demişdir: "O, yerin üstündə möhkəm duran dağlar yerləşdirdi, yeri bərəkətli etdi və ruzi istəyənlər üçün orada yer əhlinin ruzisini dörd gündə (dördüncü günün tamamında) yerbəyer etdi". (Fussilət: 10) (Ayənin birinci hissəsi)

"O, yerin üstündə möhkəm duran dağlar yerləşdirdi, yeri bərəkətli etdi": yəni onu mübarək etdi, xeyirə, əkin-biçinə yararlı etdi. (Növbəti hissəsi) "ruzisini dörd gündə (dördüncü günün tamamında) yerbəyer etdi". Yəni: bu, orada yaşayacaq olanların ehtiyac duyacaqları ruzilər, əkib-biçəcəkləri yerlərin hazır hala gəlməsidir. Yəni: (yaradılışın) üçüncü və dördüncü günləri (bu baş verdi). Bu iki gün, öncəki iki günlə bərabər dörd gün edir (4).

İslam alimləri arasında bu izahda ixtilaf yoxdur.

## Qeydlər və istinadlar:

(1) əl-Cəmiu Li-Əhkəmil-Quran. əl-Qurtubi. 15/343.

(2) əl-Kəşşəf. Zəməxşərinin təfsiri. 3/444.

(3) Ruhul-Məani. Mahmud Şükri əl-Alusi. 6/62.

(4) Təfsirul-Quranil-Azim. İbn Kəsir. Fussilət surəsi, 10-cu ayənin təfsiri.

# Peyğəmbər "Xatəmul-Ənbiya" (peyğəmbərlərin sonuncusu) olub?

"Muhəmməd aranızdakı kişilərdən heç birinin atası deyil. Lakin o, Allahın rəsulu və peyğəmbərlərin sonuncusudur. Allah hər şeyi bilir". (Əhzab. 40). Dinsizlər iddia edirlər ki, guya bu ayəni əvvəllər başqa cür başa düşürlərmiş, bu haqda digər ayət və hədisləri, İslam ümmətinin icmasını görməzlikdən gəlirlər. Hər dəfə bilmədikləri sahələrdə şübhələr gətirib özlərini pis duruma salırlar, bilmədikləri mövzulardan danışmaq bir yana, etdikləri elmi səhvləri görməzlikdən gəlməklə də utanmırlar. Gəlin onların bu dəfəki boş iddiaları ilə tanış olaq və şübhələrini saf-çürük edək:

**Şübhə müxtəsər olaraq belədir:** *"Bildiyiniz kimi, Quranda (33:40) Məhəmməd Peyğəmbərin sonuncu peyğəmbər olmasını bildirən "xətəm" sözü var. Araşdırmaçı Al-Makinin iddiasına görə "xətəm" sözü, heç də əvvəllər "sonuncu" mənasında işlədilməyib. Hədis zənciri ilə Məhəmməd peyğəmbərə gedib çıxan hədislərdə (İbn Hanbal, Buxari, Muslim, Abu-Davud, Nasai, Darimi və hətta sonrakı hədis müəllifləri olan İbn Kathir) xətəm sözü 1. binanın kərpici, 2. işarə/xal, 3. möhür/üzük kimi verilmişdir. İbn Hanbalın Musnadında (cild 2, səhifə 398) bu söz binanın kərpici (peyğəmbərlik binasının kərpici-daşı) kimi*

*göstərilmişdir. Buxaridə və Tirmizidə isə "xətəm" xal kimi işlədilib, Abu Zeydin əli Peyğəmbərin xətəminə (xalına) toxunur.*

*Peyğəmbərin ölümündən sonra İslam dünyasını "vətəndaş müharibəsi" bürüyür. Aişə ilə Əli, Əli ilə Muaviyə, Zubayr ilə Marvan, Umayya və Abbasiyyə arasında baş vermiş çəkişmələr və digər üsyanların özü əslində kifayət qədər diqqət tələb edir. Sizcə, bu çəkişmələrin özü şübhəli deyil? Bunu izah edə bilən ən məntiqli səbəblərdən biri də məhz peyğəmbərliyə olan iddialar ola bilər. Məncə, əgər onlar Məhəmməd Peyğəmbərin sonuncu peyğəmbər olmasını qəbul etmiş olsaydılar, o zaman onun ölümündən dərhal sonra bu çəkişmələr yersiz görünməli idi. Bu çəkişmələr zamanı bəzi üsyankar liderlərlə (əl-Muxtar) bağlı peyğəmbərlik iddiaları edilirdi.*

*Görünən budur ki, hakimiyyəti qorumaq və bu çəkişmələrin qarşısını almaq üçün Əməvilər xilafəti tərəfindən sözün mənası dəyişdirilərək, sözə "sonucu" məna verilmişdir. Çünki yeni peyğəmbər yeni hakimiyyət, yeni dövlət deməkdir.*

**Şübhənin cavabı:**

**Birincisi:** Ərəb dilində جعل الشيء ختما (Cəaləş-şey'ə xatmən) bir şeyin axırına, sonuna çıxmaq, tamamlamaq mənası verir (1). Bu sözün sabit mənalarından biri "sonlama, tamamlamadır". Sözün bu şübhədə qeyd olunmayan mənaları da var. Birini qeyd edəcəyik. Amma görünür ki, şübhəni gətirənlər böyük bir elmi səhvə yol verib hədislərdəki "xatəm" sözünün mənalarını veriblər. Ona görə də hədislərdəki mənaları da izah edəcəyik. Şübhədə qeyd olunmayan mənalardan biri budur: الخاتَمُ: ما يوضع على الطينة (Gil üzərinə qoyulan şey) (2). Həmçinin digər ərəbcə lüğətdə deyilir: "خاتمة الشيء آخره" (Xatimətuş-Şey Əxiruhu) yəni, bir şeyi xatiməsi onun sonuncusudur". Həmçinin deyir: ختم القرآن "Xətəmə əl-Quran" yəni Quranı (oxuyub) sonuna çatdı (3).

Xülasə, şübhəni gətirənlər hədislərə müraciət edib deyə hədislərlə ifşa olunacaqlar. Hədislərdə oxucudan gizlədilən mənaların hədisin özündə verildiyi kimi izahı ilə məsələ aydın olacaqdır Allahın iznilə.

**İkincisi:** İlk olaraq deyək ki, iddiaçının gətirdiyi "xatəm" sözünün mənaları özünün əleyhinədir. Çünki, hədislərdən verilən bu mənalar Muhəmmədin ﷺ son peyğəmbər olduğunu dəstəkləyir. Çünki, hədislərdə keçən mənalar hər biri ya Muhəmməd ﷺ peyğəmbərin peyğəmbərliyini ümumən təsdiqləyir, ya da xüsusən onun sonuncu peyğəmbər olması mənasını təsdiqləyir. Lakin, şübhədə bu mənaların götürüldüyü hədislərin mətni verilməyib və hansı

məsələni dəstəklədiyinə bir işarə verilməyib. Bu da şübhənin həddən ziyadə qərəzli hazırlandığını, məsələdən xəbərsiz oxucuları çaşdırmaq məqsədi güddüyünü ortaya qoyur. Məsələn; gəlin, iddiaçının gətirdiyi "binanın kərpici" sözünə bir nəzər yetirək. Biz deyəndə ki ərəbcə bilməmək onların ciddi səhvlərə düşməsinə yol açır, bu, onların xoşuna getmir, təəssüf ki, bunun həqiqət olması yenə ortaya çıxır. "Binanın kərpici" sözü hədisdə binanın çatışmayan sonuncu kərpici kimi verilib, bu da Muhəmməd ﷺ peyğəmbərin binaya yerləşdirilən son kərpic olması ilə onun gəlişinin binanın təmirinin başa çatması, beləcə peyğəmbərlik binasının inşasının tamamlanması, bu tikintidəki son kərpicin Muhəmməd ﷺ peyğəmbər olduğuna işarədir. Lakin, məsələni tam başqa cür təqdim edənlərin bu etdiyi əməli biz yalnız təhrif adlandıra bilərik. Gəlin, "binanın kərpici" hədisini olduğu kimi qeyd edək;

Əbu Hüreyrədən rəvayət olunur ki, "Mənim və məndən öncəki peyğəmbərlərin məsəli bir ev tikən kişinin məsəlinə bənzəyir. O kişi evi yaxşı və gözəl şəkildə tikir, yalnız (evin) küncündəki bir kərpici yerinə qoymur (o yeri boş saxlayır). İnsanlar da gəlib bu evin ətrafında dolanırlar, evdən xoşları gəlir və deyirlər: "bu bir kərpici niyə öz yerinə qoymayıblar? Sonra (peyğəmbər) dedi: "Həmin kərpic mənəm və mən peyğəmbərlərin sonuncusuyam" (4).

Deməli, hədis ən mötəbər Əhli Sünnə mənbələrində keçib və Muhəmməd peyğəmbərin ﷺ sonuncu peyğəmbər olmasının konkret məntiqi izahıdır. Peyğəmbər bunu məntiqi

bir misalla öz sağlığında səhabələrinə izah etmişdir. Lakin, bu şübhəni oxuyan, hədisdəki mənanı oxuyan kimsə bununla kifayətlənsə, elə biləcək ki bunlar İslami mənbələrdən öz xeyirlərinə olan nə isə tapıblar.

Şübhədə "xatəm" sözünə verilmiş növbəti məna hədisdəki "xal" sözü də Muhəmməd ﷺ peyğəmbərin peyğəmbərliyinə dəlalət edən, onun kürəkləri arasında olan "peyğəmbərlik möhürü və ya xalı" mənasında istifadə edilib ki, bu Quran ayəsindəki (33:40) Muhəmməd peyğəmbərin son peyğəmbər olması mənasını və digər hədislərdəki mənaları təsdiqləyir. Bu dəlillərin hamısı eyni mənanı qüvvətləndirir və bir arada cəm edir.

Bundan sonrakı "xatəm" sözünün "üzük" mənası da bunun kimi verilmiş mənaya zidd deyil. Peyğəmbərin üzüyü olmuşdur və bu üzüyü mühüm qərarlarda "möhür" (peçat) kimi də istifadə etmişdir. Hədislərdə keçmiş mənalardan biri də bu mənadır. Ərəb dilindəki bütün bu mənalar sabitdir.

Şübhədə verilmiş üç mənanın ikisi birbaşa Muhəmməd ﷺ peyğəmbərin son peyğəmbər olmasını dəstəkləyir və əslində bu şübhəni gətirənlərin əleyhinə olan mənalardır. "Xatəm" sözünün "üzük" mənası da ərəb dilində var. Lakin, bu ərəb dilinin sözlərinin çoxmənalı olması keyfiyyətindən xəbər

verir. Qeyd olunan hər bir məna ərəb dilində var və uyğun yerlərdə, cümlələrin ahənginə, axarlılığına münasib olaraq bəlirli məqsədlərlə istifadə olunur. Bu mənalar ərəb dilində sabit mənalardır.

Peyğəmbərin ﷺ son peyğəmbər olmasını tək bu dəlillər dəstəkləmir. Quranın bir ayəsindəki mənanı guya "siyasi məqsədlər üçün dəyişiblər" deyənlərə başqa bir ayəni misal gətiririk və bu zaman da onların üzərlərinə sakitlik çökür. Əgər bir ayədəki məna qəsdən dəyişdirilmişdisə, onda bu ayə haqqında görəsən nə deyəcəklər? Uca Allah Qurani-Kərimdə buyurur: "Bu gün dininizi sizin üçün kamil etdim, sizə olan nemətimi tamamladım və sizin üçün din olaraq İslamı bəyəndim". (əl-Maidə. 3).

Bu ayət onun dəlilidir ki, bütün peyğəmbərlər təkallahlıq inancına dəvət ediblər və sonuncu din olaraq İslam dini gəlmiş və bu neməti Allah tamamladığını bildirmişdir, sonuncu dinin peyğəmbəri də sonuncu peyğəmbər "Xatəmul-Ənbiya" (Peyğəmbərlərin sonuncusu) Muhəmməd ﷺ peyğəmbər olmuşdur. Onun sonuncu peyğəmbər olması İslam ümmətinin icması, Quran ayətləri və çoxsaylı səhih, mötəbər hədislərlə sabitdir. Hədislərin çoxusunu burada yazıb mövzunu uzatmaq istəmirik. Xülasə: Muhəmməd ﷺ peyğəmbərin sonuncu peyğəmbər olması onun başqa peyğəmbərlərdən seçilən ən mühüm xüsusiyyətlərindən

biridir. (Hədislərin qısa hissələrinə bax: "Mənimlə peyğəmbərliyə xitam verildi" (5).

**Üçüncüsü:** Qaldı ki, siyasi məsələlər haqqında ixtilafa, Muhəmməd ﷺ peyğəmbər bu haqda ixtilafın olacağı haqda müsəlmanlara hədislərində xəbər vermişdir. Siyasi ixtilaflar bütün ideologiyalarda olmuşdur. İstər adı çəkilən Muxtar əs-Səqafi olsun, istər qeyriləri peyğəmbərlik iddiası sabit olan və ya olmayan digər şəxslər olsun, bu haqda, peyğəmbərimizdən sonra yalançı peyğəmbərlərin çıxması haqda hədislərdə bizə xəbər verilmişdir. Bu haqda hədislərindən birində Muhəmməd peyğəmbər buyurur: "Ümmətim arasından otuz yalançı peyğəmbər çıxacaq. Hər biri özünün peyğəmbər olduğunu iddia edəcək. Mən peyğəmbərlərin sonuncusuyam. Məndən sonra peyğəmbər yoxdur" (6).

Maraqlısı budur ki, "xatəm" barədə şübhəni gətirən bu qədər hədislərdən heç birinə toxunmağa cürət etməyib. Yalnız "xatəm" sözünün təhrif etmək istənilən mənaları göstərilib ki, onların da nə mənada olduğunu izah etdik. Şübhədə xatəm sözünün mənbələrdəki istifadə yerləri də Azərbaycan dilində verilməli idi. Mənbə göstərilmə metodu da bərbaddır, orjinal ərəbcədən vermək zəruridir. Heç olmasa Azərbaycan dilində oxucular nəzərə alınaraq verilməlidir. Çünki, elementar elmi mövzularda belə dəlil göstərmə metodu

akademik üsluba ziddir. Dəlillər bütünlüklə orjinal mənbələrdən göstərilməlidir, ya da oxucunun ana dilində tərcümədi ilə verilməlidir. Orjinal mətnin dilindən başqa dillərdə mənbə vermək elmi üslubdan kənar olmaqla oxucuya qarşı da hörmətsizlikdir.

Qayıdaq səhabələrin ixtilafı mövzusuna; səhabələr ixtilaf etsələr belə bu ixtilaflar etiqadi məsələlərdə deyil, siyasi məsələlərdə olmuşdur. Sonradan bu ixtilaflar yatmış, birlik hasil olmuş və müsəlmanlar hələ əsrlər boyunca dünyada söz sahibi olmuşdular. Uca Allah bizə bu ixtilaflara necə yanaşmalı olduğumuzu bu Quran ayəsində bildirimiş, möminlərdən iki dəstənin hətta bir-birinə silah qaldıra biləcəyini, onları barışdırmaq lazım olduğunu, üstəlik vuruşan iki mömin tərəfin bir-birinə qardaş olduğunu vurğulamışdır: "Əgər möminlərdən iki dəstə bir-biri ilə vuruşsa, onları barışdırın. Əgər onlardan biri digərinə qarşı təcavüz etsə, təcavüzkar dəstə ilə, o, Allahın əmrini yerinə yetirməyə qayıdanadək, vuruşun. Əgər o qayıtsa, hər iki dəstəni ədalətlə barışdırın və insaflı olun. Sözsüz ki, Allah insaflıları sevir". (Hucurat. 9).

Bu ixtilaflar haqqında Muhəmməd ﷺ peyğəmbər hədislərindən birində buyurmuşdur: "Şeytan Ərəbistan yarımadasında insanların ona ibadət etmələrindən ümidini üzmüşdür. Lakin, onlar arasındakı fitnələrə ümid edir" (7).

Bu hədisin mənası haqda alimlər deyiblər ki, Ərəbistan yarımadasında insanların İslamdan çıxmasına, bütpərəstliyə qayıtmasına şeytanın ümidi yoxdur, lakin onlar arasındakı fitnə-fəsada, siyasi çəkişmələrə, müharibə və dünya üzərində savaşmalarına ümidi var. Doğurdan da peyğəmbərin xəbər verdiyi hadisələr mümkün oldu. Müsəlmanların bu aspeklərdə ixtilafları oldu. Lakin onların İslam etiqadının təməli qorundu. Səhabələrin ixtilafı qətiyyən etiqad üzərində olmadı, birmənalı şəkildə siyasi ixtilaflar oldu. Sonradan bu ixtilaflar çözüldü və əsrlər boyu bu əzəmətli din dünyaya elm və mədəniyyət gətirdi.

Səhabələrin ixtilafı haqqında ümmətin görüşü onları yalnız xeyirlə yad etmək, onları üzürlü görmək, onlar haqqında pis fikirlər bildirməkdən uzaq durmaqdır. Peyğəmbərimiz ﷺ onlar haqqında buyurub: "Mənim səhabələrimi söyməyin, mənim səhabələrimi söyməyin. Canım əlində olan Allaha and olsun ki, sizdən biri Uhud dağı qədər qızılı sədəqə versə, onlardan birinin verdiyi bir ovuca (sədəqəyə), hətta yarısına belə çata bilməz" (8).

**Dördüncüsü:** Əməvilər xilafəti zamanında bu sözün mənasının dəyişdirilməsi iddiası əslində iddia olmaqdan o yana keçmir və öz təsdiqini tapmamışdır. Bu mövzu əslində şərqşünasların İslamdakı hədislər haqqında gətirdikləri

şübhələrdən qaynaqlanır ki, Quran təfsiri haqqında da onlar eyni iddiaları irəli sürmüşlər. Onlar Əməvilərin zamanında hədisləri ittiham etməyə çalışmış, İslam alimlərinin çox incə yollarla hədis elminə xidmət etmələrini, hədislərin orjinallığını qorumağa çalışmalarına, hədis uydurma hallarının qarşısını ilk dövrlərdən möhtəşəm elmi qaydalar vasitəsilə qarşısının alınmasına kölgə salmağa çalışmışlar. Şərqşünasların bu mövzuda iddiaları çoxdur və hamısına da İslam alimləri tərəfindən dağıdıcı elmi cavablar verilmişdir. Bu mövzuda "Hədis inkarçılarının məşhur şübhələrinə cavablar" adlı kitabımızda ətraflı danışmışıq. İstəyənlər bu xüsusdakı cavabımızı qeyd edilən kitabın PDF variantından ətraflı şəkildə oxuya bilərlər.

## Qeydlər və istinadlar:

1 - Ərəb dili lüğəti: Qamus-əl-Muhit. Firuzabadi. səh. 1088. Risalə nəşri. 2012.
2 - (Ərəb dili lüğəti: Qamus-əl-Muhit. Firuzabadi. səh. 1088. Risalə nəşri. 2012).
3 - (Muxtar əs-Sihah. Muhəmməd ər-Razi. səh. 99. Ğaddil-Cədid nəşriyyatı. 2009).
4 - (Səhih əl-Buxari. 3535; Səhihi Müslim. 2286).

5 - Səhihi Müslim. 523; "Məndən sonra peyğəmbər yoxdur". Buxari: 3532. Müslim. 2354. "Mənim gəlişimlə peyğəmbərliyə son qoyuldu". 2287).

6 - (Əbu Davud. 4252; ət-Tirmizi. 2219; Əhmədi "Müsnəd". 37/117. Silsilətus-Sahihə. Albani. 4/252).

7 - (Səhih Müslim. 2812).

8 - (İbn Macəh. 161, səhih isnadla).

# Cəhənnəm əzabı haqda bir şübhənin cavabı

**Sual:** *Cəhənnəm əzabı daha yüngül ola bilməzdimi? Cənnət əhli yaşayan kimi sadəcə öz həyatlarını yaşayar, orada sərt isti 200-300 dərəcə və s. olardı, neçə min dərəcə olmasa uyğun olmazdımı?*

**Cavab belədir:** İlk öncə bilmək lazımdır ki, Allah yaratdıqlarına əzab verməyi hədəf etməyib, lakin ona layiq olana əzab verəcəyini vəd etmişdir. Qullarına əzab verməyin ona gərəkmədiyini də Qurani-Kərimdə bildirmişdir: "Şükür etsəniz və iman gətirsəniz, Allahın sizə əzab verməsi onun nəyinə gərəkir ki!? Allah şükrün əvəzini verəndir, hər şeyi biləndir". (Nisa. 147).

Sonra isə bilmək lazımdır ki, Cəhənnəm əhlinin yeri və əzabı günah dərəcəsinə, asilik, üsyankarlıq və batil inanc, Allaha qarşı küfrün dərəcəsinə görə fərqlənir. Bəzisinin əzabı digərindən daha şiddətlidir. Təfsir kitablarında əzabın təkcə isti ilə deyil, soyuqla olacağı haqda da məlumatlar var (1).

Həmçinin, bilmək lazımdır ki, bu dünyada eyni vaxtda (saniyələr içində) baş verən bir cinayətə görə bir aylıq həbs də mümkündür. Digər cinayətə görə isə ömürlük həbs də

mümkündür. Əgər cinayətin ağırlılıq dərəcəsi bu dünyada gözlənilirsə, kimisi az, kimisi çox cəza alırsa, bu məntiqi reallıq cəhənnəmdə də mövcuddur.

Şəxslərin halına görə əzab olunmasına gəldikdə isə bu fərqli olacaqdır:

**Münafiqlərin halı:** Qurani-Kərimdə münafiqlərin cəhənnəmin ən alt qatında olacaqları bildirilib (Nisa. 145). Bunun səbəbi isə odur ki, münafiqlər zahirdə İslamı biruzə verir, daxildə isə küfrü, İslam düşmənliyini gizlədirlər. Bu isə açıq-aydın düşmənçilik etməkdən daha şiddətlidir. İkiüzlü düşmənlər haqqa qarşı daha böyük təhlükə hesab olunurlar deyə onların əzabı cəhənnəmin ən alt qatında olacaqdır. (Həmçinin bax: Hədid. 13. Onların ikiüzlü olmalarına görə cəhənnəmdə "Onların arasına içəri tərəfində mərhəmət, çöl tərəfində əzab olan, qapılı bir sədd çəkiləcək". Bu da hər əməl sahibinin öz əməlinə layiq ilahi cəzanın verilməsinə bir misaldır. Çünki, cəza əməlin cinsinə görədir. Bu da ədalətdəndir.

**Müsəlmanların halı:** günahkar müsəlmanlar, tövbə etmədən, təmizlənmədən öldükləri halda cəhənnəmdə müvəqqəti qalıb günahlarından təmizlənib əbədi cənnətə gedəcəklər. Onlardan kimisi çox az bir müddət cəhənnəmdə

qalıb çıxacaq və cənnətə gedəcək. Bəzilərinin də halı müxtəlif olacaq. Deməli, heç bir müsəlman əbədi cəhənnəmdə qalmayacaq. Bu da qısa olaraq müsəlmanların cəhənnəmlə bağlı halıdır.

**Ateistlərin və onlar kimi olan kafirlərin halı:** halına gəldikdə isə: Allahı, yoxdan yaradanı tamamilə inkar etmək Allahı çox qəzəbləndirən bir əməldir, bu səbəbdən də onların əzabı Allahı dolayısı ilə qəbul edib ona şərik qoşanlardan daha şiddətli olacaqdır. Bu haqda elm əhlinin sözləri məlumdur.

Allahı qəbul edən müşriklərin halı: Bu səbəbdən də Allahı qəbul edib ona şəriklər qoşan müşriklərdən onu inkar edən, yaxud ikiüzlülük edib nifaqı gizlədən münafiqlər daha şiddətli əzaba düçar ediləcəklər. Uca Allah bu cür kafirlərin və münafiqlərin ikisini bir arada qeyd edərək onların daha şiddətli əzaba düçar olacaqlarını bildirir: "Allah münafiq kişilərə, münafiq qadınlara və kafirlərə içərisində əbədi qalacaqları Cəhənnəm odu vəd etmişdir. Bu onlara kifayət edər! Allah onlara lənət etmişdir. Onlar üçün daimi bir əzab vardır". (Tövbə: 68).

Həmçinin Qurani-Kərimdə cəhənnəm əhlinin müxtəlif halları vəsf edilmişdir: Bu vəsflərə baxanda anlaşılır ki,

orada daim eyni halda əzabdan söhbət getmir. Əzablar növləri günaha və günahkara görə dəyişir.

Məsələn bir ayədə zəncirlərə bağlanmış halda vurula-vurula əzaba tərəf aparıldıqları bildirilir. Uca Allah buyurur: "o zaman ki, boyunlarında dəmir halqalar və zəncirlər olduğu halda sürüklənəcəklər – qaynar suya tərəf; sonra odda yandırılacaqlar". (Ğafir. 72).

Bu da onu göstərir ki, daim odla əzab olunmaq halı yoxdur. O mənada ki, oda salınırlar, lakin müddət keçdikdən sonra, müxtəlif əzablar fərqli-fərqli zamanlarda ola bilir. Lakin, cəhənnəmdəki gündəlik əzabların neçə dəfə verilməsi, bu məsələlərin təfsilatları qeybi məsələlərdir ki, mənbələrdəki mötəbər məlumatlarla kifayətlənmək gərəkir. Quranda "əbədi əzab" deyildikdə cəhənnəm əhlinin cəhənnəmdə ümumən əzab içində olmaları nəzərdə tululur, hansı ki, bu əzab növləri müxtəlifdir, daim bir vəziyyətdə qalınmır. Uca Allah buyurur: "Şübhəsiz ki, günahkarlar əbədi olaraq Cəhənnəm əzabı içində qalacaqlar. Onların əzabı yüngülləşdirilməyəcək və onlar orada naümid qalacaqlar. Biz onlara zülm etmədik, lakin onlar (dünyada) özləri özlərinə zülm edirdilər. Onlar Cəhənnəm gözətçisini çağırıb deyəcəklər: “Ey Malik! Qoy Rəbbin canımızı alıb qurtarsın!” O isə: “Siz burada əbədi qalacaqsınız!”– deyəcək.

Biz sizə haqqı gətirmişdik, lakin sizin çoxunuz haqqı xoşlamırdı. (Zuxruf. 74-78).

Gəlin, fərqli əzablara bəzi misallar çəkək, hətta bu müxtəlif əzab növləri, cəzanın əməlin cinsinə görə olması da aydın olsun:

**Qızıl və gümüşü yığıb Allah yolunda zəkat verməyənlərin əzabı:** "O gün bu yığdıqları sərvətlər Cəhənnəm odunda qızdırılacaq və bununla onların alınlarına, böyürlərinə və kürəklərinə damğa vurulacaq". (Tövbə. 35).

**Allahın ayətlərini, elmi gizlədənlərin əzabı:** "Şübhəsiz ki, Allahın nazil etdiyi kitabdan bir şey gizlədib onun müqabilində cüzi miqdarda pul əldə edənlər öz qarınlarına oddan başqa bir şey doldurmurlar. Qiyamət günü Allah onları danışdırmayacaq və onları təmizə çıxarmayacaqdır". (əl-Bəqərə. 174). Bu yerdə əzabın xüsusiliyinə fikir verin. Dünyada özünü Allaha yaxın adam kimi təqdim edib əslində Allahın düşməni olanlara xüsusi mənəvi bir əzab verilir. Cəza əməllərinin cinsinə görə verilir. Allah onları danışdırmayacaq və onları təmizə çıxarmayacaq. Bu da onların halı üçün ədalətli əzabın, layiq olduqları əzabın mənəvi bir hissəsi olacaq. İddia etdikləri "Allaha yaxınlıq" yalan olduğu üçün Allahdan uzaqlıq onlara mənəvi əzab

olacaq. Yalandan yaxın saydıqları Allah onları təmizə də çıxarmayacaq. Beləcə cəzalar əməlin cinsinə görə olacaq.

**Yetimlərin malını yeyənlərin cəzası:** bu şəxslərin cəzası qarınlarında od olmasıdır. Onların da cəzası əməllərinin cinsinə görə olacaqdır. "Şübhəsiz ki, yetimlərin mallarını haqsızlıqla yeyənlər öz qarınlarına ancaq od doldururlar və beləcə, onlar alovlu atəşə girəcəklər". (Nisa. 10).

Hədislərdə də müxtəlif cür günah sahiblərinə cəhənnəmdə müxtəlif cür əzab veriləcəyi vəd edilmişdir. Kimisinə vəhşi heyvanlarla, kimisinə həşəratlarla və s. əzab veriləcəyi haqqında rəvayətlər var. Həmçinin əzabın ən yüngül forması və odun bədənin aşağı və yuxarı hissəsindən haralara kimi veriləcəyi haqda rəvayət də var.

Xülasə, rəvayətlər cəm olunduğu zaman anlaşılır ki, cəhənnəm əzabı günahın, küfrün, şirkin, nifaqın dərəcəsinə görə dəyişəcəkdir ki, bu da Allahın ədalətindəndir. O, hər günah sahibinə eyni əzab verməyəcəkdir. Cəhənnəmdə əzabı yüngül, orta və ağır olanlar olacaqdır. Qaldı ki, sualda qeyd olunan "200-300 dərəcə isti olaydı" sözünə, birincisi bu qeybi məsələdir. İkincisi, dünyadakı istinin 70 qatı olan, nəticədə təsəvvür olunan neçə min dərəcəlik isti yalnız cəhənnəm odunda olacaqdır. Lakin, oda daxil olunmadığı

zaman isə ayətlərdən göründüyü kimi belə bir istidən bəhs edilmir, hətta cəhənnəm əhlinin bəzən danışa bilməsi, xitab etməsi, aman dinləməsi, peşmançılıq bildirməsi kimi danışıqları qeyd olunur, bu isə 200, 300 dərəcə istidə mümkün bir hal deyil. Deməli, əzab vaxtı olduqda şiddətli istiyə məruz qalırlar. Bu cür mövzuları bəsit təsəvvürlər üzərində qurmaq doğru deyil. Təəssüflər olsun ki, dindən uzaq olan insanlar bəsit təsəvvürlərlə qeybi mövzularda da İslam dinini ittiham etməyə çalışırlar. Daha düzünü Allah bilir! (2).

## Qeydlər və istinadlar:

1 - Qeyd: "zəmhərir" sözünün mənasına bax.

2 - Bu haqda digər mühüm təfsilatları olan məqaləmizi də bu keçiddən daxil olaraq oxumağınızı tövsiyə edirik:

**https://m.facebook.com/story.php?story_fbid=1336201150531550&id=100024250332932**

# Niyə Quran nazil olduğu tərtiblə yazılmayıb?

**Şübhə:** *Quran niyə ardıcıllıqla nazil olduğu üzrə yazılmayıb?*

*Ələq surəsi ilk nazil olduğu halda niyə Fatihə surəsi öncə gəlir?*

**Cavab:** Quranın nazil olması ilə surələrin tərtibi, hər biri vəhylədir. Tərtibin özü də peyğəmbərin (Sallallahu aleyhi və səlləm) tapşırığı ilə olmuşdur, bu ardıcıllığı isə peyğəmbərə Cəbrayıl (əleyhissalam) xəbər vermişdir. Ona hansı surənin hansından sonra və ya əvvəl olduğunu xəbər vermişdir. Peyğəmbər də bu bilgini vəhy katiblərinə öyrətmişdi. Vəhy katibləri bu ardıcıllığı dəqiqliyilə bilirdilər. Deməli, bu ardıcıllığı vəhy katibləri özlərindən icad etməyiblər.

Digər bir məsələ isə odur ki, elə Ələq surəsi birdəfəlik nazil olmayıb, ilk dəfə bu surənin 5 ayəsi nazil olub. Sonra başqa surənin başqa ayələri nazil olub. Bu cür məntiqlə yanaşılsa onda ardıcıllıq düşünüldüyündən daha fərqli olacaq və yarımçıq, tamamlanmamış surələr ardıcıl düzülməli olacaqdı. Deməli, Quranın bu günkü düzülüş forması vəhy ilə olmmaqla yanaşı onun ən ideal formasıdır. İnsanların rəyinə əsaslanmaqdan qətiyyən söhbət gedə bilməz.

Üçüncü məsələ odur ki, bu məntiqlə düzülüşə cəhd olunsa daha bir problem ortaya çıxacaqdır. O da surələrin hamısının nə vaxt nazil olmasının bəlli olmaması, ardıcıllığın səhih isnadlarla sabit olmamasl, əksinə ixtilaflı olmasıdır. Bu ixtilafı isə Cəbrayıl əleyhissalamın verdiyi tərtib, ardıcıllıq (yəni Quranın surələrinin bu günkü ardıcıllığı) aradan qaldırır.

## Ayın yarılması möcüzəsi baş veribmi?

***Şübhə belədir:*** *Uca Allah buyurur: "Qiyamət saatı yaxınlaşdı və ay yarıldı". (Qamər. 1). Bu ayəyə əsasən əgər Quranda ayın yarılması, ikiyə bölünməsi haqqında xəbər verilibsə, heç olmasa buna dəlalət edən hansısa izlər, əlamətlər olmalı idi. Bu iz yoxdur deyə bu hadisənin baş verməsini təsdiqləyə bilmərik.*

**Şübhənin cavabı:**

**Birincisi:** Ayın yarılması Quran və sünnət dəlilləri ilə sabitdir. Biz buna möcüzə deyirik. Möcüzə isə bəzən zamanla və məkanla məhdud olur. Bir çox möcüzələr də elə bu qəbildəndir. Yəni, hansısa peyğəmbər gələrək öz qövmünə və ya ətrafında olanlara möcüzəni göstərib gedir, beləcə, bu möcüzə müəyyən bir zaman və məkan çərçivəsində baş verir. Bəzən isə ümumi bir möcüzə görülməsi mümkün olan bir yerdə olur, ayın yarılması kimi...

Biz bu hadisənin baş verməsi haqqında rahat şəkildə dəlillər gətirə bilərik ki, bəli - harda ki ayın yarılmasının görülməsi mümkün olubsa - həmin zamanın insanları ayın yarılmasını görüblər. Necə ki, biz müasir dövrdə də müəyyən mövsümlərin gəlməsini bildirən - Ramazan, Zülhiccə və s. - aylarının başlanğıcının təyin edilməsi haqda danışarkən deyirik ki, "yeni ay görüldü və ya görülmədi". Hələ bu əsrdə belə ayın görünməsi ilə bağlı ixtilaflar yaşanır. Həqiqətdə deyirik ki, bəli, o zamanda yaşayanlar ayın yarılmasını görüblər. Bunu səhabələrin görməsini təsdiqləyən hədislər var. Lakin səhabələrin görməsindən əlavə müşriklərin də görməsini və hansı reaksiya vermələrini göstərən rəvayətlər var. Bu rəvayətlərdə müşriklərin ayın yarılmasını gözlə gördüklərinə baxmayaraq "Muhəmməd bizi sehrləyib" demələri də qeyd olunmuşdur (1). Həmçinin, hindistanın o vaxtkı krallarından birinin də ayın yarılmasını görüb müşahidə etdiyi və İslamı qəbul etdiyi mənbələrdə qeyd

edilib. Yəni ayın yarılmasının Hindistanda görülməsi haqqında məlumat var. Həmçinin, bəzi buddist mənbələrində də ayın yarılmasını təsdiqləyən xəbərlər var. Xristianların incillərində belə ayın yarılmasını təsdiqləyən xəbərlər var (2).

**İkincisi:** Əgər sual verilsə ki, nə üçün ayın yarılması hadisəsi tarix kitablarında qeyd olunmayıb? - deyəcəyik ki: "Bunun haqqında bir çox səbəblər qeyd olunub, bunların ən mühümlərindən biri də, tarixçilərin bu hadisəni ayın tutulması halı kimi hesab etmələridir ki, ayın və günəşin tutulmasının onlar üçün normal bir hal olmasıdır. Bu səbəbdən də ehtimal olunur ki, görüblərsə də onu ayın yarılması hadisəsi deyil, ayın tutulması prossesi kimi hesab etmişlər. Həmçinin deyilib ki, ayın eyni vaxtda görünməsi dünyanın hər yerində mümkün deyil. Müəyyən bir zaman çərçivəsində ayın görünməsi harda mümkündürsə, ay da orada görünür. Dünyada gecə və gündüz fərqi olduğu üçün ay bir yerdə görünür, digər yerdə görünmür.

**Üçüncüsü:** Ayın yarılmasının isbatı üçün maddi elmdən dəlil tələb edildiyi zaman deyirik ki, buna iki aspektdən yanaşa bilərik;

**a)** Birincisi odur ki, ola bilsin o iz var - izin mövcud olması ehtimalında - lakin uzaqdan müşahidə olunmur. Çünki müasir elm ayın səthindəki bütün yerləri ən xırda yerlərə kimi - orada ən xırda ölçü işləri aparmaq da bura daxildir - müşahidə edə bilmir. Bildiyimiz qədərilə hətta müasir maddi elm cəhətindən bu mümkün deyil. Çünki ayın şəkilləri uzaqdan çəkilir və onun səthindəki hansısa çatın mövcud olub olmaması uzaqdan bilinməyə bilər ki, bu da normaldır. Lakin, internet araşdırmaları nəticəsində sosial şəbəkələrdə ayın səthi üzərində olan bəzi uzun cizgilərin olduğu aşkar olur. Bəzi dindarlar bunun ayın səthindəki ay yarılmasının əlaməti olduğunu vurğulasalar da, "NASA" tərəfindən çəkildiyi təsdiqlənmiş şəkillərin mahiyyətini, uzun cizgilər haqqında Brad Bailey başqa izah verərək bunun yarılma ilə əlaqəsinin olmadığını bildirmişdir. "NASA"nın məsul şəxsləri bu uzun çizgilərin ayın üst təbəqəsində yaranan yarılma olduğunu, bu yarılmanın müasir geoloji mərhələ əsnasında ayın daxilindəki soyuqluqdan, soyuq iqlimdən qaynaqlandığını və (şəkillərdə görünən) yarılmaya (büzüşməyə) çevrildiyini bildirmişdir (3).

Bu şəkillər "NASA"nın 2010-cu ilin 19 avqust tarixində araşdırma teleskopu "Lunar Reconnaissance Orbiter" vasitəsilə çəkdiyi şəkillərdir, 2009-cu ilin 19 iyun tarixində yerdən göndərilmiş, 4 gün ərzində ayın yaxınlığına çatdığı iddia edilir (4). Bəzi mənbələr isə

ümumiyyətlə bubşəkillərin 1969-cu ildə "Apollo10" kosmos gəmisi vasitəsilə çəkildiyini iddia edirlər (5). Məsələ nə olursa olsun, sosial şəbəkələrdə yayılmış qeyd olunan şəkillərdə doğurdan da ayın ortasındakı uzun bir yarılma cizgisi açıq-aydın görünür. Bu şəkillər uzun müddət müzakirələrə və mübahisələrə səbəb olmuşdur. NASA-nın verdiyi izah onların elminə uyğun gəldiyi üçün də elə ola bilər, müasir elmin möcüzəni inkar etməsi nəticəsində gəldikləri qənaət də ola bilər. Biz sadəcə bu mövzudan danışdığımız üçün ayın səthi üzərində doğurdan da böyük yarılma izlərinin olmasını qeyd etməli idik. Əgər doğurdan da həmin izlər ayın möcüzə ilə yarılmasının izləridirsə, bu zaman başqa müzakirələrə ehtiyac qalmır. Daha düzünü Allah bilir!

**b)** Fərz etsək ki, ayın səthində hər hansısa bir yarılma izi yoxdur, bu zaman izahımız çox bəsit olacaq, çünki biz hər iki ehtimala - həm yarılma izinin olub bizə görünmədiyi, həm də ümumiyyətlə ayın səthində yarılma izinin olmamasının elmi cəhətdən isbatlanması halında - cavabımız belə olacaq: Möcüzə fizika qanunlarının fövqündə olan bir hadisədirmi? deyə sual versək, cavab "bəli" olacaq. Əgər möcüzə fizika qanunlarının üstünə, fövqünə və ya xaricinə çıxmağı tələb edirsə, bu zaman ortada heç bir anlaşılmazlıq qalmır.

"Möcüzə" sözü ərəb dilində lüğəvi cəhətdən ismu fail olub acəzə (aciz qoymaq) sözündən törəyən suləsi məzid felidir. Mənası: rəqibə meydan oxuma zamanı onu aciz qoyan bir şeydir. İstilahi mənası isə:

"Allahın öz peyğəmbərliyinə seçdiyi şəxsin əli ilə həyata keçirdiyi fövqəlbəşər hadisədir ki (insanı aciz qoyan, insanın edə bilməyəcəyi, bəşərin gücü xaricində olan - red), bu hadisə onun sadiqliyinə və mesajının doğruluğuna dəlalət etsin" (6).

Möcüzələr əksər hallarda müəyyən bir zaman və məkanla məhdud olur. Əgər bu anlaşılarsa, möcüzənin onu peyğəmbərdən tələb edən bir kəsim insanın hidayəti üçün olmasını da nəzərə aldığımız zaman möcüzənin bəşəri, maddi meyarlarla dəyərləndirilməsinin yanlış olmasını başa düşməliyik. Məsələn, Allah qayadan dəvə çıxardır, biz buna iman gətiririk, ən böyük möcüzə olan varlıq aləminin yoxdan yaranması dəvənin qayadan yaranmasından daha böyükdür. Bu maddi möcüzə gözlə görünür. Bu maddi möcüzə ayın yarılmasından daha böyükdür. Necə ki, biz qayadan dəvə çıxması və onun izini axtarmırıq, yaxud Nuhun Quranda haqqında xəbər verilən gəmisinin yerini axtarmırıq və yaxud Quranda adı keçən əshabı Kəhfin bir neçə ölkədə olduğu iddia edilən mağarasının olduğunu dəqiqləşdirmirik, izlərini axtarmırıq, eləcə də Quranda haqqında xəbər verilən ay üzərində yarılmanın izlərini axtarmırıq. Çünki, möcüzənin izlərinin qalması şərtlərindən deyil. Bu izləri

axtarmaq Musanın dənizi iki yerə yarmasının izlərini axtarmağa bənzəyir. Digər misallar da bunu anlamağımız üçün çəkildi.

Nəticə etibarilə deyirik ki, möcüzə insanı aciz qoyan, insanın qüdrəti xaricində olan fövqəladə, fövqəlbəşər bir hadisədir. Möcüzələr fizika elminin xaricinə çıxır, fizika elminin dəqiq izah edə bilmədiyi məsələlərin olduğu da dünya elminə məlumdur. Zatən Musanın dənizi iki yerə yarması, arasından insanların keçməsinin özü fizika elmi ilə izah olunası məsələ yox, Allahın qüdrəti ilə izah olunası məsələdir. Bu, xalis iman gərəkdirir. Kainatdakı hər bir hadisənin mütləq mənada elmi izahı yoxdur. Bunun kimi möcüzələrin hamısı üçün elmi izah axtarmağa da lüzum yoxdur, nə də möcüzələr üçün belə şərtlər yoxdur. Belə olduğu təqdirdə ayda hər hansısa bir izin olmasını axtarmağa ehtiyac duymadan müsəlman kimsə Allahın ayələrinə inanmalı və bundan yəqin olmalıdır.

## Qeydlər və istinadlar:

(1) Sünən ət-Tirmizi. no: 3507. Qəmər surəsi babı. Quranın təfsiri kitabı. 9/125; Həmçinin bax: şeyx Albaninin Səhih və Zəif Sünən ət-Tirmizi əsəri: 3289. Şeyx Albani bu rəvayəti səhih (mötəbər) hesab etmişdir.

(2) Ətraflı bax: Bu qədim hind əlyazması Londonda, hindistan şöbəsi olan əlyazmalar nəzdində saxlanılır. Ərəbcə nömrəsi: 2807-dir. Həmidullah adlı müəllif "Muhəmməd Allahın Elçisi" adlı kitabının 152-ci səhifəsindən 173-ə kimi bu haqda bəhs etmişdir. Digər mövzuların mənbələrinə bu keçiddən daha ətraflı baxmaq mümkündür: https://www.ebnmaryam.com/vb/showthread.php?t=183057

(3) Bax: Diyar qəzeti. (ərəbcə). Məqalənin ərəbcə orjinal mətninin keçidi: https://www.eldyar.net/523950

(4) arabic.rt.com saytı. Məqalənin ərəbcə adı: الأمر تحسم وناسا التواصل مواقع على جدلا يثير "القمر إنشقاق (صور). Məqaləyə keçid linki böyük olduğu üçün məqalənin adı ilə axtarış etmək məsləhətdir.

(5) Link uzun olduğu üçün məqalənin adı ilə araşdırma etmək məsləhətdir: القمر انشقاق.. ماذا يقول الدين والعلم حول صور مواقع التواصل؟ | الخليج صحيفة -

(6) Movsuatul Aqidəti vəl-Ədyən vəl Firaq vəl Məzəhib əl Muasırah. 5/2741. Əqidə, dinlər, firqələr və müasir məzhəblər ensiklopediyası. "Möcüzə" sözünün izahı. (ərəbcə).

## Kəbə Allahın evidirsə, niyə göyərçinlər oranı batırır?

**Sual belədir:** *Nə üçün müqəddəs sayılan Kəbənin üstünü quşlar, göyərçinlər nəcisə batırır? Quranda belə bir ayə var: "Məgər onlar başları üzərində dəstə-dəstə pərvazlanıb uçan, hərdən də qanadlarını yığan quşları görmürlərmi? Onları havada ancaq Mərhəmətli Allah saxlayır. Şübhəsiz ki, O, hər şeyi görür". (Mülk. 19). Əgər quşları Allah saxlayırsa, bu necə ola bilər? Allah buna necə razı ola bilər؟*

**Şübhəyə cavab** bir neçə aspektdən olacaqdır:

**Birincisi:** Ateist bəzi iddiaların doğru olub olmadığını müəyyən etməlidir. İlk növbədə o "nəcis, murdar" sözünün mənasını bilməlidir. İslam şəriətində quşların artığı nəcis hesab olunmur. O heyvanlar ki, onların əti yeyilir onların artığı da nəcis hesab edilmir və pak hesab edilir. O cümlədən də göyərçinlər bu cür pak heyvanlardan hesab edilirlər. İslam dinində "nəcis, murdar" sözünün iki növü var: maddi nəcasət və mənəvi nəcasət. Maddi nəcasətə əti yeyilməyən heyvanların artığı, ifrazatı, leş, donuz əti, içki və s. aid edilir. Mənəvi nəcasət isə Quranın ifadəsinə görə müşrik və kafirlərdir. O səbəbdən də müşrik və kafirlərin müqəddəs yerlərə gəlməsi Qurana və hədislərə əsasən qadağan edilmişdir. Quranda uca Allah buyurur: "Ey iman gətirənlər!

Həqiqətən də, müşriklər murdardırlar. Odur ki, özlərinin bu ilindən sonra Məscidulharama yaxınlaşmasınlar". (Tövbə. 28). Məkkə və Mədinə ərazisinin "haram" (toxunulmaz, mübarək, müqəddəs) hesab edilən ərazisinə qeyri müsəlmanlar daxil ola bilmirlər, hətta təyyarə ilə belə o yerlərdən keçə bilmirlər. Məkkəyə ən yaxın hava limanı (Ciddə şəhərində) təxminən bir saatlıq maşın yolu qədər uzaqda yerləşir və Kəbə üzərindən təyyarə ilə olsa belə onların oradan keçməsi mümkünsüzdür. İşçi kimi belə olsa oradan hansısa qeyri-müsəlmanın təyyarə ilə keçmək şəraiti yoxdur. Həmçinin bu ona görə edilib ki, Məkkə dağlıq ərazi olduğu üçün səsi qaytarır və əgər Kəbə üzərindən təyyarə uçuşları icazəli olardısa, bu səsi dağlar əks etdirər və orada ibadət edənlərin narahatlığına səbəb ola bilərdi. Bu haqda Məkkə əhalisindən, bu işləri bilənlərin verdiyi izahlar da sosial şəbəkələrdə mövcuddur .

**İkincisi:** O ki qaldı göyərçinlərin Kəbənin üzərini batırmaması məsələsinə, yaxud da bəzilərinin iddia etdiyi kimi quşların Kəbənin üzərindən uçmamasına, bəli, el arasında (müsəlmanlar arasında) belə bir fikir yayılıb ki, Kəbə ətrafındakı göyərçinlər, quşlar Kəbəni batırmırlar, hətta Kəbənin üzərindən belə uçmurlar. Təbii ki, bu iddia müəyyən bir nisbətdə doğrudur, reallığa baxanda biz bunu inkar etmirik, bir çox müsəlmanların, ziyarətçilərin şahid olduğuna görə Kəbə ətrafındakı quşlar Kəbənin

üzərindən uçmurlar, uçsalar da Kəbənin birbaşa yanından keçmir və ya aralı keçirlər, bəzən də təvaf edirmiş kimi, yəni Kəbənin ətrafında dövrə vuraraq hərəkət edirlər. Əgər reallığa əsasən məsələyə yanaşsaq, quşların Kəbənin üstünə qonması və üstündən uçması nadir hallarda baş verir və bunu görənlər də, şahidi olanlar da var. Deməli, müsəlmanların gəldiyi qənaət məşhur olan fikirə və reallığa böyük bir nisbətdə uyğundur. Lakin, artıq izah etdiyimiz kimi, fərz etsək ki, hansısa göyərçinin qığı (artığı) təsadüfən Kəbənin üzərinə tökülsə, bu onu nəcis etmir, murdar etmir. Nəcis, murdar sözünün heyvanlara aid mənasını əvvəldə izah etdik və bildirdik ki, göyərçinin qığı (artığı, ifrazatı) nəcis deyil və beləcə iddianın yanlış olması aydın olur .

**Üçüncüsü:** Zatən biz müsəlmanların İslami qaynaqlara əsaslanan belə bir inancımız da yoxdur ki, heç bir quş gəlib Kəbənin üzərinə nə isə ata bilməz. Yaxud biz bəzilərinin iddia etdiyi kimi iddia etmirik ki, Kəbənin üzərində xüsusi bir maqnetik sahə var deyə quşlar oradan uça bilmirlər. Bəzi mütəxəssislər deyiblər ki, Kəbə dünyanın ortasıdır, bunu dünya xəritəsinə baxanda heç olmasa başa düşmək olur və bu arqumentin tutarlı olması qənaətinə gəlmək olur, çünki bu haqda elmi araşdırmalar da var. Bunu İslamın ecazı baxımından deyənlər olmuşdur. Amma Kəbə üzərində maqnetik sahə olmasını biz iddia etmirik. Həmçinin Kəbə üzərindən quşların bu

səbəbdən uçmamasını və ya oradan nurların çıxdığı üçün quşların ora yaxın gəlmədiyini də iddia etmirik. Yenə də bu və digər bir çox fikirlər İslamın sonrakı mərhələlərində inanclı insanlar tərəfindən ortaya atılmış fikirlərdir, Muhəmməd peyğəmbərin təlimində belə inanclar olmayıb. Yaxud "Kəbə Allahın evidir" deyəndə onlar Allahın evə ehtiyacı olduğunu qəsd etməyiblər, Allahın yer üzündə müsəlmanların inanc mərkəzi, ibadət yeri olan müqəddəs bir yer kimi başa düşüblər. Quşların gəlib belə bir yeri nadir hallarda batıra biləcəyini fərz etsək belə, bu fikir nə Allahın yaradıcı olmasına, nə Quranın sonuncu ilahi kitab olmasına, nə də peyğəmbərin sonuncu peyğəmbər olması ilə bir ziddiyyət təşkil etmir.

**Dördüncüsü:** Biz müsəlmanlar təbiətin və ya təbii prosseslərin Allahın yaratdığı gündən bəri dünyanın hər yerində Allahın izni və qüdrəti ilə təsirli olduğuna inanırıq; necə ki, yağış başqa yerlərə yağır, Kəbəyə də yağır, hətta Məkkədə sel də olur, yaxud şər əməllər dünyanın hər yerində baş verə bildiyi kimi Kəbə ətrafında quldurlar tərəfindən tarix boyu istisna hallarda qan tökülüb, Kəbənin qara daşını belə oğurlayıblar, iyirmi il qara daşın bir hissəsi Qəramitilər tərəfindən oğurlanaraq uzaqlara aparılıb, sonra geri gətirilib. Deməli, dünyada baş verən təbii prosseslər Kəbədə də baş verir. Allah yer üzündə şərin və xeyrin olacağını Quran ayətləri ilə bizə xəbər verdiyi halda zatən bizim belə iddialarımız

ola bilməz. Həmçinin Allah Kəbənin yerləşdiyi şəhərin (Məkkənin) əminamanlıq yurdu olduğunu buyurub və doğurdan da Kəbə tarix boyu bu hal üzərində olub. Kəbə tarixində istisna hallarda bir-iki qan tökülmə halları bu əminamanlığa bir xətər yetirmir. Deməli, göyərçin haqqında olan bu şübhə əsassızdır.

*Bəzi ateistlər bir şəkil paylaşıblar, onun da fotoşop olduğu iddia edilir. Eyni iki şəkildə Kəbənin üstünün təmiz olduğunu və o təmiz istiqamətdə bir göyərçin qonması təsviri, digər şəkildə isə guya onlarla göyərçinin eyni yerdən çəkilmiş təmiz yeri batırması görünür.* Şəkilin fotoşopla əldə edildiyi zatən ilk baxışdan görünür. Baxmayaraq ki, biz göyərçinin Kəbəyə ifrazat tökə biləcəyini mütləq şəkildə inkar etmirik, nə də "bu mümkünsüzdür" deyib belə fikirlər üzərində inanc qurmuruq. Reallıq budur ki, Kəbə tərəfdə quşlar çox olmur və oranı ümumən batırmırlar və nadir halda belə bir hal baş versə bu da Kəbənin paklığına bir zərər verə bilməz. Quşların Kəbəyə çox yaxınlaşmaması oradakı insan izdihamı səbəbindən də mümkündür. Hər bir halda aydın olur ki, belə bir iddia ilə Kəbənin paklığına, nə müqəddəsliyinə bir zərər toxunması batil bir yanaşmadır, nə dini cəhətdən göyərçinin ifrazatı murdar sayılmır, nə də məntiqi cəhətdən orda belə hallar əsasən görülmür, müşahidə olunmur. Hələ günün bəzi vaxtlarında quşların orada çıxardığı səslər o qədər gözəl olur ki, insanın

ruhuna sevinc qatır. Bəzən də quşlar orada elə gözəl pərvazlanıb uçurlar ki, bu da insanlarda xoş bir təəssürat əmələ gətirir .

## Nə üçün zəlzələlər ancaq müsəlmanlar olan yerlərdə baş verir?

**Sual belədir:** *Nə üçün zəlzələlər ancaq müsəlmanlar olan yerlərdə baş verir? Əgər Allah günahlara görə cəza verirsə, nə üçün ən çox günahlar edən kafirlərə bəlalar göndərilmir? Zəlzələnin nə üçün baş verdiyini, kimə əzab, kimə əzab olmadığını deyə bilmərik. Peyğəmbər var idi deyirdi, biz isə deyə bilmərik .*

**Cavab:** Bu sualın qoyuluşu kökündən yanlışdır və qərəzli bir sualdır. Ələxsus da əgər "elm" iddiasında olan biri tərəfindən edilərsə, onda durum daha acınacaqlıdır. Zəlzələlər təkcə müsəlman ölkələrində olmur. Görünür buna bəzi misallar çəkməli olacağıq. İlk öncə gəlin bu hissəyə cavab verək: "Nə üçün zəlzələlər ancaq müsəlmanlar olan yerlərdə baş verir? Əgər Allah

günahlara görə cəza verirsə, nə üçün ən çox günahlar edən kafirlərə bəlalar göndərilmir "؟

*Sualın bu hissəsinə üç aspektdən cavab verəcəyik:*

**Birincisi:** Hər ölkənin öz fəlalətləri var. Fəlakətləri yalnız müsəlman ölkələrinə aid etmək böyük bir yalnışdır. Məsələn, bu yaxın illərdə Avropada sellərdən nə qədər insanlar öldü, əksər sel fəlakətləri qeyri-müsəlman ölkələrində oldu. Nə qədər insan öldü, istəyən bu haqda araşdırmalar edə bilər. Tarixə bir azca baxış etmək kifayətdir؛

Amerikanın özündə 2011-ci il təbii fəlakətlər ili elan edilib, təkcə soyuqdan ölənlər 1000 nəfərdən çox olub. 1985-ci ildə Amerikada "Barri" tornadosunda çoxlu sayda insan tələfatı olub, ölkəyə milyonlarla dollar maddi zərər dəyib. 1927-ci ildə ABŞ-da baş verən sel nəticəsində 700.000-dən artıq insan evsiz qalıb, yüzlərlə insan həlak olub.

2005-ci il 23 avqustda başlanğıcını Atlantik okeanının Baham adalarından götürən "Katrina" adlanan sunami ABŞ-da Meksika körfəzinin ən gözəl güşəsində, Luiziana ştatının "Yeni Orlean" şəhərini bütünlüklə su altına aldı. Sunami 23 avqustdan 31 avqusta kimi davam etmiş, həmin zaman küləyin sürəti saatda 280 km-ə çatmışdır. Bu dəhşətli hadisədə ölənlərin sayı məlum deyil, 20.000-dən artıq insan itkin düşmüş, 160.000-dən

artıq ev xarabaya çevrilmişdir. Həmin vaxtlar neft buruqlarının 90%-nin işi dayanmışdı. Hesablamalara görə, 50 mlrd. dollar məbləğində əmlak su altında batmışdı.

Yaponiyada isə 1995-ci il yanvarın 17-də Honsü adasında zəlzələdən qorunma tədbirlərinin görülməsinə baxmayaraq, 7,5 bal gücündə baş vermiş zəlzələ 6300-dən çox insanın tələfatı ilə nəticələnmiş, ölkəyə ümumilikdə 130 milyard dollar zərər dəymişdi .

İtaliyada 1908-ci ildə baş vermiş Mesina zəlzələsində 70.000 insan həlak olmuşdur.

Belə misalları çoxalda bilərik, Çindəki, Tailanddakı, Cənubi Amerika ölkələri və s. qeyri-müsəlman ölkələrdə zaman-zaman baş verən müxtəlif dəhşətli təbii fəlakətlərdən hələ yazmadıq. Bu ölkələrdə tarix boyunca baş vermiş dəhşətli fəlakətləri internetdən rahatlıqla araşdırıb öyrənə bilərsiniz. Qarşıda bəzi fəlakətlərə yenə işarə ediləcəkdir .

**İkincisi:** Zəlzələnin baş vermə arealı əsasən dağlıq ərazilərdir. Bu ərazilər dindar, dinsiz olmaqla, müxtəlif din mənsublarına məxsus ərazilərdir və yalnız müsəlmanlara məxsus deyil. Qeyd edək ki, bu fikir onlarla təhlükəli təbii fəlakət növlərindən yalnız biri haqqındadır. Digər fəlakətlər isə dünyanın müxtəlif yerlərində baş verir. Hər il müxtəlif sel və daşqınlarda,

bəzən sunamilərdə, bəzən qasırğa və fırtınalarda, bəzən vulkan püskürmələrində, bəzən də yanğınlarda və digər növ fəlakətlərdə minlərlə insanlar həyatını itirir. Hələ aclıq, qıtlıq, şiddətli istilər, şiddətli soyuqlar və s. çoxlu səbəblər də nəzərə alınarsa, bu cür şübhələrin bir əhəmiyyəti qalmaz. Hər il təkcə yol qəzalarında dünyada 300.000 insanın öldüyü təxmin edilir. Təkcə bu hal, bir il ərzində dünyada zəlzələdən ölənlərin sayı ilə müqayisə edilə bilməz. Deməli, hər kəsin qədərində bir cür ölüm var. Uca Allahın buyurduğu kimi: "Harada olursunuzsa olun, ölüm sizi haqlayacaq. Hətta əlçatmaz qalalarda olsanız belə". (Nisa. 78).

Görünən budur ki, İnsanlar özlərinin səbəb olduqları ölüm hadisələrini (qətl, müharibələr, suiqəsdlər, soyqırımlar, yol qəzaları və s) heç bu qədər diqqət yetirmir, eyni aspektdən sorğulamırlar. Bəzilərinin əsas məqsədi sadəcə dinə qarşı danışmaqdır

.

**Üçüncüsü:** Allah kafirlərə bu dünyada möhlət verir. Yaxud da Allahın kafirlərə dünya naz-nemətləri verməsi bəzi müsəlmanları aldatmalı deyil. "Allah nə üçün kafirləri etdikləri günahlara görə dərhal cəzalandırmır?" adlı ətraflı məqaləmizi oxumağı tövsiyə edirik (1).

Sadəcə onu vurğulayaq ki, bu sualı bir dinsizin verməsi normaldır, əgər bunu bir müsəlman iddia edərsə, ona tövsiyəmiz İslam əqidəsini yaxşı öyrənmək,

əqlanilərin (ağlını şəriətdən önə çəkənlərin) şübhələrindən uzaq durmaqdır. Kimliyindən aslı olmayaraq bu cür sadə bir əqidə mövzusunu anlamayıb insanları çaşdıran biri, istər sıravi şəxs olsun, istər də ilahiyyatçı olsun, onun xətası islah edilməli, düzəldilməlidir. Bir müsəlman İslam əqidəsinə zidd sözlər danışmaqdan həzər etməli, çəkinməlidir.

*• Sualın (şübhənin) ikinci hissəsinə gəldikdə isə, belə deyilir:* **"Zəlzələnin nə üçün baş verdiyini, kimə əzab, kimə əzab olmadığını deyə bilmərik. Peyğəmbər var idi deyirdi, biz isə deyə bilmərik ."**

**Cavab:** Bu şübhə də tarix boyu İslam alimlərinin üzərində olduğu fikirə, cavaba müxalifdir. Bunu bir neçə aspektdən izah etmək olar:

**1 - Quran və sünnə dəlilləri bu şübhənin düyünlərini çözür.** Artıq mövzunun əvvəlində Quran ayələrinin, hədislərin, alimlərin sözlərinin, izahların şahidi olduq. Bütün bu izahlar isə dinin sağlam qaynaqlarına, sağlam dəlillərə əsaslanır. Bu iddia isə heç bir dini mənbəyə deyil, əqli mühakiməyə əsaslanır. Əlbəttə ki, din ağıla zidd deyil. Sağlam ağıl dini, din də sağlam ağlı təsdiqləyir. Lakin, bu iddianın məntiqi

nəticəsi Quran ayələrinin, hədislərin zahirinin və əsrlər boyunca İslam alimlərinin üzərində olduğu görüşü yalanlamaqdan ibarətdir. Yəni, bu şübhəni gətirən kimsənin qəsdində nə bu niyyət, nə də zəlzələdə Allahın iradəsinin inkarı olmasa da, iddia etdiyi görüşün məntiqi nəticəsi kənardan onu belə bir batil fikrə dəstək verməsini nümayiş etdirir .

**2 - Bu iddia sahibi guya dinin mövqeyini ortaya qoyub müdafiə etmək istəyir , əksinə, bu iddia dinin mövqeyini bilmədən edilmiş iddiadır**. Çünki, sağlam iddia olsaydı, birincisi, mötəbər İslami mənbələrlə uyğunluq təşkil edərdi, İslami qaynaqlara əsaslanardı. İkincisi isə, İslam əqidəsində zəlzələyə verilmiş şəri izah yanlış, təhrif edilmiş şəkildə ortaya qoyulmazdı.

İddianı irəli sürənlər belə bir suallar verirlər: Zəlzələ ibrətdirmi? Zəlzələ əzabdırmı? Zəlzələ cəzadırmı? və s. Bu insanların ən böyük problemi İslam alimlərinin əqidə kitablarından, həmçinin alimlərin elementar sözləri ilə tanış olmamalarıdır. Nəticə isə bərbad və əqlani bir yanaşmaya gətirib çıxarır. Əgər bu iddia sahibləri bizim əvvəldə İslam alimlərinin az qala icma etdikləri bu mövqeyini bilsəydilər, belə saçma və batil izahlara da baş vurmazdılar.

Bu müdafiə etdiyimiz İslami qaynaqlara əsaslanan mövqe isə zəlzələni mömin üçün bir rəhmət, kafir üçün əzab olduğunu vurğulayır. Bu mövqe, səni batil mövqedə olanların düşündüyü kimi "ya zəlzələnin hamıya əzab olduğunu deməlisən, ya da bu məsələyə girişib ağır suallar qarşısında aciz qalmalısan" deyə safsata fikirlərə, yanlış məntiqi nəticələrə gəlməkdən qoruyur. Üstəlik də bu yanlış mövqedə olanların ən böyük cahilliyi sağlam İslami mənbələrə əsaslanan bu mövqeni "Allaha iftira atmaq", yaxud da "kahinlik" kimi vəsf etmələridir. Bu iddia bizə qarşı edilsəydi, heç ümumi də danışmazdıq, madam ki, bu qədər dəlillər görməzlikdən gəlinir, İslam alimlərinin sözləri dəyərsizləşdirilir, belə "əqlani məntiqlə düşünən" insanların özlərinin fikirləri və iddiaları dəyərsiz olacaq, İslamın ruhuna zidd şəkildə, cahilcəsinə İslami mövqeyə qarşı "yanlış reformist, cürətli çıxışlar" müsəlmanların elmi mirası önündə çöküşə uğrayacaqdır .

Bəli, batil mövqeyə qarşı olan İslami mövqe əvvəldə qeyd etdiyimiz kimi qısa olaraq, İslami dəlillərə əsasən belədir: "Bilmək lazımdır ki, zəlzələlər, günəşin, ayın tutulması və s. təbiət hadisələri Allahın iradəsi, izni ilə baş verir və bu hadisələr Allahın ayətlərindəndir. Uca Allah Qurani-Kərimdə buyurur: "Biz ayətləri yalnız qorxutmaq üçün göndəririk". (İsra. 59). Allah öz

qüdrətinə dəlalət edən ayətləri göndərir ki, insanlar ibrət alsınlar, ayılsınlar.

Böyük fəlakətlər gəlmiş yerlərdə sağ qalan insanlar həyatın mənasını başa düşür, bütün yığdıqları dünyalığın günahlar, asiliklər və şirk səbəbilə bir an içində yox ola biləcəyini anlayır və Allaha üz tutaraq tövbə edir. Bəla gəlməmiş insanlar isə bəla gəlmiş insanların halına baxır, beləliklə bu, digər bölgələrdəki insanlar üçün də bir xəbərdarlıq olur. İslam alimləri zəlzələnin şəri səbəbi haqqında "zəlzələlərin baş vermə səbəbi günahlar və asiliklərdir" deyə bildirirlər. Əgər fəlakətlərdə ölən insanlar mömindirlərsə, bu, onların günahlarına kəffarə və şəhidlik dərəcəsi olur. Müsəlmanın başına nə gəlirsə, onun üçün xeyir olur, hətta ayağına batan bir tikan belə onun günahlarına kəffarədir. Yox əgər zəlzələdə ölən kimsə kafirdirsə, bu onun üçün cəza, sağ qalanlar üçün isə ibrət, öyüd-nəsihət və qorxutmadır".

Deməli, bu İslami mövqedə zəlzələnin müsəlmana rəhmət, kafirə əzab ola biləcəyini bilməyən şəxs "cəza və əzab" mövzusunun təyinatı kimi incə məsələdə çaşbaş qalır, çaşması az deyilmiş kimi başqalarını da çaşdırmağa cürət edir. Azmaqdan və azdırmaqdan, elmsiz danışmaqdan Allaha sığınırıq !

**3 - Yaponların mübarizəsi, zəlzələnin təsirini azaltmaq məsələsi**: Sualı qoyanlar belə bir iddia da

gətirirlər ki, "məgər bütün zəlzələlər ilahi cəzanın, ilahi qədərin ifadəsidirmi?" Sonra isə yenə qədər mövzusunda əqlani yanaşma edilərək dolayısı yolla ya qədər inkar edilir, ya da İslam əqisinə görə kafirlər üçün zəlzələnin cəza mahiyyətində olması inkar edilir. Əvvəlcə belələrinə bir daha əqidə kitabları oxumağı tövsiyə edirik. Sonra isə deyirik, belə deyənlər unudurlar ki, yaponlar gördükləri bütün tədbirlər nəticəsində yenə də şiddətli zəlzələ baş verdikdə yüzlərlə, minlərlə insan həyatını itirirlər. Zəlzələyə qarşı kafirin tədbir görməsinin qədərə qarşı bir təsiri yoxdur. Çünki, baş verən hadisə özü qədərdən hesab edilir. Bunu anlamayan insan isə elə bilir ki, yaponlar zəlzələnin təsirini azalda bilirsə, deməli qədərə mane olur, bu isə "guya İslama qarşı bir arqumentə çevrilir". Onlar yəqin ki, Allahın qeyri-müsəlmanların da Allahı olduğunu unutmurlar.

Həmçinin, unutmaq lazım deyil ki, yaponlar zəlzələnin gücünü deyil, nəticəsini sağlam yollarla aradan qaldırmağa çalışırlar. Bu, da çox mühüm məsələdir. Keçmiş ümmətlərdə də bəladan qorunmaq üçün dağlarda oyuqlar açanlar var idi. Lakin, Allah Quran ayələrində onlara meydan oxuyur, gördükləri tədbirlərin onları ölümdən xilas edə bilmədiyini xatırladır .

Yaponlar nə etsələr də zəlzələnin özünün qarşısını ala bilməyəcəklər. Yaponlar nə etsələr də zəlzələlərdə ölüm hallarını aradan qaldıra bilməyəcəklər. Məsələn, elə ən yaxın tarixdə 2011-ci ildə də Yaponiyada zəlzələ

əleyhinə güclü tədbirlər görülmüşdü. Lakin, Allahın əzabının qarşısını yenə ala bilmədilər. Bu dəfə yaponları gözləmədikləri yerdən sunami yaxaladı. Tikdikləri möhkəm binaların da faydası olmadı və 20.000-ə yaxın insan tələfatı oldu (2).

Bundan öncə isə 1995-ci il yanvarın 17-də Honsü adasında zəlzələdən qorunma tədbirlərinin görülməsinə baxmayaraq, 7,5 bal gücündə baş vermiş zəlzələ 6300 insanın tələfatı ilə nəticələnmişdi. Möhkəm tikilən binalarla yanaşı Yaponiyada zəlzələ baş verir və Yaponiya yenə dünyada fəlakətlərdə ən çox can itkisi olan yerlərdən olursa, bu da Allahın bir qədəridir. Yaponiyada "olduqca acınacaqlı bir hadisə o oldu ki, zəlzələ zamanı insan itkisini azaltmaq üçün ağacdan tikilmiş evlər xeyli ziyan vurdu. Kobedəki zəlzələdən əvvəl dağılan evlərin əksəriyyəti taxta konstruksiyalardan ibarət olub. İki həftə davam edən yanğınlarda ən böyük itkini yaponlar verib" (3).

Zəlzələ proqnozları ilə bağlı da vəziyyət heç də ürəkaçan deyil. Bunu da Respublika Seysmoloji Xidmət Mərkəzinin şöbə müdiri Tahir Məmmədovun bu yaxınlarda İctimai TV-də çox mühüm bir çıxışında bildirib. Deməli, o bildirib ki, Çin alimləri 70-ci illərdə zəlzələnin proqnozunu verib bir dəfə insanları xilas edirlər, növbəti dəfə proqnoz səhv çıxır və məhz insanları xilas etmək üçün yerləşdirdikləri yerdə 200.000 nəfər

insanın həlak olmasına səbəb olan zəlzələ baş verir. Gördüyünüz kimi: olacaqdan qurtulmaq yoxdur .

Yaponlar nə etsələr də öldükdə - müsəlman olanları xaric olmaqla - Allahın hüzuruna qeyri-müsəlman kimi gedəcəklər. Üstəlik də, kim deyir ki, Allah bu dünyada bütün kafirləri cəzalandırır? "Möhlət məsələsi" haqqında danışdıq ki, Allahın bu dünyada kafirlərə verdiyi xüsusi möhləti də var. O möhlət ki, Qiyamət günü onların əleyhinə olacaq. Uca Allah buyurur :

"Əgər Allah insanları etdikləri günahlara görə dərhal cəzalandırsaydı, yer üzündə bir canlını belə sağ buraxmazdı". (Fatir, 45). Bu ayətlərdən üz döndərən və ya xəbərsiz olan biri əlbəttə ki, ziddiyyətli sözlər danışıb İslami mövqeni təhrif edəcəkdir .

Bu ayədə isə: "Lakin, Allah onlara müəyyən vaxtadək möhlət verir". — deyə işarə edərək bildirmişdir ki, Allah möhlət verir, lakin unutmur.

Möminin halı isə belə deyil. Allah mömini bu dünyada ikən təmizləyir, günahlarına kəffarələr lütf edir. Nə üçün bu məsələləri İslami aspektdən izahlar varkən, bu izahların hamısı tərk olunmalı, iki-üç ateistin məntiqi önə çəkilməlidir? Özünə "müsəlman", "ilahiyyatçı" deyən kəs bunu edirsə, biz cahil, sıravi insanlardan və ya sıravi müsəlmanlardan hansı salamat fikirləri gözləməliyik؟

**4 -** Allah bizə həlak olmuş neçə qüvvətli qövmləri xatırladır. Bu haqda Quran ayətləri çoxlarına məlumdur. Uca Allah buyurur: "Məgər onlar özlərindən əvvəl neçə-neçə nəsilləri məhv etdiyimizi görmədilərmi? Biz onlara yer üzündə sizə vermədiyimiz imkanları vermişdik". (Ənam. 6). Bəli, ayətdə deyildiyi kimi əvvəlki qövmlərdə də bizdə olmayan imkanlar ola bilər. Elə yaponların özlərində də həmin imkanlar ola bilər. Allah bunun mümkünlüyünü bizə zatən özü Quranda xatırladıb. Təəssüflər olsun ki, şübhələr önündə - kimliyindən asılı olmayaraq - imanı zəifləmiş müsəlmanlar, ayda-ildə bir dəfə bu kitabın üzünü açanlar Quranda verilən mesajlardan xəbərsizdirlər .

Dünya tarixində ən çox can itkisi olan zəlzələnin də ən çox insan yaşayan Çində baş verməsi sizcə heç düşündürücü deyilmi? "Şensi" zəlzələsi Çində baş vermişdir. Tarixdə ən çox insan tələfatına səbəb olan bu zəlzələ hadisəsi 1556-cı il 23 yanvar günü Çinin şimal-qərbində baş verib. 8 bal gücündə baş verən zəlzələ zamanı 830.000 nəfər həyatını itirib. Bu bölgə əhalisinin 60%-i deməkdir. Zəlzələ zamanı bütün binalar dağılmışdı (4).

Bu qədər izahdan sonra "peyğəmbər var idi zəlzələnin kimə əzab olduğunu deyirdi, indi peyğəmbər yoxdur deyə biz deyə bilmərik" deyənlərə deyirik ki, sizin "qədər" və "hikmət" mövzularında peyğəmbərin صلى الله) (عليه وسلمyolundan, əqidəsindən uzaq düşməyinizin ən

bariz nümunəsi zəlzələ haqqında yazdığınız bu cür məqalələrdə və ya danışdığınız cümlələrdə Qurana və sünnəyə müraciət edə bilməmənizdir. Arqumentləriniz isə ağlınıza gələn və dinsizlərdən təsirlənib yazdıqlarınızdır. Çünki, peyğəmbərimizin zəlzələ mövzusunda inancını bilmək üçün onun haqqında xəbərləri verən mənbələrə müraciət etməli idiniz. Bunu edə bilməyən ancaq "peyğəmbər aramızda yoxdur" deyib insanları çaşdırmağa çalışsa da, o mübarək peyğəmbərin (صلى الله عليه وسلم) varisləri olan alimlərin mövcud olduğunu unudursa, İslamın iki ana məsdəri olan Qurana və sünnəyə də müraciət etmirsə, məsələ bir sağlam inanclı müsəlman üçün çözülmüş olur .

## Qeydlər və istinadlar:

1 - Suala ətraflı cavabı bu keçiddən oxuya bilərsiniz: http://sunna.az/content?cid=628

2 - (Ətraflı bax: BBC News Azərbaycanca saytı. "Yaponiyada dəhşətli zəlzələnin ildönümü qeyd olunur" adlı məqalə. 2012).

3 - (Demedia.az saytı. "Zəlzələdən sonra ölkədə nə dəyişdi?" adlı məqalə. 13.02.2023).

4 - (Mənbə: Modern.az saytı. "Dünya tarixinin ən dağıdıcı zəlzələləri" adlı məqalə. 02.02.2018).

## Zəlzələdə bəzi məscidlərin yıxılması haqda şübhəyə cavab !

**Şübhə belədir**: *Məscidlər Allahın evidirsə, Türkiyə zəlzələsində bəziləri niyə yıxıldı? Allah məscidlərin yıxılmasına niyə icazə verdi ؟*

**Şübhənin cavabı:** Bu şübhənin cavabı bir neçə aspektdən olacaqdır:

**Birincisi:** Allahın zat olaraq hansısa evə ehtiyacı yoxdur. Allah ehtiyacsızdır və hər şey ona möhtacdır. "Allahın evi" sözü məscidlərə ona görə nisbət edilib ki, məscidlər Allaha dua etmək, ibadət etmək, zikr etmək və Quran oxumaq üçün xüsusi ayrılmış yerlərdir. Təəssüf ki,

həyatı "bu dünyadan", "maddədən" ibarət olan, öləndən sonra torpaq olub birdəfəlik yox olacağını düşünən, lakin sorğu-suala çəkiləcəyini düşünməyən bir insan üçün yıxılmış bir məscid "dinin yox olması" anlamına gəlir .

**İkincisi:** Məscidlər insanların ibadət etməsi üçün elə insanlar tərəfindən tikilmiş binalardır. Dağılan məscidlərin çoxusu köhnə məscidlərdir. Zərərə uğrayan yeni məscidlər də var. Yaşayış binaları hansı materialdan inşa edilirsə, məscidlər də o materiallardan inşa edilir. Yaxşı tikilən bina dözümlü olduğu kimi, yaxşı tikilən məscid binası da dözümlü olur. Deməli, digər binalar hansı səbəbdən yıxılır və ya zərər görürsə, məscidlər də o səbəbdən yıxılır və ya zərər görür! Memar Sinanın inşa etdiyi 89 zəlzələnin öhdəsindən gəlmiş, heç bir zərər görməmiş bir məscid haqqında da bir gün ateistlərin danışacağına, o məscidin möhtəşəm memarlıq sirlərinə, hətta zəlzələyə qarşı köhnə tədbirlərə diqqətləri çəkəcəklərinə də ümid etmək istərdik .

**Üçüncüsü:** Əgər zəlzələlərdə məscidlər heç vaxt dağılmasaydı, bu möcüzə hesab olunacaqdı, insanların hamısı iman gətirəcəkdi. Bu isə imtahan dünyasına uyğun gəlməz. Çünki, Allah insanları sınamaq, onlardan kimin sadiq, kimin yalançı olduğunu sınaqdan keçirmək istəyir. Allah şərlərin baş verməsinə mütləq şəkildə mane

olsaydı, o zaman yer üzü cənnət olardı və cənnətə, cəhənnəmə, imtahan dünyasına da ehtiyac qalmazdı. O zaman məscidlərin dağılmasını din əleyhinə arqument kimi gətirmək doğru deyil. Fəlakətlər zamanı məscidlərə zərər dəyməsə, dindarlıq səviyyəsi ən yüksək səviyyəyə çıxar. İnsanların seçimi, düşüncə, sorğulama ilə seçim azalar və inanc daha ağır gələr. Bunu isə zatən ateistlər istəmir .

**Dördüncüsü:** Məntiqi ardıcıllıq olaraq demək mümkündür ki, Allah məscidləri qorusa, gərək saleh qullarını da mütləq mənada bütün bəlalardan qorusun, dinlə bağlı hər şeyi də gərək qorusun! O zaman yenə imtahana, yaxşılıq və pislik, xeyir və şər, cənnət və cəhənnəm arasında seçim şansı qalmır. Yenə dini sorğulamaq imkanı qalmır, ateistin qorxduğu hal baş verəcək, ortada ancaq inanc qalacaq. Beləcə, bu arqumentin özü ateistin əleyhinə çevrilmiş olur .

**Beşincisi:** Allahın məscidləri bütün zərərlərdən, bütün fəlakətlərdən qoruyacağı haqda bir vədi yoxdur. Ortada elə bir vəd olsaydı, yenə bu iddianı başa düşmək olardı.

# Ateistlər doğurdan da xoşbəxtdirlər؟

**Sual***: Ateist şəxs deyir ki, "mən ateist olmağıma görə xoşbəxt və hüzurluyam". Bu ifadə nə dərəcədə doğrudur* ؟

**Birincisi:** Xoşbəxtlik bu dünyada nisbidir, axirətdə isə yalnız möminlərə aiddir. Əgər mübahisə xətrinə küfr üzərində olan şəxsin bu dünyada zahirdə xoşbəxt görünə biləcəyini fərz etsək, hətta qəbul etsək, dinsizin zahirən öz halından razı ola biləcəyi ehtimalını zatən Quran ayəsi də xəbər verir, uca Allah bu haqda buyurur: "Şübhəsiz ki, Bizimlə qarşılaşacaqlarına ümid etməyənlər, dünya həyatından razı qalıb onunla rahatlıq tapanlar və ayələrimizdən xəbərsiz olanların – məhz onların qazandıqları günahlara görə gedəcəkləri yer Oddur"(1). Hətta, ola bilsin ki, öz küfrünə görə sevinənlər var. İslamı inkar etməkdən razı qalanlar üçün bu haqdan uzaqlaşma xüsusi bir cəzadır. Elə bir cəzadır ki, o şəxs öz küfrü ilə rahatlıq tapar. Allahla qarşılaşma gününə kimi bu halda olar, öz küfrünə razı olar, həqiqətdə isə böyük bir ziyana düşmüş olar .

**İkincisi:** Xoşbəxtlik hissi bəzən aldadıcı olur; bütün hallarda bu yalançı xoşbəxtliyi misal çəkib müqayisə etmək doğru deyil. Ola bilsin ki, bir insana illər boyu

zəhərli və ya uyuşdurucu bir maddə qəbul etsin və o bu halı ilə xoşbəxt olsun. Deməli, ibrət başlanğıclarda deyil, nəticələrə görə olur (2). Üstəlik də Avropa ölkələrinin xoşbəxtliyi haqqında olan aldadıcı statistikalar, ən yüksək maaş, ən yaxşı iş fürsəti, ən yaxşı maddi fürsətlər və s. ilə əlaqədardır ki, bu xoşbəxtlik maddi xoşbəxtlikdir və lakin qərbin gizlətdiyi mənəvi xoşbəxtlik pərdənin arxa tərəfidir. Əslində statistikalarda qeyd olunan maddi xoşbəxtlik dövlətlərin iqtisadiyyatına bağlıdır. Dövlət güclü olarsa, onun iqtisadiyyatı da güclü olar. Bu amil şərqdəki və qərbdəki ölkələrdə nisbət fərqi ilə zatən mövcuddur. Maraqlısı budur ki, statistikalarda ən xoşbəxt ölkələr başlığı ilə paylaşılan dövlətlər eyni zamanda ən çox depressiyaya qarşı dərman axtaran ölkələr siyasınına rəhbərlik edirlər. Avropa İttifaqının ölkələri psixoloji problemlər üçün 600 milyard yevro pul xərcləyirlər. Bu ölkələrdə stre, depressiya, psixoloji problemlər yüksələn şkala üzrə inkişaf edir. Ən xoşbəxt ölkələr siyahısında önlərdə göstərilən İsveçin "Aftonbladet" qəzetində 2022-ci ilə olan statistikaya görə İsveç haqqında son on ilin statistikasına görə 18-24 yaş arasında olan gənclər arasında olan psixoloji problemlər qorxunc səviyyəyə yüksələrək 70% artmışdır (3) deyə xəbər verilir .

**Üçüncüsü:** Sonra bir gün öləcəyini bilən bir insan necə xoşbəxt ola bilər? Yaxın zamanlarda və ya illər sonra ölüb yox olacağını düşünən biri necə xoşbəxt ola

bilər axı? (4) Öldükdən sonra şansı olmayan, yenidən dirilmək imkanı olmayan (ateist fikrinə görə), birdəfəlik həyata əlvida deyəcək kimsə axı necə xoşbəxt ola bilər? İli ildən əzalarının qocaldığını, gəncliyinin getdiyini görən ateist necə xoşbəxt ola bilər ؟

**Dördüncüsü:** Bütün ləzzətləri əldə etmiş onlarla milyonçular, milyarderlər olub ki, sonda intihar ediblər. Onlar həyatda pul ilə xoşbəxtlik əldə edə bilməyiblər, "maddəçilik" onlara xoşbəxtlik gətirməyib. Ən gözəl qadınlar, ən gözəl geyimlər, ən gözəl fürsətlər onların əlində olub. Lakin əllərindən dünyalıq bəzi şeylər çıxan kimi intihara əl atmış və ya həyatın sonu olduğunu düşünmüşlər. Maddiyyat aləmi pul ilə belə böyük görünən, əslində isə mənəvi cəhətdən kiçik insanları yetişdirir .

Qərb ölkələrində evində yüksək dozada narkotik qəbulundan meyiti tapılmış, yaxud müxtəlif yollarla intihar etmiş onlarla dinsiz insanların xəbərləri sosial şəbəkələri doldurmaqdadır. Bu nə cür dinsizlik xoşbəxtliyidir ki, insanı hər ləzzətə əli çatdığı halda məhv edir, həyatı bir heç edir? Bu məqamda ərəb dünyasındakı ateistlərdən birinin "insanlara necə xoşbəxt olmaq gərəkdiyi" haqqında video danışığı və o videodan iki ay sonra intihar etməsi yadıma düşür (5). Bu hadisələr uca

Allahın bu ayəsini bizə xatırladır: "Kim Mənim Zikrimdən üz döndərsə, onun güzəranı sıxıntılı olacaq və Biz Qiyamət günü onu kor kimi hüzurumuza gətirəcəyik.(6) ”.

Həqiqi xoşbəxtlik isə Allaha iman və saleh əməldədir. Uca Allahın buyurduğu kimi: "Mömin olaraq yaxşı iş görən kişi və qadınlara, əlbəttə, gözəl həyat bəxş edəcək və etdikləri ən yaxşı əməllərə görə onları mütləq mükafatlandıracağıq.(7) "

Həmçinin, buyurmuşdur: "Onları burax, qoy vəd olunduqları günə qovuşanadək boş-boş danışsınlar və bir müddət əylənsinlər .(8) ."

Ateistlərlə müsəlmanlar arasındakı intihar fərqinin statistikası haqqında kiçik bir araşdırma həqiqi xoşbəxt kəslərin, hüzur içində olanların kimlər olduğunu bizə xəbər verir. Müsəlman intihar etmir ki, can ona əmanətdir, ateistdə bu "əmanət" dəyəri yoxdur deyə çox bəsit şəkildə problemlərdən qurtulmaq üçün intihar etməyə üz tutur. "Britaniyanın məşhur qəzetlərindən birində (Daily Mail) statistika paylaşılıb ki, müsəlmanlar həyatlarından ən razı olan insanlardırlar" (9). Bəli, reallıq budur .

## Qeydlər və istinadlar:

1 - Yunus surəsi. 7-8.

2 - əl-Ovdətu iləl-İmən. Heysəm Talat. səh. 103.

3 - Dünyada ən xoşbəxt ölkələr. Abdullah Suveydiأكثر الدول سعادة في العالم. للأخ عبد الله السويدي .

https://youtu.be/IeEPO4PxUCg (video ərəbcədir. Bax: 2:50).

4 - əl-Ovdətu iləl-İmən. Heysəm Talat. səh. 103.

5 – Ateist insanlara necə xoşbəxt olmağı öyrədir, ملحد يعلم الناس كيف يكونوا سعداء https://www.facebook.com/The.Muslim.res/photos/a.467088576786335/2139040592924450/?type=3-

6 - Taha surəsi. 124 - cü ayə.

7 - Nəhl surəsi. 97 - ciayə.

8 - Zuxruf surəsi. 83-cü ayə.

9 - Dünyada ən xoşbəxt ölkələr. Abdullah Suveydiأكثر الدول سعادة في العالم. للأخ عبد الله السويدي .

https://youtu.be/IeEPO4PxUCg (bax: 3:40; video ərəbcədir).

# İmanımız cənnət istəyi və cəhənnəmdən qorxmaqdan irəli gəlir?!

*Ateist deyir: "Siz sadəcə cəhənnəmdən qorxaraq və əbədi səadəti, huriləri və cənnəti arzu edərək iman gətirirsiniz."*

Bu suala dr. Heysəm Talatın verdiyi cavabı oxucularla bölüşürəm :

**Birincisi:** Biz də də bunun kimi iddia edə bilərik ki, kafir küfr edir ki, hətta özünü günahkar hiss etməsin və şəriətin öhdəliklərindən boyun qaçıra bilsin. Beləcə, qeydsiz şərtsiz öz şəhvətlərinə dalsın, bu yolla küfrün ləzzətini dadmış olur, lakin bu zəif məntiqdir və bunda zənn ilə hökm vermək var, onun inandığı ilə deyil.

**İkincisi:** İmanın özündə - cənnət, əbədi səadət, ölümdən sonra dirilmə kimi - yaxşı şeyləri ehtiva etməsi o demək deyil ki, bu şeylər doğru deyil, o demək deyil ki, ölüm dirilməsiz olacaq, nə də o demək deyil ki, bəşər övladının ölüb fani olması doğrudur. Deməli, məsələ bu cür meyarla müqayisə edilə bilməz.

**Üçüncüsü:** Cənnətə və əbədi səadətə imanımız bizə dinin verdiyi mesaja inancımızdan qaynaqlanan imandır; yəni bu iman müstəqil, ayrıca bir iman deyil, nə də imanımız üçün bəhanə deyil, yoxsa kiminsə bizə bir cənnət yerinə iki cənnət verəcəyini vəd etməsilə biz öz imanımızdan dönməliyikmi ؟

Deməli, axirət məsələsi bütün nişanələri ilə birgə eyni şeydir (yuxarıda gətirdiyimiz misal kimidir), yəni bu məsələ bizim əqidəmizə bağlı bir məsələdir və müstəqil (ayrıca) bir iman deyil. Əgər din bu imanın həqiqiliyini təmin etməsəydi və bu imanı varlığımızın dəlilə ehtiyac duymadan belə doğru olduğunu bildirməsəydi (baxmayaraq ki, bu imanın həqiqiliyinin dəlillərini də bizə göstərir), insan ağlının bu imanın təfsilatlarına varmasında, nə də mövcudluğunu qəbul etməsində müstəqil olmadığını anlaya bilməzdik .

**Dördüncüsü:** Axirət səadətinin mövcud olmasına əqli cəhətdən maneəçilik törədən nədir ki? Əksinə, məgər bu dünyada iffətli olub - Allahın razılığını istəyərək - axirət səadətini arzulamaq əqli və məntiqi cəhətdən daha doğru olan seçim deyilmi؟

Cənnətdə evlənməyə mane olacaq hansısa fikri və ya fəlsəfi və ya maddi və ya dini bir şey varmı? Cənnətdə hər kişiyə iki zövcə var, yalnız şəhid olan kimsə 72 huri ilə evləndiriləcək, şəhidin ilk tökülən damcı qanı ilə onun günahları bağışlanır, biz Allah yolunda həqiqi şəhadətdən yeri gəldikdə danışırıq. Bütün dünyadakı bəşəri qanunlar da ittifaq etmişdir ki, dünyanın istənilən dövlətində bir insanın nail ola biləcəyi maddi və mənəvi ən yüksək şərəf məqamı döyüş meydanında həlak olmuş kimsə üçündür. Dünyəvi qanunlara görə hətta bir insan vətəni uğrunda öldürülərsə, onun zürriyyəti ondan sonra ən yüksək hörmətə layiq görülür. Görün indi uca və nöqsansız Allah, böyük fəzilət və lütf sahibi olan Rəbbimiz bu mükafatı versə necə olar!؟

**Beşincisi:** Bu dünyada möminin, kafirin və ateistin mövcud olması seçim azadlığına və iradə sərbəstliyinə ən böyük dəlildir. Həmçinin axirət səadətinin mövcud olmasına iman gətirmək (dinə) iman gətirməyimizə təhrik edən müstəqil (ayrıca) bir səbəb deyil.

۞ (Mənbə: əl-Ovdətu iləl-İmən. Heysəm Talat. səh. 127-128).

## "Allah, boq, tanrı, xuda, yeqova" məfhumları haqda

***Ateist deyir:*** *"Allah fikrini ərəblər ortaya çıxarıb, çünki ərəblər olmayanda Allah da yox idi, ərəb yarandı, Allah yarandı. (bunu izah etməyə çalışaraq) deyirlər ki, yunanlar yox idi, "zevs" də yox idi, yunanlar yarandı, "zevs" də yarandı. Hindular yox idi, "vişnu" yox idi, hindular yarandı, "vişnu" da, yarandı. Deməli, tanrını da insanlar özləri yaradıblar."*

**Şübhənin cavabı:**

**Birincisi:** Bütün bu sözlər kainatın yeganə yaradıcısı olan tək yaradıcı qüvvəni vəsf etmək üçün istifadə olunan sözlərdir. Rus öz dilində "boq" deyəndə hər şeydən uca tək yaradanı nəzərdə tutur. İngilis "god" (qad) deyəndə hər şeydən uca tək yaradanı nəzərdə tutur. Ərəb "Allah" deyəndə hər şeydan uca nöqsansız kainatın tək yaradanı olan varlığı nəzərdə tutur. Türklər də "tanrı" deyərkən hər şeyin yaradanı olan nöqsansız tək olan varlığı nəzərdə tutur. Fars dilində də "xuda" sözü Allah, tanrı mənasını ifadə edir. Yəhudilər bu əzəmətli yaradıcıya "yeqova"

deyirlər. Bütün dillərdə də tək tanrı, ən üstün tanrı və ya bildiyimiz Allah inancı var, sadəcə sözlər, ifadələr fərqlidir. Ən qəribə olanı isə bu dil fərqliliyini belə hər vəchlə ateistlərin şübhə kimi istifadə etmələridir .

**İkincisi:** Dil fərqliliyi ilə ortaya çıxan fərqli tanrı izahlarının hamısı dinşünaslıq elmində ifadə olunan "monoteizm" və "politeizm" məsələsinə qaytarılaraq həll edilməlidir. Yəni, çoxtanrılı dinlər və təktanrılı dinlər məsələsinə qayıtmaq gərəkir. Başqa bir ifadə ilə desək "bütpərəst dinlər" və "təktanrılı dinlər" izahı bizi mövzunu daha bəsit şəkildə anlamağa yaxınlaşdıracaq. Bu bölgü ilə məsələyə yanaşanda yunan mifologiyasına görə "zevs"in mənasını verənlərə, elə zevsi anlamaqda yanlışlarını izah etməklə fikrimizi çox sadə şəkildə əsaslandıra bilərik. Çünki "zevs" bütpərəst yunanların və ya çoxtanrılı dinə inanan yunanların ən üstün tanrısı hesab edilirdi. Ona" tanrıların və insanların atası" kimi ifadə ilə də izahlar verirdilər. Qısa mənada desək, yunanlar zevsin ən üstün tanrı olduğunu ifadə etmək istəyiblər. Baxmayaraq ki, yunanlar bütpərəstlik və ya çoxtanrılı din anlayışına üstünlük veriblər, bu inanc yenə onları ən üstün, ən qüdrətli tanrı fikrindən yayındıra bilməyib. Həmin tanrı onlar üçün "zevs" olub, deməli, çoxtanrılı inancın onları ən üstün tanrı inancından yayındıra bilməməsi ateistlərin öz əleyhinə bir arqumentdir, zevs misalı təktanrılı dinin əleyhinə dəlil deyil və ya arqument belə ola bilməz. Bu, sadəcə yanlış

müqayisənin nəticəsi ola bilər. "Vişnu" misalı da bunun kimidir.

"Vişnu" hinduların "qoruyucu tanrı" kimi vəsf etdikləri bir məfhum, bəzən də "kainatı yaradan enerji" kimi vəsf etdikləri məfhum olsa da, onun özünə belə iki başqa tanrını ortaq qoşublar. Xülasə, bütpərəstlik inancları həqiqi və tək bir yaradan inancını hərtərəfli şəkildə təhrif edir

.

**Üçüncüsü:** "Allah yox idi, ərəb yarananda Allah da yarandı" deyənlərə deyirik ki, məxluqat yox idi, Allah varıydı. Allah məxluqatı yaratdı və istədi ki, qüdrətinin şahidləri olsun. Allah məxluqatı yaratdı, onlar olmayanda Allah var olduğu kimi, onları yaratdıqdan sonra da mövcuddur. Çünki, o əzəli və əbədi olandır. Muhəmməd (Allahın Ona salavatı və salamı olsun) peyğəmbərin də buyurduğu kimi : "أنتَ الأوَّلُ فليسَ قبلَكَ شيءٌ وأنتَ الآخرُ فليسَ بعدَكَ شيءٌ "Sən ilk olansan, səndən öncə heç nə yoxdur. Sən son olansan, səndən sonra heç nə yoxdur"(1).

Allah məxluqları öldükdən sonra diriləcək, Allah onlar ölü ikən də diridir, mövcuddur, onlar ölüb dirildikdən sonra da mövcud olacaq, onları yaratmamışdan qabaq mövcud olduğu kimi, çünki o əzəli və əbədidir. O, bütün nöqsanlardan uzaqdır, ona qoşulan şəriklərdən və inkarçıların küfründən uzaqdır. Onu inkar

edən ona zərər verməz, əksinə, özünə zərər verər. O möhtac deyil, amma onu inkar edən ona möhtacdır .

**Dördüncüsü:** Bütpərəst dinlərində belə "ən üstün tanrı" inancının olması müsəlmanların xeyrinə olan bir məsələdir; bu tövhid, yəni, "təkranrılı" din anlayışı, yaxud bütpərəst dinlərdəki "çoxtanrılı" din anlayışını Qurani-Kərim çox gözəl və sadə şəkildə izah edir. Həmçinin, bu gözəl izahlardan birinə gəlin toxunaq; Qurana görə əgər başqa, çoxlu tanrılar olsaydı (yəni belə bir şey fərz olunsa) əsasən üçün şey baş verər:

**1** – Bu tanrılar arasında hakimiyyət uğrunda, üstünlük uğrunda mübarizə olardı .

**2** – Yer və göy fəsada uğrayardı .

**3** – Onlar Ərş sahibinin yanına çatmağa yol axtarardılar(2) .

**Birinciyə dəlil:** Uca Allah buyurur: "Allah Özünə heç bir övlad götürməmişdir. Onunla yanaşı ibadətə layiq olan heç bir məbud yoxdur. Əks təqdirdə hər bir məbud öz yaratdıqlarını özü idarə etmək istəyər və onların bir qismi digərinə üstün gəlməyə can atardı. Allah onların Ona aid etdikləri sifətlərdən uzaqdır. O, qeybi və aşkarı biləndir. Allah müşriklərin Ona qoşduqları şəriklərdən çox ucadır". (Muminun. 91-92).

**İkinciyə dəlil** bu ayədir: "Əgər göydə və yerdə Allahdan başqa məbudlar olsaydı, onların hər ikisi fəsada uğrayardı. Ərşin sahibi olan Allah pakdır və müşriklərin Ona aid etdikləri sifətlərdən uzaqdır!" (Ənbiya. 22).

**Üçüncüyə dəlil** isə bu ayədir: "De: “Əgər müşriklərin söylədikləri kimi Allahla yanaşı başqa məbudlar olsaydı, onlar Ərş Sahibinin yanına çatmaq üçün yol axtarardılar. Allah müşriklərin söylədiklərindən çox uzaq və çox ucadır". (İsra. 42-43).

Qurani-Kərimdə müxtəlif adlı tanrıların mahiyyəti sadə və gözəl şəkildə izah edilmişdir. Gəlin, həmin ayəni oxuyaq: "Ondan başqa ibadət etdikləriniz sizin və atalarınızın qoyduğu adlardan başqa bir şey deyildir. Allah onlara dair heç bir dəlil nazil etməmişdir. Hökm yalnız Allahındır. O sizə yalnız Ona ibadət etmənizi əmr etmişdir. Doğru din budur, lakin insanların çoxu bunu bilmir". (Yusuf. 40). Deməli, bu bütpərəstlik dinlərindəki tək yaradana şərik olaraq tanrı vəsfi verilən müxtəlif adları insanlar özləri icad ediblər. Lakin, yeganə, tək bir ilah vardır ki, o hər şeyin sahibidir, yaradanıdır və yalnız ona ibadət edilməlidir. Bu minvalla da deyirik ki, hər bir xalqın "öz dilində, özünə aid kəlamla, sözlə, ifadə ilə" belə bir şəriksiz yaradanı çağırması doğrudur və burada yanlış bir şey yoxdur, başqa dillərdə hər şeydən üstün tək ilah mənasında olan xitab doğrudur, səhv olan isə ona tay tutulan şəriklərin qoşulmasıdır. Bu, bəsit və mühüm məsələni düz anlamaq lazımdır, qarışdırmaq olmaz. Necə

ki, "dünya" sözünü biz dünyadakı 170 xalqın dilində deyə bilsək də dünyamız bircə dənədir, hər dildə bir dəfə "dünya" desək, təbii ki, 170 fərqli dünya yaranmayacaq. "Allah, boq, xuda, yeqova, qod (gad)" sözləri də eyni mənanı ifadə edib tək və şəriki olmayan, kainatın yaradıcısı olan qüdrətli Allahı, xülasə, eyni məfhumu ifadə edir .

Bütün peyğəmbərlər də tək bir ilaha ibadət etməyi əmr etmiş və tarix boyu çoxtanrılı dinə tapınan insanlara yanlış üzərində olduqlarını izah etməyə çağırmışlar və hayatlarını buna həsr etmişlər. Bu bildi-bilmədi danışan ateistlərə tövsiyəmiz budur ki, əvvəlcə dinşünaslıq elmində öyrənilən səmavi dinlərlə qeyri səmavi dinlərin fərqini öyrənsinlər. Sonra səmavi dinlərdən nə üçün İslamın son din olmasını məsələsi haqda obyektiv araşdırmalar edib məsələyə bu cür yanaşsınlar. Ən mühümü isə İslamdakı və başqa dinlərdəki eyni mənaya dəlalət edən ən üstün tanrı anlayışını bir savadlı din xadimi ilə müzakirə etsinlər, suallarını onlara ünvanlasınlar. Belə etmək daha faydalı olardı.

## Qeydlər və istinadlar:

1 – Sünən İbn Macə. Hədis no: 3104.

2 – Bu nəticə bir çox tövhid haqqında danışmış alimlərin mövzu üzrə Quran ayətlərini topladıqdan sonra gəldikləri haqlı qənaətdir.

## İslam dininin dinozavrlar haqqında görüşü nədir؟

**Sual:** Nə üçün Quranda və ya hədislərdə dinozavrlar haqqında məlumat verilməyib? Belə böyük canlılar dünya tarixində olub keçibsə, niyə bu haqda bir ayət, hədisdə danışılmayıb ؟

<u>Bu suala cavabı bir neçə aspektdən izah edəcəyik:</u>

**Birincisi:** İslam dini dinozavrların keçmişdə var ola biləcəyini inkar etmir؛

**İkincisi:** İslami mənbələrdə dinozavrlara hər hansı bir işarələr varmı ؟

**Üçüncüsü:** İslam alimləri insanın yaranmasından öncə var olmuş vəhşi varlıqlar barədə nə deyiblər ؟

**Dördüncüsü:** İslami mənbələrdə nəhəng insanlar haqqında da məlumat verilmişdir؛

**Beşincisi:** Dini mənbələrdə insanın yaranmasından öncə yaşamış vəhşi canlılardan adı məlum olanı varmı؟

İndi isə gəlin bu mövzulara bəzi təfsilatları ilə yanaşmağa çalışaq:

**Birincisi:** İslam dini dinozavrların keçmişdə var ola biləcəyini inkar etmir; Onların varlığını xüsusi qeyd edən ayət və hədislərin var olub-olmaması da nəyisə həll etmir. Əgər mövzu geoloji mövzudursa, bununla geoloqlar məşğul olmalıdır. Əgər mövzu zoooloji mövzudursa, bununla zooloqlar məşğul olmalıdır. Quran kitabı isə ilahi qanunlar toplusu olan kitabıdır. Quranda əmrlər və qadağalar, dini həyat, dünyəvi həyata aid mühüm məsələlərə toxunulub. Dünya və axirət səadətinə aid hər mühüm məqama toxunulub. Quran kitabının ruhu da elə budur. Amma əsrlər öncə olan hər şey haqqında məlumat verilməsini Quranda axtarmaq elə Quranın ifadəsi ilə yanlışdır. Hətta, Quranın ruhuna, tərzinə uyğun olan bəzi məlumatlar belə Quranda verilməyib. Məsələn, bəzi peyğəmbərlər haqqında bilgilərin verilmədiyini uca Allah bu ayətində xəbər verir: "Biz səndən əvvəl də elçilər göndərmişdik. Onlardan bəziləri haqqında sənə danışmışıq, bəziləri haqqında isə danışmamışıq. Heç bir elçi Allahın izni olmadan bir ayə gətirə bilməzdi"(1). Məlum olduğu kimi, Quranda yalnız 25 peyğəmbərin adı verilib, baxmayaraq ki, yüzlərlə peyğəmbərlər mövcud olub. Görəsən, dinlə mühüm bağlantısı olan bəzi mühüm məlumatlar insanlara çoxluq, qarışıqlıq və ya çətinlik

yaradacaq deyə verilmirsə, yaxud Quran kitabının səhifələrini yüzlərlə dəfə artırıb onu çətin tamamlanan bir kitab halına salacağından dolayı, yaxud bilmədiyimiz başqa bir hikmətdən dolayı bu məlumatların verilməsi tərk edilirsə, Quranı bəzən fizika, bəzən kimya, bəzən coğrafiya, bəzən zoologiya, bəzən də geologiya, bəzən də astronomiya kitabı ilə səhv salanlara bundan artıq nə izah verə bilərik؟

**İkincisi:** İslami mənbələrdə dinozavrlara hər hansı bir işarələr varmı ؟

İslam dininə görə elm insanların yer üzündə varlığından öncə hansısa məxluqun olduğunu iddia edirsə, din bunu nə inkar etmir, nə də mütləq təsdiqləmir. İşi ixtisas əhlinə həvalə edir. Dinimiz bu sahədə çalışan, araşdırmalar aparan mütəxəssislərin araşdırmalarına da qarşı deyil .

Əgər elmi təqsimat baxımından dinozavrları mütəxəssislərin vəsf etdiyi kimi vəhşi canlılar kateqoriyasına ayırsaq, Quranda yer üzündə fəsad törədən, vəhşi məxluqlara iki qism olaraq işarə edilib :

**1 -** Biri insanın yer üzündə var olmasından sonra fəsad törədən, qan tökən məxluqlar; Bu haqda dəqiq məlumatlar verilib, bəzilərinin adları çəkilib .

**2 -** Digəri isə insanın yaranmasından əvvəl yer üzündə fəsad törədən məxluqlardır ki, bu haqda sadəcə işarə edilib .

**a)** Birinciyə gəldikdə, Quranda Yəcuc-Məcuc (2) və onların fəsadının qarşısını alan Zülqərneyn haqqında məlumat verilib. Həmçinin, çoxsaylı mötəbər hədislərdə dəccalın (3) gələcəyi haqqında, yer üzündə böyük fitnə-fəsad törədəcəyi haqqında məlumat verilib. Bu məxluqlar və ya ümmətlər uca Allahın bizə keçmiş və gələcəkdən xəbər vermək istədiyi mühüm xəbərlərdən bəziləridir .

**b)** İkincisi isə, insanın yaranmasından əvvəl yer üzündə fəsad törədən məxluqlardır; bu məxluqlardan bəzisinə əl-Bəqərə surəsi 30-cu ayətdə işarət edilmişdir. Bu haqda təfsir alimlərinin də görüşləri var. Bəzi təfsirlərdə bu məxluqların cinlər olduğu, bəzilərində Adəm cinsindən olan məxluq olduğu bildirilir, bəzi təfsirçilər isə cin və ya insan adını çəkmədən hansısa vəhşi bir məxluqa işarə ediblər. Qarşıda bu haqda bəzi təfsirlərdən misallar veriləcəkdir. Baxmayaraq ki, əksər təfsirçilər doğru görüşün daha çox insan cinsindən olan məxluqdan, sonra isə cinlərdən olan məxluqdan söhbət getdiyinə işarət ediblər. Bizim həmin adı çəkilməyən vəhşi məxluqlar haqqında edəcəyimiz nəqllər sadəcə fayda baxımındandır, tərcih (görüşlərdən hansınısa üstün çıxarmaq) üçün deyil .

Quranda müxtəlif canlılar haqqında belə bir ayət var: "Yer üzündə gəzən heyvanların və göydə uçan ikiqanadlı quşların hamısı sizin kimi ümmətlərdir"(4). Bu ümumi xitabın içinə - mövcud olduqları təqdirdə - dinozavrlar da daxil olurlar, əgər bu haqda elmi, mötəbər bilgilər varsa, bu bilgilər onlara da şamil edilir. Çünki, "dinozavr" sözü bəşər övladı tərəfindən bu canlılara verilmiş xüsusi addır ki, bu canlıların - mövcud olduğu təqdirdə - həqiqi adını yalnız onları yaradan bilir. Bu cür varlıqlar doğurdan da olubsa, sonradan həlak olublarsa, yer üzündə fəsad törətməklərinə görə həlak olan digər məxluqlardan fərqləri olmur və bu ayətin ümumuna daxil olur: "Biz onlardan əvvəl özlərindən daha qüvvətli neçə-neçə nəsli məhv etdik. Onlar diyarbədiyar gəzib dolaşırdılar. Məgər əzabdan qaçıb qurtara bildilərmi?! Həqiqətən, bunda dərk edən qəlbi olan, hazır durub diqqətlə qulaq asan kimsə üçün xatırlatma var" (5). Bu gün arxeoloji qazıntılar nəticəsində çox qüvvətli olan bu canlılar haqqında tapıntılar tapıldığı iddia edilir və onlar haqqında filmlər belə çəkilir, bir çox İslam alimləri onların varlığını nə inkar etmir, nə təsdiqləmir, nə də onların digər nəsli kəsilmiş canlılar kimi nə vaxtsa mövcud ola biləcəklərini də istisna etmirlər .

**Üçüncüsü:** *İslam alimləri insanın yaranmasından öncə var olmuş vəhşi varlıqlar barədə nə deyiblər ؟*

Bir qism İslam alimləri vurğulamışlar ki, bu ayədə (əl-Bəqərə. 30) qeyd olunan yer üzündə "fəsad törədib qan tökəcək" varlıqlar keçmişdə yaşamış müxtəlif vəhşi məxluqlar ola bilər. Odur ki, dinozavrlar da bu məxluqlardan hesab edilə bilər. Buna bir məntiqi maneə də yoxdur. Bəzi elm əhli tərəfindən həmin vəhşi məxluqlara işarət kimi təfsir edilən ayət belədir: "Bir zaman Rəbbin mələklərə: “Mən yer üzündə bir xəlifə bərqərar edəcəyəm!”– dedikdə, onlar: “Biz Səni həmd-səna ilə təriflədiyimiz və Səni müqəddəs tutduğumuz halda, Sən orada, fəsad törədib qan tökəcək kəsmi bərqərar edəcəksən?”– demişdilər. O, buyurdu: “Şübhəsiz ki, Mən sizin bilmədiklərinizi bilirəm!” (6) Bu görüşdə olan alimlər bildirirlər ki, mələklər o vəhşi məxluqları və onların yer üzündə törətdikləri fəsadı bildikləri üçün Allaha belə bir sual verərək: "Sən orada, fəsad törədib qan tökəcək kəsmi bərqərar edəcəksən?”– demişdilər ."

İbn Kəsir bu ayətin mənası haqda bəzi görüşləri sadalayarkən qeyd edir: "Və yaxud da (mələklər) bu (yer üzündə fəsad törədib qan tökəcək) varlıqları öncədən ötüb keçmiş (yaşamış) olanlarla (məxluqlarla) müqayisə edərək (Allaha) belə demişlər (7). İbn Kəsirin bu qeydi izah etdiyimiz rəyin də digər rəylər arasında olduğunu göstərir .

İbn Kəsir israiliyyatdan da qüvvətli görmədiyi nəqllərdən birini (İbn Əbi Hatimdən) gətirir, hətta bu

rəvayətin daha qəribə olduğunu bildirir, həmin rəvayətin sonu isə belədir: "Bu məxluqlar on min qədər olardılar. Allah tərəfindən bir od göndərildi və onları yandırdı" (8) Ərəb dilində dinozavrların vulkan püskürmələri nəticəsində və yaxud da göydən enən alovlu daşlar tərəfindən məhv edilməsi səbəbilə məhv olmaları haqqında çəkilmiş YouTube videoları böyük ehtimalla bu və bu tipli rəvayətlərə əsaslanır. Maraqlısı budur ki, əsrlər öncə verilmiş bu izahlar müasir elmdə dinozavrların məhv olmasının başlıca səbəbi kimi irəli sürülən fərziyə ilə üst-üstə düşür ki, bu da yerin müəyyən bir kəsiminə düşən asteroidlərdir. (9)

İbnul-Cövzi (Allah ona rəhmət etsin) əl-Bəqərə surəsi 30-cu ayənin təfsirində yer üzündə fəsad törədib qan tökəcək kəslər ibarəsindən iki mənanın qəsd edildiyini bildirir. Təbii ki, birinci mənada (qısa olaraq) insanın fəsad törədib yer üzündə qan tökməsi (qətl törətməsi) qəsd olunur, sadəcə mələklər Allahın xəbər verməsilə bunu belə anlayırlar. İkinci məna haqqında isə İbnul-Cövzi belə deyir:

"İkincisi: Onlar (mələklər) Adəmdən öncə yaşamış varlıqların halı ilə müqayisə edərək (Allaha) belə demişdilər. Bu görüş ibn Abbasdan, Əbul-Aliyədən və Muqatildən rəvayət edilmişdir" (9). Yəni, mələklər yer

üzündə insandan öncə yaşamış varlıqların fəsad törədib qan tökməsinin şahidi olduqları üçün, insandan əvvəl yaşamış varlıqların fəsadını yeni yaranacaq insanla müqayisə etmiş, insanların da bu məxluqların törətdiyi fəsadları törədəcəyini düşünmüşdülər .

Elm əhlindən ibn Useymin (Allah ona rəhmət etsin) bu ayət haqqında deyir: "Sən orada, fəsad törədib qan tökəcək kəsmi bərqərar edəcəksən?”, yəni sonradan gələnlər üçün bu məxluqlar öncə gələnlərdir və bu məxluqlar bundan öncə yer üzündə mövcud olmuş, orada qan tökmüş və fəsad törətmişdilər. Buna görə də mələklər öz Rəbbindən soruşurlar: "Sən orada, fəsad törədib qan tökəcək kəsmi bərqərar edəcəksən?” necə ki, bunlardan öncə bu əməllər törədilmişdi (10). Şeyxin bu izahı insandan öncə yer üzündə yaşamış vəhşi məxluqları təsdiqləməsi anlamına gəlir .

Bu haqda alimlərin sözlərini, nəqlləri gətirib məsələni uzatmaq da istəmirəm. Sadəcə bəzi nəqlləri bu araşdırmada varid etmək çox mühüm idi. Bu görüşlərdən hansınınsa seçmək qəsdimiz yoxdur .

Ola bilsin ki, dinozavrlar da ayədə qeyd olunan (vəhşi) varlıqların ümumuna daxil olsunlar. Necə ki, bəzi alimlər bu görüşdə olublar .

**Dördüncüsü:** *İslami mənbələrdə nəhəng insanlar haqqında da məlumat verilmişdir؛*

Bu böyüklükdə məxluqların mövcud olması qəribə deyil. Keçmişdə insanların da nəhəng olmaları, daha iri cüssəli olmaları haqqında rəvayətlər var. Mötəbər hədislərdə də Adəmin (əleyhissalam) boyunun uzunluğunun 60 dirsək olması qeyd edilib, necə ki, Səhih əl-Buxari (11) və Səhihi Müslimdə (12) bu haqda hədis rəvayət edilib. Keçmişdə istər insanların, istər də digər böyük, nəhəng məxluqların olması haqqında dində işarələr verilmişdir .

Ən uca boylu insanlardan Quranda "Ad qövmü" haqqında danışılıb. Ad qövmü öz zamanlarının bədəncə ən qüvvətli olanı, boyca ən hündür olanı idilər. Hətta onlar o dərəcədə bu nəhəng, qüvvətli bədənləri ilə qürurlanmışdılar ki, belə demişdilər: "Bizdən daha qüvvətli kim ola bilər .(13) ”!؟

Başqa ayədə isə onlar barəsində uca Allah buyurur: "Sizi xilqətcə daha qüvvətli etdi (14) ".

Hətta, Qurtubi, Bəğavi və İbnul-Cövzi öz təsirlərində bəzi sələflərdən nəql ediblər ki, Ad qövmünün ən uzun boyluları 100 dirsək, ən qısa boyluları isə 60 dirsək idi .

**Beşincisi:** *Dini mənbələrdə insanın yaranmasından öncə yaşamış vəhşi canlılardan adı məlum olanı varmı ؟*

**Cavab:** İnsanın yaranmasından öncə mövcud olmuş və bəzi İslami mənbələrdə haqqında məlumat verilmiş nəhəng məxluqatlardan biri də "əl-Hinnu vəl-Binnu" məxluqlarıdır. Quran və hədislərdə bu məxluq haqqında bir məlumat verilməsə də, bəzi təfsir və tarix kitablarında bu məxluqatın mövcudluğu haqda bəzi səhabə və tabeinlərin sözlərinə əsaslanan məlumatlar verilmişdir.

İbn Kəsir "əl-Bidayə vən-Nihayə" əsərində belə demişdir: "Bir çox təfsir alimləri demişlər: cinlər Adəmdən (əleyhissalam) öncə yaranıblar. Cinlərdən öncə isə yer üzündə Hinn və Binn (qövmü) var idi. Allah cinləri onların üzərinə müsəllət edir, cinlər onları qətl edir və yer üzündən təmizləyirlər. Sonra (cinlər) özləri yer üzündə məskunlaşırlar" (15). Cinlərdən öncə yer üzündə məskunlaşmış bu qövmün də yer üzündə fəsad törətmələri də bu rəvayətlərdə qeyd edilmişdir .

Sibtu İbnul-Cövzi (yəni, İbnul-Cövzinin nəvəsi) "Mir'ətuz-Zaman fi təvarixil-Ə'yan" (16) kitabında bu haqda Mücahidin ibn Abbasdan gətirdiyi rəvayəti nəql edir, Tahir ibn Aşur isə "ət-Təhrir vət-Tənvir" (17) adlı təfsir kitabında "əl-Hinnu vəl-Binnu" məxluqları haqqında məlumat verir, bu haqda olan bəzi adların

mövcudluğunu təkzib edir və bəzi xalqların bu haqda inancları barədə qısa bilgi verir .

Deməli, bu təhlil və araşdırmalardan sonra ən azı deyə bilərik ki, insanlardan öncə yer üzündə fəsad törədən məxluqlar olub və İslami mənbələrdə bunu inkar edən bir bilgi yoxdur, əksinə, bu məxluqların olması haqqında işarətlər var. Bu məxluqların vəsfləri haqqında dəqiq məlumatlar olmasa da, İslama görə dinozavrların mövcud olması müşkül bir məsələ deyil və din bunu inkar etmir. Bu haqda olan rəvayətlər və görüşləri qüvvətli hesab etməsək belə, yenə dinozavrların tarixdə mövcud olmasını İslami aspektdən qadağan edən bir bilgi yoxdur. Günümüzdə balina kimi böyük və tonlarla çəkisi olan məxluqu suda yaşadan, ruziləndirən Allah, dinozavrlar kimi nəhəng canlıları da yaratmağa, sonra da məhv etməyə qadirdir. Bəzi izahlarda dinozavrların başqa məxluqların yaşamasına imkan vermədiyi, başqa məxluqları məhv etdiyi və yer üzündə həyatı yaşanmaz hala gətirib böyük fəsad törətdikləri üçün özlərinin belə bir aqibətə məruz qaldıqları bildirilir. Hər bir halda bu qədərilə kifayətlənirik. Daha düzünü Allah bilir !

## Qeydlər və istinadlar:

(1) Ğafir surəsi. 78.

(2) Yəcuc və məcuc: yer üzündə fəsad törədən canlılardan biri.

(3) Dəccal: Muhamməd peyğəmbərin çoxsaylı hədislərində xəbər verdiyi, ilahlıq iddiasında olacaq, böyük bir fitnə kimi vəsf etdiyi qəribə varlıq.

(4) Ənam surəsi. 38.

(5) Qaf surəsi. 36.

(6) əl-Bəqərə surəsi. 30.

(7) Bax: Təfsirul-Quranil-Azim. İbn Kəsir. Bəqərə. 30.

(8) Bax: Öncəki mənbəyə.

(9) BBC Azərbaycanca saytı. Məqalə: "Dinozavrlar niyə yox olub? Alimlər çoxillik mübahisəyə son qoymaq istəyirlər". Daxil olma tarixi: 2023.03.07. Məqalənin keçidi:

https://www.bbc.com/azeri/articles/cwvxg5gg5q9o

(10) Zədul-Məsir fi İlmit-Təfsir. İbnul-Cövzi. əl-Bəqərə. 30-cu ayənin təfsiri.

(11) Qurani-Kərimin təfsiri. İbn Useymin. əl-Bəqərə. 30.

(12) Səhih əl-Buxari. (3326) .

(13) Səhihi Müslim. (2841) .

(14) Fussilət surəsi. 15.

(15) Əraf surəsi. 69.

(16) əl-Bidayə vən-Nihayə. İbn Kəsir (55/1) .

(17) Mir'ətuz-Zaman fi tərixil-Əyan. İbnul-Cövzi. 1/1-22.
(18) ət-Təhrir vət-Tənvir. Tahir ibn Aşur. 1/228.

## Hicab haqqında bir şübhəyə cavab

**Şübhə belədir:** *"Bəziləri iddia edirlər ki, "Quranda baş örtüyü yox, sinə örtüyü keçir". Şübhə olaraq bir ayə gətirir, həmin ayədəki "örtük" sözünə əsaslanırlar: "Qoy onlar – görünənlər istisna olmaqla, zinətlərini naməhrəmə göstərməsinlər; örtüklərini yaxalarının üstünə salsınlar"(1). İddia edirlər ki, guya tərcümələrdə "baş örtüyü" sözü keçmir, deməli, burda "sinə örtüyü"ndən söhbət gedir.*

**Cavab belədir:**
**Birincisi:** Bu şübhə İslamı daxildən şübhələr vasitəsilə dağıtmaq istəyən zındıqların köhnə şübhələrindəndir. Bu elə şübhədir ki, özü-özünü ziddiyyətə salır (2), diqqətlə fikir verilərsə, görülər ki, bu şübhənin özü özünü dağıdır. Şübhənin ziddiyyətinə fikir versək, cavabı çox uzatmağa ehtiyac qalmır. Ona

görə də bu şübhəni "ən uğursuz şübhələrdən" adlandırmaq mümkündür. Ziddiyyətə gəldikdə isə, ayədə keçən "ximar" sözü cəm halda "bixumurihinnə" "örtük" mənasında işlənsə də, - "ximar" sözü ərəblərdə başı örtən bir geyim növüdür (3). Bu geyimin aşağı hissəsi sinənin (yaxanın) üzərinə düşür. Aydındır ki, baş örtülürsə, bu örtüyün aşağı hissəsi yaxanın üzərinə örtülməlidir və beləcə məna aydın olur. Zındıqların "burda hicabdan söhbət getmir" fikri alt-üst olur. Onlar ayədəki "baş örtüyü" olan hicab mənasını ifadə edən "ximar" sözünə yox, sinə (yaxa) sözünə diqqətləri cəlb etməklə özlərini pis duruma salmış olurlar.

**İkincisi:** Hətta, ayədə qəsd olunan "ximar" sözündən yox, "cuyubihinnə" sözünün "(baş) örtüyünü yaxanın üzərinə örtmək" mənasını bəhs etsək, bu zaman yenə ümumən bu sözün qadına nisbət edildiyi zaman, yaxanın kiçik bir örtüklə örtülməsi əmrinin olmadığını görəcəyik, yenə hardansa uzanan bir örtüyün bir hissəsinin olduğunu, bu örtüyün başı örtdükdən sonra son hissəsinin sinəni örtdüyünü anlayacağıq. Yəni bu ayəni heç bir İslam alimi "yaxanızı örtün, başınızı örtməyin" mənasında anlamayıblar. Əksinə, ayədən başı örtən geyimin bir hissəsinin yaxanın üzərinə salınması əmri var. Yəni bu baş örtüyü ilə əvvəlcə baş örtülür, sonra onun digər hissəsi sinəni (yaxa üzərini) örtür.

**Üçüncüsü**: ayəni bu cür izah etmək Quranın başqa hicab ayələrinə ziddir. Bu mövqeni müdafiə edənlərin sanki, Quranda hicab haqqında mənasını dəyişdirmək istədikləri ayətdən başqa ayət yox imiş kimi məsələyə yanaşmaları onların mövzuya elmsiz yanaşmalarının bir göstəricisidir. Məsələn; uca Allah Qurani-Kərimin başqa bir ayəsində belə buyurur: "Ey Peyğəmbər! Zövcələrinə, qızlarına və möminlərin qadınlarına de ki, naməhrəm yanında çarşabları ilə örtünsünlər. Bu onların tanınması və onlara əziyyət verilməməsi üçün daha münasibdir. Allah bağışlayandır, rəhmlidir". (Əhzab. 59). Ayət tam olduğu üçün onlar bu ayənin mənasını təhrif etməkdən aciz qalırlar. Çünki ayədə təkcə peyğəmbərin (صلى الله عليه وسلم) həyat yoldaşları və qızları deyil, açıq-aydın "möminlərin qadınları" da ifadə edilmişdir ki, bu da istər həmin dövrdəki möminlərin qadınlarını, istər də ondan sonrakı bütün dövrlərdə olan möminlərin qadınlarını ehtiva edir. Üstəlik də ayədə açıq-aydın çarşabla örtünmək ifadə edilmişdir ki, dini təhrif etmək istəyənlərin iddiasını batil edir və öncəki şübhə gətirdikləri ayədəki mənanın da eynilə bu ayədə olan məna olduğunu təsdiqləyir.

Həmçinin, bu ayət şübhə gətirilən ayətdəki "örtükdən" məqsədin qadınların tanındığı zaman

əziyyət verilməməsi məqsədi olduğunu ifadə edir. Çünki, təkcə sinənin (yaxanın) örtülməsi əmri olsaydı, bu zaman qadının başının açıq olması və qadının tanınması, cəzibəsi nəticəsində naməhrəmlərin əziyyətinə tuş gəlməsi qaçınılmaz olacaqdı. Deməli, Quranın iki ayəsi fərqli məna verə bilməz. Bu iddia əslində Quranı ziddiyyətdə ittiham etmək anlamına da yozula bilər. Ola bilməz ki, bir ayət başınızı örtün əmrini versin, digər ayət isə başınızı yox, ancaq sinənizi örtün mənasını versin.

Digər bir ayədə isə uca Allah buyurur: "Evlərinizdə qərar tutun! İlk cahiliyyə dövründə olduğu kimi açıq-saçıq gəzməyin". (Əhzab. 33). Bu ayət də həm peyğəmbərin ailə üzvləri olan xanımlara, həm də digər mömin xanımlara aiddir.

**Dördüncüsü:** Qeyd olunan ayəni bu cür yozmaq peyğəmbərin hicab haqqında hədislərini inkar etməklə peyğəmbəri yalanlamaq, sonra da on dörd əsrlik İslam tarixində başına hicab bağlamış milyonlarla müsəlman qadınları səhv əməl etməkdə ittiham etməkdir. Şəkk yoxdur ki, Allahın dini aydındır. Lakin, on dörd əsr sonra ortaya çıxmış olub bütün müsəlmanların aldadıldığını iddia edənlərin dini bəlli və aydın deyil. Çünki, onlar Allahın dinindən günəş kimi aydın olan məsələləri inkar edirlər.

## Qeydlər və istinadlar:

1 – Nur surəsinin 31-ci ayəsi.
2 – Bu şübhənin ixtiraçısı ateistlər deyillər. Bu şübhə keçmişdə bəzi şərqşünaslar, günümüzdə isə bəzi hədis inkarçıları və s. tərəfindən də istifadə edilir.
2 – Bax: "Misbahul-Lüğət". معنى الخمار.

# Ən gözəl biçimdə yaranan insan niyə sünnət edilir?

**Şübhə belədir:** Əgər Allah insanı ən gözəl biçimdə yaradıbsa, o zaman nə üçün o sünnət edilir? Onun sünnət olunmasına niyə ehtiyac yaransın ki ؟

**Cavab:** Bu şübhəyə bir neçə aspektdən cavab veriləcəkdir. Cavab aspektləri dini izahı, məntiqi izahı, təcrübi izahı və tibbi izahı əhatə edir .

**Birincisi: Dini izah:** Sünnətin (1) insanın ən gözəl biçimdə yaranması ilə bir əlaqəsi yoxdur. Qeyd olunan ayə insanla heyvanları fərqləndirmək üçündür .
Böyük təfsir alimi ibn Cərir ət-Təbəri (Allah ona rəhmət etsin) bu ayənin mənası barədə demişdir: Ayədə and içilən də elə budur. Allah insanı ən yaxşı surətdə və ən yaxşı quruluşda yaratmışdır. (digər canlılarla müqayisədə) qaməti dikəldilmiş, əzaları mötədil və daha yaxşıdır.(2) .

Həmçinin imam Bəğavi (Allah ona rəhmət etsin) də bu mənanı öz təfsirində təsdiqləmişdir. O belə demişdir: "Biz insanı ən gözəl biçimdə yaratdıq", yəni: Qaməti daha düzdür və ən yaxşı şəkildədir. Bu ona görədir ki, hər bir heyvan üzü üstə yeriyən olaraq yaradılmışdır, yalnız insan qaməti düz şəkildə yaradılmışdır, öz qidasını əli ilə qəbul edir, ağıl və (yaxşını pisdən) fərqləndirmək qabiliyyəti ilə bəzədilmişdir (3) ."

Buradan aydın olur ki, birinci ayənin dini izahını düzgün başa düşmək lazımdır .
Sünnət etmək bütün peyğəmbərlərin müştərək sünnələrindəndir və İslam dinində də buyrulmuş əməllərdəndir.
Sünnət haqqında Muhəmməd (Sallallahu aleyhi və səlləm) peyğəmbər hədisi-şərifdə belə buyurmuşdur:

"Beş şey fitrətdəndir: "Sünnət etmək, qasıq tüklərini təmizləmək, qoltuqaltı tükləri təmizləmək, dırnaqları tutmaq və bığları azaltmaq.(4) ."

**İkincisi: Məntiqi izah:** İnsan doğulduqdan sonra təbii fizioloji prosses olaraq dırnaqlar və saçlar və digər tüklər də kəsilir, insan doğulduğu gün isə göbəyi kəsilir. Niyə eyni sual bu hallar haqqında da verilmir? Az qala hər həftə tutulan dırnaqlar, hər ay qırxılan saçlar haqda bu sual verilmir, lakin bir kişinin ömründə bir dəfə etdirdiyi sünnət əməli bu qədər qabardılır. Təbii ki, bu da çox qəribədir.

**Başqa bir məntiqi izah da belədir:** İnsana zərər verə biləcək, zəruri olmayan artıqlar öz funksiyasını yerinə yetirdikdən sonra təmizlənməlidir. Məsələn, bir nəfər bazardan yeni bir telefon aldığı zaman o telefonu karopkasından çıxarır və üzərindəki artıq klyokları açmalı olur. Çünki, artıq olan şeylər telefonun satışdan öncə qorunması prossesində lazım idi, istifadə prossesində isə bu artıqlara ehtiyac yoxdur. Başqa bir misal verək; Dinsizlərin tez-tez, sevə-sevə danışdıqları mövzulardan olan kosmik raketlər belə havaya qalxmaq üçün hər mərhələdə öz materiallarından nəyisə bayıra atmaq və artıq yüklərdən azad olmaq zorunda qalır .

İnsan da ana bətnində sünnət olunmayan ətə, ana ilə cisminin bağlantısı olan göbək bağına, doğulduqdan sonra düşən hər hansısa bir cismə malik ola bilir. Bütün bunlar yaradılış qüsuru deyil, yaranmış varlığın xeyrinə olan hallardır .

**Üçüncüsü: Təcrübi izah:** insan bədənindən kəsilən hissələri kəsilmə məqsədlərinə görə bir neçə hissəyə bölmək olar:

**a)** Kəsilməsi zərurət olaraq qəbul edilənlər. Saç, dırnaq, ana ilə körpəni birləşdirən göbək bağı və s .

**b)** Kəsilməsi cinayət hesab edilən hallar: İnsanın istənilən orqanının (əl, ayaq, barmaq, qulaq, burun) qeyri qanuni, şəxsin icazəsi və şəriətlə təqsiri olmadan kəsilməsi. Quldurluq, qətl və ya bəzi təcavüz hallarındakı kimi .

**c)** Faydası olduğu zaman kəsilə bilən hissələr:
Çürümüş ayaq qanqrena olduğu zaman birbaşa həkim tərəfindən kəsilir və bu iş tam qanuni hesab edilir. İnsan orqanlarından bədən çürüməsi zamanı digər əzalarda da bu kimi hallar baş verə bilər və bədənin qorunması və daha yaxşı fəaliyyətdə olması üçün işə yaramayan hissə aradan götürülür. Yaxud tibdə orqan transplantasiyası kimi  hallar var ki, ölmüş insanlardan götürülən hansısa bir orqan sağ, yaşayan digər insanın

həyatının xilas edilməsi və ya sağlamlığının qismən bərpa edilməsi üçün istifadə olunur. Hansı ki, bunun da şəri aspektdən öz təfsilatları var. Misallar çəkmə məqamında bu təfsilatları vermək yeri deyildir. Necə ki, hər sözün öz yeri vardır .

**d)** Şəriətdə oğrunun əlinin kəsilməsi, təcavüzkara təcavüz etdiyi şəxs tərəfindən əfv edilmədiyi təqdirdə verilən gözə-göz, buruna-burun, dişə-diş və s. qisas hökmünün cəzası və ya təcavüzkar qatil quldurların bədənlərinin çarpazvari kəsilməsi; bütün bu hallar isə şəriətdə cinayətkarlara qarşı tətbiq edilir və müəyyən şərtlər olmadan həyata keçilmir, hər ucuz şey oğurlayanın əli kəsilmir, oğruya bəzən şans verilir, necə deyərlər "oğurluğa öyrəşmiş əllər kəsilir", bağışlanma halında və ya cərimə ödəndiyi zaman isə əvəz olaraq cinayətkarın eyni orqanının kəsilməsi hökmü yerinə yetirilmir. Xüsusi vurğulayaq ki, bu hökmlər yalnız şəriət ölkəsində tətbiq olunur, bu cəzaların tətbiqində özbaşınalıq halları qətiyyətlə qadağandır və bu cəzalar tam rəsmi qərarla yerinə yetirilir .

Xatırladaq ki, bütün bu sadalanan misallar dünyada insan bədənindən kəsilən hissələri və kəsilmiş orqanların kəsilmə məqsədlərini qeyd etmək üçün idi. Bu misallar insanın əzalarının qanuni və qeyri-qanuni kəsilməsi haqqında təsəvvürünün formalaşması və

digər faydaları ola bilər. Hətta ömründə bir dəfə olsun qanunsuz orqan ticarətinə və ya quldurluğa qarşı etiraz etməyən adamların dinsiz olduqdan sonra gecə-gündüz insan bədənindəki artıq, kiçik bir ət parçasının kəsilməsini "müzakirə" obyektinə çevirməsini, dindarlara qarşı arqument kimi istifadə etməsi kimi absurd hallar bu zaman daha yaxşı təsəvvür edilə bilər .

**Dördüncüsü: Tibbi izah:** Sünnət olunan kiçik ət parçası - elmi dildə Foreskin (5) - ana bətnində olan embrionun inkişafının səkkizinci mərhələsində əmələ gəlir. Bu kiçik ət parçasının əsas funksiyası ana bətnində inkişafda olan körpənin cinsiyyət orqanının uc hissəsini ana rəhmi daxilində müxtəlif seliklərdən qoruyur və onu rütubətli saxlayır. Sünnətin cinsi faydaları haqda bu məqalədə danışmaq fikrimiz yoxdur. Milyonlarla qeyri müsəlmanların bu sünnət metodundan istifadə etməsi əslində qısa və konkret bir izahdır. Onlar müsəlman olmasalar belə sünnət yolunu çox mühüm hesab edirlər. Bu kiçik ət yumşaq olduğundan, üstəlik də doğulduqdan sonra funksiyasını başa vurduğu üçün (doğuşdan sonra foreskinin daxilində ağrıverici duzların toplanması, həmçinin çirkab mənbəyi olan mikropların yığılması nəticəsində) kəsilib atılması daha faydalı və məsləhətli olur .

Deməli, bu məqamda sünnət etmək faydalı bir prosses kimi qiymətləndirilməlidir. Bu bəzi fayda və

hikmətlər bizə məlum olan fayda və hikmətlərdir. Hələ bilmədiyimiz digər fayda və hikmətlər də ola bilər .

*Digər bilinən tibbi faydalara gəldikdə isə:*

Sünnət edilmə sidik kanalının infeksiyaya yoluxmasının qarşısını alır. Sünnət olunmayan zaman artıq dəri infeksiya üçün əlverişli bir mühit rolunu oynayır. ABŞ tədqiqatçılarının araşdırmalarına əsasən sidik kanalının infeksiyaya yoluxmasında sünnətsiz kişilər sünnət olunanlardan 20 dəfə çoxdur. Sünnət olmaq cinsi yolla yoluxan bəzi xəstəliklərin qarşısını alır. Hətta sünnət olan insanın QİÇS-ə yoluxma riskinin sünnətsizlərə nisbətən az olduğu bildirilir. Kişilərdə cinsiyyət orqanı xərçənginin qarşısını alır. Bu xəstəlik nadir bir xəstəlik olub 100.000 kişidən 0,7-0,9 kişidə rast gəlinə bilər. Sünnət olunma cinsiyət orqanının iltihabının qarşısını alır. İkinci dünya müharibəsi zamanı Körfəzdə döyüşən əsgərlərin burada tez-tez baş verən qum fırtınaları nəticəsində bu problemlə rastlaşdıqları məlumdur (6). Oxuculara sünnətin faydaları haqqında daha ətraflı dr. Pərviz Hacıyevin "Sünnət faydalıdır, amma" (7) adlı məqaləsini oxumağı, dünya təcrübəsində və aparılmış tədqiqatlar haqqında oxumağı da tövsiyə edirəm.

## İstifadə edilmiş ədəbiyyat və qeydlər:

1 - Sünnətə elmi dildə "sirkumsiziya" deyilir .
2 - Bax: ibn Cəririn təfsiri, Tin surəsi, 4-cü ayə .
3 - Məalimut-Tənzil. Bəğavi. Tin surəsi, 4-cü ayənin təfsiri.
4 - Səhih əl-Buxari. Muhəmməd ibn İsmail əl-Buxari. no: 5889. Rəvayətçi: Abdullah ibn Ömər. Səhihi Müslim. Muslim ibnil-Həccac ən-Nisaburi. No: 257. Əbu Hureyrənin hədisi .
5 - "Foreskin" kişi cinsiyyət üzvünün ən uc hissəsində olan ət parçasının elmi adıdır. Prepuce: sünnət dərisi .
6 - Məqalə: "Sünnət olunmanın tibbi faydaları". Məqaləyə keçid üçün link: https://minber.az/sunn%c9%99t-olmanin-tibbi-faydalari.
7 - Məqalə: "Sünnət faydalıdır, amma". Dr. Pərviz Hacıyev. Məqaləni oxumaq üçün keçid: https://uroloq.com/sunnet-faydalidir-amma/

# "Vegeterianlıq" və ya "ət yeməmək" heyvanlara rəhmətdirmi?

İslam dini bir qism heyvanların ətini yeməyi qadağan etmiş, bir qism heyvanların ətini yeməyi icazəli etmişdir. Hansı heyvanların ətini yeməyi qadağan etmişdirsə, bunda da insan üçün xeyir, təmizlik və bilmədiyimiz digər hikmətlər vardır. Bu mövzunun bir şübhə olaraq ateistlərlə və digər qeyri İslami din mənsubları ilə əlaqəli tərəfləri var. Mövzu faydalı olsun deyə ümumi şəkildə ətyeməyənlərə cavab veriləcək .

**Birincisi:** İnsanların özlərindən hansısa heyvanın ətini halal, hansınısa haram etmələri açıq-aydın şəriət dəlili olmadan icazəli deyil. Uca Allah buyurur: "Ey iman gətirənlər! Allahın sizə halal buyurduğu təmiz şeyləri haram etməyin və həddi aşmayın. Həqiqətən, Allah həddi aşanları sevməz". (əl-Maidə.87). Başqa ayədə uca Allah buyurur: "De: “Allahın Öz qulları üçün üzə çıxartdığı zinəti və təmiz ruziləri kim haram etmişdir?” De: “Bunlar dünya həyatında, xüsusilə də Qiyamət günü yalnız möminlərə məxsusdur.” Biz dərk edən adamlar üçün ayələri belə izah edirik". (əl-Əraf. 32).

**İkincisi:** Dində halal olan şeyləri özbaşına haram elan etmək cahiliyyə (İslamdan əvvəlki bütpərəstlik) dönəminin adətlərindəndir. Uca Allah buyurur: "Onlar öz batil iddialarına görə: “Bu mal-qara və əkinlər haramdır. Bunları bizim istədiklərimizdən başqa heç kəs yeyə bilməz”– deyirlər. Müşriklər mal-qaradan bəzisinə minməyi haram edir, bəzisini də kəsərkən üstündə Allahın adını çəkmirlər. Onlar bunu Allaha iftira ataraq edirlər. O da onları atdıqları iftiraya görə cəzalandıracaqdır". (əl-Ənam. 138).

**Üçüncüsü:** Ət yeməyən vegeterianlara sual veririk? Siz ət yemirsinizsə, bəs hansı dəlilə əsasən bitkiləri yeyirsiniz? Elmi dəlillər sübut edir ki, bitkilər də canlı varlıqlardır. Hətta İsveçrədə bitkiləri aşağılamağın cinayət olması haqqında qanun da qüvvəyə minmişdir .(1)

O zaman ey "bitki qatilləri"! Nəyə əsasən siz bitkiləri öldürməyi icazəli görür, heyvanları qətl etməyi haram hesab edirsiniz? O zaman hər iki canlıya - heyvanlarla yanaşı bitkilərə də - yazığınız gəlməli deyildimi? Heyvanların sinir sisteminin olmasını və ya düşmənlərindən qaça bilməsini üzür gətirmək doğru deyil. Allah hər bir canlıya onun yaşayış üçün ehtiyacı olan xüsusiyyətləri vermişdir. Ona qalsa, bəzi bitkilər var ki, öz şikarları olan həşərat və digər canlıları öz tələlərinə sala bilirlər. Bitkilərdən mimosa pudica adlı

bitki növü beyni və sinir sistemi olmadan öz şikarı olan həşəratı iki tərəfi arasına alaraq bir heyvanın şikarını ağzına alıb tutduğu kimi hərəkət reaksiyası verir, özünə yaxınlaşan həşəratı və ya canlını ehtiyatla izləyir, fürsət düşən kimi tutub saxlayır və öz şikarına çevirir (2). Heyvanların öz ətrafında baş verənləri idrak etməsinə görə yeyilməsinin qadağan edilməsi, bitkilərin də yeyilsinin qadağan olunmasına səbəb olmalı idi .

Allahın yaratdığı sarmaşıqlı bitkilər belə ətrafındakı yerlərə çox mükəmməl yaradılışla dırmanırlar və uzanır, inkişaf edirlər, halbuki, bu onların ətraflarında baş verənləri anlamadan mümkün deyildir.

Bəzi elmi araşdırmalar göstərir ki, bəzi bitkilər heyvanlar tərəfindən yeyildiyi və həşəratlar tərəfindən dişləndiyi zaman xüsusi maddə ifraz edirlər. Bununla da bu bitkilər bir növ yeyiilmək əleyhinə müdafiə olunmağa çalışırlar. Amerikanın Missuri universitetinin etdiyi araşdırma görə edilən araşdırmanın başlığı belə idi: "Bitkilər həşəratların yarpaqlarını yediyi zaman çıxardıqları səslərə reaksiya (cavab) verirlər.(3) ."

Təbiətdə bitkilərin bu cür qeyri-adi hərəkətlərinə aid misalları çoxaltmaq mümkündür .

**Dördüncüsü:** Heyvanmənşəli qidalar insan sağlamlığı üçün xüsusi əhəmiyyətə malikdir. İnsan

bədənindəki dəmir qaynağı bitkimənşəli deyil, heyvan mənşəli qidalardadır .(4)

Ət – enerji və protein mənbəyi olmaqla yanaşı, həm də yüksək bioloji dəyərə malik qida məhsuludur. İnsan orqanizminin inkişafı, hüceyrələrin yenilənməsi, bərpası, qan əmələ gəlməsi, sinir sisteminin möhkəmlənməsində və dərinin sağlamlığında mühüm rol oynayan ətin tərkibində 16-20% zülal, 2-40% yağ, karbohidratlar, mineral maddələr, fermentlər, həmçinin azotlu və azotsuz ekstraktiv maddələr vardır. Heyvanın növü, yaşı və bəslənməsi ilə əlaqədar olaraq, ətin kimyəvi tərkibi faiz göstəricilərinə görə müxtəlif olur (5). Heyvanmənşəli qidaların istifadəsinin faydaları haqda geniş tibbi izahları yazıb mövzunu uzatmaq niyyətimiz yoxdur. İstəyən bu haqda geniş araşdırma edə bilər. O araşdırma ki, vegeterianların elmi cəhətdən belə yanlış etdiklərini ortaya qoyacaqdır .

"Oksford universiteti alimlərinin 18 illik araşdırmasının nəticəsi bəlli olub. 50 min insan üzərində aparılan tədqiqat göstərib ki, vegeterianlıq, ətdən imtina və ət yeməmək həmin insanda beyin qan dövranı pozğunlu yaradıb, insulta səbəb olur .(6) "

**Beşincisi:** Heyvanların ağrı hiss etməsinə gəldikdə isə, bir çoxları bu mövzunu çox şişirdirlər. Həqiqətdə isə heyvanlar cüzi bir ağrı hiss edirlər və onların ağrı hiss etməsi insanlar kimi idrakla və əziyyətverici deyil.

Britaniyalı Antropologiya alimi Jane Goodal deyir ki: "Yırtıcı heyvanların öz şikarlarını ovlaması bizim xəyal etdiyimiz kimi ağrılı deyil" (7). Bu mövzuda daha geniş oxumaq üçün "Heyvanların ağrı çəkməsi nəyə lazımdır?" adlı məqaləmizi oxumağı tövsiyə edirəm (8) .

**Altıncısı:** Əgər heyvanlardan təkamül etmisənsə, nə üçün onların ətini yemirsən? Bu sual xüsusən də dinsiz olan vegeterianlara verilməlidir. Çünki, onlar iddia edirlər ki, daha güclü heyvanlar sağ qalmaq üçün həyat mübarizəsində digər heyvanları yeyirlər. Yırtıcı heyvanlar da digər heyvanları yeyir, beləcə təkamül prossesində qidalanmaq üçün heyvanlar bir-birini yeyirlər. Özünün maddi həyat baxımından heyvanlar aləmindən fərqlənmədiyini iddia edənlərin heyvan ətini yeməməsi çox qəribədir. Ət ilə qidalanmaq təkamülün bir parçasıdırsa, insan özü də onların iddiasına görə təkamül edibsə, nə üçün nə yeməsin ki? Öz inancları, nəzəriyyələri belə vegeterian dinsizləri çətin bir sual qarşısında qoymuş olur .(9)

**Yeddincisi:** Bu heyvanların ətini yeməyənlərə daha bir neçə sual veririk; bu da başqa bir təbii və məntiqi sualdır. Əgər sən heyvanlara hörmət edilməsi gərəkən bir şəxsiyyət və rəsmi haqları olan varlıqlar kimi baxır və bu səbəbdən onların əti ilə qidalanmaqdan vaz

keçirsənsə, o zaman nə üçün yenidən özünü ziddiyyətə salırsan? Nə üçün onlardan istehsal olunan şeyləri yeyirsən? Məgər o heyvanlar sənə icazə veriblərmi ki, onları səhrada, yüksək dağlıq ərazidə və ya əkin sahəsində minib sürəsən? Məgər heyvanlar sənə icazə veriblərmi ki, öz dərmanlarında onların hormonlarından istifadə edəsən? O heyvanlar sənə icazə veriblərmi ki, onların südündən içəsən? Quşlar sənə icazə veriblərmi ki, onların yumurtalarını yeyəsən? Kürkü (qiymətli dərisi) olan heyvanlar sənə icazə veriblərmi ki, onların kürkündən istifadə edəsən? Heyvan dərisindən olan oturacağın, saatın, kəmərin, ayaqqabın və s. olduğu zaman hansı heyvanlar sənə bunu etməyə icazə vermişdilər(10) ؟

**Səkkizinci:** Heyvanlara həqiqi rəhmət İslam dinindədir; İstər onları kəsən zaman əziyyət verməyin qadağan olması, istər onları ac-susuz buraxmağın qadağan olması, istər onlara qarşı rəhmli, şəfqətli davranmağın əmr olunması, istər də digər heyvan hüquqları haqqında çoxlu ayətlər, hədislər, peyğəmbər göstərişləri və əsərlər olsun, bunların hər biri İslam dininin mühüm bir mesajını bizlərə çatdırır. İslam dini bizə heyvanların həqiqi yaranma qayəsini izah edir, bu izahla anlayırıq ki, heyvanlar insanların istifadə etməsi üçün, insanların ixtiyarında olması üçün yaradılmışdır. Həqiqətən də kainatın yaradıcısı heyvanları insanlara

mənfəətli olması və insanların xidmətində olması üçün yaratmağa qadirdir. Uca Allah buyurur: "Mal-qaranı da O yaratdı. Onlarda sizin üçün bədəninizi isti saxlayan yun geyim və başqa faydalar vardır. Həmçinin onlardan yeyirsiniz". (11). Həmçinin buyurmuşdur: "Həqiqətən, ev heyvanlarında da sizin üçün ibrət var. Biz onların bətnində olandan sizlərə içirdirik. Sizin üçün onlarda başqa faydalar da var. Üstəlik onlardan yeyirsiniz də .(12) ."

**Nəticədə** müşahidə edə bilərik ki, Allahın biz insanlar üçün yaratdığı heyvanları onların yaranma qayəsi çərçivəsində istifadə etmədiyimiz zaman bəzi ziddiyyətlər və zərərlər ortaya çıxır. Onların bir qisminə bu yazıda toxunuldu.

## Qeydlər və istinadlar:

(1 ) Yazıya keçid:
http://planetsave.com/.../switzerland-places-ban-on-the...
(2) Bu misalları Əbül-Fida ibn Məsud öz çıxışında qeyd edir, bitkilərin canlı olması haqda çox mühüm

qeydlər edir. Videonun linki: https://www.youtube.com/watch?v=Dpx-d182Org
(3) Məqaləni oxumaq üçün keçid: https://munews.missouri.edu/…/0701-plants-respond-to-leaf/…-
(4) Vegeterianlıq haqqında məqalə. Heysəm Talat. "Şubuhət və vasəvis ilhədiyyə" kitabı. səh. 398.
(5) Məqalə: "Ət məhsullarının faydası və zərərləri" . Azərbaycan Qida Təhlükəsizliyi İnstitutunun Heyvan xəstəliklərinin və heyvan mənşəli məhsulların tədqiqi sektorunun əməkdaşlarınən hazırladığı məqalə. Ətraflı oxu: https://www.xezerxeber.az/.../cem.../293039/et-mehsullarinin
(6)Məqalə: Ət az yeyənlərin beyninə qan sıza bilər. Məqaləyə keçid:
https://redaktor.az/.../72556-et-az-yeyenlerin-beynine...
(7) Innocent killers, p. 13.
(8) Məqalə: "Heyvanların ağrı çəkməsi nəyə lazımdır?" Sahib Əsədov. Məqaləni oxumaq üçün keçid: https://sunna.az/content?cid=626
(9)Ərəbcə məqalə تناقض النباتيين :müsəlman araşdırmaçılar .(الباحثون المسلمون)
(10) Öncəki mənbəyə bax .
(11) Nəhl surəsi. 5-ci ayə.
(12) Muminun surəsi. 11-ci ayə.

# Miras haqqında ateistin şübhəsinə cavab

**Şübhə belədir:** *Salam aleykum. Ateist deyir ki, bu sualıma cavab versələr, tövbə edəcəm. Suala cavab verirəm və tövbəsini gözləyirəm .*
*Məsələ belədir: Bir kişi ölür, bütün borcları ödənəndən sonra 96 qızıl dinarı qalır, miras varislər arasında nisa surəsinin 11ci və 12-ci ayələrinə görə varislər arasında belə bölünməlidir: Üçdə ikisi qızlara (3 qız), ata və ananın hər birinə altıda biri, Arvadına isə səkkizdə biri. Sonra isə ateist (Allah onu hidayət etsin) özü miras elmindəki bölgü qaydalarını bilmədən özbaşına bölgü aparır və belə bir iddia edir:*
*-2/3" si 64 edir, deməli, 64 verdi qızlara, 6/1-i isə 16 edir, onu da verdi ata və anaya, bu hesabla arvada heç nə qalmır."*

**Cavab:** Gəlin, doğru hesabı İslami bölgüyə əsasən aparaq və ateistin səhv hesabladığını ortaya qoyaq؛
Əslində bölgünün qısa cavabı belədir:
96 dinarın adları sadalananlar arasında bölgüsü bu şəkildə olacaqdır :
Həyat yoldaşı: 10,66
Ata: 14,22
Ana: 14,22
Üç qız: 56,88

Bütün bu rəqəmlər toplandıqda 95,98 edir, bu da yuvarlaqlaşdırıldıqda 96-ya bərabər olur .

Bu verilənləri topladığımız zaman cəmi 96 edir və bu doğru cavabdır .

Ateistin "zövcəyə heç nə qalmır" iddiası doğru deyil. Yaxşı, bu nəticəyə necə gəldik? Cavab odur ki, 24-dən yuxarı olan səhmlər 27-yə avl edir. Avlın mənasını cavabın təfsilatını verdikdən sonra sual verən şəxsə ayrıca məqalə şəklində - inşəAllah - göndərəcəyik . Əvvəlcə səhmlərin sayını hesablayaq:

Zövcəyə 1/8 pay düşür ki, bu da 3 səhm edir.

Ataya 1/6 pay düşür ki, bu da 4 səhm edir.

Anaya da 1/6 pay düşür ki, bu da 4 səhm edir.

Qızlara isə 2/3 pay düşür ki, bu da hər birinə 16 səhm edir. Bütün səhmləri hesablayanda 27 rəqəmi alınır. Avlda qaydadır ki, 24-dən yuxarı olan səhmlər 27-yə avl edir .

Qızların payı 2/3 olduğundan dolayı bu miras bölgüsündəki qaydaya əsasən hərəsinə ayrı-ayrı vurma hesabı ilə doğru nəticə alınmadığından səhmlərin başı olan 3 rəqəmi məsələnin həlli olan 27-yə vurulur və 81 cavabı alınır. 81 səhm adları keçən varislər arasında bu cür bölünür:

9 səhm zövcəyə‹(8/1)

12 səhm ataya‹(6/1)

12 səhm anaya‹(6/1)

48 səhm qızlara düşür, yəni üç qıza (hərəsinə 16 səhm olmaqla). (3/2) -

Bu səhmlər məlum olduqdan sonra doğru cavabı tapmaq üçün 96 dinarın kimlər arasında necə bölünəcəyini bilmək üçün az öncə verilən səhmləri toplayırıq və cavab 81 alınır. 96 dinarın isə 81 səhm arasında bölüşdürülməsi üçün 96-nı 81-ə bölürük. Cavab edir: təmxinən 1,185 və bu rəqəmi biz hər bir səhmə ayrı-ayrılıqda vururuq, nəticə belə olur:

Zövcənin 9 səhmini 1,185-ə vuranda cavab edir 10,66 .

Atanın 12 səhmini 1,185-ə vuranda cavab edir 14,22 .

Ananın da 12 səhmini 1,185-ə vuranda cavab edir 14,22.

Qızların üçünün 48 səhmini 1,185-ə vuranda cavab edir 56,88 .

Alınmış cavabları topladığımız zaman isə

10,66 95,98= 56,88+14,22+14,22+ yəni 96.

cavab belə edir.

"Avl" məsələsinin izahına gəldikdə isə bu haqda ayrıca bir məqaləmizi göndərəcəyik, avlın tarixi və növləri haqqında sual verən şəxsi məlumatlandıracağıq! Allahdan istəyirəm ki, bu yazını onun üçün faydalı etsin və qəlbini İslama doğru açsın! Allahın dini haqdır və İslam sonuncu haqq dindir! Allah həqiqəti qəbul

edənləri doğru yola yönəldər! Həmd olsun aləmlərin Rəbbi olan Allaha!

## Günəş ərşin altında səcdə edir?

***Şübhə belədir:*** *"Buxari Əbu Zərə isnadla rəvayət edir ki, o belə deyir: Günəşin batdığı bir vaxtda peyğəmbərin ﷺ yanında idim. O buyurdu: Ey Əba Zərr, bilirsənmi günəş harda batır? Dedim ki:" Allah və elçisi daha yaxşı bilir ﷺ .dedi: O, ərşin altında səcdə edənə kimi gedir. Bu da Allahın sözüdür: "Günəş də, özü üçün müəyyən edilmiş yerdə hərəkət edər. Bu, Qüdrətli, Bilən Allahın əzəli hökmüdür".(Yasin. 38). (1).*

*Bu və digər rəvayətlərdə günəşin batdığı zaman Ərşin altında səcdə etməsinə işarə edilmişdir. Hədisin bəzi ləfzlərində deyilir ki, günəş ərşin altında səcdə vəziyyətində dayanır. Elə də yazılıb ki, dayanır. Sonra ona deyilir ki, qalx və səhər gəldiyin yerə qayıt. Hər gün də bu prosses belə gedir. Günəşin hərəkəti*

*haqqında başqa rəvayətlər də var ki, hamısı bir-birini tamamlayır. Sual odur ki, axı biz bilirik ki, günəş heç hara getmir!? Bizdə qaranlıq olanda Amerikada gündüz olur, bizdə 24 saat var və hər saat da günəş müşahidə olunur. Elə bir dəqiqə, elə bir saat yoxdur ki, günəş insanların gözünün qabağından qaçsın. O zaman bu hədisləri necə izah etmək olar? Sualın ikinci hissəsini deyim ki, burdan günəşə 8 dəqiqə 20 saniyə işıq sürəti edir, o zaman Allahın ərşi hara, günəş hara? Sualım bundan ibarətdir ."*

**Sualın cavabı :**

**Birincisi:** Ərş dindən sabit olana görə məxluqatın ən üst qatı hesab edilir. Günəş də hər bir zaman onun altındadır (2). Bu o demək deyil ki, günəş özünə aid olan yerdən və ya hərəkət yerindən çıxır. Beyhəqi demişdir: "Günəşin Ərşin altında səcdə etməsi, onun davamlı şəkildə etdiyi hərəkətə və ya öhdəliyinə verilmiş davranışa mane olmur" (3). İbrahim əleyhissalam demişdir: "O dedi: “Mən Rəbbimə doğru gedirəm. O məni doğru yola yönəldəcək". (Saffət. 99). Məgər ayənin zahirindən anlaşılan kimi İbrahim əleyhissalam birinci səma qatınamı getdi? Ərəbcə خرج يقابض القمر "xaracə yuqabidul qamər" deyildikdə "ayı tutmağa getdi" deyə hərfi məna anlaşılmır, doğru məna

bunu "gecə vaxtı (yola) çıxdı" mənasında anlamaqdır .(4)

**İkincisi:** *Bəs görəsən, günəşin Ərşin altında səcdə etməsi nə məna verir؟*

Məlum olduğu kimi bu haqda hədis Buxaridə, Müslimdə və digər mənbələrdə varid olmuş və ümmət bu hədisləri yekdilliklə qəbul etmiş, nə mətni, nə də sənədi haqda inkar etməmişlər. Ona görə də bu hədisləri onlardan kimsə inkar etməmişdir. Deməli, sadəcə bu hədislərin düzgün mənasını anlamaq və ya bu hədislərə necə yanaşmalı olduğumuzu bilmək kifayətdir .

Günəşin səcdəsi məhdud bir vaxt içində baş verən və özünəməxsus bir səcdədir. Bizim düşündüyümüz insanın fiziki səcdəsi kimi deyil. Günəş Allahın yaratdığı məxluqlardandır. Onun Allahın yaratdığı məxluqatdan olduğunu unutmaq bir anlıq günəş niyə səcdə etsin sualını doğura bilər. Ona görə də bu unutqanlığa yol vermək olmaz. Yaradılmışın öz yaradanına səcdə etməsi ağıla müxalif bir şey deyil .

• ***Amma, bu səcdənin hansı mənada olmasına gəldikdə isə :***

İslam alimlərinin günəşin Ərşin altında səcdəsi haqda rəyləri: onun Allaha boyun əyməsi, onu zikr

edib şəninə təriflər deməsi və onun hərəkəti üçün qoyulmuş qanuna tabe olması haqda bir bənzətmə ətrafında dövr edir .(5)

Artıq qeyd olundu ki, günəşin və digər məxluqların zikri, səcdəsi, ibadəti bizim düşündüyümüz kimi qiyamda durmaq, əyilib rükuya və səcdəyə getmək kimi deyil. Uca Allah buyurur: "Yeddi göy, yer və onlarda olanlar Ona təriflər deyir. Elə bir şey yoxdur ki, həmd ilə Ona tərif deməsin, lakin siz onların tərifini anlamazsınız. Həqiqətən, O, Həlimdir, Bağışlayandır". (İsra. 44) .

**Üçüncüsü:** Yaxşı, görəsən bu hədisin mənası odur ki, günəş Ərşin altında səcdə etməklə vaxt itirir? Və yaxud dayanır? Bir də günəş 24 saat müşahidə olunduğu halda belə bir hal görülmür axı !؟

**Cavab**: "Allahın ərşi hara, günəş hara?" deyən şəxs bir başqa fikrində deyirsə ki, qeybi məsələlər aydındır, sonra isə bu cür sual verirsə, özünün ziddiyyət və çaşqınlıq içində olduğunu etiraf etmiş olur. Qeybi məsələlər mövzusunda cürətli danışan şəxs bir mövzuda olan hədisləri və izahları cəm etmədən yanlış qənaətə gələ bilər .

Sual verən iddia edir ki o, hədisin bəzi ləfzlərində (hədisin tərcümələrində) "günəşin hərəkətinin

dayanması" haqqında ifadələrə rast gəlib, lakin mən ərəb dilində hədisin orjinal mətnlərində belə bir ifadələrə rast gəlmədim. Bu iddia öz təsdiqini tapmadı. Nə imam Buxarinin "Səhih"ində, nə imam Müslimin "Səhih"ində, nə imam Əbu Davudun "Sünən" əsərində, nə də imam Əhmədin "Müsnəd"ində və s. konkret olaraq "günəş dayandı" ifadəsi keçməyib. Ola bilsin ki, "dayanmaq" sözü tərcüməçinin öz əlavəsi olsun. Hədisdə "günəş Ərşin altında səcdə edənə kimi gedər", "izn istəyər və s." mənasında tərcümə olunacaq hissələrin mənası zatən iddia edilən kimi tərcümə edilməmişdir. Tirmizidəki ləfzdə "günəş səcdə halında izn istəyər və ona izn verilər" ləfzində də "günəşin dayanması" iddiası yoxdur. Günəş hərəkət edərək də səcdə, zikr halında ola bilir .

Bu hədis peyğəmbərin ﷺ xitab etdiyi şəxslərə xasdır və günəşin bütün tərəflərdə görünən nisbi batmasıdır. O zaman, Ərş məxluqatın ən üst qatıdır. Günəş də öz növbəsində daim onun alt tərəfindədir. Günəşin səcdəsi də fiziki, görünən bir səcdə deyil, həqiqətini bilmədiyimiz bir səcdədir. Günəşin səcdə etməsi zamanı onun hərəkət etdiyi yerindən (öz hərəkət yerindən) başqa bir yerə keçməsi və ya dayanması baş vermir və 24 saat ərzində belə bir müşahidə oluna da bilməz. Çünki hədislərdə belə bir iddia yoxdur. Sadəcə

bu məsələ öz kontekstindən çıxarılmaqla təqdim edilmişdir .

**Dördüncüsü:** "Görəsən, günəşin batması və çıxması iddiası doğrudurmu? Və ya günəş tam mənasıyla batır və çıxır ؟

**Cavab:** Bəli, günəş müşahidəçinin müşahidəsinə əsasən batır və çıxır .

**Beşincisi:** Sualın ikinci hissəsi belədir: burdan günəşə 8 dəqiqə 20 saniyə işıq sürəti edir, o zaman Allahın ərşi hara, günəş hara؟

*Buna cavab belədir :*

1 - Sualın qoyuluşu qərəzlidir. Burdan günəşə olan məsafəni qəsdli şəkildə qısaltmaq üçün işıq sürəti ortaya atılır. Halbuki, bu müddəti belə də vermək olardı:
"Yerdən Günəşə olan məsafə təxminən 150 milyon kilometr və ya 1 astronomik vahiddir (AU). Bu məsafə, iyul ayı ətrafında perihelionda (və ya perihelionda) minimum 147,1 milyon kilometrdən (0,9833 AU) afeliyada maksimum 152,1 milyon kilometrə (1,017 AB) qədər dəyişir. (6) "

2 - Günəşə çatanda insan yanır, hətta çatmamış yanır. O zaman bu yol bu qədər də asan gedilən məsafə olaraq izah edilməli deyildi .

3 - Ortaya işıq sürətinin qoyulması, ancaq burdan günəşə kimi olan məsafənin hiyləli şəkildə verilib, günəşdən ərşə kimi olan məsafənin məlum olmadığı üçün hesablana bilmədiyi halda, ümumiyyətlə bu cür hesablama yoluna cürət edilməli deyildi. Günəşin Ərşin altında olması o demək deyil ki, o məsafəni yerdən günəşə kimi olan məsafəni təxmin etməklə təsəvvür etmək mümkündür. Əksinə bu yanlış təsəvvür və müqayisədən yenə dinsizlərin elm adından istifadə edib oyun oynamaları aşkar olur. Əgər ateist yerdən günəşə kimi məsafəni hiyləli bir şəkildə 150 milyon km demək əvəzinə, bu məsafəni qəsaltmaq üçün 8 dəqiqə, 20 saniyə işıq sürəti ilə ifadə edirsə, amma günəşdən Ərşə kimi olan məsafənin qeybi məsələ olduğunu da bilirsə və yenə şübhə atmağa davam edirsə, onu yalnız "qərəzli" adlandırmaq mümkündür. Bu cür üsullarla dinə qarşı mübarizə aparmaq doğru deyil .

**Altıncısı:** Qurani Kərim də bu hədisdəki mənanı təsdiqləyir, bu məna elmə müxalif deyil .
Uca Allah buyurur: "Məgər göylərdə və yerdə olanların, günəşin, ayın, ulduzların, dağların, ağacların,

heyvanların və insanların xeyli hissəsinin Allaha səcdə etdiyini görmürsənmi?" (əl-Həcc. 18).

Günəşin öz orbiti daxilində hərəkəti elmlə də, şəriətlə də sabitdir. Qeyd olunan hədisdə, xüsusən də Buxari və Müslimdə qeyd olunan hədisdə verilmiş məsələnin sonunda bu ayət qeyd edilmişdir: "Günəş də, özü üçün müəyyən edilmiş yerdə hərəkət edər. Bu, Qüdrətli, Bilən Allahın əzəli hökmüdür". (Yasin. 38)

Sualda deyildiyi kimi ayət də günəşin hərəkətini təsdiqləyir. Mövzunun qoyuluşu günəşin, yoxsa yerin günəş ətrafında dövr etməsi deyil. Mövzunun qoyuluşu məhz günəşin hərəkəti məsələsidir ki, buna diqqət yetirmək lazımdır .

"Bəziləri elə düşünürlər ki, yer günəşin ətrafında dövr edirsə, deməli günəş sabitdir. Bu yanlışdır. Günəş yerə nisbətdə sabitdir. Lakin günəş öz olduğu qalaktikaya nisbətdə sabit deyil. Günəş bir qism göy cismləri ilə birgə böyük sürətlə hərəkət edir. Qurani-Kərimin bu haqda olan vəsfi olduqca aydındır: "Onların hər biri öz orbiti ilə üzüb gedər". (Yasin. 40) ." .(7)

"Günəşin batması", "günəşin çıxması", "günçıxan", "günbatan" və buna bənzər ifadələrdən tez-tez ateistlər istifadə edib guya Quranın elmə müxalif olduğunu

iddia edirlər. Ona əsasən ki, bu ifadələr günəşin yerin öz orbiti ətrafında dövrə vurmasına dəlalət edir. Hətta gecə və gündüz bir-birini əvəz etsin. Günəş ətrafında isə dövrə vurur ki, ilin dörd fəsli bir-birini əvəz etsin. Əgər onların özləri öz danışıqlarına diqqət yetirsələr görərlər ki, özləri belə bu kimi ifadələrdən istifadə edirlər. Onlar "günəş şüasından uzaqlaşdığımız zaman" demək əvəzinə, "günəşin batdığı zaman" və ya "günəşin batdığı zaman" sözündən istifadə edirlər və s. Bu danışıq üslubu insanlar arasında yayqın bir üslubdur. Qurani-Kərim də insanların anladığı bir dildə nazil olmuşdur. Bu o demək deyil ki, Quran insanlara xətalarında müvafiq olur. Çünki bu ifadələr yer üzünün bir hissəsi olan, orada yaşayan bəşər övladına nazil olmuş, günəş sisteminin kənarlarında olan varlıqlara nazil olmamışdır. Bu ifadələrin istifadəsi nisbidir və xəta deyil. Qurani-Kərim isə ümumən bəşər övladına gözləri ilə gördükləri, hisləri ilə idrak etdikləri bir şəkildə xitab etmişdir. Məsələn, Qurani-Kərim yerin düz olduğunu demir, deyir ki: "Yerin necə döşədildiyini görmürlər?" (Ğaşiyə. 20) .

Günəşin sağdan çıxdığını demir, deyir ki: "Orada olsaydın günəşin doğduğu zaman onların mağarasının sağ tərəfinə yönəldiyini görərdin" (əl-Kəhf. 17). Yaxud demir ki: Günəş palçıqlı suda batır, deyir ki: "Günəşi palçıqlı suda batan gördü". (əl-Kəhf. 86).

Deməli, Qurani-Kərim müşahidə edən bəşər övladının baxıb gördüyü mənzərəyə uyğun danışır. Əgər müşahidəçi qarşısında batmaqda olan günəşi yerlə əlaqədə olan bir durumda və onun bir hissəsi kimi, üstəlik də onun fırlanmasından xəbərsiz durumda görürsə, bu zaman ortada olan vəsfə müxalif vəsfi vermək uyğun gəlmir. Bu məsələ bütün bəşər övladları arasında bilinən və məşhur bir məsələdir. Hətta Amerikanın NASA astronomik mərkəzində belə günəşin batması və çıxması (sunset) kimi ifadələrə çox yer verilir. Fel şəklində (sunsire) də "günəş çıxır", "günəş batır" ifadələri də tez-tez istifadə edilir. NASA-nın saytında bu ifadələri oxumaq üçün bura bəzi linkləri yerləşdiririk (8).

Yeddincisi: Bu hədislərin "günəş öz batdığı yerdən çıxar" hissəsi Qiyamətə aiddir. Digər mötəbər hədislər də təsdiqləyir ki, günəş batdığı yerdən çıxdıqdan sonra tövbələr qəbul olunmayacaq və bu hadisə dünyanın sonuna yaxın qiyamətin qopmasından öncə baş verəcəkdir. Bu öncəgörmə də Muhəmməd ﷺ peyğəmbərin peyğəmbərlik əlamətlərindəndir.

## Qeydlər və istinadlar:

(1) Səhih əl-Buxari (Fəthul-Bari). Təfsir kitabı. No: 4802.(402/8) .

(2) Günəşin hər zaman ərşin altında olması (istiqrar etməsi) haqqında alimlər əsasən iki görüş bildirmişlər . Birincisi: Günəşin istiqrar yerinin həqiqi mənada Ərşin altında olmasıdır. Bu görüş əksər alimlərin görüşüdür . İkincisi isə: Günəşin istiqrar yerinin Lövhi-məhfuzda Ərşin altında olmasıdır. Bu görüşü deyənlərdən biri də Xəttabidir. (Bax: Alə İbrahim Əbdür-Rəhimin "Hədis: Sucuduş-Şəms təhtəl-Arş va Radduş-Şubəhil-Aqləniyyin" adlı araşdırması) .

(3) Kitabül-Əsma vəs-Sifət. Beyhəqi. 2/274.

(4) Heysəm Talatın "نسف شبهة سجود الشمس تحت العرش" adlı videoroliki. Videonun keçidi: https://youtu.be/VLGErJCJoG4 (daxil olma tarixi: 2023.08.07.

(5) Bu görüşləri bildirən alimlərdən əl-Beyhəqi, İbn Teymiyyə, İbn Kəsir, İbn Həcər, ibnul-Arabi, Nəvəvi, Xəttabi, Vahidi, ibn Battal, İbnul-Cövzi, İbn Aşur və s. çoxsaylı adları qeyd etmək olar .

(6) Məqalə: Yerdən Günəşə qədər neçə kilometr məsafə var? Keçid: https://planetariodevitoria.org/az saytı .

(7) Ərəbcə məqalə: atheistsguide.com saytı سجود ". الشمس تحت العرش" - هداية الملحدين adlı məqalə .

(8) Keçidlər bunlardır:

Sunset Over South America

Space Shuttle Endeavour Comes Home to Los Angeles

NASA On Air: NASA's Curiosity Sees Blue Sunset On Mars (5/21/2015)

## Quranda elmi yanlış iddiası: "nütfə bel və köks arasından çıxır?"

**Şübhə belədir:** *Tariq surəsinin 7-ci ayəsində belə deyilir: "Bu nütfə bel və köks sümükləri arasından çıxır". Bu ayə müasir elmin əksini iddia edir. Müasir elm sübut edir ki, nütfə (sperma) xayalarda yaranır, bel və köks sümükləri arasında deyil. Bunu necə izah etmək olar؟*

**Şübhənin cavabı:** Cavabımız əsasən üç aspektdən olacaqdır. Ərəbcə və məntiqi izah, təfsirlərə qısa baxış və tibbi izah .

**Birincisi: Ərəbcə və məntiqi izah:**
Mücməl cavab odur ki, uca Allah Quranda bel deyərkən kinayə ilə kişini, köks deyərkən isə qadını

nəzərdə tutmuşdur. Zürriyyətin əmələ gəlməsinə səbəb olan fışqıran su bu iki yer arasındadır. Kişidə tənasül orqanı vasitəsilə, qadında isə "Qraf" kisəciyindən fışqıran selik (su) vasitəsilədir, hansı ki bu, yumurtanı hər ay dölləndiyi yerə daşıyır .(1)

Ərəbcə "sülb" (bel) kişiyə edilən kinayədir: Ərəblər "sülb" (bel) sözünü "zürriyyətə" nisbət etməklə kinayə kimi istifadə etmişlər. Ərəblər bilirdilər ki, sperma beldən gəlmir və onun mənşəyi xayalardadır. Bu məsələdən hələ o zamanlar nə ərəblər, nə də başqa xalqlar qafil deyildilər. Keçmişdə bəzi kölələri sonsuz etmək və şəhvətinin qarşısını almaq üçün onları xayadan məhrum edirdilər. Çöldə yaşayan ərəblər belə bu məsələni bilirdilər. Hətta peyğəmbərin özü belə Qurban bayramı günü axtalanmış (xayasız) iki keçini qurban etmişdi (2).

Onun hər il bu şəkildə qurban kəsdiyini deyən alimlər də var. Axtalanmış heyvanın ətinin fərqli olduğu, çəkisinin çox olduğu deyilir. Ona görə də ərəblərin sıravilərinin belə bu məsələləri bildiyi halda necə ola bilər ki Qurani Kərimdə bu bəsit məsələdə elmi xətaya yol verilsin? Ərəblər cinsi orqanın adını çəkməkdən həya etdikləri üçün zürriyyətin beldən olduğunu deyərdilər. Necə ki, "tualetə getmək" əvəzinə həya edərək "ehtiyacı ödəmək قضاء الحاجة "sözünü işlədirdilər. Əgər ərəblər utandıqları sözləri belə başqa ibarələrlə ifadə edirdilərsə, o zaman görün Allahın

kitabında spermanın çıxdığı yer və ya cinsi orqanların bölgələri , hissələri və ya xayalar qeyd olunması nə qədər doğru olardı? İsra surəsinin 24-cü ayəsində "təvazökarlıq qanadı" ifadəsi keçir ki, bu da valideynlərə göstərilən şəfqətə edilən kinayədir. Ayədə: "Onların hər ikisinə rəhm edərək təvazökarlıq qanadının altına al" deyilir. İnsanın həqiqi qanadı yoxdur. Bu bir kinayədir və ərəbcədən məlum olan bir şeydir. Yaxud da bu "qanad" sözü "Hicr" surəsinin 88-ci ayəsində də keçir. Beləcə, ərəblər spermanın harada əmələ gəldiyini bilirdilər, lakin zürriyyətin "beldən gəlməsini" bir həya dili olaraq ifadə edirdilər
.

Ərəbcə "təraib" (köks) qadına edilən kinayədir:
Bu ifadənin də ərəb dilində qadınlara nisbət edilərək istifadə edilməsi üstün gəlir. Hətta qədim ərəb şairi İmrul-Qeysin şeirlərində də bu ifadənin qadınlara nisbətən istifadəsi mənbələrdə keçir. "Təraib" (köks) qadınlarda döşlərin olduğu yerdir. O yer ki, körpə doğulduqdan sonra oradan qidalanır. Məntiqi cəhətdən də sələflərdən gələn təfsirlərdəki bu görüş daha münasibdir. Çünki ayədə "sülbə" (belə) nisbət olunan kişinin spermasından əmələ gələn körpə, sonrakı mərhələdə qadının sinəsindəki süd vəzlərindən qidalanır. Deməli, "təraib" sinə (köks) sözünün qadına kinayə ilə deyilməsi idraka daha yaxındır .

**İkincisi: Təfsirlərə qısa baxış:** Qurani-Kərimi təfsir edən alimlər əsrlər öncə elmin inkişaf etmədiyi bir vaxtda bu ayənin mənasının heç də "spermanın yaranması" kimi anlamayıblar. Spermanın çıxdığı yer ayrı, yarandığı yer isə ayrıdır. Üstəlik də bu haqda olan iki məşhur görüşdən heç biri də bu məna üzərində olmamışdır. Alimlər ayədəki "bel" sözünün ittifaqla kişiyə aid olmasını təsdiqləyiblər. Köks sözünün mənasında isə əsasən iki rəy (3) üzrə ixtilaf etmişlər :

1 - Ayədəki köks kişiyə aid köksdür .
2 - Ayədəki köks qadına aid köksdür (üstün rəy də budur) .

Birinci görüşü bəzi İslam alimləri dəstəkləmişlər. İkinci görüşü dəstəkləyən dahi İslam alimi, böyük təfsirçi ibn Cərir ət-Təbəri bu ayənin təfsirində demişdir: "Bundan məqsəd: kişinin beli və qadının köksüdür" (4). Təfsir alimi əl-Qurtubi (5) də bu rəyi seçmişdir. İbn Kəsir (6) də təfsirində bu rəyi dəstəkləmişdir. Qədim təfsir alimlərindən İbn Abbas (7) və İkrimə (8) də bu rəydə olmuşlar. Bir çox müasir alimlər də bu rəyi dəstəkləmişlər, şeyx Muhəmməd əl-Əmin əş-Şinqiti və şeyx Saleh əl-Fövzan da bu alimlərdəndir. Bu görüşü üstün görən alimlərə görə, ümumiyyətlə spermanın yaranmasından söhbət getmir. Sadəcə spermanın çıxdığı yerə kinayə ilə işarə edilir.

Ümumiyyətlə, bu haqda olan görüşlər ziddiyyət ixtilafı deyil, bir-birini dəstəkləyən rəy fərqliliyidir. Ən əsası isə bu rəylərin heç biri spermanın xayadan qeyri yerdə yarandığını iddia etməmişdir. Mövzunun şübhə kimi qoyuluşu ümumiyyətlə absurddur və Quranın qəsd etmədiyi mənanı ona yükləmək cəhdidir .

**Üçüncüsü:** Məsələnin tibbi izahı: Bu məsələ Qurani-Kərimin elmi ecazkarlığına dəlalət edir. Müasir tibbi araşdırmalar göstərir ki, bel ilə köks arasında olan yerdə xayaların ilk hüceyrələri formalaşır. Bu formalaşma embrionun formalaşmasından sonra xayanın qarnın alt hissəsindəki xaya torbasına düşməsilə baş verir .

Dr. Muhəmməd Dudəh deyir: "Elmi həqiqət onu göstərir ki, kişilərdəki xaya hüceyrələrinin və ya qadınlardakı yumurtalığın kökləri hər ikisinin embrioloji inkişafı zamanı ata və ananın belində cəm olur. Sonra bel nahiyəsindən çıxaraq onurğa sümüyünün başlanğıcları ilə qabırğalar arasındakı bir yerdə yumurtalıqları (ana) rəhminin yanındakı boşluğa tərəf çəkir. (oğlan) xayası isə daha az istilik olan xaya dərisi içərisinə doğru hərəkət edir. Yoxsa (bu temperaturda) canlı spermatezoidlərin əmələ gəlməsi uğursuz alınar və öz yolçuluğunu başa vurmadığı halda o xərçəng şişinə çevrilə bilərdi.(9) ."

Sonra isə deyir: "(Ayədə deyilən) "Bu nütfə bel və köks sümükləri arasından çıxır". (Tariq. 7). ibarəsi zürriyyətin formalaşması mərhələsinin vəsfini ifadə edir. Həmçinin yaradılış zamanı ölçülmənin, formaya salınmanın və mükəmməl hala gətirilmənin önə keçməsinə dəlalət edən bütün hadisələri özündə ehtiva edir. Bu, bellərdə formalaşmanın başlanğıclarından tutmuş, bu başlanğıcların qabırğalar arasındakı orqanların arxa tərəfinə doğru hərəkət etməsinə kimi, bel və köks arasında öz (sabit) yerini tutana kimi prosesləri əhatə edir. Ata və ananın özü də bu prosseslə dünyaya gəlmiş, yetkin yaşa çatmış və bir-biriylə evlənmiş, sonra onlardan (yeni) zürriyyət törənmişdir. Bu zürriyyət onların hər ikisinin bir-birinə bənzəyən nütfəsində bəşər birləşmələri olmadan spermatozoiddən ortaya çıxır. Lakin bu qarışım (qadın və kişi nütfəsinin qarışması) canlıdır, avtomatik olaraq özünə bənzəyən nütfə ilə qarışmaq üçün axır. Beləcə iki cinsin bir-birinə qarışmış (10) nütfəsi formalaşır. Uca Allahın: **"İnsan axıdılan nütfədən yaradılmışdır. Bu nütfə bel və köks sümükləri arasından çıxır".** (Tariq. 6-7) ayəsi elmi həqiqətdir ki, elmin bunu on üç əsrdir ki, öyrənməsi, aşkar etməsi və isbatlaması gecikmişdir. Bunun izahı belədir ki, insanın صلبه sülbü (beli) onun onurğa sütunudur (ترائبه) ‹köksü isə onun sinəsinin sümükləridir. Əgər biz Embriologiya elminə müraciət etsək, kişinin xayalarının və qadının

yumurtalıqlarının inkişafında bu ayətləri izah edən ağılları heyrətə gətirən həqiqətləri görə bilərik. İstər xayalar, istər də yumurtalıqlar olsun öz formalaşma mərhələsinin başlanğıcında böyrəklərlə yaxından kontaktda olur, bel və köks arasında qalır. Yəni, onurğa sütununun təqribən ortasında və aşağı qabırğalarla qarşı-qarşıya qalır .

Əgər xaya və yumurtalıq öz inkişafında, arteriya qanı ilə dəstək olunmaqda və öz fəaliyyətinin sinirlər vasitəsilə qaydaya salınmasında bədənin bel və köks arasında olan bir yerinə etimad göstərirlərsə, buradan Qurani-Kərimin doğru danışması və onun aləmlərin Rəbbi tərəfindən gəlməsi aydın olur. Müasir elm bunu yalnız bu ayətlərin nazil olmasından on üç əsr sonra ortaya çıxarmışdır. Budur, xayalar və yumurtalıqların hər biri öz inkişafının kamilliyindən sonra bizə məlum olan yerə düşür; xayalar xaya dərisi içinə enib oradakı yerini tutur, yumurtalıqlar da (ana) rəhminin klapanın yanındakı su toplanan yerdə özünə yer edir. Bəzən olur ki, bu düşmə əməliyyatı baş vermir və xayalar xaya dərisi içinə düşmür, xayalar öz yolunda dayanır və onları xaya dərisinin içinə endirmək üçün xüsusi cərrahiyyə əməliyyatı etməyə ehtiyac yaranır.(11) "

Dr. Muhəmməd Əli əl-Bərr demişdir :

"Bununla yanaşı (kişilərdə) xayanın və (qadınlarda) yumurtalığın qan, sinir və limfalarla qidalanması təməl prinsip etibarilə bel və köks arasında baş verir. Çünki xaya və yumurtalıqların arteriya damarı bel tərəfdəki əsas arteria damarından gəlir, hansı ki, bu da bel və sinə arasındadır. Necə ki, xayanın şah damarı da eyni yerdən gəlir, yəni bel və sinə (köks) arasından gəlir. Bunun kimi xayaları və yumurtalıqları qidalandıran sinirlər də mədə altında olan sinir sistemindən - bel və sinə (köks) arasından gəlir. Eyni zamanda limfa damarları da eyni yerdən axır. Məgər bundan sonra xayaların və yumurtalıqların öz qidalanmasını, qanını və sinirlərini bel və köks arasından götürməsi haqqında hansısa bir şübhə qalırmı?! Kişilərin spermasını həyatda tutan amillər və ya qadınların yumurtalığının formalaşmasını təmin maddələr bel və sinə arasındadır. Necə ki, onun başlanğıcı və inkişafı da bel və sinə arasındadır. Ayədəki ecazkarlıq da buradadır ki, burada "sinədən belə kimi" deyilmir, "sinə və bel arası" ifadəsi işlədilmişdir. Ayədəki بَيْنِ (arasında) sözü təkcə bəlağəti ifadə etmir, həm də elmi dəqiqliyi ifadə edir. Müasir elm təsdiqləyir ki, su atılmır, nə də (öz-özünə) fışqırmır, sadəcə axır...o, yalnız qadın övrətindən çıxan ifrazatlardır və onunla bağlantısı olan "parsolin" vəzləridir. Bu ifrazatların embrionun inkişafına heç bir aidiyyatı yoxdur, funksiyası sadəcə vajinanı rütubətləndirməkdir. Lakin müasir elm heyrətamiz bir

şeyi aşkarlamışdır. (Quranda insanın yarandığı suyun fışqırmasının vurğulanması) sperma kütləsinin özündə fışqıran suyu daşıması var. Bunun kimi yumurta yumurtalıqda su ilə əhatələnmiş "Qraf" kisəciyində olur. Kisəcik partladığı zaman su fışqırır, yumurtalığı rəhim kanalına daxil etmək üçün yumurtalıq kanalının saçaqlarını qaplayır ki, sperma ilə qarşılaşaraq qarışıq nütfə əmələ gətirə bilsin...Bu su kişinin spermasını tam şəkildə daşıdığı kimi yumurtanı da daşıyır. Hər ikisi də fışqırır. Hər ikisi də bel və sinə (köks) arasından, tənasül vəzlərindən - xaya və ya yumurtalıqdan - çıxır. Qurani-Kərimin əsrarəngiz mənalarından biri və elmi ecazkarlıqlarından biri bir daha aydın olur: xayadan çıxıb fışqıran su spermanı daşıyır. Qraf kisəciyindən çıxıb fışqıran su isə yumurtalığa doğru yumurtanı daşıyır ."(12) ."

## Qeydlər və istinadlar:

1 - هداية الملحدين - من بين الصلب والترائب (المقال)
2 - Bax: Səhih əl-Buxari. 5565. Səhihi Müslim. 1966. Bu haqda digər mənbələrdə də hədislər var .
3 - Bu haqda başqa rəylər də mövcuddur .
4 - Təfsiru Əy əl-Quran. İbn Cərir ət-Təbəri-354/24) . .(356
5 - Qurtubinin təfsiri.(343/16 ؛5/20)
6 - Təfsirul-Quranil-Azim. İbn Kəsir.(375/8) .

7 - İbn Cərir ət-Təbərinin təfsirinə bax: Eyni ayənin təfsiri .
8 - Eyni mənbə.
9 - İslam bu gün الإسلام اليوم saytından nəqllə .
10 - İki cinsin qarışmış nütfəsi haqqında ayət belədir: "Biz insanı qarışıq nütfədən yaradaraq onu sınaqdan keçirmək məqsədilə eşidən və görən etdik". (İnsan. 2).
11 - İslam bu gün الإسلام اليوم saytından nəqllə .
12 - Tibb və Quran arasında insanın yaranması. səh. 114-124.

## Yer göylərdən öncəmi yaradılıb?

**Şübhə belədir:** *Quranda əl-Bəqərə surəsinin 29-cu ayəsi, həmçinin Fussilət surəsinin 9-11-ci ayələrində bildirilir ki birinci yer yaranıb, sonra kainat yaranıb. Yəni, birinci yer, sonra da ayədə gəldiyi kimi yeddi qat göy yaranıb. Sual belədir: elmlə sübut olunub ki, kainat yaranmadan öncə yer yarana bilməzdi. Kainat yerdən də, bütün günəş sistemindən daha qədimdir. Kainatın böyüklüyü hara? - O günəş sistemindən bir neçə milyard il daha qədimdir. O boyda sistem hara və yer kürəsi kimi kiçik (zərrə kimi, nöqtə kimi) yer hara? Bunu izah edərdiniz.*

**Cavab belədir:** Qurani-Kərimdə yerin yoxsa səmanın birinci yaradılmasının təsdiqləndiyini bilmək üçün bu haqda bütün ayələrə baxılmalı və düzgün təsəvvür formalaşmalıdır. Əksinə Qurani-Kərim yerin birinci yaradıldığını iddia etməyib. Elə bir ayə də yoxdur. Fussilət surəsi 9-11-ci ayələr yerin yaranmasından bəhs edir. Digər ayələri cəm etmədən bu qənaətə gəlmək yanlışdır. Əl-Bəqərə surəsinin 29-cu ayəsi haqda isə az sonra danışacağıq. Yanlış anlaşılma və ya yanlış yozma nədən baş verir? Xəta Quran sözlərinin anlamaqda yanlış anlayışda baş verir. Fussilət surəsinin 9-cu ayəsindən sonra 11-ci ayədə deyilir ki: "Sonra O, tüstü halında olan səmaya tərəf

yüksəldi". (Fussilət. 11). Ayədən görünür ki, səma artıq mövcuddur, mövcud olmasa ora yönəlməzdi (1). Deməli, burda çaşdırıcı və ya kimlərinsə bizi çaşdırmaq istədiyi məqam var. Bir misal verək; mən bu evimin bir hissəsini tikib qurtardıqdan sonra özümə aid bağ sahəsinə ağac əkmək üçün gedirəmsə, bu o deməkdir ki, mən evimi tikən zaman o bağ mövcud deyildi? Diqqətlə oxuyun. Allah səmanı yaratdı, sonra səmaya tərəf yönəldi. Bu o deməkdir ki, Allah səmaya yönəldikdə artıq səma mövcud idi .

**Sual verilsə ki,** *bu ayədə nə zaman elmi xəta baş verə bilərdi?* - deyirik ki, əgər Allah desəydi ki: "Yeri iki gündə yaratdı, sonra səmanı yaratdı", lakin Quranın ifadəsi belə deyil. O zaman Quranın əvvəlindən axırına kimi elə bir ayə yoxdur ki, səmanın yerdən sonra yarandığını bildirsin. əl-Bəqərə surəsinin 29-cu ayəsi də eynilə Fussilət surəsindəki ayət kimidir. Allah yeri yaratdıqdan sonra artıq mövcud olan bir səmaya tərəf yönəlir. Ayətin əvvəli belədir: "Yer üzündə olanların hamısını sizin üçün xəlq etdi, sonra səmaya yüksəldi". (Əl-Bəqərə. 29). Deməli səma mövcud idi ki, ona tərəf yönəldi. Allah demir ki" خلقهن سبع سماوات ، yeddi göyü (yox ikən) yaratdı. Burada ərəbcə "فسواهن fəsəvvahunnə" sözü istifadə olunur. Bu, var olan bir şeydən düzəltmək mənasını verir. Quran ibarələri dəqiqdir. Burda daha bir məsələ var. Yer iki günə yarandı, lakin yer hələ

döşənməmişdi. Yerin döşənməsindən öncə Allah mövcud olan səmanın yaradılışını təkmilləşdirir, ən sonda isə yeri döşəyir. Bunu anlamaq üçün aşağıdakı üç mərhələni başa düşmək, diqqətlə öyrənmək lazımdır .

Qurani-Kərimdə göylərin və yerin yaradılması üç mərhələdə vəsf olunur. Bu nəticə həm Qurani-Kərimi, həm də müasir elmi ətraflı tədqiq etməklə əldə olunmuş nəticədir؛

1 - Bir-birinə bitişmə, bir-birinə bağlılıq mərhələsi .
2 - Göylərin və yerin yaradılması mərhələsi .
3 - Yerin döşənməsi mərhələsi .(2)

**Birinci mərhələ:** *İlkin yaradılış zamanından bəri yerin maddəsi səmanın maddəsi daxilində idi. Bu ikisinin ayırd etmək olmurdu.* Məhz bu haqda uca Allah buyurmuşdur: "Məgər kafirlər göylərlə yer bir olduğu zaman Bizim onları bir-birindən araladığımızı, hər bir canlını sudan yaratdığımızı görmürlərmi? Yenədəmi inanmırlar?" (Ənbiya. 30). İbn Kəsir bu haqda demişdir: "(Səma ilə yer) hər biri bir-birinə bitişik, bir-birinə keçmiş halda idi. Yaradılışın başlanğıcında biri digərinin üzərində idi (3). Deməli, yaradılışın əvvəlində yerin maddəsi ilə səmanın maddəsi bir-birinə bitişik, bir-birinə keçmiş halda idi ki, onların arasında bir fərqləndirmə etmək olmurdu. Təbii

ki, birinci mərhələdə ilk orqanizmlər ortaya çıxmağa başladı. İlk mərhələdə yerin ehtiyacı olan ən əsas maddələr də ortaya çıxdı: hidrogen, helium, litium və s. Bu mərhələdə yer üzünün azuqələri təqdir edildi. Bu zaman hələ yerlə səma bir-birinə keçmiş, bitişik formada idi.

ANAT-ın (Avropa Nüvə Araşdırmaları Təşkilatı) rəsmi saytında deyilir: "A few millionths of a second later, quarks aggregated to produce protons and neutrons. Within minutes, these protons and neutrons combined into nuclei. As the universe continued to expand and cool, things began to happen more slowly. İt took 380.000 years for elektrons to be trapped in orbits around nuclei, forming the first atoms" (4).

Yəni, "Saniyənin bir neçə milyonda biri sonra kvarklar birləşərək proton və neytron əmələ gətirdilər. Bir neçə dəqiqə ərzində bu proton və neytronlar birləşərək nüvələrə çevrildi.  Kainat genişlənməyə və soyumağa davam etdikcə, işlər daha yavaş baş verməyə başladı. Elektronların nüvələr ətrafındakı orbitlərdə tutularaq ilk atomları meydana gətirməsi 380 min il çəkdi".

Qeyd olunan bu mənbə göylə yerin bitişik olduğu mərhələdən bəhs edir, bu da özündə Ənbiya surəsindən

yuxarıda verilən həqiqəti əks etdirir. Bu mərhələdə yerin ehtiyacı olan maddə və cismlər təqdir və təyin edildi .

**İkinci mərhələ:** *Bundan sonrakı ikinci mərhələdə qalaktikalar, günəş, ulduz və planetlər ortaya çıxmağa başladı.* Bu haqda uca Allah buyurur: "Sizin yaradılışınız çətindir, yoxsa göyün? Allah onu qurdu, gecəsini qaranlıq edib, səhərini də nurlandırdı. Bundan sonra isə yeri döşədi, onda su və otlaq yaratdı". (Nəziat. 27-31). Deməli, ikinci mərhələdə yerin döşənnəsindən öncə ulduzlar, qalaktikalar, günəş və planetlər ortaya çıxdı. Yer səmadan ayrılmamışdan öncə bu prosses baş verdi. Məhz buna görə uca, Allah ən sonda "sonra isə yeri döşədi" deyir. Yerin döşənməsini ən axırda vurğulayır. Quran ayəsi açıq-aydın şəkildə yerdən öncə nələrin ortaya çıxmasını bildirdikdən sonra "بعد ذلك" yəni, "bundan sonra" ibarəsi ilə yerin döşənməsini axırda qeyd edir. Yəni yerlə göy birinci yaranma mərhələsində bitişik ikən, ikinci mərhələdə onun döşənməsi baş verir. Məhz bu haqda ən böyük Fizika və Astronomiya saytlarından biri olan "Home.Cern" saytında yuxarıda verdiyimiz mənbənin davamında belə deyilir:

"1.6 million years later, gravity began to from stars and galaxies from clouds of gas.(5) "

Yəni: "1,6 milyon il sonra cazibə qüvvəsi qaz buludlarından ulduzlar və qalaktikalar əmələ gətirməyə başladı ."

**Üçüncü mərhələ:** *Deməli, üçüncü mərhələ yerin döşənməsi mərhələsidir ki bu, ən axırda baş vermişdir.* Başqa bir ifadə ilə desək, yerin tam şəkildə səmadan ayrılması, seçilməsi, fərqlənməsi bu mərhələdə baş vermişdir .
Bu üç mərhələ dini və dünyəvi mənbələrin birgə müqayisəsi, oxunması, uzlaşdırılması zamanı əldə edilən nəticədir. Bu nəticə heç bir ziddiyyəti özündə ehtiva etmir (6). Ərəbcə bu elmi metoda" الاستقراء əl-istiqra" deyilir .

"Əl-Bəqərə" surəsinin 29-cu ayəsinə gəldikdə isə, ayədə səmanın yeddi səma ilə bərabərləşdirilməsinə gəldikdə bu qeybi məsələdir. Bunu Allahdan başqa kimsə bilmir. Həmçinin müasir elm də bu məsələdən danışa bilmir. Çünki bizim müşahidə edə bildiyimiz səma yalnız birinci səmadır. Daha düzünü Allah bilir. Müşahidə etdiyimiz səma yalnız birinci səma ilə əlaqədardır. Bu sözün eynisini "Home.cern" saytı da ifadə edir. Qeyd etdiyimiz eyni mənbədəki saytda deyilir:

"But stars and galaxies do not tell the whole story. Astronomical and physical calculations suggest that the visible universe is only a tiny amount (4%)
.(7)

Yəni: "Ancaq ulduzlar və qalaktikalar bütün hekayəni izah etmir. Astronomik və fiziki hesablamalar göstərir ki, görünən kainat kainatın əslində nədən ibarət olmasını göstərən 4%-lik çox kiçik bir hissəsidir ."

"Buna əsasən, biz kainatın cəmi dörd faizini görə bilir, müşahidə edib araşdıra bilirik. Kainatın qalan 96%-ni biz görüb müşahidə edib araşdıra bilmirik və bu haqda bir elmə sahib deyilik. Eyni sayt xəbər verir ki, kainatın 26%-i qara maddədən ibarətdir və ya zülmət maddəsidir. Biz bu maddə haqqında da bir bilik sahibi deyilik. Bu maddə bizim üçün sirli qalır, orada günəş, ulduzlar, planetlər və s. yoxdur və təsəvvürümüz xaricindədir. Deməli, səmanın yeddi səma ilə bərabər tutulması qeyb aləmidir. Bu haqda bir bilgimiz yoxdur, necə ki bu, müasir elmin də müşahidə etdiyi bir məsələ deyil. Bildiyimiz yalnız birinci dünya səması haqqında elmdir (8). Bu səmadan qəsd olunan isə Quranda keçən yeddi səmadır. Biz onun yalnız birincisini öyrənə və araşdıra bilirik. Söhbət coğrafiyaşünasların bölgüsünə əsasən nəzərdə tutulan səma qatlarından getmir .

**Mövzunu yekunlaşdıraq:** Bu məsələlər aydın olandan sonra bir daha demək olar ki, Quranda yerin səmadan öncə yarandığını bildirən hansısa bir ayə yoxdur. Quran bütünlüklə təkid edir ki, öncə səmalar yaranmışdır. Bir çox ayələrdə uca Allah səmaların yerdən öncə yaranmasını təkidlə vurğulayır. Gəlin verilmiş ayətləri diqqətlə oxuyaq: "Göyləri və yeri haqq olaraq xəlq edən Odur". (Ənam. 72). Başqa bir ayədə buyurur: "Həmd, göyləri və yeri yaradan, zülmətləri və nuru var edən Allaha məxsusdur!" (Ənam. 1). Başqa bir ayədə buyurur: "... göylərin və yerin yaradılışı haqqında düşünərlər…". (Ali İmran. 191).

Həmçinin buyurmuşdur: "Həqiqətən, göylərin və yerin yaradılışında, gecə ilə gündüzün bir-birini əvəz etməsində ağıl sahibləri üçün dəlillər vardır". (Ali İmran. 190). Həmçinin buyurmuşdur: "Həqiqətən də, göylərin və yerin yaradılmasında…" (əl-Bəqərə. 164). Həmçinin bu ayələr: əl-Bəqərə 33, əl-Bəqərə 107, əl-Bəqərə 116-117 və s). Mühüm fayda qeyd edim ki, Qurani-Kərimdə "əl-Bəqərə" surəsindəki səmalar və yer السماوات والأرض ifadələrini yazıb bitirdikdən sonra, elektron araşdırma ilə mənə aydın oldu ki, sən demə Qurani-Kərimdə 136 dəfə "göylər və yer السماوات) " (والارض ifadələri işlənib. Heç birində "yer və göylər" kimi ifadənin şahidi olmadım. Yalnız bir ayədə yer göylərdən öncə qeyd edilib (Taha. 4), o da yerlə

göyləri "sonra" sözü ilə deyil, "və" bağlayıcısı ilə birləşdirib ki, ərəb dilində bu ifadə ardıcıllığa, tərtibə dəlalət etmir. "Taha" surəsində yerin birinci vurğulanması, sonra isə göylərin fərqli şəkildə "uca" sözü ilə vurğulanması, Allahın şəninə tərif məqamında göylərin əzəmətli, müdhiş bir yaradılışla yaradılmasına işarət etmək üçün edilmişdir. Həmçinin bu ayət, Ərəb dilinin bəlağətinə uyğun şəkildə verilmişdir. Bəli, ərəb dili dəqiqdir. Quran da ibarələrində dəqiqdir. Qurani-Kərimdə 136 ayədə "göylər" sözü "yer" sözündən öncə gəlir. Bu dilin qaydalarını bilmədən danışıldığı zaman, məhz o zaman kimlərsə, səhv axtarışına çıxsa da yarı yolda qalacaqdır! Qurani-Kərim müasir elmə uyğun şəkildə kainatın yaranmasının üç mərhələsini təsdiqləyir. Artıq bu məsələ əvvəldə izah edildi. Sonda həmd olsun aləmlərin Rəbbi olan Allaha !

## Qeydlər və istinadlar:

1 - Ərəbcə videoçarx : هل خلقت الأرض قبل السماء؟ عبد الدائم الكحيل
Videoçarxın linki:
https://youtu.be/Rwn7yZguks8?si=APKBS4buiUbQjfsd

2 - Bəyan əl-İslam ensiklopediyasındakı məqalə : توهم تناقض القرآن حول أسبقية خلق الأرض والسماء.

3 - Təfsirul-Quranil-Azim. İbn Kəsir. Ənbiya surəsi 30-cu ayənin təfsiri.
4 – "Home.cern" saytındakı məqalənin keçidi: https://home.cern/about/physics/early-universe
5 - Öncəki mənbə, eyni mətnin davamı.
6 - Heysəm Talat أيهما خلق أولا: السماء أم الأرض؟ .Which was created first: heaven or earth? adlı videoçarx. 5:05. Həmçinin bu üç mərhələni qeyd edən mötəbər İslami ensiklopediyalardan بيان الإسلام Bəyan əl-İslam ensiklopediyasını qeyd etmək olar. Məqalənin adı توهم : تناقض القرآن حول أسبقية خلق الأرض والسماء.
7 - "Home.cern" saytındakı məqalənin keçidi: https://home.cern/about/physics/early-universe
8 - Heysəm Talat أيهما خلق أولا: السماء أم الأرض؟ .Which was created first: heaven or earth? adlı videoçarx.

# Allah öz istədiyini azdırır və hidayət edirsə, bəs insanın məsuliyyəti yoxdurmu?

**Şübhə belədir:** Allah istədiyini azdırır, istədiyini də doğru yola yönəldirsə, bəs insan öz qərarları haqqında məsuliyyət daşımırmı?

**Şübhəyə qısa cavab :**

**1 -** Allah bütün qullarına seçim, hürriyyət, azadlıq vermişdir, o mənada ki, onları öz seçimləri ilə xeyir və ya şər etməyə müvəffəq etmiş, bunda ixtiyar, seçim vermişdir. Kim xeyir yolunu seçərsə, ona o yol asanlaşdırılar. Kim də şər yolunu seçərsə, o yol ona asanlaşdırılar. Allah bir insanı seçdiyi yola yönəldər və onun istəyi bununla gerçəkləşər. Deməli, azğınlıq yolunu insan özü seçir: "Onlar doğru yoldan sapdıqda, Allah da onların qəlbini sapdırdı". (Saff. 5).

**2** - Allahın hidayət etməsi və azdırması o demək deyil ki, kimisə kimdənsə üstün tutur, yaxud kiminsə tərəfini saxlayır və ya kimisə tərk edir (1). Bu ayət belə anlaşılmalı deyil. Əksinə, Allah qullarının küfr etməsinə razı deyildir. Necə ki, bu haqda buyurmuşdur: "Küfr etsəniz, bilin ki, Allah sizə möhtac deyil. O, qullarının kafirlik etməsinə razı olmaz. Əgər şükür etsəniz, buna görə sizdən razı qalar". (Zümər. 7).

**3 -** Allah peyğəmbər göndərmədən əzab vermir. Bizə də şəriətinə tabe olmağımız üçün son peyğəmbəri göndərib. Uca Allah buyurur: "Kim doğru yolla getsə, xeyri onun özünə olar, kim azğınlığa düşsə, ziyanı da onun öz əleyhinə olar. Heç bir günahkar başqasının günahını daşımaz. Biz elçi göndərməmiş heç kəsə əzab verməri̇k". (İsra. 15). Əgər Allah peyğəmbər göndərmədən əzab vermirsə, görün indi yaratdığını ayrıseçkilik edib kimisini cənnətə, kimisini də cəhənnəmə salarmı? Haşa, Allah ədalətlidir. Zülmdən uzaqdır. O zərrə qədər də öz qullarına zülm etməz. Allah bir çox ayələrdə Qullarının ixtiyarını, seçimini onların özlərinə bağlayır. Elə qeyd olunan ayəni də tam şəkildə oxusaq, hətta şübhə kimi qeyd olunan ayənin özündə qulların ixtiyarı və seçimi təsdiqlənmişdir .

**4 -** İbn Qeyyim (Allah ona rəhmət etsin) demişdir: "Hidayət etmək və azdırmaq Allahın feli və qədəridir. Hidayət olunma və azma isə qulun feli və qazancıdır. Bu məsələni müəyyənləşdirmədən öncə Qurani-Kərimdəki hidayətin və azğınlığın mərtəbələrini bilmək lazımdır. Hidayətin mərtəbələrinə gəldikdə bunlar dörddür" (2).(3)

**Şübhəyə ətraflı cavab:** İlk öncə gəlin belə bir misal verək; fərz edək ki, güclü bir hökumət belə bir elan verir: heç kimsə hakimiyyətimizə qarşı çıxa

bilməyəcək, biz istədiyimizi cəzalandıracaq, istədiyimizi mükafatlandıracağıq. Lakin eyni zamanda bu hökumətimiz adil hökumətdir. Cəzanı yalnız layiq olana verəcəyik, mükafatı da layiq olana verəcəyik. Görəsən, burda iki söz arasında ziddiyyət varmı? Mütləq şəkildə xeyr. Ən gözəl misallar isə Allaha aiddir. Allah da istədiyini azdırır, istədiyini doğru yola yönəldir. Çünki onun istəyi yerinə yetir, heç kim onun üzərində hökmranlıq edə bilməz. O böyük güc və əzəmət sahibidir .(4)

**Allah ədalətlidir**: Eyni zamanda Allahın istəyi də ədalətlidir. O, azmağa layiq olanı azdırır, hidayətə layiq olanı hidayət edir. Ona görə də gəlin həmin ayəni diqqətlə və tam şəkildə oxuyaq. Allah Qurani-Kərimdə buyurmuşdur: "Pis əməli özünə gözəl göstərilib onu yaxşı hesab edənlə, doğru yolla gedən kimsə eyni ola bilərmi? Həqiqətən, Allah istədiyini zəlalətə salır, istədiyini də doğru yola yönəldir. Sən onlara görə özünü üzüb əldən salma. Şübhəsiz ki, Allah onların nə törətdiklərini bilir". (Fatir. 8). Ayədə deyildiyi kimi "Allah onların nə törətdiklərini bilir": Allah onlardan hidayəti istəyənləri bilir, Allah onlardan azğınlığı istəyənləri bilir. Onlardan hər kim zəlalət yolunu gedərsə, onun üçün zəlalət yolu asanlaşar, onlardan hər kim hidayət yolunu gedərsə, ona da hidayət yolu asanlaşar, o yola müvəffəq olar .

İbn Kəsir (Allah ona rəhmət etsin) bu ayənin təfsirində demişdir: "Uca Allah onlara (haqqı) bəyan etdikdən və onlara öz hüccətini çatdırdıqdan sonra istədiyini doğru yoldan azdırır, istədiyini də haqqa yönəldir.(5) "

Həmçinin buyurmuşdur: "Amma Allah istədiyini doğru yola yönəldir. O, doğru yolda olanları daha yaxşı tanıyır". (Qasas. 56). Allah hidayəti istəyənləri daha yaxşı tanıyır. Baxın, uca Allah hidayətin artmasından bəhs edir: "Doğru yolla gedənlərə gəldikdə isə, Allah onlara hidayətini artırar və onları təqvalı olmağa müvəffəq edər". (Muhəmməd. 17). Deməli, ayətlər bir-birini izah edir. Hidayətin artması üçün də insanın özünün doğru yolda olması gərəkir. Hər kim hidayət yolunu istəyərsə, Allah onun hidayətini artırar, imanına və hidayətə hərisliyinə görə onu hidayət yoluna yönəldər. Başqa bir ayədə uca Allah buyurur: "İman gətirib saleh əməllər edənləri Rəbbi imanlarına görə doğru yola yönəldər". (Yunus: 9). Bunun müqabilində isə hər kim ki, azğınlığı, sapqınlığı, küfrü və ateizmi istəyərsə, onun üçün bu zəlalət, küfr və ateizm səbəbləri asanlsşar. Bu ayədəki kimi: "Onlar doğru yoldan sapdıqda, Allah da onların qəlbini sapdırdı. Allah fasiqləri doğru yola yönəltməz". (Saff. 5).

**Küfr istəyən insan üçün zəlalətin səbəbləri asanlaşar:** "Kim Mərhəmətli Allahın zikrindən üz döndərsə, Biz şeytanı ona calayar və o da ona yoldaş olar". (Zuxruf. 36). İnsan Allahdan uzaqlaşarsa, ona şeytan yaxınlaşar və onun dostu olar. Əgər hər addımda insana şeytan gələrsə, onun küfrdən qurtulması çox çətin olar. Bu azğınlıq onun öz əliylə qazandığıdır. "və: “Qəlblərimiz qapalıdır!”– dəmələrinə görə lənətə düçar edildilər. Xeyr, küfrləri üzündən Allah onların qəlblərini möhürləmişdir". (Nisa. 155). Deməli, azğınlıqları və küfrləri səbəbilə Allah onların qəlblərini möhürləmişdir .

Elə isə zəlalət yolunu istəyənin halı tamamilə vərdiş halını almış adamın halı kimidir. Bu adətkar olan kimsə işin əvvəlində tamamilə öz iradəsi ilə vərdişini yerinə yetirir, lakin az sonra iradəsi zəifləyir və bu ağlı başdan alan (keyləşdirən, uyuşduran) vərdişdən əl çəkib qurtula bilmir, qəlbi möhürlənir .

Küfrü istəyən insan tamamilə öz iradəsi ilə küfr olan yerləri axtarır və ateistləri dinləyir, lakin küfrə bağlandıqdan sonra iradəsi zəifləyir, bu batil fikirlərə tamamilə təslim olur və küfrünə boyun əyir .

Bununla yanaşı küfrü istəyən kimsə (həyat barədə) vecsizlik və mənasızlıq xəstəliyinə düçar olur. Hətta

intihar meyillərinə belə düçar olur. O, hətta öz küfrü ilə var olmasının mənasını itirir .

Bütün bunlarla yanaşı özü öz nəfsinin dərinliyində küfrün uğursuzluğu və dəyərsizliyindən əmin olmağa başlayır. Lakin bütün bunlarla yanaşı öz nəfsində haqqı axtarıb ona tabe olmaq işində qorxu və iradə azlığı hiss edir. "Ona deyiləcəkdir: “Bu, əvvəllər öz törətdiyin əməllərin əvəzidir, yoxsa Allah qullarına əsla zülm edən deyildir". (əl-Həcc. 10). Lakin insan nə zaman hidayəti istəyərsə, asanlıqla ona müvəffəq ola bilər. "De: “Allah istədiyini sapdırır. Tövbə edib Ona tərəf yönələn kimsəni isə doğru yola yönəldir". (Rad. 27). Bir qüdsi hədisdə deyilir: "Məndən hidayət olunmağınızı istəyin sizi hidayət edim .(6) "

Başqa bir qüdsi hədisdə uca Allah buyurur: "Qulum Mənə bir qarış yaxınlaşarsa Mən ona bir arşın yaxınlaşaram. Mənə bir arşın yaxınlaşarsa Mən ona bir qulac yaxınlaşaram. O yeriyərək Mənə gəlsə, Mən ona sürətlə yürüyərək gələrəm (7) ."

Allahın istəyi ədalətlidir. Azmağı istəyən kimsəni ədalətli şəkildə ilə azdırar. Öz lütfü sayəsində hidayət istəyəni doğru yola yönəldər. O, necə də gözəl buyurmuşdur :

"Kim haqqını verir və Allahdan qorxursa, və ən gözəl olan “lə ilahə illəllah” kəlməsini təsdiq edirsə, Biz onu ən asan olana nail edəcəyik. Kim də xəsislik edərək Rəbbinə ehtiyacı olmadığını güman edirsə, və ən gözəl olan “lə ilahə illəllah” kəlməsini yalan hesab edirsə, Biz onun üstünə ən çətin olanı yükləyəcəyik". (Leyl. 5-10) .

**Allah heç kimə zərrə qədər də olsun zülm etməz:** "Şübhəsiz ki, Allah zərrə qədər haqsızlıq etməz. Əgər qulun gördüyü iş yaxşı əməl olarsa, Allah onun savabını qat-qat artırar və bu əməl sahibinə Öz tərəfindən böyük mükafat verər". (Nisa. 40). Uca Allah hökm Sahibidir, Ədalətlidir, Lütfkardır və hər şeydən Xəbərdardır !

**Təəccüblü olan budur ki**, uca Allah əvvəlcədən bizə xəbər vermişdir ki, ateistlər, müşrik və kafirlər bu sözü bəhanə gətirəcək və deyəcəklər: "Allah istəsəydi biz inkarçı olmazdıq, bizi azdıran Allahın Özüdür". Beləcə onlar Allahın Quranda xəbər verdiyi kimi belə deyirlər: "Müşriklər deyəcəklər: “Allah istəsəydi, nə biz, nə də atalarımız Ona şərik qoşar, nə də biz bir şeyi haram edə bilərdik.” Onlardan əvvəlkilər də öz peyğəmbərlərini beləcə yalançı hesab etmişdilər. Axırda əzabımızı daddılar. De: “Bizə göstərə

biləcəyiniz bir bilginizmi var? Siz ancaq zənnə qapılır və ancaq yalan danışırsınız". (Ənam. 148).

Məgər sizin "Allah sizi küfrə məcbur edib" sözünə hansısa bir dəliliniz varmı?! Siz ancaq zənnə qapılır və ancaq yalan danışırsınız. Onlar özlərinin üzərində olduqları küfrə bəhanə gətirmək üçün bu cür fərziyyələri danışrlar. Əslində isə küfr də, doğru yol da insanın öz seçimi ilə olur. Uca Allahın buyurduğu kimi: "Şübhəsiz ki, Biz ona yol göstərdik! O ya şükür edər, ya da naşükür olar". (İnsan. 3).

İbn Useymin (Allah ona rəhmət etsin) bu mövzuda çox incə bir məqama toxunaraq demişdir :

"Əgər soruşulsa ki: necə ola bilər ki, Allah bunu hidayət əhli edir, bunu isə zəlalət əhli edir, məgər bu zülm deyilmi? O zaman deyərik ki: Xeyr. Çünki, hidayətin bu (zəlalətlə eyni) mənada olması qadağan olmuşdur. Azmış kimsə yalnız Allahın ədaləti gərəyincə (yəni azğınlığa layiq olduğu üçün) azmışdır. Doğru yola gələnin hidayəti isə Allahın lütfünə görədir. Ona görə də deyirik ki: Əgər Allah sənin olan bir şeydən səni məhrum edərsə, bax, o zaman sənə zülm etmiş olar. Əgər Allah öz lütfündən səni məhrum edərsə, (bilməlisən ki) Allah öz lütfünü istədiyinə verir. Əgər sən hidayətə layiq olsaydın, Allah səni hidayətindən məhrum etməzdi "(8 ).

## Qeydlər və istinadlar:

1 – "Bəyan əl-İslam" ensiklopediyası, eyni adlı araşdırma .
2 - Şifəul-Alil fi Məsəilil Qadə val-Qadər val-Hikmətu vət-Təalil. İbn Qeyyim. səh. 65.
3 - Hidayətin dörd mərtəbəsi bunlardır:
Birincisi: ümumi hidayətdir. Bu, hər bir canlının yaşayışı və ayaqda durması üçün gərəkən mənfəətləri əldə etməsinə yönləndirilməsidir. Bu, hidayətin ən ümumi mərtəbəsidir .
İkincisi: bəyan, yol göstərmə (dəlalət etmə), təlim və qulun axirətdə əldə edəcəyi mənfəətlərə çağırış mənasında olan hidayət. Hidayətin bu mərtəbəsi birinci mərtəbəsindən daha xüsusidir .
Üçüncüsü: hidayət olunmanın lazımlı edən hidayət; bu hidayət müvəffəq olma hidayəti və Allahın öz qulu üçün hidayət istəməsi, hidayətin səbəblərini yaratması, bu yaradılışı istəməsi və qul üçün hökmü altında etməsidir. Hidayətin bu mərtəbəsini Allahdan başqa kiminsə gücü yetməz .
Dördüncüsü: axirət günündə cənnətə və ya cəhənnəmə yönəltmək". (Eyni mənbə. səh. 65. Həmçinin bax: "Əqidə, dinlər, firqələr və müasir məzhəblər ensiklopediyası. "Hidayət sözünün mənası. 6/3042) .
4 - Allah istədiyini azdırırmı? Araşdırma. Heysəm Talat. "Bəsair" kitabı. 2/540.

5 - Təfsirul-Quranil-Azim. İbn Kəsir. İbrahim. 4-cü ayənin təfsiri .
6 - Səhih Müslim. 2577.
7 - Səhih əl-Buxari. 7405; Səhihi Muslim. 2675.
8 - Fatir surəsi, 8-ci ayənin təfsiri. İbn Useymin موقع أهل الحديث والأثر Saytdakı səsyazıya keçid: https://alathar.net/home/esound/index.php?op=codevi...

# Allahın sifətləri məxluqatın sifətlərinə bənzəyir?

**Şübhə belədir:** Din sahiblərinin Allaha nisbət etdikləri sifətlər insanların sifətlərinə bənzəyir. Dinlərdə tanrı sevgi, qəzəb, göz, əl, ayaq və s. ilə vəsf edilir. Tanrı tərifi və şükrü sevir, ondan üz döndərib tərif və şükür etməyənləri sevmir. Padşahların sifətləri ilə vəsf olunur, Ərşə yüksəlir, onun vəzirləri və orduları var, bütün bunlar bəşər övladının sifətlərinə uyğun gəlir, bu da ona dəlalət edir ki, bəşər övladının özü tanrını icad edib və özlərinə bənzər şəkildə onu vəsf ediblər.

**Şübhəyə cavab:** Bu etiraz ilahi sifətlərə və bu sifətlərin isbatında etimad olunan əqli yollara yanaşmada gərəkli olan doğru elmi metodu yanlış şəkildə təsəvvür etmək və bu sifətlərin keyfiyyətinə qarşı münasibətin necəliyi üzərində qurulmuşdur. Bu yanlış təsəvvürdəki naqislik və batillik bir neçə aspekdən ortaya çıxır:

**Birincisi:** İslamda Əhli Sünnə Allahı məxluqatına bənzətməkdən uzaqlıqda ən şiddətli olanlardır. Onlar sözləri və inancları Allahla bəndələrini bir-birinə bənzədənlərə qarşı ən çox inkar edənlər və bu bənzətməyə aparan yolların qarşısını almaqda ən güclü

olanlardırlar. İslam alimlərinin Allahı məxluqata bənzətməkdən uzaq və pak tutmaq haqqında sözləri həddindən artıq çoxdur. Onlar dəlillərlə bildiriblər ki, məxluqlardan Allahın tayı-bərabəri yoxdur, Allahın oxşarı yoxdur, onun bənzəri yoxdur
.

Alimlər bu haqda müxtəlif əqli dəlillərə əsaslanmışlar. Bunlardan; (deyiblər ki) əgər Allahın məxluqatı arasında hansısa bir tayı, bənzəri olsaydı, biri haqda icazəli olan, digəri haqqında da icazəli olardı. Birinə vacib olan digərinə də vacib olardı. Birinə qadağan olunmuş şey digərinə də qadağan olardı. Əgər sifətlərdə və həqiqətlərdə yoxdan var edənin tayı və ya bənzəri olsaydı - dəyəri aşağı olan biri olsa belə - o zaman  qullarında baş verməsi mümkün olan yoxluq, yaradana və ərsəyə gətirənə möhtaclığın icazəli olması halı yoxdan var edən haqqında da mümkün olardı.(1)

İslam əhli xristianların Allahı məxluqa bənzətmələrinə şiddətlə etiraz etmiş, İsa əleyhissalamın ilahiləşdirilməsinə qarşı çıxmış, Quran və hədislərlə bu inanc sabit olmuşdur. Quranın üçdə-birinə bərabər olan "İxlas" surəsi Allahın bənzərinin, tayının olmadığını əsrlərdir ki, insanlığa xəbər verir: "De: “O Allah Təkdir! Allah Möhtac deyildir. O, nə doğub, nə də doğulub, Onun bənzəri də yoxdur". (İxlas. 1-4).

Allahın yaratdıqlarına bənzəməz olması İslamda yəqinliklə bilinən bir məsələdir. Bunda gizli və qaranlıq bir şey yoxdur. Bu mənaya dəlalət edən çoxsaylı dəlillərdən biri də bu ayədir: "Onun heç bir bənzəri yoxdur. O, Eşidəndir, Görəndir". (Şura. 11) .
İslam əhli tarix boyu Allahla yanaşı ibadət olan salehlərin bütlərini sındırmışlar. Muhəmməd peyğəmbər bütpərəstliyin yaranmasının elmi izahını da öz hədislərində bildirmiş, bunun kökünün saleh insanlara olan sevgidən qaynaqlandığını, əvvəlcə onları xatırlamaq üçün heykəllərini düzəltmələri, sonra isə sonrakı nəsillərin bunu unudub onların heykəllərinə ibadət etməsini, beləcə bütpərəstliyin ortaya çıxmasını bildirmişdir.(2)

Bu dinin ardıcılları "bütsındıran" olaraq tanınmışlar. İndi kiminsə bu dində bütpərəstlik elementləri axtarışına çıxması sizcə onun dini savadının nə səviyyədə olduğunun göstəricisi deyilmi !؟

**İkincisi:** Alimlər bəndələri və ya məxluqu Allahla müqayisə etməyin doğru olmadığını bildirmiş, yalnız " قياس أولى daha üstün müqayisə"yə isə icazə vermişlər. Bu müqayisə digər müqayisələrdəki kimi batil metoda əsaslanmır, Allahı məxluqata bənzətməkdən uzaq tutur. Bəs bu daha üstün müqayisə nədir? Bu müqayisə Allah haqqında Quranda verilmiş vəsfləri olduğu kimi

təsdiqləmək, onun heç bir tayı və bənzərinin olmadığına etiqad etməklə Allaha aid hansısa bir vəsfin məxluqda da olduğunu deyənlərə misal ilə cavab verməklə aydın olur. Məsələn, deyilsə ki Quranda Allahın əlinin, gözünün varlığına işarət edən ayələr var, deyirik ki, Allahın əli onun özünə məxsusdur, məxluqun əlinə bənzəməyi gərəkli etmir, necə ki, filin əli ilə qarışqanın əli də var, lakin nə filin, nə də qarışqanın əli bir-birinə bənzəyir. Əgər iki məxluq arasında belə böyük bir fərq varsa, o zaman məxluq olmayan (yaradılmayan, əksinə yaradan) aləmlərin Rəbbinin əlini məxluqa bənzətmək nə dərəcədə doğrudur? Əlbəttə bu doğru deyil! Allah pak və nöqsanlardan uzaqdır.(3) !

Eləcə də Allahın qəzəbi (4) və sevgisi də özünəməxsusdur və məxluqa bənzəməyi gərəkli etmir. "Allaha məxsus sifətlərin isbatı (təsdiqi) zamanı iki böyük təhlükədən uzaq durmaq lazımdır: (məxluqa) bənzətmə və necəlik (keyfiyyət) vermək (5). Eləcə də Allahın tərifi, şükrü sevməsi, küfr edənləri isə sevməməsi onun şəninə yaraşır, o buna layiqdir! Lakin məxluqlar isə çox zaman layiq olmadığı təriflərə məzhər olur. Bu incə fərqləri düşündükcə bu bəsit şübhənin düyünləri çözülür .

"Padşahların sifətinə uyğun sifətlər" demək də yenə doğru vəsf deyildir. Allahın hökmranlığı da özünəməxsusdur. Allahın vəzirləri yoxdur, amma orduları var. Vəzir o deməkdir ki, ona məsləhət verirlər. Lakin, Allahın məsləhətə ehtiyacı yoxdur. O bir işin olmasını istədiyi zaman ona "ol" deyər, o da olar. Həmçinin, Allahın orduları özü üçün deyil, onun digər məxluqlarının işlərinin qaydaya salınması üçündür .

Bu cür yanlış təsəvvürlərin kökü bəzi batil, bütpərəstlikdən təsirlənmiş dinlərdə, məsələn xristianların kitablarında Allahın "ağsaqqal bir kişi" olaraq padşah kürsüsündə oturmuş şəkillərinin rəssamlar tərəfindən çəkilməsi, ona bəşəri vəsflərin verilməsi, təhrif olunmuş dini kitablara insan sözünün qarışdığı üçün o kitablarda (İncil, Tövrat) Allahın adından insana məxsus emosional davranışların qeyd edilməsinə və s. qədər gedib çıxır. Halbuki həmin kitabları tədqiq edən bəziləri bu təhriflərdəki ziddiyyətləri görərək bu məsələlərin İslamda da olduğunu irəli sürməyə çalışaraq böyük bir yanlışa yol vermişlər. Onlar İslamın etiqadi cəhətdən bütpərəstliyə qarşı apardığı mübarizəni və digər amilləri görməzdən gələrək bu yanlışa düşmüşlər .

**Üçüncüsü: Ateistlərin bu mövzudakı ziddiyyətləri:** Allahın görməsini onun məxluqa

bənzədilməsini fərz edən ateistə deyə bilərik: sizin iddianızdan belə çıxır ki, yaratdıqlarını görməyən və görməkdən də aciz olan bir ilahı siz bizə təqdim etmək istəyirsiniz. Biz isə deyirik ki, Allahın görməsi özünə layiq, şəninə yaraşan şəkildədir. Onun yaratdıqlarını görməsi onu məxluqa bənzətmək deyil. Əksinə, onun məxluqları görən olaraq yaratması onun böyük bir lütfüdür. Onun görməməsi isə onun üçün naqislik olardı deyə onun görməsi zəruridir. Beləcə görməsinin zəruri olması bu görməni məxluqlara bənzətməkdən uzaq tutmuş olur .

Onun güc-qüvvət sahibi olması onu padşahlara bənzətmir, o mübahisəsiz, məğlubedilməz güc sahibidir, padşahlar isə acizdirlər və məğlub edilə bilirlər .

Allahın öz şəninə yaraşan əli ola bilər və o bunu öz kitabında təsdiqləmişdir: "Allah buyurdu: “Ey İblis! Sənə Mənim iki əlimlə yaratdığıma səcdə etməyə mane olan nədir?" (Sad. 75). Bəndələrinə fərqli, məxluqa yaraşan bir əl veribsə, bu bənzətmə deyil, ondan olan bir lütfdür .

Onun ərşə yüksəlməsi ehtiyacdan dolayı deyil. Nə də onun kürsüyə ehtiyacı yoxdur.

"Bu etiraz mənalarla vəsfolunmanın həqiqəti aspektindən yanlış təsəvvür üzərində qurulmuşdur. Etirazçı elə zənn edib ki, hansısa bir sifətdə (vəsfdə) olan bənzərlik bütün aspektlərdən bənzər olmağı labüd edir. Bu doğru deyildir .(6) "

"Varlığın təbiəti ilə uyğun gələn həqiqətə görə bir sifətin kökündə bənzərlik bütün vəsflərdə ortaqlığı lazımlı etmir. Allahın sifətləri və yaratdıqlarının sifətlərinin mənalarında olan müştərəklik Allahı məxluqların xüsusiyyətlərilə vəsf etməyə dəlalət etmir. Allahın varlığının özünəməxsus xüsusiyyətlərinin olması məxluqatın varlığından onu fərqləndirir.(7) ."

**Dördüncüsü:** Əgər Allahın var olduğunu, kainatın yaradıcısı olduğunu qəbul ediriksə, əqli cəhətdən biz qəbul etmiş oluruq ki, o həyat, elm, qüdrət, hikmət, iradə və mülk və s. vəsflərlə vəsflənmiş bir varlıqdır. Çünki yaradılışı həyata keçirmək bu vəsflər olmadan mümkün deyil. Qətiyyən mümkün deyil ki, iman gətirənlər Allaha iman gətirmək, onun kainatı yaratması və onun sifətlərinin (vəsflərinin) təsdiq edilməsi arasında nəyisə inkar etsinlər. Onlar bunu etsələr, metodiki bir ziddiyyətə düşmələri labüddür. Baxmayaraq ki, həyat, elm, qüdrət, iradə və s. kimi sifətlər (vəsflər) insan cinsinin vəsfində də mövcuddur. O zaman etirazçıya deyirik ki, bu sifətlərin insan

cinsində olduğunu deməklə biz Allahı məxluqa bənzətmiş olmuruqsa, deməli, başqa sifətlərdə də durum bu cürdür. Çünki sifətlər fəsli eynidir, bəzi sifətlər haqqında danışmaq digər bəzi sifətlər haqqında danışmaq kimidir. Sifətlərin cinsi öz təbiəti və gərəkdirdiyi ehtiva baxımından birdir .

**Beşincisi:** "İslam şəriətinin vəsf etdiyi dəlillərin xurafatçıların öz ilahlarını vəsf etdiyi dəlilə bənzər olması" iddiası çox böyük hiyləli bir iddia və zahirdə baş verən həqiqətləri xəfifə almaqdır. Çünki xurafatçılar öz uydurduqları ilahları bir çox insani vəsflərlə vəsfləndirirlər, hansı ki müsəlmanlar qəti şəkildə bu vəsflərin Allaha layiq olmadığını bildirir və inkar edirlər. Xurafatçılar öz batil ilahlarını təbiət qüvvələri ilə mübarizə içində olması, oğurluq, bəşər övladı ilə evlilik, yatmaq, qəflət, yorğunluq, kişilik, qadınlıq və s. naqis vəsflərlə vəsf edirlər. Bütün bu naqisliklər açıq-aydın İslami dəlillərə görə uca Allahdan uzaqdır. O zaman əqli-məntiqi cəhətdən xurafatçıların öz batil tanrılarına aid etdikləri bu cür naqis vəsfləri İslamın uca Allaha aid etdiyi vəsflərə bənzətmək iddiası necə doğru ola bilər ؟ (8).

**Altıncısı:** İnsan emosional varlıqdır. Onda olan bəzi xarakterlər onun emosionallığına məxsusdur. Allah isə sonsuz hikmət sahibidir və məxluqatın düşdüyü

emosional durumlardan uzaqdır. O, hikməti, ədaləti gərəyi olan işləri xəlq edir. İnsanın bəzən cinayətkara cəza məqamında acıması, emosional yanaşması (əgər onun cinayətini görməyibsə, ancaq cəza məqamını görübsə) məlum bir haldır. Allahın rəhməti, şəfqəti dedikdə isə, insanların düşdükləri belə emosional durumlar ona nisbət edilən sifətlərdə yoxdur. İstər rəhmət, istər şəfqət və s. vəsflər olsun, bizə məlum olan bütün sifətlər yaradanla yaradılmışlar arasında fərqlidir (9). Elə olduğu təqdirdə, yəni ən məşhur sifətlərdə belə uca Allahın özünəməxsus rəftarı olduğu halda, hər şeyi bilən Allahla işlərində tələskən olan, hikmətsizliyə yol verən insanın vəsflərini necə bir-birinə bənzətmək olar ؟

**Sonda onu da deyim ki:** Bu mövzu geniş bir mövzudur. İslam dinində ilahi sifətləri digər dinlərdəki ilahi sifətlər və ya bütpərəstliklə və ya insanların sifətlərilə müqayisə etməklə əlaqədar olan ayrı-ayrı mövzuların təfsilatları, bəzi rəvayətlər (10) və bəzi ayinlər haqqında şübhələrin bəzilərinə tərəfimdən cavab verilib, yeni mövzulara da (olduğu təqdirdə) cavab vermək əzmindəyəm. Həcc ayini barədə şübhəyə də digər bir araşdırmada cavab verilmişdir .

## Qeydlər və istinadlar:

1 - Zahiratu naqdid-Din fil-Fikril-Ğarbiyyil-Hədis. 2/121.
2 - Səhih əl-Buxari. 4920.
3 - Şərhut-Tədmuriyyə. Muhəmməd Saleh. Şiddətli təsərrüflə nəql.
4 - Qəzəb sifəti haqqında: Muhəmməd Saleh "Təqribut-Tədmuriyyə" kitabında demişdir :
1" - Əgər xitab olunan şəxs uca Allaha nisbət edilən iradənin həqiqətini qəbul edir və ona nisbət olunan qəzəbi inkar edirsə və bunu (qəzəb sifətini) ya intiqam iradəsində (əzmində, istəyində) olmaq, ya da intiqamın özünə yozursa, ona deyirik: "Sənin iradənin həqiqətini təsdiq etməyinlə qəzəbin həqiqətini inkar etməyin arasında bir fərq yoxdur. Əgər qəzəbin həqiqətini təsdiq etmək bənzətməni gərəkli edirsə, iradənin həqiqəti də bunu gərəkli edir.
Əgər iradənin həqiqəti bunu gərəkli etmirsə, bu zaman qəzəbin həqiqətini təsdiq etmək də bunu gərəkli etmir. Çünki biri (bir sifət) haqqında söz demək digəri haqqında söz demək kimidir. Buna görə də ya bütün sifətləri təsdiq etməli, ya da inkar etməlisən.
2 - Əgər desə ki, "mənim təsdiqlədiyim iradə bənzətməni gərəkli etmir, mən bununla məxluqların iradəsinə bənzəməyən, uca Allahın şəninə yaraşan bir iradəni qəsd edirəm", ona deyilər ki: "O zaman

məxluqların qəzəbinə bənzəməyən, Allahın şəninə yaraşan bir qəzəbi təsdiq et"!
3 - Əgər desə ki, "Qəzəb, intiqam istəyilə ürəkdə qanın oynamasıdır ki, bu uca Allaha yaraşmaz", ona deyilər: "(Qəbul etdiyin) iradə də nəfsin mənfəət cəlb etməyə və zərəri dəf etməyə meyil etməsidir ki bu da pak və nöqsansız Allaha yaraşmaz."
4 - Əgər desə ki: "Bu qulun iradəsidir, Allahın iradəsi onun şəninə yaraşan şəkildədir", ona deyilər: "Qəzəb də dediyin kimi məxluqun qəzəbidir, Allahın qəzəbi də onun şəninə yaraşan bir qəzəbdir". Bu söz (eyni qaydada) onun qəbul edib inkar etdiyi bütün sifətlər haqqında ona deyilə bilər.
5 - Əgər desə ki: "Mənim qəbul etdiyim sifətlər ağlın dəlalət etdiyi sifətlərdir, ona səhifə 25-də birinci tayfaya verdiyimiz üç aspektdən cavabı verəcəyik". Fayda üçün həmin üç aspektin xülasəsini burada qeyd edirəm:
"Birincisi: Bu babda ağıla müraciət etmək səhabələr və tabeinlərdən olan sələflərin üzərində olduğu görüşə müxalifdir.
İkincisi: Bu babda ağıla müraciət etmək ağlın özünə müxalifdir. Çünki bu bab ağıla yer olmayan qeybi məsələlərdəndir.
Üçüncü: Bu babda ağıla müraciət etmək ziddiyyət və qarışıqlığı gərəkli edir. Çünki hərəsində bir cür işləyən ağıla qayıtmaq nəticəsində biri bir sifəti qəbul edəcək,

digəri isə (öz ağlına görə) hansısa sifəti inkar edəcək. Onların bu məsələdə müraciət edə biləcəkləri sabit bir qanunları yoxdur". (Təqribut-Tədmuriyyə. Muhəmməd ibn Saleh əl-Useymin. səh. 25).

5 - Qavaidul Muslə. Muhəmməd Saleh. səh. 35. Eyni səhifədə deyilənləri fayda üçün oxuyaq: "Allaha məxsus sifətlərin isbatı (təsdiqi) zamanı iki böyük təhlükədən uzaq durmaq lazımdır: (məxluqa) bənzətmə və necəlik (keyfiyyət) vermək. Sonra isə əqli cəhətdən bu məsələnin izahında deyir :

Birincisi: Zəruri olaraq bilinir ki, xaliqlə məxluq arasında açıq-aydın bir fərq var. Bu da onu gərəkli edir ki, ikisi arasında sifətlərdə də açıq-aydın fərq olsun. Çünki, hər vəsf olunanın sifəti özünə layiq olan şəkildədir. Necə ki, bu fərq fiziologiyaları bir-biri ilə fərqli olan məxluqlar arasında da aşkardır. Məsələn, dəvənin gücü ilə atomun gücü arasındakı fərq kimi. Əgər məxluqlar arasındakı fərq onların imkanları, ortaya çıxmasındakı müttəfiq cəhətlərilə birgə baş verirsə, o zaman məxluqla Xaliq (yaradan) arasındakı fərqin ortaya çıxması daha aydın və daha güclü olacaqdır .

İkincisi: Deyilə bilər ki, bütün aspektlərdən kamil yaradan, Rəbb olan öz vəsflərində naqis bir bəndəyə, özünü kamilləşdirənə ehtiyac duyan birinin sifətlərinə bənzəsin? Məgər bu inancda olmaq yalnız Xaliqin (yaradanın) haqqını naqis göstərmək deyilmi ؟

Üçüncüsü: Biz məxluqlar (yaradılmışlar) arasında adları müttəfiq olsa da, həqiqəti və necəliyi (keyfiyyəti) fərqli olanları görürük. Müşahidə edirik ki, insanın əli olsa da, bu əli filin əli kimi deyil. İnsanın gücü dəvənin gücü kimi deyil. Adlar müttəfiq olsalar belə, bu da əldir, o da əldir, bu da gücdür, o da gücdür. Bunların vəsfində və necəliyində aşkar bir fərq də ortadadır. Beləcə məlum olur ki, adlarda ittifaqın olması həqiqətlərdə ittifaqın olmasını lazımlı etmir .

6 - Zahiratu naqdid-Din fil-Fikril-Ğarbiyyil-Hədis. 2/121.

7 - Öncəki mənbə. 2/122.

8 - Öncəki mənbə. 2/123.

9 - Daha ətraflı baxmaq üçün: Usus Ğaibə, 25 məsələ fi muşkilətiş-Şərr. səh. 164-166.

10 - Məsələn, peyğəmbərin Allahı görməsi barədə olan rəvayət, bəzi qüdsi (ilahi) hədislər, Allahın bəzi vəsfləri keçən hədislər və s .

# Möcüzələri inkar edənlərə ümumi cavab

## Möcüzə nə deməkdir?

Gəlin ilk öncə möcüzə ilə kəramətin fərqinə nəzər yetirək؛

**Möcüzə:** Bir xariqüladə hadisədir ki, Allah onu öz peyğəmbər və elçilərinin əli ilə - onlara dəstək, qövmlərinə isə meydan oxumaq üçün ortaya çıxarır .(1)

**Kəramət:** Bir xariqüladə hadisədir ki, peyğəmbərlik dəvəti ilə bağlı olmur. Uca Allah onu saleh qullarından birinin əli ilə ona hörmət olaraq ortaya çıxarır, bunun vasitəsilə ondan zərəri aradan qaldırır, ona gələn faydanı gerçəkləşdirir, ya da bu vasitə ilə hansısa bir haqq işdə ona kömək olur .(2)

Deməli, möcüzə ilə kəramətin bənzər və fərqli tərəfləri var. Araşdırmanın sonunda yenə bu məsələyə qayıtmalı olacaq və çox mühüm bir suala cavab verəcəyik. Bu məqamda bizə lazım olan möcüzə ilə kəramətin əsas iki fərqini yadda saxlamaqdır: meydan oxuma və peyğəmbərlik dəvəti ilə bağlılıq. Möcüzədə bir qövmün halı daha öndədirsə, kəramətdə bu durum öndə deyil, saleh insanın şəxsi halı ilə bağlı da bir çox kəramətlər baş verə bilər .

Möcüzənin mümkünlüyü və ya möcüzənin baş vermə mümkünlüyünün inkar edilməsinə münasibət:

**1 -** Ateist möcüzəni inkar edir, amma möcüzədən daha böyük varlıqları və reallıqları qəbul edir.

**2 -** Bəzi vaxtlarda möcüzənin baş verməsi kainatın bəzi nizamlarının pozulması ilə müşahidə olunur. Hansı ki, bu da kainatın özünün yoxdan peyda olmasından daha böyük bir hadisə, nə də kainatdakı nizam və qanunları qoymaqdan daha böyük bir şey deyil. Hər kim bunu təsdiqləyərsə, ona ağlın tələbi ilə möcüzələrin baş verməsinin mümkünlüyünü qəbul etmək gərəkər .

**3 -** Yaradanın varlığı mümkündürsə, möcüzənin baş verməsi də mümkündür. Möcüzənin təsdiqi yaradanın varlığının təsdiqi ilə birbaşa bağlıdır .

**4 -** Təbiətin özündə belə möcüzə sayılacaq, fizika və digər dünyəvi elmlərin qanunları fövqündə, hələ izahı elmə məlum olmayan xeyli hadisələr baş verir. Bundan dolayı bəşər elminin hər şeyi əhatə etdiyini demək absurddur .

**5 -** Yoxdan yaradan kainatı məhv edib yenidən göyləri və yeri yarada bilər. O zaman bu daha böyük möcüzə sayılar. Bu hadisə ilk dəfə baş verdikdə də ən böyük möcüzə hesab olunur və hal-hazırda biz bu möcüzəvi şəkildə yaranmış dünyada yaşayırıq .

**6 -** Müsəlman kainatdakı elmi qanunları, nizam-intizamı inkar etmir, əksinə bu dəqiq nizam-intizamı Qurani-Kərimin ayəsilə daha sağlam şəkildə qəbul edir: "Sən Allahın qayda-qanununa heç bir əvəz tapa bilməzsən, Allahın qayda-qanununda heç bir dəyişiklik də tapa bilməzsən". (Fatir. 43) .

Eyni zamanda o möcüzələrin baş verməsinin mümkünlüyünə də inanır. Çünki, o gözüylə müşahidə etdiyi, qarşısında canlanan reallıqları görür, möcüzə onun üçün bundan daha qəribə və fərqli deyil. Bu səbəbdən onun hər gün, hər saat təkrarlanan xüsusi qüvvəyə malik hadisələrə şahidlik etməyə ehtiyacı yoxdur. Bu inkarolunmaz bir şeydir. Necə ki, vaxtilə möcüzə hesab olunacaq bəzi şeylər bu gün adi və mümkün şeylərdir .

**7 -** Həmçinin qeyd etmək lazımdır ki, dinsizlər bu gün görmədikləri halda yadplanetlilərin varlığına inanırlar, yer üzündə mövcud olmayan, yerə enə bildiyini düşündükləri canlılara inanırlar, lakin yer üzündə baş vermiş, mütəvatir yollarla bizə baş verməsi haqda xəbərləri çatmış möcüzələrə inanmırlar. Bu yadplanetli inancı dinsizlərin öz iddialarında heç də qəti və ciddi olduqları qənaəti bəxş etmir.

## Təsadüfi qeyri-adi hadisələr?

Möcüzəni inkar edənlərdən ingilis filosofu Devid Hume (3) iddia edirdi ki, təbiətdə baş verən qeyri adi hadisələrin hamısı möcüzə deyil və tarixdə kainat qanununa tabe olmayan hadisələr də baş verib. Deməli möminlər ola bilsin ki, kainat qanununa müxalif olan bəzi hadisələri də möcüzə hesab ediblər (4). Bu fikri sonradan din əleyhinə danışanlar ondan götürmüş və geniş yaymağa çalışmışlar .

Buna bənzər şəkildə bəziləri də deyiblər ki, möcüzələr - qəribəliyinə baxmayaraq - ola bilsin ki, xalis təsadüf şəkildə baş vermişdir .
Bu məsələnin yanlışlığını və batilliyini iki aspekt bəyan edir:

**1 -** Devid Hume öz etirazını təcrübi elmə əsasən irəli sürüb. Bu isə insan bilgilərinin qaynağını ancaq hissi (təcrübi) məlumatlarla çərçivəyə almaq iddiasıdır. Bu zaman onların özləri özlərini ziddiyyətə salmış olurlar. Çünki, bəzən "hiss" yolundan deyil, "ağıl" yolundan istifadə edirlər, bəzən isə "dəlilləri toplamaq" (istiqra) yolundan istifadə edirlər. Bu zaman ancaq hiss olunan məsələlərin, təcrübi elmin ortaya qoyulması digər bilgi qaynaqlarına qarşı qoyulmuş olur. Nəhayət onların öz iddialarını isbat etmələri mümkünsüz olur .

Bundan əlavə, mümkünsüz olan bir şeyin həqiqəti nəyinsə mövcudluğunun olmamasına hökm verməyə qayıdır. Bunun isbatı isə hissin gücünün daxil ola biləcəyi bir şey deyildir .

Həmçinin, bu hissi yeganə mənbəyə çevirmə yolu bilgi üçün dəlilgətirmə metodunu heçə saymaqdır. Çünki, insanın həyatdakı bütün təfsilatları bilməsi mümkünsüz və üzürlüdür. Belə olduqda idrak olunan şeyləri idrak olunmaz şeylər hökmünə salmaq yalnız dəlilgətirmə yolu ilə baş verə bilər. Praktiki dəlilgətirmə isə işlər arasında qarşılıqlı əlaqə və bir-birinə bağlılıq halına əsasən mümkündür. Bir-birinə bağlılıq isə əqli bir məna olub hiss ilə (praktika ilə) idrak olunan bir şey deyil. Təcrübi elmin daxil ola bilmədiyi və ya elmi predmeti olmayan sahələr çoxdur, bu haqda danışsaq, mövzumuz daha çox uzanacaqdır
.

**2 -** Devid Hume peyğəmbərlərin möcüzələrini şərtlərdən və dəlillərdən xali olan adi, kiçik bir təbiət hadisəsi hesab edir, hansı ki bu heyrətamiz hadisələr varlıq aləmində onu əhatə edən başqa hadisələrlə heç bir əlaqəsi olmadan baş verir. Ona görə də möcüzələrə bu cür yanaşma həqiqətə və tarixə zidd olan olduqca xətalı bir münasibətdir. Peyğəmbərlərin göstərdiyi ayətlər müxtəlif məsələləri özündə ehtiva edir:

peyğəmbərlik iddiası, kainat qanunlarının pozulması (yəni məlum qanunların fövqündə olan qeyri-adi hadisənin baş verməsi), bu nişanələrin peyğəmbərin və dəvət etdiklərinin halı ilə uyğunluğu və s .

Bütün bunlar göstərir ki, peyğəmbərlərin əliylə baş verən möcüzələri adi bir ehtimal edilən hadisə və ya bizim bilmədiyimiz hansısa təbii səbəbin nəticəsi hesab edilməsi olduqca uzaqdır .(5)

Peyğəmbərimizin صلى الله عليه وسلم dəvəti xüsusunda bu məsələnin aydınlığı və təcəlli etməsi daha da artır. Çünki onun haqqında rəvayət edilən möcüzələrin və nişanələrin - təbiətdə ardıcıl şəkildə baş verən hadisələrdən əmələ gələn - ehtimal olunan adi bir təbiət hadisəsi olmasını demək əlbəttə ki, mümkünsüzdür. O, ağac üçün dua etdiyi zaman ağac öz yerindən tərpənirdi, sonra o ağaca öz yerinə qayıtmasını əmr edirdi və ağac öz yerinə qayıdırdı (6). O əlini qabın içinə qoyurdu və barmaqları arasından su fışqırırdı (7). O az miqdarda olan bir yeməyə üfürərdi və çoxsaylı insanlar o yeməkdən doyana kimi yeyərdi (8), gözü çıxmış bir insanın gözünü tutub yerinə qoyur və sanki onun gözündə heç bir problemi olmamış kimi yenidən əvvəlki halına qayıdır (9), Xeybər döyüşü günü gözü ağrıyan Əlinin (رضي الله عنه) gözünü ağız suyu ilə müalicə edir və gözünün ağrısı gedir(10), Abdullah ibn

Atikin (رضي الله عنه) ayağı qırıldığı zaman onun ayağının zərər çəkən yerinə toxunması ilə şəfa tapması və sonradan heç bir şikayətinin olmaması (11), Xeybər günü Sələmə ibnil-Əkvanın dizi yaralanır və peyğəmbər onun ayağını da ağız suyu ilə üç dəfə yüngül üfürməklə müalicə edir, onun heç bir şikayəti qalmır (12).

Bu qeyri-adi hadisələrin peyğəmbərimizin halında cəm olması qəti, aşkar bir şəkildə dəlalət edir ki, bütün bunlar onun öz feli deyildir. Nə də ehtimal edilmir ki, bütün bunlar təsadüf nəticəsində baş vermiş təbii ehtimallardandır. Bütün bu hadisələr yalnız ilahi təqdir, ilahi istək və fel ilə baş vermişdir. Bu hadisələr yönləndirilmiş və məhdud şərtlərlə bağlı olan hadisələrdir .

## Nə üçün hal hazırda möcüzələr baş vermir?

**Birincisi:** Peyğəmbərlərin möcüzələri hal-hazırda baş vermir, bəli. Lakin Allahın ayətləri, nişanələri - Qurani-Kərimdə xəbər verildiyi kimi - hal-hazırda da baş verir:

"Quranın haqq olduğu onlara aydın olana qədər, Biz dəlillərimizi onlara həm kainatda, həm də onların özlərində mütləq göstərəcəyik. Məgər Rəbbinin hər şeyə şahid olması kifayət deyilmi?!" (Fussilət. 53).

Başqa bir ayədə isə uca Allah belə buyurur:

"De: “Həmd, Allaha məxsusdur! O Öz dəlillərini sizə göstərəcək, siz də onları tanıyacaqsınız. Rəbbin sizin etdiklərinizdən qafil deyildir!”" (Qasas. 93).

Uca Allah öz kitabını qorumağı öhdəsinə götürmüşdür. Öz kitabını və peyğəmbərin sünnəsini əzbərləyəni qoruyur. O, hər bir əsrdə dini məsələləri yeniləyən "mücəddid" göndərir. Dünyanın şərqində və qərbində belə alimlər var, hansı ki, onların vasitəsilə müsəlmanlar və qeyri-müsəlmanlar doğru yola gəlirlər . O zaman belə bir mənfi baxışa da ehtiyac qalmır. Muhəmmədi haqq olaraq göndərən Allahın dini Qiyamətdən öncə bütün dinlərdən üstün və zahir olacaqdır. Qurani-Kərimdə xəbər verildiyi kimi:

"Onlar öz ağızlarıyla Allahın nurunu söndürmək istəyirlər. Halbuki kafirlərin xoşuna gəlməsə də, Allah Öz nurunu tamamlayacaq. Müşriklərin xoşuna gəlməsə də, İslam dinini bütün dinlərdən üstün etmək üçün Öz rəsulunu hidayət və haqq dinlə göndərən Odur". (Saff. 8-9).

Artıq peyğəmbərin صلى الله عليه وسلم axır zaman hadisələri, fitnələr və məsələlərin qarışması haqqında dediklərinin bir çoxu gerçəkləşmişdir. Lakin o eyni vaxtda bizə Quran və sünnəni tövsiyə etmişdir .

**İkincisi: Yəqinliklə inanmaq üçün hər insanın möcüzə görməsi şərt deyil :**

Bəzi insanlar mütləq inanmaq üçün möcüzə görməyin mühüm olduğunu düşünürlər. Bu bəzi insanlar üçün faydalı olur, bəzi insanlar üçün isə elə də fərq etmir. Məsələn, İsrail oğulları qədər peyğəmbər və möcüzə görən olmadı, bununla yanaşı onlar qədər inkarçı və yer üzündə fitnə fəsad törədən də olmadı. Peyğəmbərləri dəfələrlə onlara möcüzə göstərsələr də itaətkar olmadılar, hətta dəfələrlə Allahın qəzəbinə tuş gəldilər. Deməli, kamil iman üçün möcüzə şərt deyil. İnsan ağlı ilə başa düşür və iman gətirir. Bəşər övladının çox cüzi bir hissəsi möcüzə vasitəsilə iman gətirmişdir. Böyük əksəriyyəti təşkil edən müsəlmanlar isə ağıl ilə düşünərək dində qüvvətli olmaq qərarına gəliblər .

İbrahim peyğəmbərin Allahdan möcüzə istəməsi, ölülərin necə dirilməsini görməyi istəməsi isə yalnız bir mövzuda idi və bu, xüsusi bir hal idi. O həqiqi səbəbi bildirərək Allahın iman gətirmədinmi? Sualına: "Qəlbim rahat (mütməin) olsun" deyə cavab verir .

Ayət tam olaraq belədir: "Bir zaman İbrahim: “Ey Rəbbim, ölüləri necə diriltdiyini mənə göstər!”– demişdi. Rəbbi ona: “Məgər sən inanmırsan?”– deyə buyurdu. İbrahim dedi: “Əlbəttə, inanıram! Lakin istəyirəm ki, qəlbim rahat olsun.” Allah buyurdu:

“Quşlardan dördünü tut və onları götür tikə-tikə et, sonra hər dağın başına onlardan bir parça qoy, sonra da onları çağır, tez sənin yanına gələcəklər. Bil ki, Allah qüdrətlidir, hikmət sahibidir!”" (Əl-Bəqərə. 260).

**Üçüncüsü: Peyğəmbərlər və möcüzələr mövzusu eyni babdandır:**

Möcüzələr peyğəmbərlərin əliylə gerçəkləşir deyə bu mövzu "nə üçün daha peyğəmbərlər göndərilmir?" sualı şəklində də verilə bilər. Çünki peyğəmbərlər və möcüzələr mövzusu eyni babdan olan mövzulardan hesab edilir. Bu haqda daha ətraflı "Nə üçün daha peyğəmbər göndərilmir?" başlıqlı məqaləmizdə oxumaq mümkündür .

Qeyd olunası mühüm məsələlərdən biri də odur ki, peyğəmbərlərin gəldiyi və möcüzələrin baş verdiyi zaman və məkan anlayışı fərqlidir. Məsələn Muhəmməd peyğəmbərlə İsa peyğəmbər عليهما الصلاة والسلام arasında altı əsr fərq olmuşdur. Baxmayaraq ki, İncil kitabında Muhəmməd صلى الله عليه وسلم peyğəmbər son peyğəmbər olaraq müjdə edilmişdir. Kimsə sual verə bilər ki, bəs altı əsr ərzində niyə peyğəmbər gəlmədi? Deyirik ki, bu sual çox gözəl sualdır. Üstəlik bu sualdan aydın olur ki, həmin müddətdə peyğəmbər gəlməyibsə, deməli möcüzə də baş verməmişdir. Bu

durum "indi möcüzə olsun, görərsən, mən də inanacam" deyən adamlara böyük bir ibrətdir. O baxımdan ki, ilk öncə möcüzənin hər şəxsin ürəyi istəyəndə baş verən hadisə olmadığını anlamış oluruq. Ona görə də möcüzənin nə zaman və hansı şərtlərlə baş verdiyinə diqqət yetirməliyik. Möcüzənin baş verməsi üçün ortada bir peyğəmbər olmalıdır. O peyğəmbərlər ki, yalnız öz qövmlərinə göndərilir və onun göstərdiyi möcüzəni eyni vaxtda həmin məkanda olanlar görə bilirdilər .

Son peyğəmbərin gəlişi ilə artıq bütün bəşər övladına son mesaj verilmiş və yeni peyğəmbərə və xüsusi möcüzələrə ehtiyac qalmamışdır (13). (Sonuncu peyğəmbər digər peyğəmbərlərdən fərqli olaraq bütün bəşəriyyətə göndərilmişdir). Çünki sonuncu peyğəmbər xəbər vermişdir ki, o Qiyamətə, yəni dünyanın sonuna yaxın göndərilmişdir, üstəlik Qiyamətə yaxın baş verəcək bir çox böyük hadisələr haqqında xəbər vermişdir. Bu xəbərlər İslami kitablarda Qiyamətin əlamətləri olaraq vəsf edilir, böyük və kiçik əlamətlərə bölünür. Əgər sonuncu peyğəmbər gəlməsəydi, şəkk yoxdur ki Allah mütləq şəriəti Qiyamətə kimi kifayət edən başqa bir peyğəmbər göndərərdi. Sonuncu peyğəmbər gəldiyi üçün, onun özünəməxsus möcüzələri olduğu üçün bizim yeni möcüzələr axtarmağımıza ehtiyac qalmır. Onun gələcəkdə baş

verəcək hadisələri, təbiri caizsə, zaman keçdikcə sirləri açılan öncəgörmələri öz təsdiqini tapır, həm bizlər üçün möcüzəvi xəbər rolunu oynayır, həm də özünün həqiqi peyğəmbər olduğunu bizə sübut edir. Diqqət yetirsək, bu sonuncu peyğəmbər bütün peyğəmbərlərdən üstündür. Deməli onun şəriəti Qiyamətə kimi kifayət edir, əsrlər keçsə də onun öncəgörmələri öz təsdiqini tapır. Əgər dünyanın sonuna yaxın bir mərhələdə yaşadığımızı dərk ediriksə, bizə gərəkən sonuncu peyğəmbərin şəriətinə tabe olmaq, əməl etməkdir. Zatən insanın özü və kainat ilahi möcüzələrlə doludur. Möcüzənin mahiyyətini başa düşən biri üçün belə suallar qətiyyən narahatlıq doğurmur .

Mövzunun əvvəlində möcüzə ilə kəramətin fərqi qeyd edildi. Möcüzələrin yalnız peyğəmbərlər vasitəsilə olan xariqüladə hadisə olduğu, möcüzədə meydan oxuma və peyğəmbərlik durumu şərtdir. Kəramət isə Qiyamətə kimi olacaqdır, möcüzədən fərqi isə onda meydan oxuma və peyğəmbərlik dərəcəsi yoxdur. Lakin kəramətlər Allahın sevdiyi qulları, övliyaları tərəfindən Qiyamətə kimi davam edəcəkdir .

## Qeydlər və istinadlar:

1 - Məcmu'ul-Fətə'va. İbn Teymiyyə. 11/311.
2 - Fətəva Ləcnətut-Dəimə. 1/574.
3 - Devid Humenin tərcümeyi-halı:
4 - Məbhəs fil-Fəhimətil Bəşəriyyə. Devid Hume. 151-177 və Zəki Nəcibin "Devid Hume" əsəri. 167 və Con Luisin "Mədxəl iləl-Fəlsəfə" əsəri. 115.
5 - Zahiratu naqdid-Din fi Fikri Ğarbiyyil-Hədis. Sultan əl-Umeyri. 2/356.
6 - ən-Nazmun Nəsir minəl-Hədis əl-Mutəvatir. Səh. 137.
7 - Səhih əl-Buxari. 3573; Səhihi Muslim. 2279.
8 - Bax: Fəthul-Bari. 4/403. No: 1217. Kitəbul-Buyu. Bəbul البيوع – باب الكيل على البائع والمعطي. Həmçinin bax: Səhih Əl-Buxari. 5/272. no: 2618 كتاب الهبة-باب قبول الهدية من المشركين. Səhih əl-Buxari, Fəthul-Bari ilə (şərhi ilə). 6/678. no: 3578 كتاب المناقب – باب علامات النُّبوَّة في الإسلام؛ Səhihi Müslim. 27.
9 - Bax: Vaqidinin "Məğazi" əsəri. 1/242. Uhud döyüşü. (Bəzi mənbələrdə hadisənin Bədir döyüşündə baş verməsi qeyd olunub). Həmçinin bax: Zərqaninin "Məvahib" əsərinə şərhi. 2/42-43; Bəşşar Avad "Təhzibul-Kəməl fi Əsməir-Ricəl" əsərini təhqiq edərkən bu rəvayətin mötəbər və qeyri mötəbər nəql yolları haqqında ətraflı danışmışdır. İstəyən həmin qeydləri oxuya bilər. Şeyx Albani bu rəvayətin zəif

görən Heysəminin sözünü nəql etdikdən sonra bu sözləri əlavə edir: "Lakin, Əbu Nueym iki yolla rəvayət edib ki, bununla qüvvətlənir". (Bidəyətur-Rasul. İzz ibn AbdusSələm. Haşiyə. səh. 42).
Rəvayətlərdə gözünün çıxması qeyd olunan səhabə Qatadə ibn Numandır .
10 - Kitəbul-Məğazi. Xeybər döyüşü babı. 7/13. Fəthul-Bari. 476; Müslimin Şərhi. Nəvəvi. Kitəbul-Fədail. 15/176 .
11 - Kitəbul-Məğazi. Əbu Əfanın qətli babı. 7/340; Buxarinin şərhi "Fəthul-Bari"də isə 341.
12 - Kitəbul-Məğazi. Xeybər döyüşü babı. Buxarinin şərhi" Fəthul-Bari"də 7/475.
13 - Uca Allah buyurur: "Muhəmməd ancaq bir elçidir. Ondan əvvəl də, elçilər gəlib getmişlər. Məgər o ölərsə və ya öldürülərsə, siz dininizdən gerimi dönəcəksiniz?! Kim geri dönərsə, Allaha heç bir şeylə zərər yetirməz. Allah şükür edənləri mütləq mükafatlandırar". (Ali İmran. 144).

# Heyvanların bir-birini yeməsi Allahın ədalətinə ziddir?

**Şübhənin vəsfi və özü**: Sosial şəbəkələrdən birində şəkil paylaşılıb. Şəkil emosional görünür deyə bu məqamdan istifadə edilir. Deməli, yırtıcı heyvanlardan olan bəbir kiçik növ meymunlardan birini tutub ağzında aparır, meymunun balası da anasının qucağından yapışıb. Şəkilnin sağ tərəfində də ağlayan iri bir smaylık işarəsi qoyulub. Bu şəkili paylaşan ateist şəkil haqqında belə bir komment yazıb:

"Allah ədalətlidir, rəhmlidir, ruzi verəndir, hər şeyi nizamla yaradıb? İndi bir islamçı durub deyəcək ki, bəs necə olmalıdır, yırtıcı heyvanlar acından ölməlidir? Yox elə belə də olmalıdır, çünki bu təbiətin qanunudur. Amma Allah adildir, rəhimlidir, hər şeyi nizamla yaradıb demək məntiqə sığmır. Odur ki, Allah yoxdur, kainat sonsuzdur və dünyanın öz prosesləri, öz harmoniyası, öz qanunu var. Bax, məntiqi gerçəklik budur."

**Şübhənin cavabı :**

**Birincisi:** Bu şübhəni verən ateistə biz də bir sual vermək istəyərdik. Görəsən bir pişiyin ağzında olan - insanların iyrəndiyi - siçovul şəklini qoyub eyni statusu yazmaq olardımı? Nəyə görə məhz həmişəki kimi

emosional sual verilir? Sonra isə mövzu birdən birə dəyişilərək Allahın inkarına yozulur? Yoxsa, bir-birinə yapışmış iki tarakanı yeməyə çalışan quş şəkli, yaxud göldən balıq ovlayan leylək şəkli qoyulub Allahı inkar etməyə çalışmırlar? Misalları çoxaltmaq olar. Nə üçün anası yırtıcı heyvana yem olan, anasından yapışmış kiçik meymun balası olan şəkil üzərindən bu manipulyasiya edilir? Səbəb aydındır. Mövzu elmi deyil, emosionaldır. Görəsən, bu emosionallıq zəlzələdən sağ çıxan onlarla körpələrin Allahın onları qorumasına misal gətirildiyi zaman niyə gizlənir? Məsələ bunda da deyil. Sadəcə bu bənddə demək istəyirik ki, elmdən danışan ateist elmi bir mövzuda ağlını işlətmədən, emosional fikir səsləndirir, sonra bu məntiqi deyil deyir. Biz isə deyirik ki, məntiqi bir izah üçün ən azı müasir elmdən sitatlar gətirmək, heyvanların ağrı hissi insanın ağrı hissi ilə fərqlənirmi? Yaxud da heyvanların bir-birini yeməsinə izah verən nəzəriyyələrə toxunub, dini və dünyəvi elmin baxışlarını saf-çürük etməyə cəhd etdikdən sonra belə iddialı bir nəticəni yaza bilərdi. Lakin heç bir elmi izah olmadan emosional duyğuları sitat gətirib "görürsünüz, deməli Allah yoxdur" demək çox asan işdir .

**İkincisi:** Heyvanlar arasında rəhmət, şəfqət və fədakarlıq:

Heyvanlar arasında rəhmət istər eyni növ arasında, istər də fərqli növlərin bir-birinə olan rəhməti timsalında təcəssüm edir. Bu rəhmət və şəfqət hislərini misallarla çoxaltmaq, bu misallardan isə yüzlərlə çəkmək olar. Gəlin onlardan bəzilərini qeyd edək:

**a)** Eyni növ arasında rəhmət və şəfqətə misallar: ördəyin öz balalarını belinə alıb su üzərində üzməsi, zürafənin və filin öz balasını yırtıcı aslanlardan qorumaq üçün onlarla mübarizə aparması (1), böyük quşların öz balalarını qidalandırmaq üçün yuvalarına müxtəlif növ qidalar gətirib balalarının birbaşa dimdiyinə ötürmələri və s.

Bu haqda misallar o qədər çoxdur ki, istər quşlardan, istər dördayaqlılardan, istər suda-quruda yaşayanlardan bu haqda çoxlu misallar çəkmək olar. Xüsusən də bu canlıların fitrətində olan analıq və atalıq qayğısı ilə bağlı istər balasını qidalandırma, istər də təhlükədən qorumaq üçün gördükləri ağılasığmaz işlər (2) məşhur və məlum bir durumdur. Ona görə də bu məqamda ən maraqlı və uyğun gələn rəhmət və şəfqət misalları növbəti kateqoriyadan olduğu üçün növbəti kateqoriya haqda misalları çoxaltmaq yerinə düşərdi.

**b)** Fərqli növlər arasında olan rəhmət və şəfqətə misallar:

1 - Atın aşağı əyilərək kiçik bir iti başı ilə oxşaması.

2 - Fil və qoyunun yanaşı durması, filin bu haldan xoş olduğunu göstərməsi .

3 - Bir itin ağzında süd əmizdirən qabı tutaraq kiçik bir quzuya südü içməsinə köməklik etməsi .

4 - Bir dovşanın ceyran balasını qucaqlaması .

5 - Bir pişiyin vəhşi bir köpəyin üstündə dayanması .

6 - Yaşlı qorillanın kiçik pişiyi qucağına alıb tumarlaması .

7 - Bir köpəyin burnunu ceyran balasının burnuna sürtməsi .

8 - Vəhşi itin yanındakı pişiyi qoruması.

9 - İtin quzu balasını yalaması .

10 - Filin başının üstünə iti alaraq suda çimməsi .(3)

11 - Ördəklərin öz qidasından dimdiyinə alaraq suya yaxın olan balıqlara ötürüb onları yedizdirməsi .

12 - Bir dovşanın hasar arasında qalmış pişiyi çıxarmaq üçün hasarın aşağı hissəsininin torpağını sürətlə qazıb pişiyi xilas etməsi .

13 - Sudakı begemotların yanlarındakı camışa hücuma keçən timsaha mane olaraq camışı timsahın şikarı olmaqdan xilas etmələri .

14 - İri meymun dəstəsinin şirin ağzı ilə tutduğu ceyranı şirin şikarı olmaqdan xilas etmələri .

15 - İtin sudan çölə çıxmış balıqların can verdiyini görüb onları xilas etmək üçün ağzı ilə yerdəki suyu balıqların üzərlərinə atması .

16 - Ayının suya düşmüş quşu xilas edib quruya çıxarması və ona zərər vermədən kənara çəkilməsi .(4)
17 - qorillanın meymunlar olan qəfəsə yıxılaraq düşmüş uşağı digər meymunlardan qoruması .
18 - Aslanın yanına gəlmiş kiçik camış balasına rəhm edərək anasının yanına qayıtmasına şərait yaratması .
Heyvanlar arasında bu rəhmət, şəfqət və qayğı misalları ən kiçik həşəratlardan tutmuş böyük heyvanlara kimi o qədər çoxdur ki, yırtıcı heyvanlarda belə qeyri-adi rəhmət hallarının görülməsi uca Allahın öz rəhmətindən bütün məxluqata verməsi haqda dəlillərə uyğundur. Bu qədər rəhmət hallarını bir kənara qoyub yırtıcı heyvanların öz şikarını yeməsində qüsur görənlər əlbəttə ki, təbiətə qərəzli gözlərlə baxanlardandırlar.

**Mühüm izah:** Qeyd olunan şəkildə verilmiş meymunu ağzında tutan bəbir epizodunu yadınızda saxlayın. Şəkildə verilən vəsf sualda izah edilmişdir. İndi isə sizə eyni heyvanın meymun balasına qarşı necə rəhimli davranması videosunun linkini təqdim edəcəyik. Videoda görünür ki, bəbir meymunu boğduqdan sonra görür ki, onun balası var imiş, bundan sonra bəbirin hərəkətləri dəyişir, o meymun balasına qarşı qayğı göstərməyə başlayır, onu ağacdan

yıxılmağa qoymur, yatmasına şərait yaradır, onun üz-gözünü yalayır, sanki bala meymunun anasını öldürdüyü üçün özünü təqsirli bilir. Bu videoya baxdıqdan sonra insana elə gəlir ki sualdakı şəkildə verilmiş bəbir də eynilə bala meymun ilə şəfqət və qayğı ilə davranmışdır. Sizə təqdim etdiyimiz videoya baxdığınız zaman doğurdan da çox heyrətlənəcəksiniz (6). Ola bilsin ki, bu video sualda vəsf edilən şəkildəki meymun balasının aqibətinin də bəbir tərəfindən parçalanmaqdan qurtulmaq olduğuna bir işarə olsun.

**Üçüncüsü:** Bu mövzuda "Heyvanların ağrı çəkməsi nəyə lazımdır?" adlı geniş məqaləmizi oxumağı tövsiyə edirəm. Həmin məqalədə bu mövzuda edilmiş bəzi elmi araşdırmalara toxunulmuşdur. Həmin yazıda gəlinən üç mühüm nəticə belədir:

1 - Təcrübənin davam etməsi canlı varlığın ağrını dərk etməsinin əsas ünsürüdür.

2 - Heyvanlar (ağrı) təcrübəsinin davamlılığını itirirlər.

3 - Ona görə də heyvanlar bizim yaşadığımız kimi ağrını yaşamırlar (7).

**Dördüncüsü:** Ateistin heyvanların bir-birini yeməsinə misal çəkdiyi nəzəriyyə Darvinin nəzəriyyəsindən o yana keçə bilmir. Hətta, bir çoxusu bu nəzəriyyədə eyni mövzuda nə deyildiyini elmi

cəhətdən izah edə də bilməzlər. Əlalxüsus da hələ bu mövzunu emosional şəkildə Allahın inkarına gətirib çıxarmaq elmilikdən uzaqdır. Dinin bu məsələyə verdiyi izah isə çox sadə və məqbul izahdır. Din heyvanların insanların istifadəsinə, öhdəliyinə verilməsini xəbər verir :

"Yer üzündə olanların hamısını sizə görə xəlq etmişdir". (əl-Bəqərə. 29).

Digər ayə belədir: "Atları, qatırları və uzunqulaqları sizə həm minik, həm də zinət olsun deyə Allah yaratdı. O, sizin hələ bilmədiyiniz bir çox şeyləri də yaradır". (ən-Nəhl. 8).

Başqa bir ayədə isə: "Bəzilərini minəsiniz, bəzilərindən də yeyəsiniz deyə, heyvanları sizin üçün yaradan Allahdır". (əl-Ğafir, 79) .

Həmçinin: "Həqiqətən, ev heyvanlarında da sizin üçün ibrət var. Biz onların bətnində olandan sizlərə içirdirik. Sizin üçün onlarda başqa faydalar da var. Üstəlik onlardan yeyirsiniz də. Siz həm o heyvanlarla, həm də gəmilərlə daşınırsınız". (əl-Muminun, 21, 22) .

*Qeyd olunan Quran ayələrindəki dini izah aydın olduqdan sonra mövzuya davam edə bilərik .*

Eyni zamanda heyvanların həm təbiətdəki qidalardan, həm də bir-biri ilə qidalanması Allahın təbiətə qoyduğu bir nizamdır. Hətta Darvinin özü belə bu nəzəriyyə ilə Allahı bütünlüklə inkar etməmişdir. O sadəcə şəkk içində olanlardan idi. Şəkkindən belə yəqin deyildi. Amma guya təbiətdəki heyvanların bir-birini yeməsini elmlə məşğul olmayan biri klaviatura arxasında dayanıb rahatlıqla inkar edir, ortaya dəlil əvəzinə isə ancaq öz hislərini təqdim edir. Elmdə sadəcə bir iddianı etmək üçün alimlər illərlə kitab yazıb öz nəzəriyyələrini isbat etməyə çalışırlar. Amma göründüyü kimi, bir-iki dəqiqə içində yazılan statuslarla da heç bir elmi arqument və dəlilə əsaslanmadan olduqca böyük iddia edənlər də tapılır .

**Beşincisi: Allahla insanı hislərdə eyniləşdirmək doğru deyil.** Allahın ədaləti, rəhmi, qəzəbi insanlardakı kimi deyil. Bu, mütləq şəkildə bilinməlidir. Bu mövzu geniş mövzudur. Sadəcə qeyd etməklə kifayətlənirik. Bu cür mövzularda əqidə elmindən qafillik də öz sözünü deyir. Müsəlman yəqinliklə bilir ki, Allah adildir, zalım deyil, onun vəhşi heyvanları yaratmasında bir hikmət var. Həmçinin müsəlman Allahın rəhməti ilə öz rəhmətini, ədaləti və qəzəbi ilə öz hislərini müqayisə etmir. Bilir ki, insan kainatda çox kiçik bir məxluqdur, bəzən ona zahirdə pis görünən bir şey onun həqiqətini anlamadığı bir şey olur. Müsəlman

bilir ki, yırtıcı heyvanlara yem olan heyvanlar belə "Mərhəmətim isə hər şeyi əhatə edir" (Əraf. 156) ayəti xaricində deyillər. Onların yırtıcı heyvana yem olması sadəcə bir sonluqdur. Digər təfsilatlar ona bəlli olmasa da o yəqin bir şəkildə iman etmişdir.

Ədalət məsələsinə gəldikdə isə bəzən ədalət cəlladın qılıncında olur. Lakin cinayətkarın necə dəhşətli qatil və ya təcavüzkar olduğunu bilməyən bir adam onu da cəlladın qarşısında görsə, qəlbi şəfqət və rəhmətdən narahat olacaq, ona acıyacaqdır. Lakin həmin məqamda ədalətli mövqe acımaq mövqeyi deyil, cəzanın tətbiqidir. Məsələnin mövzumuzla bağlı tərəfi odur ki, emosional yanaşma insandan insana görə dəyişir, bunu həqiqət meyarı etmək doğru deyil. Allah heyvanları bir-biri ilə də qidalandırır, ot, ağac, həşərat və s. ilə də qidalandırır. Bütün bunlarda şəkk yoxdur ki, uca Allahın bir hikməti vardır. Sonda bu haqda danışılacaqdır !

İmanı olmayan insan mühakimə yürütməyə tələsir, öz ağlı ilə kainatın bütün sirlərini - mümkünsüz olsa da - dərk etməyə çalışır. Elə bu qəbildəndir ki, şübhəni yazan ateist gördüyü mənzərənin emosional nəticəsini Allahın olmaması qənaətinə aparıb çıxarır, bilmir ki, bu onun qüsurlu analizinin nəticəsidir .

**Altıncısı: Zərərli heyvanların yaranmasındakı bəzi hikmətlər :**

**Ümumi hikmət:** Müsəlman inanır ki, uca Allah hikmət sahibidir, hər şeyi biləndir, heç bir şeyi əbəs yerə yaratmır və onun bütün fellərinin bir hikməti vardır. Əgər bu hikmətlərdən hər hansısa biri ona qaranlıq qalarsa, o Rəbbi haqqında pis zənn etmir və bu mühüm etiqadi təməl üzərində qalır .

**Xüsusi hikmətlərdən**: Bu cür məxluqların yaradılmasında Allahın yaratmasının möhtəşəmliyi, mükəmməlliyi, məxluqların idarəsi, çoxluğuna baxmayaraq onların ruziləndirilməsi, bu heyvanlar vasitəsilə bəzilərinin sınağa tabe olması, onların yaraladığı şəxsin savab qazanması, vəhşi heyvanı öldürən şəxsin şücaətinin ortaya çıxması, həmçinin onlar vasitəsilə qulların imanının və yəqinliyinin sınanması var. Mömin razı qalır və təslim olur. Şübhəçi isə "Allah bunları yaratmaqla nə demək istəmişdir?" deyə çaşqınlıq keçirir. Həmçinin yaradılışda insandan daha zəif olan məxluqlar vasitəsilə də insanın zəifliyi, acizliyi, xəstəliyi, ağrısı ortaya çıxa bilir. Bəzi alimlərdən milçəyin yaranma hikməti soruşulur, deyirlər ki: "Allah bununla zalımların (onları kiçik həşərat önündə aciz buraxmaqla) burnunu yerə sürtür". Zərərli məxluqların varlığı ilə faydalı şeylərin yaranmasındakı lütfün əzəməti ortaya çıxmış olur. Necə ki deyilmişdir:

"Məsələlər ziddinə baxmaq ilə aydın olur". Tibb və təcrübə ilə aşkar olmuşdur ki, bəzi faydalı dərmanlar əfi ilanlarının və s. zəhərindən əldə edilir. Zahirində zərər görülən neçə-neçə işlərdə faydalar hasil edən uca Allah pak və nöqsansızdır! Sonra isə bilinməlidir ki, bu zərərli heyvanlardan bir çoxu faydalı heyvanlara yem olurlar. Bu da təbiətdə, canlı aləmdə tarazlığı, ahəngi qoruyan amillərdən biridir. Hansı ki, bu qanunu da Allah təqdir və təyin etmişdir.

## Qeydlər və istinadlar:

1 – Heyvanlar arasında rəhmət, heyvanlar və quru həyatı...الرحمة بين الحيوانات ... الحيوانات والحياة البرية
Videoya keçid üçün link:
https://youtu.be/UawMaGN469s?si=jHfZNqrHdSdYvIwM
2 – Heyvan olsalar da dostdurlar, 10 təsirli şəkil (məqalə) حيوانات... ولكن أصدقاء... في ١٠ صورة مؤثرة -
Məqaləyə keçid üçün link:
https://kololk.com/1639-show.html
3 – Heyvanların rəhmli davranışlarına şahid ol, görəcəklərinə inanmayacaqsan شاهد رحمة الحيوانات... لن تصدق ما ستراه - Videoya keçid üçün link:
https://youtu.be/4HX152UL8Jw?si=3A228mhOTJhND9oJ
4 - Birinci video .

5 - Videoya keçid üçün link: https://youtu.be/8d6b3RlfJ4?si=5THNm4iquTPKbins
6 – Videonun linki: https://youtu.be/8d6b3RlfJ-4?si=5THNm4iquTPKbins
7 - Məqalə: Heyvanların ağrı çəkməsi nəyə lazımdır?". Sahib Əsədov.

## "Dəstəmazsız gəzənin ayağı dəyən yerdə ot bitməz?"

**Şübhə belədir**: "Ateistlər bir yazı paylaşıblar. Deməli, İslam coğrafiyasının bəzi quraqlıq ərazilərini işarələyib: "Abdestsiz gezenin ayağı bastığı yerde ot bitmez" - deyənlərin coğrafiyası belədir - deyə mesaj veriblər. Yazının altından İslam coğrafiyasının natamam şəklini də qoymağı unutmayıblar. İslamda belə bir söz doğurdan da varmı"؟

**Şübhənin cavabı**:

**Birincisi**: Nə Quranda, nə də hədislərdə, hətta səhabələrin və onlardan sonradan gələn salehlərin, din sahibi alimlərin belə bir sözü deməsi məlum deyil. Araşdırma zamanı aydın oldu ki, türk dilində buna bənzər atalar sözü var. Həmin atalar sözü belədir: "Ayağının bastığı yerde ot bitmez". İzahı: "Getdiyi yerə uğursuzluq gətirər". Hələ dilimizdə də buna bənzər bir atalar sözü tapdıq: "Padşahın ayağı dəyən yerdə yeddi il ot bitməz". Buradan da məsələ aydın olur. Kimsə oturub fikirləşib ki, bəzi əraziləri - bütünlüklə deyil - quraqlıq olan İslam torpaqları haqqında deyilmiş bir söz icad etsin və desin ki, "bunu müsəlmanlar deyiblər. Gör necə ziddiyyət içindədirlər". İddianın yalan olması artıq izah edildi .

**İkincisi:** Şübhədə deyilən yazı ilə birgə paylaşılmış şəkildə İslam coğrafiyası tam şəkildə təsvir edilməmişdir. Xəritədə yaşıllıqları, təbii gözəllikləri olan bəzi yerlər verilməmilşdir. Şimaldan Türkiyənin, Azərbaycanın, Cənubi Azərbaycanın, Qazaxıstanın, Özbəkistanın, Qırğızıstanın, Tacikistanın, Türkmənistanın ərazisi çəkilmiş xətt daxilində verilməyib. Şərqdən böyük yaşıllıq əraziləri əhatə edən İndoneziya və Malayziya işarələnmiş yerdən kənarda qalıb. Cənubdan isə beşdən çox yaşıllıqları olan Afrika dövləti xəritə daxilində verilməyib. Məqsəd aydındır. Hələ internetdəki bəzi paylaşımlarda qəsdli şəkildə

ancaq quraqlıq ərazilər verilir, şərq və şimal hissələrdə yaşıllığı olan İslam ölkələrinin ərazisi göstərilmədən oxuculara manipulyasiya edilir .

**Üçüncüsü**: İslam ölkələrinin bir qisminin ərazisi quraqlıq şəraitindədir və bu çətin yerlərdə yaşamaq avropalılar üçün çox çətin olardı. Həmin quraqlıq ərazilərin öz təbii sərvətləri var. Bu ayrı mövzudur. Həmin ərazilərin əhalisi tarixdə böyük mədəniyyətlər yetişdirmişlər ki, bunda İslam dininin böyük rolu olmuşdur. Bu ölkələrə heç olmasa bəzi din düşmənlərindən olan şərqşünasların gözüylə baxılsa, onların bu torpaqları nə üçün qarış-qarış araşdırdıqları aydın olardı. Yəni demək istəyirik ki, bir ərazinin quraqlıq göstərilməsi onun aşağılanması üçün səbəb deyil. Quraqlıq bir ərazidə dünya neftinin üçdə birini təmin edən ölkələrdən tutmuş, müəyyən iqtisadi layihələrdə irəli pillələrdə olan ölkələr də az deyil .

# 21-ci əsrdir, insanlarımız hələ də göydən kitab endiyinə inanır

**Birincisi:** 21-ci əsrdir deyə insanlarımız inancını tərk etməlidir? 21-ci əsr olanda nə olur ki? İnsanlarımız mənəviyyatını tərk etməlidir? 21-ci əsr olanda hamı Allahı inkar etməlidir? Yoxsa hamı çılpaqmı gəzməlidir? 21-ci əsrdir deyə bəzi inancsızlar "qeyrət və namus boş şeydir" deməlidir? 21-ci əsrdir deyə müharibə vaxtı bəzi inancsızlarımız ölkəmizi müdafiə etmək yerinə ölkəmizin əleyhinə danışmalıdır? 21-ci əsrdir deyə böyük-kiçik münasibətləri itib batmalıdırmı? Gənclər yaşlıları tapdalayıb keçməlidirlərmi? Bu sualların cavabı da müsəlmanlara maraqlıdır! El arasında kənddən şəhərə gəlib nemət, ruzi, bolluq görməyənlərin birdən birə necə dəyişildiyini hər kəs bilir. İnkişaf, inteqrasiya prossesində öz dəyərlərini tapdalamaq buna bənzəyir. Öz dəyərlərini tapdalayıb, oxşamaq istədiyin mədəniyyət sahibinə öz kimliyini satmış kimi təəssürat yaratmalı deyil insan. Ağıllı insan cəmiyyəti başqa cəmiyyətlərdən faydalı gördüyü şeyləri götürür, öz dəyərlərini ayaqlar altına atmadan gələcəyini qurur .

**İkincisi:** Bu məqamda çox maraqlı olan bir çox ateist və dinə qarşı olan şəxslərin səmadan yadplanetlilərin enməsinə inanması, lakin Quranın və

ya hansısa müqəddəs kitabın səmadan enməsini inkar etmələridir. Burada açıq bir ziddiyyət ortaya çıxmış olur. Özü də maraqlısı budur ki, onlar bunu 21-ci əsrdə iddia edirlər. Müsəlmanlar son kitabın tədricən 14 əsr öncə nazil olduğunu deyirlər. Əslində 21-ci əsrdə səmadan nəyinsə (yadplanetlilərin) endiyini müsəlmanlar deyil, ateistlər və bəzi dinsizlər iddia edirlər .

**Üçüncüsü:** Quranın göydən enməsi deyildikdə onun 23 il ərzində tədricən, yavaş-yavaş enməsi nəzərdə tutulur. Elm əhlinin doğru görüşü budur ki, Quran qədr gecəsində dünya səmasına tam şəkildə endirilib, sonra 23 il ərzində yavaş-yavaş peyğəmbərə çatdırılıb (1). Uca Allah buyurur: "Kafirlər dedilər: “Nə üçün Quran ona bir dəfəyə bütöv nazil olmadı?” Biz onu sənin qəlbini möhkəmləndirmək üçün tədricən nazil etdik və onu ən gözəl şəkildə ayəbəayə izah etdik" . Furqan. 32). Bu ona görə idi ki, Quran ayələri ətraflı şəkildə izah edilsin və son din mükəmməl bir izahla insanlara öyrədilsin, dinin əsas məsələlərində qaranlıq bir şey qalmasın. Şəkk yoxdur ki, Qurani-Kərim Allah tərəfindən mələk vasitəsilə peyğəmbərə ayəbəayə, surəbəsurə nazil edilmiş, göndərilmişdir. Yenə şəkk yoxdur ki, əgər Allah istəsəydi, onu birdəfəlik də göydən nazil edə bilərdi. Necə ki, Tövratı və İncili birbaşa nazil etmişdi (2).

**Dördüncüsü:** Quranın səmadan enməsi mövzusu, qeybə inanmaq, Axirətin mümkünlüyü, möcüzələr, Allahın qulları ilə arasında bir elçi, peyğəmbər təyin etməsi, göndərməsi və s. mövzuların hər biri ayrı-ayrılıqda daha geniş danışılası mövzulardır. Bu və digər mövzular haqda ətraflı yazılarımız var və o yazılardakı dəlil və arqumentlərlə tanış olmaq üçün "Ateistlərin məşhur şübhələrinə cavablar ensiklopediyası"nın birinci və ikinci cildlərinə baxmağı məsləhət görürəm .

Böyük bir kainatı yoxdan yaradan Uca Allah üçün bir kitabı səmadan endirmək çox bəsit bir işdir. Səmanı ulduzlar, ay və günəşlə bəzəyən Allah üçün bir kitabı səmadan endirmək çox asandır! Məsələ sadəcə inanıb inanmanaq məsələsidir. Möminlər şübhəsiz iman gətirir, kafirlər isə inkar edirlər. Böyük kainatı dərk etməkdə maddi elm kifayət etmir, bu idrak mövzusu təcrübi elmin sərhədlərini aşır, onun predmeti olmaqdan çıxır .

Özlərinə peyğəmbər göndərilmiş İsrail oğullarından bəziləri möcüzələri gözləri ilə gördükləri halda haqdan üz döndərmiş və Allahın qəzəbinə tuş gəlmişdilər (3). Deməli, inkar edən özü üçün bəhanə axtaracaq və kainatda Allahın varlığının dəlillərini hər vəchlə inkar

edəcək. İman gətirən isə imanını izhar edəcək, hansı əsrdə yaşamasından aslı olmayaraq imanı sarsılmayacaqdır !

## Qeydlər və istinadlar:

1 - Bax: Hakimin müstədrək əsəri. Hakim bu rəvayətin Buxari və Müslimin şərtinə uyğun səhih olduğunu demişdir. Həmçinin bax, ən-Nəsai, Süyuti və başqaları "Təfsir"lərində bunu ibn Abbasdan nəql etmişlər .
2 - Nə üçün Quran tədricən endirilmiş, Tövrat və İncil isə birbaşa səmadan endirilmişdir? - sualına cavab olaraq ibn Fovrak demişdir: "Tövrat birdəfəlik nazil olmuşdur. Çünki o yazıb oxuyan bir peyğəmbərə nazil olmuşdur ki, o Musadır. Furqan (yəni Quran) isə hissə-hissə nazil olmuşdur. Çünki o kitab oxuyub yazmağı bilməyən bir peyğəmbərə yazısız (səslə) nazil olmuşdur. (Suyutinin "Nuzul əl-Quran" əsəri) .
3 - Bax: Ali İmran surəsi 40-cı ayədən 61-ci ayəyə kimi.

# 1400 il Müsəlman olmağın nəticəsi nədir؟

**Sual belədir:** *1400 il Müsəlman olmağın nəticəsi nədir?*

**Sualın cavabı:** Bu sualın cavabına gəldikdə, təkcə bir cümlə olan bu sual haqqında böyük bir kitab yazmaq olar. Lakin müxtəsər bir yazı yazası olsaq, baxır hansı insan nəyi nəticə kimi qəbul edir, nəyi yox! Əgər "nəticə" dedikdə ictimai və iqtisadi inkişaf nəzərdə tutulursa, bu inkişaf müsəlman ölkələrində biri-birindən fərqlənir. Kimisində çox, kimisində isə az. Əgər bu inkişaf hərbi sahədə nəzərdə tutulursa, dünyanın bir çox ölkələrini qabaqlayan Türkiyə və Pakistan ordusu vardır. Əgər siyasi cəhətdən nəzərdə tutulursa, bu zaman da siyasi arenada öz sözünü deyən bu və digər güclü müsəlman ölkələrini görə bilərik.

Osmanlılar, Əməvilər, Abbasilər, Eyyubilər və s. bir çox İslam dövlətləri - fərqli zaman kəsimlərində - on üç əsr dünyaya sırf Quranla hakim olmuşdular. Məgər bu nəticə deyilmi? Qısa bir müddət ərzində peyğəmbərin vəfatından 30 il keçmiş iki böyük imperiyanı (Bizans və Fars imperiyaları) dizi üstə çökdürmək Quranın, İslamın bir nəticəsi deyilmi? Müsəlmanlar son Osmanlı dövlətinin zadəganlaşmasından, masonlaşmasından, Qurandan uzaqlaşmasından sonra zəiflədilər .

Yox əgər iddia edildiyi kimi müsəlmanlar Qurana tərəf getdikcə zəifləsəydilər, onda deyəcəkdilər ki, düz deyirik. Lakin, biz tarixə baxanda bunun əksini görürük; Nə vaxt ki, müsəlmanlar Qurandan, hədislərdən, İslamdan möhkəm yapışıblar, o vaxt dünyanı fəth ediblər. İslamdan uzaqlaşdıqca, Avropaya oxşamağa çalışdıqca isə zəifləmişlər. Ona görə də bu arqument ateistlərin əleyhinədir. Artıq dünyada müşahidə olunan budur ki, müsəlmanlar dinlərinə qayıtmağa çalışdıqları üçün artıq dünya ölkələrində müsəlmanların sayı artır, müsəlmanların nüfuzu, elmi dərəcələri güclənir. Ümumiyyətlə, hər bir yüksəlişin bir düşüşü də gözlənilən ehtimaldır. Əgər bir yüksəlişin səbəbi Quran və sünnədirsə, düşüşün səbəbi isə Quran və sünnədən uzaqlaşmaqdırsa, bu ateistlərin əleyhinədir!

Lakin, söhbət sırf son bir əsrdə, Osmanlı xilafətinin dağılmasından sonra müsəlmanların zəifləməsindən gedirsə, bunun səbəbləri və nəticələri ayrı bir geniş mövzunun predmetidir .
Əgər nəticə dedikdə mədəniyyət nəzərdə tutulursa, məncə böyük İslam mədəniyyəti barədə danışmaq üçün sadəcə ensiklopediyalara müraciət edilməsi daha yaxşı olardı. Bu isə cildlərlə kitabların mövzusudur .

İspaniyadan Çinə qədər dövlətlərin az bir vaxtda müsəlmanların əlində cəmləşməsi, Əməvilərin dövründə müsəlmanların Fransaya qədər gedib çıxmaları, minlərlə kitabxanaların, ilk universitetlərin, elmi araşdırma mərkəzlərinin İslam aləmində qurulması məgər İslam dövlətləri dövründə baş verməmişdirmi? Məgər bütün bunlar elmə əhəmiyyət verən, əvvəli "OXU" əmri ilə başlayan Quran kitabına sarılan, peyğəmbərin sünnəsinə (yoluna) sarılan bir dinin səmərəsi deyildimi؟

Napalyon Fransada şəhər quruculuğunda qanun və hüquqları təşkil edərkən Maliki fiqhindən istifadə etmişdir. Fransada qanunların 70 % Maliki fiqhindən götürülmüşdür. Fransa hüquq sahəsində dünyada ən güclü ölkələrdən biri olmasına baxmayaraq, müsəlmanların əsrlər öncə çatdıqları insan haqları və şəhər qanunları, şəhər mədəniyyəti sahəsində əldə etdikləri nailiyyətlərə yalnız bu əsrdə çata bilmişlər. Bu barədə ətraflı oxumaq üçün möhtəşəm bir doktorantura elmi işi, “Maliki fiqhinin Fransanın şəhər qanunlarına təsiri" adlı əsəri oxuya bilərsiniz. Müəllifi İbn Xaddə Həmzədir. Əsərdə Fransız və Avropa alimlərinin öz dillərindən etiraflar nəql olunur. Bir-ikisini qeyd edək:

Məşhur fransız şərqşünas alim Luis Seddilot (1808-1875) öz "Xatirələri"ndə demişdir :

"Həqiqətən də Fransa höküməti şəhər qanunlarının inkişafında istifadə etmək üçün Maliki məzhəbinin fiqhinin fransız dilinə tərcümə olunmasını əmr etmişdi". (1) Fransız tarixçi araşdırmaçı David de Santillana (1845-1931) demişdir: "Bizim İslam qanunlarından qazandığımız müsbət şeylərdən biri də bu (fransız) qanunlarıdır.(2) ."
Bu barədə danışsaq, çox uzanacaq, inşəAllah ayrıca bir məqalə şəklində gələcəkdə bu məsələni vəsf etmək olar .

Lakin, gəlin hey elmdən danışan ateistlərə təkcə təhsil sahəsində Qurandan və sünnədən qaynaqlanan İslam mədəniyyətinin Qərbi necə qabaqlamasına bir universitet misalı verək:

Dünyanın ilk universiteti Əməvilər tərəfindən Məğribin Fas məntəqəsində miladi tarixlə 859-cu ildə inşa edilən "Keyruvan" universitetidir (3). Ancaq Qərb dünyasında ilk universitet isə müsəlmanlardan 229 il sonra, 1088-ci ildə İtaliyanın "Bolonya" şəhərində inşa edilmişdi.(4)

Dünyanın qeyd olunan ilk universitetində indiki kimi hündür oturacaqlardan istifadə olunur və elmi dərəcələr verilirdi.

İslam dünyasında bundan daha qədim universitet də var (Tunisdə 737 miladi tarixdə inşa edilən Zeytunə universiteti), Lakin, UNESKO birinci qeyd etdiyimiz müsəlman universitetini dünyada ən qədim universitet hesab edir. Əgər "Zeytunə" universiteti dünyada ilk universitet kimi təsdiqlənsə, onda Avropa və müsəlmanların təkcə universitet sahəsində dünyəvi elmlərə verdikləri əhəmiyyətdən dolayı inşa etdikləri dünyəvi elm ocağı tarixi arasında 350 illik bir fərq təsdiqlənmiş olacaqdır.
Misirin "Əzhər" universitetinin fəaliyyəti 970-ci ilə gedib çıxır .(5)

Bağdaddakı Nizamiyyə Mədrəsələri isə 1067-ci ildə yenə qərbdəki tədris mərkəzlərindən 11 il öncə fəaliyyətə başlamışdı.(6)

Əgər "nəticə" dedikdə "bəs müasir elm sahəsində müsəlmanlar nə əldə ediblər?!" deyə soruşulsa, bu cümlənin sonunda rəqəmlə işarə edilmiş keçiddən (linkdən) müasir müsəlman alim və ixtiraçılardan bəzilərinin elmə xidmətləri ilə tanış ola bilərsiniz.(7)

Müsəlman alimləri tibb, cəbr, həndəsə, astronomiya, kimya, coğrafiya, biologiya, zoologiya və s. bir çox elmlərdə böyük araşdırmalar etmiş, faydalı əsərlər yazmış və böyük ixtiralara imza atmışdılar .

Əndəlüs xilafəti zamanı avropalılar dövrün üstün dili olan ərəb dilində o günkü elmləri öyrənmək üçün müsəlman alim və müəllimlərin tədrislə məşğul olduğunu mərkəzlərə gedirdilər. Hətta yunanlar və digər qərblilər itirilmiş yunan fəlsəfə elmini belə Abbasi xilafəti zamanında ərəbcəyə tərcümə edilmiş yunan fəlsəfəsi kitabları (8) vasitəsilə geri qaytarmışdılar .

Son dövrün elmi durumu İslam dünyasında inkişaf edən şkala üzrə davam edir. Bir əsr öncə Osmanlı xilafətinin qərbin böyük ölkələri tərəfindən əvvəlcə fikri müharibə, sonra isə fiziki müharibə meydanında təkləməsi dünya müsəlmanlarını himayə edən böyük bir sistemin çökməsinə gətirib çıxarmışdı. Şəkk yoxdur ki, bu amil İslam dünyasındakı elmi inkişafa da mənfi təsir göstərmişdi. Bütün bunlara baxmayaraq, qəti şəkildə bilmək lazımdır ki, müsəlmanların dünya reallığında elmi sahələrdə geri qalmasının səbəbi ümmətlər arasında yüksəliş və çöküş proseslərinin bir-birini əvəzləməsidir. Vaxtilə müsəlmanlar öndə olublar, bu gün Qərb müəyyən sahələrdə öndədir, gələcəkdə yenə müsəlmanlar bir çox sahələrdə öndə ola bilərlər. Biz müsəlmanlar etiqad edirik ki, müsəlmanlar qətiyyən dini səbəblərə görə müəyyən sahələrdə geri qalmayıblar. Çünki inkişaf ideologiya ilə bağlıdır və din də buna maneə törətmir .(9)

# Qeydlər və istinadlar:

1 - Luis Seddilot. "Ərəb tarixinin ixtisarı ."
2“ - Maliki fiqhinin Fransanın şəhər qanunlarına təsiri". İbn Xaddə Həmzə. Doktorantura dissertasiyası .
3 - Məqalə أقدم جامعة في العالم مغربية :ilk sətir. Keçid mövzunun adıyla bərabər yazılmalıdır . https://www.sayidaty.net saytı .
4 - Məqalə تعرف على أقدم 10 جامعات بالعالم.. الأولى والثانية عربيتان : keçid: https://rotana.net/
5 - Məqalə اقدم الجامعات في العالم :məqaləyə keçid: https://storymaps.arcgis.com/.../ee1cd8d78d1744b296d0553b...
6 - Məqalə المدارس النظامية في العهد السلجوقي وأثرها في العالم الإسلامي : keçid: https://aja.me/r29mp4
7 - Müsəlman alimlərin nailiyyətləri. Daxil olmaq üçün link: https://youtu.be/i8iJhZBYSts
8 - Fəlsəfə elmi haqqında danışılması gərəkən ayrı bir təfsilat var və bu qeyd fəlsəfəyə rəğbətləndirmək üçün deyildir.
9 - Bu haqda daha ətraflı oxumaq üçün verilmiş məqaləni oxumaq məsələhətdir: "İslam əqidəsi müsəlmanların geriləmələrinin səbəbidirmi?". Sahib Əsədov. Məqaləyə daxil olmaq üçün keçid: https://sunna.az/content?cid=614

# Kitabın içindəkilər:

Zina edənə dörd şahid gətirilməsi nə üçün lazımdır?.......1
Təbiətdə "dini yazılar" haqqında şübhələrə cavab..........10
Peyğəmbərin ﷺ çoxevliliyi haqda şübhəyə ümumi cavab.................................................................19
Günəşin palçıqlı suda batması şübhəsi..........................23
Bəni Qureyza hadisəsinə münasibət..............................27
İsra və merac möcüzəsi başqa dinlərdən götürülüb?.......31
"Cahiliyyə dövrü şeirlərinin Qurana daxil edilməsi" şübhəsi..............................................................................39
Kommunist şübhəsi: Nə üçün dində qorxu sevgidən mühümdür!?.....................................................................48
Zinakarın rəcm (daşqalaq) cəzası haqda şübhələrə cavab.................................................................................54
Aypara İslamın, yoxsa bütpərəstliyin rəmzidir?.............70
İslamda cizyə vergisi barədə bir şübhəyə cavab.............77
"Namazı üç şey kəsir - qadın, uzunqulaq və it" hədisinin izahı..................................................................................84
Cəhənnəm əzabı əbədidir, dünya həyatı isə qısadır!.............................................................................94
Nə üçün tək ruha deyil, cismə də əzab veriləcək?........100
Allahın qüdrəti haqda üç çaşdırıcı suala cavab.............114
Allah hər şeyi cüt yaradıbsa, bəs nə üçün bakteriyalar cüt deyil?..............................................................................117
Quranda Harunun bacısı olan Məryəm və İsanın anası olan Məryəm səhv salınıb?..........................................123

Miras haqda ateistin şübhəsinə cavab..........................133
Peyğəmbər ﷺ Quranı Umeyyə ibn Əbis-Salt adlı şairdən götürüb?..........................................................................143
Qurana görə yer kürədir, yoxsa düzdür?.......................148
Şeytanlara ulduz, yoxsa kiçik kametlər atılır?..............156
Qalaktikalar iki günə, yer dörd günə yaranıb?..............158
Yer və göylər altı günə, yoxsa səkkiz günə yaranıb? ..........................................................................166
Peyğəmbər "Xatəmul-Ənbiya" (peyğəmbərlərin sonuncusu) olub?........................................................171
Cəhənnəm əzabı haqda bir şübhənin cavabı.................182
Niyə Quran nazil olduğu tərtiblə yazılmayıb?..............189
Ayın yarılması möcüzəsi baş veribmi?........................190
Kəbə Allahın evidirsə, niyə göyərçinlər oranı batırır?..........................................................................198
Nə üçün zəlzələlər ancaq müsəlmanlar olan yerlərdə baş verir?..............................................................................203
Zəlzələdə bəzi məscidlərin yıxılması haqda şübhəyə cavab!............................................................................216
Ateistlər doğurdan da xoşbəxtdirlər?..........................219
İmanımız cənnət istəyi və cəhənnəmdən qorxmaqdan irəli gəlir?!...........................................................................224
Allah, boq, tanrı, xuda, yeqova" məfhumları haqda...........................................................................227
İslam dininin dinozavrlar haqqında görüşü nədir?........233
İslam dininin dinozavrlar haqqında görüşü nədir?........245

Ən gözəl biçimdə yaranan insan niyə sünnət edilir?..........................................................249
"Vegeterianlıq" və ya "ət yeməmək" heyvanlara rəhmətdirmi?......................................................257
Miras haqqında növbəti şübhəyə cavab.......................265
Günəş ərşin altında səcdə edir?...................................268
Quranda elmi yanlış iddiası: "nütfə bel və köks arasından çıxır?"...............................................................279
Yer göylərdən öncəmi yaradılıb?................................289
Allah öz istədiyini azdırır və hidayət edirsə, bəs insanın məsuliyyəti yoxdurmu?..............................................299
Allahın sifətləri məxluqatın sifətlərinə bənzəyir?.........309
Möcüzələri inkar edənlərə ümumi cavab.....................322
Heyvanların bir-birini yeməsi Allahın ədalətinə ziddir?..........................................................................336
Dəstəmazsız gəzənin ayağı dəyən yerdə ot bitməz?"..........................................................................347
21-ci əsrdə insanlarımız hələ də göydən kitab endiyinə inanır.............................................................................350
Min dörd yüz il müsəlman olmağın faydası nədir?......354
Kitabın içindəkilər.....................................................361

**Qeyd:** Hörmətli oxucular! Şəkk yoxdur ki, əlinizdəki kitab insan əməyinin bəhrəsidir. Ona görə də kitabda səhvlərin olması qaçınılmazdır. Xahiş edirik ki, kitab haqqında hər hənsısa bir mülahizə, rəy və təkliflərinizi bu elektron ünvana göndərəsiniz.

Sahibfarmanoglu@gmail.com

**Kitabın adı:** Ateistlərin Məşhur Şübhələrinə Cavablar.
**Kitabın təsnifatı:** Ensiklopediya – dini təyinatlı.
**Redaktədən sonrakı tarix:** 2023.09.21
**Kitabın səhifələrinin sayı:** 364.
**Kağız ölçüsü:** A5. 14.8 sm × 21 sm.
**Müəllif:** Sahib Əsədov Fəriman oğlu.
**Kitabın cild sayı:** Üçüncü cild.

*Allaha necə asilik edilir?*

*İnadçı onu necə inkar edir?*

*Allaha dəlil var hər hərəkətdə,*

*Ona dəlil vardır hər sükunətdə!*

*Hər bir şeydə nişanəsi var Onun,*

*Dəlilidir Onun tək olduğunun!*

**Məşhur ərəb şairi: Ləbid İbn Rabia**